United Nations
Educational, Scientific and
Cultural Organization

National Commission
of the Republic of Azerbaijan
for UNESCO

ISSN 2079-3898

UNESCO üzrə AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ KOMİSSİYASI
NATIONAL COMMISSION of the REPUBLIC of AZERBAIJAN for UNESCO
НАЦИОНАЛЬНАЯ КОМИССИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ по делам ЮНЕСКО

“İNSAN və BİOSFER” (MaB, UNESCO) AZƏRBAYCAN MİLLİ KOMİTƏSİ
“MAN and BIOSPHERE” (MaB, UNESCO) AZERBAIJAN NATIONAL COMMITTEE

АЗЕРБАЙДЖАНСКИЙ НАЦИОНАЛЬНЫЙ КОМИТЕТ
«ЧЕЛОВЕК и БИОСФЕРА» (MaB, ЮНЕСКО)

# “İNSAN və BİOSFER” (MaB, UNESCO) AZƏRBAYCAN MİLLİ KOMİTƏSİNİN ƏSƏRLƏRİ

## *EKOLOJİ SİVİLİZASİYA, DAVAMLI İNKİŞAF, ƏTRAF MÜHİT*

*İLLİK NƏŞR*

# PROCEEDINGS of the “MAN and BIOSPHERE” (MaB, UNESCO) AZERBAIJAN NATIONAL COMMITTEE

## *ECOLOGICAL CIVILIZATION, SUSTAINABLE DEVELOPMENT, ENVIRONMENT*

*ANNUAL EDITION*

# ТРУДЫ АЗЕРБАЙДЖАНСКОГО НАЦИОНАЛЬНОГО КОМИТЕТА “ЧЕЛОВЕК и БИОСФЕРА” (MaB, ЮНЕСКО)

## *ЭКОЛОГИЧЕСКАЯ ЦИВИЛИЗАЦИЯ, УСТОЙЧИВОЕ РАЗВИТИЕ, ОКРУЖАЮЩАЯ СРЕДА*

*ЕЖЕГОДНОЕ ИЗДАНИЕ*

BURAXILIŞ
VOLUME
ТОМ
16 2021

**Baş redaktor:**

**Urxan Ələkbərov** *(Azərbaycan)*

**Redaksiya heyəti:**

*Muxtar Babayev (Azərbaycan); Firudin Qurbanov (Azərbaycan);*
*Sevda Məmmədəliyeva (Azərbaycan); Seymur Fətəliyev (Azərbaycan);*
*Qoşqar Təhməzli (Azərbaycan); Günay Əfəndiyeva (Azərbaycan); Con Lourens (ABŞ);*
*Qərib Məmmədov (Azərbaycan); Nizami Məmmədov (Rusiya);*
*Onur Ender Aslan (Türkiyə); Rəna Ağabəyli (Azərbaycan); Henrik Kalivoda (Slovakiya);*
*Ziyafət Həbibova (Azərbaycan); Rəcəb Rəhimli (Azərbaycan);*
*Şaiq İbrahimov (Azərbaycan); Tenqiz Urushadze (Gürcüstan);*
*Valeri Neronov (Rusiya); Yulius Ozlaniy (Slovakiya)*

**Editor-in-Chief:**

**Urkhan Alakbarov** *(Azerbaijan)*

**Editorial Board:**

*Muxtar Babayev (Azerbaijan); Firudin Gurbanov (Azerbaijan);*
*Sevda Mammadaliyeva (Azerbaijan); Seymur Fataliyev (Azerbaijan);*
*Qoshqar Tahmazli (Azerbaijan); Gunay Efendiyeva (Azerbaijan); John Lawrence (USA);*
*Qarib Mammadov (Azerbaijan); Nizami Mammadov (Russia);*
*Onur Ender Aslan (Turkey); Rena Agabeyli (Azerbaijan); Henrik Kalivoda (Slovakia);*
*Ziyafet Habibova (Azerbaijan); Rajab Rahimli (Azerbaijan);*
*Shaiq Ibrahimov (Azerbaijan); Tengiz Urushadze (Georgia);*
*Valery Neronov (Russia); Julius Ozslaniy (Slovakia)*

**Главный редактор:**

**Урхан Алакбаров** *(Азербайджан)*

**Редакционная коллегия:**

*Мухтар Бабаев (Азербайджан); Фирудин Курбанов (Азербайджан);*
*Севда Мамедалиева (Азербайджан); Сеймур Фаталиев (Азербайджан);*
*Гошгар Техмезли (Азербайджан); Гюнай Эфендиева (Азербайджан);*
*Джон Лоуренс (США); Гариб Мамедов (Азербайджан);*
*Низами Мамедов (Россия); Онур Эндер Аслан (Турция);*
*Рена Агабейли (Азербайджан); Хенрик Каливода (Словакия);*
*Зияфет Габибова (Азербайджан); Раджаб Рагимли (Азербайджан);*
*Тенгиз Урушадзе (Грузия); Шаиг Ибрагимов (Азербайджан);*
*Валерий Неронов (Россия); Юлиас Озсланий (Словакия)*

**İnsan və biosfer (MaB, UNESCO). Azərbaycan milli komitəsinin əsərləri.**
Bakı, «Təhsil», 2021, 352 s.

**© «Təhsil», 2021**

# MÜNDƏRİCAT – CONTENTS – СОДЕРЖАНИЕ

***Ələkbərov U.K.***
Azərbaycan Respublikasında inklüziv cəmiyyətin formalaşması
davamlı inkişafın məqsədi kimi ....................................................................................5

***Kərimov V.N.***
Ətraf mühitlə bağlı problemlər, ekoloji təhlükəsizliyin təmin edilməsi istiqamətində
atılan addımlar və qlobal çağırışlar fonunda qarşıya qoyulmuş hədəflər........................21

***Исмаилов Н.М., Мамедова А.О.***
Место системной биоиндикации в стабилизации и улучшении экологического
состояния на территории Азербайджана и его устойчивого развития ......................45

***Efendiyev M.C.***
The development of the financial sector as a means
to ensure sustainable development in Azerbaijan ...........................................................61

***Исмаилов Ч.Н.***
Становление зон опережающего развития в освобожденных районах Карабаха ....71

***Rəhimli R.Z.***
Davamlı inkişaf məqsədlərinin həyata keçirilməsində dövlət qulluğunun rolu ...............85

***Гулиева Р.А.***
Демографическая политика как фактор устойчивого развития
Азербайджанской Республики ........................................................................................107

***Ələkbərova N.İ.***
Azərbaycanın davamlı inkişafı və siyasi menecment ...................................................123

***Məmmədova S.İ.***
Dövlətin ekoloji siyasətinin həyata keçirilməsində
icra hakimiyyəti orqanlarının rolu.....................................................................................137

***Nəcəfov E.Ə.***
Yaşıl siyasət və davamlı inkişaf .........................................................................................151

***Əliyev E.S.***
Azərbaycan Respublikasının dövlət idarəçiliyində iqlim dəyişiklikləri
prizmasında islahatlar...........................................................................................................169

***Həsənov M.İ.***
Rəqəmsal çağda davamlı inkişafın təmin olunmasında insan resurslarının rolu............183

***Humbatov F.D.***
Environmental and regional security issues in the South Caucasus...............................197

***Гулиев Ф.А., Гусейнова Л.А.***
Распространение, динамика развития и вредоносность бактериального корневого рака земляничных кустов в условиях западной части Азербайджана....................215

***Cəfərova G.Q.***
Antenatal dövrdə hipoksiya faktorunun təsirinə məruz qalmış və sosial izolyasiya olunmuş dovşan balalarında qanın realoji xüsusiyyətlərinin tədqiqi ...........227

***Ağalarova Nərmin, Axundova Nərmin, Sulyayeva Elina, Təhməzli Elvira, Zərbalıyev Şiralı***
Müxtəlif növ qida və bioloji fəallığa malik qida əlavələrində ağır metalların təyini.....235

***Mustafayeva N.Ə.***
Davamlı inkişaf məqsədlərinin həyata keçirilməsində Azərbaycanın torpaq ekosistemlərinin mühafizəsi.......................................................................245

***Rəhimli S.M.***
*Dövlətlərin hüquq varisliyi üzrə praktika*
(Tabula Rasa, Uti Possidetis Juris, Kontinuitet) .........................................................255

***Huseynov Y.İ.***
İqlim dəyişiklikləri kontekstində risklərin müəyyənləşdirilməsi..................................267

***Гидаятова С.А.***
Множественность международных транспортных проектов в Каспийском регионе и их геополитическое значение ..........................................271

***Qubadov M.N.***
Azərbaycan Respublikasının inklüziv inkişafı: müasir vəziyyət və prioritetlər............291

***Rzayeva S.İ.***
Davamlı inkişaf məqsədləri naminə əməkdaşlıq: Azərbaycan Respublikasının beynəlxalq antiterror koalisiyasında iştirakı və onun geosiyasi nəticələri ....................301

***Mirzəyev R.Z.***
Aqroparkların yaradılması və yerləşdirilməsinə təsir edən əsas amillər .......................313

***Nəzərli G.A.***
Tomas R. Maltusun "əhali nəzəriyyəsi" perspektivindən ekoloji problemlərin qiymətləndirilməsi.......................................................................323

***Шарифов П.И.***
Особенности взаимодействия национальных федераций и международной федерации спортивного ориентирования в сфере регулирования спортивного ориентирования и его международной популяризации ..........................................335

***Mustafazadə Ş.A.***
Azərbaycanda inklüziv inkişafın demoqrafik aspektləri...............................................341

UOT 328; 342.5; 351/354;351

# AZƏRBAYCAN RESPUBLİKASINDA İNKLÜZİV CƏMİYYƏTİN FORMALAŞMASI DAVAMLI İNKİŞAFIN MƏQSƏDİ KİMİ

**Ələkbərov U.K.**

*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik*
*e-mail: alakbarovuk@gmail.com*

*Məqalədə Azərbaycan Respublikasında inkişafın davamlı olmasını təmin edən strategiya və bu sahədə qazanılmış nəticələr təhlil edilir. Göstərilir ki, ölkədə dövlət idarəçiliyi sahəsində tətbiq edilmiş innovativ texnologiyalar ölkəni inklüziv cəmiyyətin formalaşması sahəsində dünya liderləri sırasına daxil olmasını təmin etmişdir. İqtisadi, sosial, humanitar və təhlükəsizlik sahələrində qazanılmış nailiyyətlərə əsaslanaraq, Azərbaycan Respublikası 44 günlük Vətən Müharibəsində Ermənistan tərəfindən işğal olunmuş torpaqları azad etdi, ölkənin ərazi bütövlüyünün bərpasına nail oldu. Bunun nəticəsində BMT-nin Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 Qətnamənin icrası təmin olundu. Azad edilmiş ərazilərin ekoloji, iqtisadi, sosial və humanitar reabilitasiyası davamlı inkişaf və inklüziv cəmiyyətin prinsipləri əsasında həyata keçirilir.*

**Açar sözlər:** *Azərbaycan Respublikası, dövlət idarəçiliyi, davamlı inkişaf, inklüziv inkişafın indikatorları, inklüziv cəmiyyət, yaşıl iqtisadiyyat*

Azərbaycan Respublikasının davamlı inkişafı hazırda yüksək sürət və daimi artan innovativliyi ilə səciyyələnir (1). Belə bir vəziyyət onun ilə əlaqədardır ki, ölkədə hər zaman yeni daha yüksək iqtisadi və sosial hədəflər formalaşır və bu məqsədlərə nail olmaq üçün ardıcıl fəaliyyət həyata keçirilir. Artıq qəbul olunmuşdur ki, inkişaf prosesinin davamlığının təmin edilməsi və inklüziv cəmiyyətin qurulması istiqamətində Azərbaycan Respublikası dünya liderləri sırasındadır. Beynəlxalq təşkilatlar tərəfindən dərc edilmiş hesabatlardan aydın olur ki, müstəqilliyin bərpasından sonra tarixi baxımdan qısa bir müddət keçməsinə baxmayaraq, hazırda Azərbaycan Respublikası iqtisadi, sosial və humanitar sahələrdə, hərbi təhlükəsizliyin quruculuqda yüksək nailiyyətlər əldə etmişdi. Bu proseslər son iyirmi ildə xüsusi ilə güclənmiş, ölkənin hərtərəfli inkişafı yüksək sürət ilə və yeni keyfiyyət səviyyəsində həyata keçirilməyə başlanmışdır. Ölkənin uğurları arasında ölkə Prezidenti, Ali Baş Komandan İlham

Əliyev cənablarının rəhbərliyi ilə aparılmış 44 günlük şanlı Vətən Müharibəsi, onun nəticəsində ölkənin ərazi bütövlüyünün bərpası, bununla BMT-nin Təhlükəsizlik Şurasının 4 Qətnaməsinin həyata keçirilməsi xüsusi əhəmiyyətə malikdir. Bu tarixi qələbənin əsasında müasir ölkə quruculuğu istiqamətində uğurlu çalışmalar, innovativ dövlət idarəçiliyi sahəsində böyük bacarıqlar durur. Nəticədə ölkədə yüksək səmərə ilə fəaliyyət göstərən iqtisadiyyat yaradılmış, sosial sahənin məqsədyönlü inkişafı təmin edilmiş, hərbi quruculuq istiqamətində kompleks tədbirlər həyata keçirilmişdir. Bunlar ilə yanaşı, Vətən Müharibəsində qələbəni, ölkənin ərazi bütövlüyünün bərpasını təmin edən digər amillər arasında qlobal miqyasda reallaşdırılan çevik və uğurlu diplomatik fəaliyyət, dünyanın aparıcı televiziya kanalları, qəzet və jurnallara verilən müsahibələrin çox böyük əhəmiyyətli olmuşdur. Bütün bu fəaliyyətlər Prezident İlham Əliyev cənabları tərəfindən böyük peşəkarlıqla şəxsən həyata keçirilmişdir (2).

Ölkə Prezident İlham Əliyev cənablarının uğurla həyata keçirdiyi davamlı və inklüziv inkişaf strategiyası nəticəsində keçən 2021-ci ildə də iqtisadi və sosial sahələrdə yüksək nəticələr əldə edilmişdir. Covid-19 pandemiyasının tüğyan etməsinə baxmayaraq, ölkədə əhəmiyyətli iqtisadi artım müşahidə edilmişdir. Nazirlər Kabinetinin 2022-ci ilin mart ayında Milli Məclis və ölkə ictimaiyyətinə təqdim edilmiş hesabatdan aydın olur ki, 2021-ci ölkədə iqtisadi artım 2020-ci ilə müqayisədə 5,6 faiz təşkil etmişdi. Qeyd edilməlidir ki, bu dövrdə qeyri neft-qaz sahəsinin iqtisadi artımı neft və qaz sektorunda müşahidə edilən artımdan daha yüksəkdir. Əgər neft sektorunda artım 5,5 faiz təşkil etmişdisə, qeyri neft-qaz sektoru 7,2 faiz artmışdı (3). Bu nəticə ölkədə həyata keçirilən iqtisadiyyatın diversifikasiya siyasətinin uğurlu nəticəsidir. Eyni zamanda iqtisadi nailiyyətlərin əldə edilməsində və bu uğurların sosial siyasətə çevrilməsində ölkənin Birinci Vitse-Prezidenti Mehriban Əliyevanın rolu olduqca böyükdür (4).

Artıq qeyd edildiyi kimi, Azərbaycan Respublikasının inkişafı son iki onillikdə artan innovativliyi ilə fərqlənir və yüksək sürətlə həyata keçirilir. Belə bir vəziyyət onun ilə əlaqədardır ki, ölkədə hər zaman yeni daha yüksək iqtisadi və sosial məqsədlər formalaşır və bu məqsədlərə nail olmaq üçün siyasət müəyyənləşdirilir və ardıcıl fəaliyyət həyata keçirilir. Bu səbəbdən qazanılmış nailiyyətlərə əsaslanaraq, ölkə Prezidenti İlham Əliyev cənabları 2 fevral 2021-ci ildə imzalamış sərəncam ilə yeni, daha yüksək məqsədlərə nail olunmasını planlaşdırılmış, ölkənin 2030-ci il üçün prioritetləri müəyyən edilmişdir (Şəkil 1).




**Şəkil 1.** Azərbaycan Respublikasının 2030-ci il üçün müəyyən edilmiş əsas prioritetləri (5).

Şəkil 1-dən göründüyü kimi, Milli Prioritetlərlə nəzərdə tutulmuş bütün hədəflər inkişafın davamlı olmasına və inklüziv cəmiyyətin qurulmasına xidmət edir. Bu məqsədlərə nail olmaq üçün Milli Prioritetlər müvafiq iqtisadi, sosial və ekoloji fəaliyyətlərin həyata keçirilməsini nəzərdə tutur. Göstərilən prioritet məqsədlər arasında ikisi öz əhəmiyyətinə görə xüsusi diqqətə layiqdirlər. Onlardan birincisi işğaldan azad edilmiş və praktiki olaraq hazırda tam dağıdılmış və minalanmış əraziləri həyat üçün bərpa etmək, bu yerlərdən didərgin salınmış əhalinin "böyük qayıdışdır". Bu zaman "böyük qayıdış" üçün nəzərdə tutulan azad edilmiş ərazilərin yenidən həyata qaytarılması prosesində ən innovativ texnologiyaların tətbiqi nəzərdə tutulmuşdur. Planlaşdırılan fəaliyyətlər insan potensialına və innovasiyaların əsaslanan davamlı inkişaf edən dayanaqlı rəqabətqabiliyyətli iqtisadiyyatın qurulması, təmiz mühit və yaşıl artımın təmin edilməsi nəzərdə tutulub. Bütün bu fəaliyyətlər nəticəsində isə dünyada müasir inkişafın əsas prioriteti olan inklüziv cəmiyyətin formalaşması təmin olunması nəzərdə tutulub. Bu isə ikinci xüsusi əhəmiyyət daşıyan prioritetdir.

Qeyd edilməlidir ki, dünyada inklüziv inkişafa dair ilk, dünyanın 140-dan çox ölkəsinin məlumatını əhatə edən təhlil və onun əsasında hazırlanmış sənəd

yalnız 2018-ci ildə Beynəlxalq Davos İqtisadi Forum tərəfindən dünya ictimaiyyətinə təqdim edilmişdir. Həcmi 660 səhifən ibarət olan və hesabat şəklində hazırlanmış bu təhlil Davos İqtisadi Forumun təsisçisi və əvəzsiz Prezidenti professor Klaus Şvabın iştirakı və rəhbərliyi ilə həyata keçirilmişdir (6). Bu zamandan cəmi 3 il keçmiş Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının 2021-ci ildə imzalanmış sərəncamı ilə ölkədə 2030-cu il üçün inklüziv cəmiyyətin formalaşması prioritet kimi hədəf kimi müəyyən edildi (5). Hər-hansı bir ölkədə inklüziv cəmiyyətin formalaşması istiqamətində oxşar praktiki fəaliyyət barəsində hazırda məlumat yoxdur. Azərbaycan Respublikası bu istiqamətdə də ya ilk, yada ən ilk olanlar sırasındadır (7).

İnklüziv cəmiyyətin qurulması davamlı inkişafın ən müasir tələblərə cavab verən məqsədə çevrilməsinin bir sıra səbəbləri mövcuddur. İnklüziv inkişafın dəyərləndirilməsi, bu məqsədlə xüsusi indekslərin hesablanması zamanı elə iqtisadi, sosial, ekoloji və demoqrafik göstəricilərdən istifadə olunur ki, onlar dünyada başqa inkişafı səciyyələndirən indikatorlardan istifadəsi zamanı nəzərə alınmır. Hazırda BMT, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, digər beynəlxalq inkişaf təşkilatlar tərəfindən hazırlandığı hesabat və təhlillərdə istifadə edilən dəyərləndirmə göstəricilərində (indeks, indikator, əmsal və s.) əsasən müxtəlif iqtisadi, sosial və ekoloji göstəricilərdən istifadə edilir. Bunlardan fərqli olaraq, inklüziv inkişaf indeksinin hesablanması zamanı ənənəvi iqtisadi, sosial və ekoloji göstəricilər ilə yanaşı, bir sıra indikatorlardan istifadə edilir ki, onlar inkişafı səciyyələndirən digər əmsal, indeks və digər göstəricilərin hesablanması zamanı nəzərə alınmır (7). İnklüziv inkişafın dəyərləndirilməsi üçün istifadə edilən fərqli indikatorlar haqqında məlumatlar aşağıda verilir:

1. Ölkə əhalisinin fərdi pul yığımının həcmi və bu göstəricinin dəyişmə (artım, azalma) dinamikası. Əhalinin maddi durumunu səciyyələndirən əlavə göstəricidir. Yığımının mövcudluğu və səviyyəsi, dəyişmə dinamikası əhalinin maddi durumunun göstəricisi kimi dəyərləndirilir və inklüziv inkişaf indeksinin hesablanmasında nəzərə alınır.

2. İnklüziv inkişaf indeksinin hesablanması zamanı beynəlxalq təşkilatlar təklifi əsasında orta gəlir əvəzinə "median gəlir" göstəricisindən istifadə edilməsi. Bəllidir ki, müxtəlif ölkələrdə əhalinin gəlirlərində kəskin bərabərsizlik mövcuddur. Az sayda həddən çox gəlirləri olan vətəndaşların mövcudluğu hesabına bütün əhalinin orta gəlirinin yüksək olması barəsində təsəvvür yarana bilər. Belə şəraitdə orta gəlir vasitəsi ilə əhalinin maddi durumu haqqında real məlumat almaq imkanları məhduddur. Bundan fərqli olaraq, median gəlir elə bir göstəricidir ki, o əhalini gəlirlərinə görə iki yerə bölür: onlardan yarısı "median gəlirdən" az, yarısı isə ondan daha çox gəlirlərə malik-

dirlər. Orta gəlir ilə müqayisədə median gəlir ölkə əhalisinin real maddi durumu haqqında daha dəqiq təsəvvür yaradır. Qeyd edilməlidir ki, Azərbaycan Respublikasında median gəlir son iyirmi ildə daimi artmaqdadır.

3. Dövlətin xarici borcunun həcmi ÜDM (ümumdaxili məhsulun) faizi kimi. Xarici borcun böyük olması və bu borca görə faizlərin ödənilməsinə dair öhdəliklər inklüziv inkişafı əngəlləndirən amil kimi dəyərləndirilir. Bu səbəbdən ölkənin xarici borcunun ümumdaxili məhsulda payı inklüziv inkişaf indeksinin hesablanması zamanı nəzərə alınır. Azərbaycan Respublikasının xarici borcu çox azdır və ÜDM-un cəmi 18 faizini təşkil edir. Bu çox aşağı göstəricidir və dünyada bu səviyyədə xarici borcu olan ölkələrin sayı çox azdır.

4. Əhalinin demoqrafik strukturu. Bu göstərici ölkənin hazırda və gələcəkdə əmək bazarında işçi qüvvəsi ilə hansı dərəcədə təmin olunmasının qiymətləndirilməsinə yönəldilmişdir. Bu zaman əmək qabiliyyətli yaşında (15–65) olan əhalinin sayının onlardan asılı olan uşaq və yeniyetmələrin (0–14), eləcə də yaşlı əhalinin (65+) saylarının nisbəti təhlil edilir. Azərbaycan Respublikasında həyata keçirilən demoqrafik və ümumi sosial siyasətin uğurlu olması nəticəsində ölkəmiz hazırda əhalinin yaş strukturu elədir ki, ölkə hazırda və gələcəkdə işçi qüvvəsinin çatışmaması ilə üzləşməyəcək. Bir sıra ölkələr, o cümlədən Qərbi Avropa dövlətləri demoqrafik problemlərlə üz-üzədirlər və ölkəyə miqrantların gətirilməsinə məhkumdurlar.

5. Qlobal iqlim dəyişmələrinə təsirlər. Bəlli olduğu kimi, iqlim dəyişmələri və bu prosesin iqtisadi, ekoloji, sosial və humanitar fəsadları müasir dövrün ən aktual çağırışlar arasındadır. Qlobal iqlim dəyişmələrinə həsr olunmuş BMT-nin konfransları, Dünya Sammitləri hər il dünyanın müxtəlif ölkələrində keçirilir. Bu tədbirlər və dünyanın ictimaiyyətinin fəaliyyəti problemin aktuallığından xəbər verir. Qlobal iqlim dəyişmələrinə təsirlərin azaldılmasını dair bir sıra konvensiya və beynəlxalq müqavilələr mövcuddur. Azərbaycan Respublikası bütün bu konvensiyaların və beynəlxalq razılaşmaların fəal iştirakçısıdır və öz öhdəliklərini tam həcmdə yerinə yetirir. Bu sahədə ölkədə həyata keçirilən fəaliyyətlərin uğurlu olması beynəlxalq təşkilatların hesabatlarından öz əksini tapir (7).

Azərbaycan Respublikasının inklüziv inkişaf edən cəmiyyətin formalaşması prioritet kimi müəyyən edilməsi və 2030-ci il üçün bu məqsədə nail olması planların formalaşması təsadüf deyil. Beynəlxalq dəyərləndirmələrinə əsasən ölkəmiz davamlı inkişafın və inklüziv cəmiyyətin qurulmasının optimal planlaşdırılması və idarəedilməsi sahəsində dünya lideridir. Bəlli olduğu kimi, dünya ölkələrində inklüziv inkişafın vəziyyətinin qiymətləndirilməsi üçün İnklü-ziv İnkişaf İndeksi hesablanır. Alınmış nəticələr əsasında isə müqayisələr aparılır və ölkənin dünyada inklüziv inkişafın səviyyəsinə görə reytinqi müəyyən

edilir. Davos İqtisadi Forumun hesabatlarına əsasən Azərbaycan Respublikası inklüziv inkişaf 4,69 bərabərdir (6). Bu göstərici ilə Azərbaycan Respublikası inklüziv inkişafın vəziyyətinə görə dünyada 25-ci, keçid iqtisa-diyyatı olan ölkələr arasında isə 3-cü yerdədir. Lakin, ölkəmiz inklüziv cəmiyyətin qurulması naminə iqtisadi imkanları və mövcud insan potensialını ən səmərəli idarə edən ölkədir və bu sahədə dünyada birinci yerdədir (8).

İnklüziv inkişaf prosesinin idarəedilməsinin səmərəliyi dəyərləndirilməsi müqayisə əsasında həyata keçirilir. Bu üsuldan istifadə etdikdə ölkənin iqtisadi inkişaf göstəricisinə görə dünyada və yaxud ölkələr qrupunda tutduğu yer dünyada və yaxud həmən qrupda inklüziv inkişaf göstəricisinə görə tutduğu yer ilə müqayisə edilir.

Bir qayda olaraq, ölkənin iqtisadi inkişafa, hər nəfərə düşən ÜDM (ümumdaxili məhsulun) dəyərinə görə dünyada və ya ölkələr qrupunda tutduğu yer inklüziv inkişaf üzrə tutduğu yer ilə eyni olur, ya da az fərqlənir. Məsələn, Fransa hər nəfərə düşən ÜDM-un dəyərinə görə 2018-ci ildə çox yüksək inkişafa nail olmuş ölkələr arasında19-cu yerdə idi. Bu ölkə eyni zamanda inklüziv inkişaf göstəricilərinə görə də 19-cu yerdə idi. Eyni vəziyyət keçid iqtisadiyyatı olan ölkələr arasında da müşahidə edilməkdədir. Məsələn, bu qrupa aid olan ölkələr arasında Litva iqtisadi imkanlarına görə birinci yerdədir. İnklüziv inkişaf göstəricilərini müqayisə zamanı aydın olur ki, bu ölkə həmən göstəriciyə görə bu qrupda birincidir (6, 9).

Bununla yanaşı elə ölkələr var ki, onların iqtisadi imkanları inklüziv inkişaf indeksini müvafiq səviyyədə olmasını təmin etmir. Məsələn, bir sıra ölkələrdə inklüziv inkişafın səviyyəsi onların iqtisadi imkanlarından aşağıdır. Bu ölkələr sırasına Misir, ABŞ, Kanada, Hindistan, Polşa, İtaliya və digərləri daxildirlər (6, 9).

Dünya ölkələrində inklüziv inkişafın səviyyəsini və bu göstəricinin həmən ölkənin iqtisadı imkanları ilə müqayisəsi göstərir ki, bir sıra dövlətlər isə əksinə, öz nisbətən az vəsait hesabına daha yüksək nəticələr əldə edirlər. Bu ölkələrdə inklüziv inkişafına görə beynəlxalq reytinqi hər nəfərə düşən gəlirin reytinqindən üstündür. Məsələn, Davos Dünya İqtisadi Forumun hesabatlarına əsasən Azərbaycan Respublikası iqtisadi göstəricilərinə görə (hər nəfərə düşən ÜDM-un dəyəri, ABŞ dolları, alıcılıq qabiliyyəti pariteti ilə) keçid iqtisadiyyata aid olan ölkələr arasında 26-ci yerdədir (6). Eyni hesabatdan aydın olur `ki, inklüziv inkişaf göstəricisinə görə (inklüziv inkişaf indeksi) Azərbaycan Respublikası bu ölkələr qrupunda 3-cü yerdədir. Bu onu göstərir ki, ölkəmiz mövcud iqtisadi imkanları və insan potensialı daha optimal idarəedilməsi nəticəsində inklüziv inkişaf edən cəmiyyətin qurulması sahəsində daha uğurludur və bu iki göstəricilər arasında fərq +23 bərabərdir. Azərbaycan ilə yanaşı, iqtisadi imkanlarını inklüziv inkişaf naminə səmərəli idarəetmə bir sıra digər, o

cümlədən İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına daxil olan ölkələr də sərgiləyiblər (Şəkil 2).




**Şəkil 2.** İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) ölkələri və Azərbaycan Respublikası: İnklüziv İnkişaf İndeksi və Ümumdaxili məhsul görə qazanılan reytinqlər arasındakı fərqlər (6).

Şəkil 2-dən göründüyü kimi, təhlil olunmuş müxtəlif ölkələr öz iqtisadi imkanlarını və insan potensialını inklüziv inkişaf üçün fərqli səmərəliyi ilə istifadə edirlər. Bir sıra ölkələrdə inklüziv inkişafın səmərəliyi +4 səviyyəsindədir. Belə ölkələrə Almaniya, Finlandiya, Panama və digərləri aiddir. Bu o deməkdir ki, +4 səmərəlik qrupa daxil olan ölkələrdə inklüziv inkişafa görə qazandığı reytinqi iqtisadi imkanlar reytinqindən 4 pillə yüksəkdir. Beynəlxalq təşkilatların hesabatı əsasında tərtib edilmiş və Şəkil 2-də təqdim olunmuş məlumatlardan aydın olur ki, Azərbaycan Respublikası İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilata (İƏİT) daxil olan ölkələr arasında inklüziv cəmiyyətin qurulması naminə maddi ehtiyatların ən optimal idarə edən ölkədir (6,9).

Beynəlxalq müqayisələr göstərir ki, Azərbaycan Respublikası inklüziv cəmiyyətin qurulması, inkişaf prosesinin davamlı olması naminə həyata keçirilən siyasət yalnız İƏİT ölkələri arasında yox, eyni zamanda dünya miqyasında da liderlik səviyyəsindədir.

Məlum olduğu kimi, Dünya Bankının statistikasına əsasən dünyanın ölkələri öz iqtisadi inkişaf səviyyəsinə görə bir necə qrupa bölünürlər (9). Qruplar-

dan birinə dünyanın 30 iqtisadiyyatda çox yüksək nailiyyətlər əldə etmiş ölkələr daxildir ki, "böyük yeddilik" (G 7) qrupun üzvləri də bu dövlətlər sırasındadır. Azərbaycan Respublikası iqtisadiyyatı keçid mərhələsində olan dövlətlər qrupa aiddir və ildə hər nəfərə düşən ÜDM-un (ABŞ dolları, Alıcılıq Qabiliyyəti Prioriteti ilə) dəyərinə görə dünya ölkələri arasında 83-cü yerdədir (9). Eyni zamanda Azərbaycan Respublikası inklüziv inkişafı səciyyələndirən indeksinə görə dünya ölkələri arasında 25-ci yerdədir (6). Bu o deməkdir ki, inklüziv cəmiyyətin qurulması istiqamətində qazandığı nailiyyətlərə görə bizim dövlət praktiki olaraq 30 iqtisadiyyatda çox yüksək nəticələr əldə etmiş lider dövlətlər sırasındadır. Nəzərə alınsa ki, Azərbaycan Respublikası dünya reytinqində 83-cü iqtisadi imkana malikdir (9) və qlobal miqyasda inklüziv inkişaf sahəsində 25-ci yeri qazana bilmişdi (6), aydın olur ki, əldə edilmiş nəticə ölkədə maliyyə və insan resurslarının innovativ texnologiyalara arxalanaraq, ən optimal idarəetmə prosesin tətbiqinin nəticəsidir. Bu artıq Prezident İlham Əliyev cənablarının 2003-cü ildə irəli sürmüş "qara qızılı" (neft-qaz sənayesindən əldə edilən gəlirlərin) insan potensialının inkişafına və bu potensialın iqtisadiyyatda insan kapitalına çevrilməsi konsepsiyasının nəticəsidir. Bu istiqamətdə ölkədə həyata keçirilən strategiya müxtəlif sahələrin inkişafını və bu sahədə ardıcıl fəaliyyətin həyata keçirilməsinin nəzərdə tutur (Şəkil 3).




**Şəkil 3**. Ölkənin innovativ inkişaf strategiyası: insan potensialının formalaşması, iqtisadiyyatda insan kapitalına çevrilməsi

Şəkil 3-dən göründüyü kimi, Azərbaycan Respublikasında qəbul olunmuş insan potensialına, onun bilik və bacarığına əsaslanan inkişaf strategiyası bir sıra fəaliyyətlərin həyata keçirilməsini nəzərdə tutur. Strategiyanın həyata keçirilməsinin əsasını bu tədbirlərin reallaşdırılması üçün iqtisadi bazanın yaradılması və bu istiqamətdə inkişaf prosesini həm davamlı olmasını, həm də innovativ xarakteri daşıması təmin edilməsidir (8). Eyni zamanda inkişafın davamlı olması ilə yanaşı, bu prosesin sosial baxımdan ən müasir standartlara cavab verməsi və inklüziv cəmiyyətin tələblərinə tam uyqun olması strategiyanın vacib şərtdir (7, 10).

Şəkil 3-dən göründüyü kimi, Azərbaycan Respublikasının davamlı inkişaf və inklüziv cəmiyyətin formalaşması strategiyasının həyata keçirilməsi bir sıra ardıcıl və eyni zamanda paralel aparılan fəaliyyətlər bloklardan ibarətdirlər və yüksək rəqabət qabiliyyətli insan kapitalının formalaşmasına xidmət edir. Birinci fəaliyyət blokun əsas məqsədi insan potensialın formalaşmasıdır. Məlumdur ki, BMT-nin insan inkişafı konsepsiyasına əsasən ölkələrin bu sahədə qazandığı nailiyyətlər üç əsas göstərici əsasında müəyyən edilir. Bunlara ölkə vətəndaşlarının təhsil sahəsində qazandığı nailiyyətlər, əhalinin sağlamlıq göstəriciləri və gəlirlər səviyyəsidir. Bu səbəbdən birinci fəaliyyət blokunda elm, təhsil, sağlamlıq sahələrdə planlaşdırılan və həyata keçirilən siyasətlərin vəziyyəti nəzərdə tutulur. Aydın olur ki, birinci fəaliyyət bloku insanların potensiallarının artırılmasını, onların bilik və bacarıqlarının yüksəldilməsinə xidmət edir. Bu isə iqtisadiyyatın innovativ inkişafı və sosial dövlətin qurulması üçün vacib şərt olan insan kapitalının formalaşması üçün birinci dərəcəli tələbdir və ölkənin 2030-cu il üçün hədəflənmiş prioritetdir (5).

İkinci fəaliyyət bloku isə yaradılmış insan potensialı əsasında idarəçilikdə və istehsalda daimi yeniləşən innovativ texnologiyaların tətbiqi nəticəsində yüksək rəqabətli iqtisadiyyatın formalaşmasını nəzərdə tutur. Bu fəaliyyət bloku eyni zamanda səmərəli sosial və ekoloji siyasətin planlaşdırılması və həyata keçirilməsi, ölkənin hazırkı və gələcək nəsillərin təhlükəsizliyin təmin edilməsi ilə əlaqədar məsələlərin həllini də nəzərdə tutur. Təbii ehtiyatların davamlı inkişaf və inklüziv cəmiyyətin formalaşması naminə optimal idarəedilməsi də bu blokun vacib elementidir (11).

Üçüncü fəaliyyət blokun məqsədləri ölkədə davamlı inkişaf edən inklüziv cəmiyyətin formalaşması üçün əlverişli mühitin yaradılmasıdır. Bu proses ilk növbədə uğurlu xarici siyasətin həyata keçirilməsi və səmərəli diplomatiyaya əsaslanır. Üçüncü fəaliyyət blokun vacib tərkib hissəsinin biri isə informasiya sahəsidir. Dövlət idarəçilik sahəsində həyata keçirilən təhlillər göstərir ki, informasiya sahəsində aparılan fəaliyyətlər çox əhəmiyyətlidir və həm daxili, həm də xarici mətbuatla fəal əməkdaşlığa əsaslanır. Qeyd edilməlidir ki,

Azərbaycan Respublikasının davamlı inkişafın təmin edilməsi və inklüziv cəmiyyətin qurulması sahəsində qazandığı dünya liderliyi, ölkənin ərazi bütövlüyünün 44 günlük Vətən Müharibəsi nəticəsində bərpa edilməsi, bu sahədə BMT-nin Təhlükəsizlik Şurasının 4 qətnamələrinin yerinə yetirilməsi proseslərində qabaqlayıcı diplomatik fəaliyyət və dünyanın uğurlu məlumatlandırma siyasəti ölkə Prezidenti İlham Əliyev cənabları tərəfindən şəxsən böyük məharətlə həyata keçirilir (2).

Xarici siyasət ilə yanaşı, ölkə daxildə əhalinin məlumatlandırılması təmin edilməsi 3-cü fəaliyyət blokunun vacib şərtidir. Ölkədə əhalinin vaxtında və tam məlumatlarla təmin edilməsi isə onların planlaşdırılmış fəaliyyətlərə cəlb edilməsinin vacib şərtidir. Əhalin qrup və ya fərdi şəkildə könüllü olaraq ölkənin inkişaf proqramlarında iştirakı dövlət idarəçiliyində tətbiq edilən sinergetik texnologiyaların vacib bir elementidir. Sinergetik yanaşmalar Prezident İlham Əliyev tərəfindən nəzəri işlənilmiş və praktikada sınanılmış dövlət idarəçiliyində innovativ texnologiyaların vacib bir istiqamətidir (10-12).

Dövlət idarəçiliyində tətbiq edilən innovativ texnologiyalar bir tərəfdən iqtisadi, sosial, diplomatik, informasiya, humanitar və digər zəruri sahələrdə fəaliyyətlərin əlaqəli şəkildə sinergetik tənzimlənməsini tələb edir, digər tərəfdən isə əsas aktor kimi cəmiyyətin əsas təbəqələrinin iştirakını nəzərdə tutur. Fərdi sektor və vətəndaş cəmiyyəti əsas aktorların sırasındadır. İnkişafın davamlı olmasını təmin edən sinergetik texnologiyaların nəzəri işlənilməsi və praktikada istifadəsi sahəsində ən əhəmiyyətli fəaliyyət Azərbaycan Respublikasının Birinci Vitse-Prezidenti, Heydər Əliyev fondunun Prezidenti, YUNESKO və İSESKO-un Xoş Məramlı Səfiri Mehriban xanım Əliyeva tərəfindən həyata keçirilir. Davamlı inkişaf və inklüziv cəmiyyətin vacib şərtləri olan ümumi və inklüziv təhsilin və səhiyyə sisteminin qurulması və təkmilləşməsi, daimi müasirləşən mədəniyyət və sosial siyasətin formalaşmasında və həyata keçirilməsində ölkənin Birinci Vitse-Prezidenti, Heydər Əliyev fondunun Prezidenti, YUNESKO və İSESKO-un Xoş Məramlı Səfiri Mehriban xanım Əliyevanın misilsiz xidmətləri olduqca əhəmiyyətlidir (4).

Ölkə Prezidenti İlham Əliyev cənablarının sərəncamı ilə 2030-cu il üçün prioritet kimi müəyyənləşdirilmiş davamlı inkişaf edən inklüziv cəmiyyətin formalaşması bir neçə istiqamətdə kompleks şəklində tətbiq edilən fəaliyyətlərin həyata keçirilməsi vasitəsi həyata keçirilməsini nəzərdə tutur (Şəkil 4).




**Şəkil 4.** "Qara qızılın" (neft və qazın hasilatı və ixracı nəticəsində əldə edilən gəlirlərin) insan potensialının davamlı inkişafı və inklüziv cəmiyyətin formalaşması prosesinin əsas istiqamətləri (1,2,5).

Şəkil 4-də təqdim edilmiş məlumatlardan aydın olur ki. prioritet kimi müəyyən edilmiş inklüziv cəmiyyətin qurulmasının ən optimal yolu dövlət idarəçiliyində sinergetik texnologiyaların tətbiqindən keçir. Hədəflənmiş məqsədə nail olmaq fəaliyyət həm ölkə daxilində, həmdə qlobal miqyasda fəaliyyətlərin həyata keçirilməsini tələb edir. Məqsədin sinergetik təbiəti prosesdə dövlət təşkilatların, vətəndaş cəmiyyətin və biznes sahədə fəaliyyət göstərən aktorların birgə razılaşdırılmış fəaliyyətini nəzərdə tutur.

Təqdim olunmuş təhlillər bir daha göstərir ki, uğurlu inkişafın əsasında innovativ idarəçilik, innovativ idarəçiliyin əsasında isə bu sahədə fəaliyyətləri planlaşdıran və həyata keçirilən insanların bilik və bacarıqları, onların peşə imkanlarının daimi yüksəldilməsi durur. Qeyd edilməlidir ki, rəqabətqabiliyyətli insan potensialının formalaşmasını innovativ inkişafın əsas hərəkətverici amil kimi qəbul etmiş Azərbaycan Respublikası bu istiqamətdə ardıcıl fəaliyyət həyata keçirilir. Rəqabətqabiliyyətli insan potensialın formalaşması üçün bilik və bacarıqların həlledici amil olduğunu nəzərə alaraq, ölkədə orta, ali və müasir peşə təsili müəssisələrin bazası əsaslı dərəcədə təkmilləşdirilmişdir. Azərbaycan Respublikasının bütün bölgələrində yeni məktəblərin yaradılması və yenidənqurması prosesi davam edir, tədris proqram, dərsliklər, dərs vəsaitləri yeniləşir və müasirləşdirilir. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin 2021-ci il üçün dərc olunmuş məlumatlarına görə hazırda ölkədə 4431 ümumi təhsil müəssisələri fəaliyyət göstərir və bu tədris müəssisələrində

1 milyon 600 mindən çox şagird təhsil allılar. Ölkədə 52 dövlət və qeyri-dövlət ali məktəb fəaliyyət göstərir. Bu ali təhsil məktəblərdə 198 mindən çox tələbə təhsil alır və onları yarısı qadındır. Göründüyü kimi, Azərbaycan Respublikasının ali təhsil sistemində gender bərabərliyi praktiki olaraq təmin edilmişdir. Qeyd edilməlidir ki, ölkəmizdə müşahidə edilən bu göstərici beynəlxalq standartlar səviyyəsindədir, bəzi hallarda isə daha yüksəkdir. BMT-nin dərc etdiyi hesabatlara əsasən Azərbaycan Respublikasında qadınlar orta hesabla 10,2 il ərzində təhsil alırlar. Bizim ölkə daxil olduğu yüksək insan inkişafına nail olmuş ölkələr qrupunda bu rəqəm 8,2 ildir (13).

Ölkədə inklüziv təhsilin inkişafına böyük diqqət ayrılır. İmkanları məhdud olan şəxslərin təhsil alması, onların ümumi inkişafını təmin etmək üçün ölkədə xüsusi tədris və sağlamlıq müəssisələri yaradılır və böyük səmərə ilə fəaliyyət göstərirlər. Xüsusi ilə qeyd edilməlidir ki, Azərbaycan Respublikasında İnklüziv İnkişaf Mərkəzi yaradılıb və uğurla fəaliyyət göstərir. Sağlamlıq baxımından imkanları məhdud olan şəxslərin potensialının inkişafı üçün yaradılmış bu mərkəz ümumi təhsil, peşə hazırlığı, bu qrup əhalinin müxtəlif sahələrdə çalışmaq üçün imkanların qazanılmasına şərait yaradır. Mərkəz eyni zamanda xüsusi qayğıya ehtiyacı olan fərdlərin incəsənət sahəsində fəaliyyət göstərmək üçün də şərait yaradılıb.

BMT-nin qəbul olunmuş standartlarına görə insan potensialının formalaşması üçün sağlamlıq vacib amildir və dünya ölkələrində insan inkişafının dəyərləndirilməsi zamanı istifadə edilən bir göstəricidir. Bu tam məntiqlə bir yanaşmadır. İnsanların kütləvi şəkildə bilik və bacarıqlarını artırmaq üçün və bu istiqamətdə gərgin çalışmaq üçün sağlamlıq vacib bir amildir. Bu səbəbdən 2003-cü ildən sonra əhalinin sağlamlığı üçün vacib amillər olan sağlamlıq sektorun və idmanın inkişafına xüsusi diqqət ayrılmışdır.

Ölkə əhalisi arasında kütləvi sağlamlığın təmin edilməsi üçün idmanın inkişafı vacib şərtdir. Azərbaycan Respublikasında bu sahəyə böyük diqqət ayrılır. Buna bir misal kimi ölkədə idman qurğularının, ilk növbədə Olimpiya mərkəzlərin yaradılmasını göstərmək olar. Hazırda Azərbaycan Respublikasında 37 Olimpiya Mərkəzi fəaliyyət göstərir və bu idman kompleksləri ölkənin bütün bölgələrində mövcuddurlar. Bu tədbirlərin yüksək səmərəli olmasının bir təzahürü də ondadır ki, Azərbaycan idmançıları Olimpiya Oyunlarında, digər beynəlxalq yarışlarda yüksək nəticələr göstərirlər. Digər tərəfdən isə idman üçün yaradılmış bu imkanlar əhalinin kütləvi şəkildə sağlamlığının yüksəlməsinə xidmət edir (14).

Ölkə əhalisinin sağlamlığın təmin edilməsinin digər istiqaməti müasir səhiyyə sisteminin formalaşmasıdır. Tibbi müəssisələrin yaradılması onları yüksək peşəkar tibbi işçilər və müasir avadanlıqlar ilə təmin olunması bu prosesin vacib elementidir. Dövlət Statistika Komitəsinin 2021-ci il üçün dərc etdiyi

hesabatlara əsasən ölkədə 570 xəstəxana fəaliyyət göstərir və onların arasında böyük sayda xəstəliklərin və onların fəsadlarının qarşısının alınması üçün əhəmiyyətli olan diaqnostik və profilaktik tibbi müəssisələrdir. Ölkədə hər 10 min əhaliyə 31 həkim xidmət göstərir ki, bu da yüksək beynəlxalq standartlara cavab verir. Hazırda ölkədə tətbiq ediləm tibbi sığorta sistemi əhalinin sağlamlığının qorunması üçün olduqca əhəmiyyətlidir (14).

Qeyd edilməlidir ki, təhsil, sağlamlıq, idman və insan potensialının yüksəldilməsinə yönəldilmiş digər fəaliyyətlərin təşkili və həyata keçirilməsində ölkənin Birinci Vitse-Prezidenti, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın əvəzsiz xidmətləri vardır. Bu fəaliyyət ölkədə və xaricdə böyük uğurla həyata keçirilir və böyük beynəlxalq dəstək qazanmışdır.

Təqdim olunmuş təhlillər göstərir ki, Azərbaycan Respublikasında davamlı inkişaf edən inklüziv cəmiyyətin formalaşması üçün bütün hazırlıq işləri görülmüş və lazımı şəraitlər yaradılmışdı. Bu prosesin “böyük qayıdış” proqramı çərçivəsində 44 günlük Vətən Müharibəsinin parlaq nəticəsi kimi işğaldan azad olunmuş ərazilərdən başlanması ölkənin innovativ inkişafından xəbər verir.

**Ədəbiyyat:**


1. İlham Əliyev: 2021-ci ildə qarşımıza qoyduğumuz bütün məqsədlərə çatdıq. https://baku.ws/politics/137818, 01.01.2022
2. İlham Əliyevin ABŞ-ın "Fox News" televiziya kanalına müsahibəsi. https://president.az/az/articles/view/44279, 25.10.2020
3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci ildə fəaliyyəti haqqında İcmal Hesabatı, Bakı, 2022, 120 s.
4. Mehriban Əliyeva: ICESCO-nun "Qadınlar və qızlar elmdə" Beynəlxalq Günü münasibətilə keçirilən tədbirdə video formatda çıxışı. https://islamworld.preslib.az/page/zYQ5oCn38T, 11.02.2021
5. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. https://president.az/az/articles/view/50474, 02.02.2021
6. Schwab K. The Global Competitiveness Report 2018, Geneva, 2018, 667 p.
7. Ələkbərov U.K. İnklüziv inkişafın idarə edilməsinin əsasları. Bakı, "Təhsil", 2018, 216 s.
8. Ələkbərov U.K. Prezident İlham Əliyevin unikal dövlət idarəçilik texnologiyalarının parlaq hərbi sınağı. J. Dövlət İdarəçiliyi (İSSN 2309-1347), 2020, № 4 (72), s.157-164.
9. https://data.worldbank.org/indicator/NY.GDP.PCAP.PP.CD, 02.02.2022.
10. Габибова З. Человеческий потенциал как основа идеологии развития. Баку, Асполиграф, 2014, 184 с.
11. Alakbarov U.K., Lawrence J.E. Energy efficiency as an Indicator of Sustainable Development Policy: Azerbaijan Experience. Journal of Sustainable Development (Canada, ISSN 1913-9063), v. 10, № 3. p. 187-193.
12. Алакбаров У.К. Формирование кадрового потенциала: опыт Азербайджанской Республики. Ж. Государственная служба, 2019, т. 21, № 5, с. 6-11.
13. Human Development Report, UNDP, New York, 2020, 412 p.
14. Azərbaycanın statistik göstəriciləri 2021. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı, 2021, 748 s.

## ABSTRACT

## INCLUSIVE SOCIETY FORMATION IN THE REPUBLIC OF AZERBAIJAN AS SUSTAINABLE DEVELOPMENT GOAL

**Alakbarov U.K.**
*The Academy of Public Administration*
*under the President of the Republic of Azerbaijan,*
*rector, academician*

The article discusses the strategy and achievements of the Republic of Azerbaijan in the field of sustainable development. It highlights that the innovative technologies used in public administration have ensured that the country has become one of the global leaders in forming an inclusive society. Achievements in the field of economy, social and humanitarian spheres, as well as in the field of security, ensured that the Republic of Azerbaijan, as a result of the 44-day Patriotic War, liberated the territories occupied by Armenia and restored the territorial integrity of the country, thus implementing four resolutions of the U.N. Security Council. Environmental, economic, social, and humanitarian rehabilitation of the liberated territories is carried out on the principles of sustainable development and the formation of an inclusive society.

**Keywords:** *the Republic of Azerbaijan, public administration, sustainable development, indicators of inclusive development, inclusive society, green economy*

## РЕЗЮМЕ

# ФОРМИРОВАНИЕ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ ИНКЛЮЗИВНОГО ОБЩЕСТВА КАК ЦЕЛЬ УСТОЙЧИВОГО РАЗВИТИЯ

**Алакбаров У.К.**
*Академия Государственного Управления*
*при Президенте Азербайджанской Республики,*
*ректор, академик*

В статье рассматривается стратегия и достижения Азербайджанской Республики в области устойчивого развития. Показано, что применяемые инновативные технологии в государственном управлении обеспечили тот факт, что страна вошла в число глобальных лидеров в области формирования инклюзивного общества. Достижения в области экономики, социальной и гуманитарной сферах, а также области обеспечения безопасности обеспечили тот факт, что Азербайджанская Республика в результате 44-х дневной Отечественной Войны освободила оккупированные Арменией территории и восстановила территориальную целостность страны. В результате были выполнены 4 Резолюции Совета Безопасности ООН. Экологическая, экономическая, социальная и гуманитарная реабилитация осуществляется на принципах устойчивого развития и формирования инклюзивного общества.

**Ключевые слова:** *Азербайджанская Республика, государственное управление, устойчивое развитие, индикаторы инклюзивного развития, инклюзивное общество, зеленая экономика*

UOT 502/504:33; 502/504:001.89

# ƏTRAF MÜHİTLƏ BAĞLI PROBLEMLƏR, EKOLOJİ TƏHLÜKƏSİZLİYİN TƏMİN EDİLMƏSİ İSTİQAMƏTİNDƏ ATILAN ADDIMLAR VƏ QLOBAL ÇAĞIRIŞLAR FONUNDA QARŞIYA QOYULMUŞ HƏDƏFLƏR

**Kərimov V.N.**
*Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər nazirinin müavini*

*Dinamik iqtisadi inkişaf kontekstində ekoloji təhlükəsizliyin təmin olunması məqsədilə ekosistemlərin qorunması, ətraf mühitə təsirlərin azaldılması, təbii sərvətlərdən səmərəli istifadə və davamlı inkişaf prinsipləri çərçivəsində ətraf mühitin mühafizəsi ekoloji siyasətin əsas istiqamətlərindəndir.*

*Bu istiqamətdə əsas strateji baxış ətraf mühitlə bağlı miras qalmış problemlərin həll olunması, ətraf mühit komponentlərinin bərpa olunmayan dərəcədə pozulmasına səbəb ola biləcək fəaliyyətin qarşısının alınması, təbii mühitin mühafizə edilməsi, istehsal sahələrində ən müasir – aztullantılı texnologiyaların tətbiqi ilə təsirlərin azaldılması və yüksək keyfiyyətli təmiz ekoloji mühitin yaradılmasıdır.*

*Azərbaycan Respublikası Prezidenti tərəfindən təsdiq olunmuş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində yeni strateji mərhələdə iqtisadiyyatın davamlı və yüksək templərlə artması fonunda qlobal iqlim dəyişikliklərinə cavab verən və əhalinin sağlam mühitdə yaşamını təmin edəcək yüksək keyfiyyətli ətraf mühitin təmin olunması kimi mühüm vəzifə qarşıya qoyulmuşdur.*

*Təmiz ekoloji mühitin yaradılması istiqamətində su ehtiyatlarından səmərəli istifadə, Xəzər dənizinin ekoloji mühitinin mühafizəsi, tullantıların idarə olunması, iqlim dəyişmələrinin mənfi təsirlərinin azaldılması, müşahidə və monitorinq sistemlərinin modernləşdirilməsi, atmosfer havasının mühafizəsi, biomüxtəlifliyin qorunması, ekoturizmin və akvakulturanın inkişafı, meşə örtüyünün, yaşıllıqların mühafizəsi və artırılması, çirklənmiş ərazilərin bərpası, torpaq ehtiyatlarının münbitliyinin artırılması, mineral-xammal bazasının genişləndirilməsi və təbii sərvətlərdən səmərəli istifadə, ekoloji təfəkkürün artırılması əsas prioritet istiqamətlərdəndir.*

**Açar sözlər:** *ekosistemin qorunması, strateji baxış, ekoloji təhlükəsizlik, aztullantılı texnologiya, qlobal iqlim dəyişmələri, bioloji müxtəliflik, antropogen təsirlər, Qırmızı kitab, su bioresursları, ekstensiv heyvandarlıq, eroziya, təkrar istifadə, yaşıl iqtisadiyyat, müasir texnologiyalar*

Ətraf mühitin mühafizəsi sahəsində əsas missiya insanların ekoloji təmiz mühitdə yaşamasını təmin etmək məqsədilə ekosistemlərin qorunması, ətraf

mühitə zərərli təsirlərin minimuma endirilməsi, təbii sərvətlərdən səmərəli istifadə olunması ilə davamlı inkişafın təmin edilməsindən ibarətdir.

Qısa müddətli dövr üçün ölkənin strateji baxışı ətraf mühitlə bağlı mövcud problemlərin həll olunması ilə ekoloji vəziyyətin yaxşılaşdırılması, ətraf mühit komponentlərinin mühafizə edilməsi, dinamik iqtisadi inkişaf fonunda ekoloji təhlükəsizliyin təmin olunması, istehsal sahələrində ən müasir – aztullantılı texnologiyaların tətbiqi ilə təsirlərin azaldılması və təmiz ekoloji mühitin yaradılmasıdır.

Azərbaycan Respublikası Prezidenti tərəfindən təsdiq olunmuş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində yeni strateji mərhələdə iqtisadiyyatın davamlı və yüksək templərlə artması fonunda qlobal iqlim dəyişikliklərinə cavab verən və əhalinin sağlam mühitdə yaşamını təmin edəcək yüksək keyfiyyətli ətraf mühitin təmin olunması kimi mühüm vəzifə qarşıya qoyulmuşdur.

Sosial-iqtisadi inkişafla əlaqədar ətraf mühitin artan təsirlərdən mühafizəsi və ekoloji vəziyyətin yaxşılaşdırılması tədbirlərinə bütün maraqlı tərəflərin cəlb edilməsi, dövlət qurumları və vətəndaş cəmiyyəti institutları ilə səmərəli əməkdaşlıq mexanizmlərinin qurulması, ətraf mühit komponentlərinin bərpa olunmayan dərəcədə pozulmasına səbəb ola biləcək fəaliyyətin qarşısının alınması istiqamətində tədbirlər həyata keçirilir.

Qarşıya qoyulmuş hədəflərə kompleks şəkildə, mərhələli ardıcıllığa uyğun, vaxtında və tam keyfiyyətlə nail olunması məqsədilə ölkə başçısı tərəfindən strateji sənədlər təsdiq olunmuş və bir sıra istiqamətlər üzrə dövlət proqramlarının layihələri hazırlanmışdır.

Hazırda ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən səmərəli istifadə istiqamətində "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik", "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020-2022-ci illər üçün Tədbirlər Planı", "Azərbaycan Respublikasında bərk məişət tullantılarının idarə edilməsinin təkmilləşdirilməsinə dair 2018–2022-ci illər üçün Milli Strategiya", "Yerin təkinin geoloji öyrənilməsinə və mineral-xammal bazasından səmərəli istifadəyə dair 2020-2024-cü illər üçün Dövlət Proqramı" və digər proqramlarda nəzərdə tutulmuş tədbirlər həyata keçirilir.

Bununla yanaşı, Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" çərçivəsində "2022-2026-cı illərə dair sosial-iqtisadi inkişaf Strategiyası", "Azərbaycan Respublikasında meşələrin mühafizəsinə və davamlı inkişafına dair 2022-2030-cu illər üçün Milli Meşə Proqramı", "Azərbaycan Respublikasında 2022-2026-cı illərdə akvakulturanın inkişafına

dair Dövlət Proqramı", "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin 2022-2026-cı illər üzrə bərpası və dayanıqlı inkişafı Dövlət Proqramı" və "Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya"nın layihələri hazırlanmış, digər strateji sənəd layihələrinin hazırlanması nəzərdə tutulmuşdur.

Bu strateji sənədlərdə su ehtiyatlarının səmərəli istifadəsi və itkilərin qarşısının alınması, tullantı sularının idarə olunması və təkrar istifadəsi, Xəzər dənizinin çirklənmədən qorunması, tullantıların idarə olunması, iqlim dəyişmələrinin mənfi təsirlərinin azaldılması istiqamətində adaptasiya və mitiqasiya tədbirlərinin həyata keçirilməsi, atmosfer havasının mühafizəsi, ətraf mühitin müşahidə və monitorinq sistemlərinin təkmilləşdirilməsi, meşə və yaşıllıq ərazilərinin miqyasının artırılması, bioloji müxtəlifliyin və torpaq ehtiyatlarının mühafizəsi, istehsal müəssisələrində aztullantılı qabaqcıl texnologiyalarından istifadənin genişləndirilməsi, həmçinin təbii sərvətlərdən səmərəli istifadə sahəsində qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün innovativ yanaşmaların tətbiqinin genişləndirilməsi planlaşdırılır.

Təbii sərvətlərin qorunması və davamlı istifadəsi XXI əsrin ən mühüm və qlobal problemlərindən olmaqla, dövlətin həllini vacib hesab etdiyi prioritet məsələlərdən biridir. Təbii sərvətlərin ayrılmaz hissəsi olan bioloji müxtəliflik olduqca mühüm zəngin ehtiyat mənbəyidir. Son zamanlar planetimizdə antropogen fəaliyyət nəticəsində ekosistemlər deqradasiyaya uğramış, bir çox fauna və flora növləri isə məhv olmuş və ya onların sayı kəskin surətdə azalmışdır.



**Şəkil 1.** Göygöl Milli Parkı

Ekosistemlərin və təbii sərvətlərin qorunması üçün xüsusi mühafizə olunan təbiət ərazilərinin yaradılması dünyada əsas metodlardan sayılır. Bu, ekoturizmin inkişafı və ölkənin tanıdılmasında da böyük rol oynayır.

Ümumilikdə xüsusi mühafizə olunan təbiət əraziləri ölkə ərazisinin 10,3%-ni təşkil edir. Hədəf yaxın 5 il ərzində onların sahəsinin 10,5%-ə çatdırılması, həmçinin infrastruktur, mühafizə və idarəetmənin təkmilləşdirilməsidir.

Yeni növ xüsusi mühafizə olunan təbiət ərazilərinin (biosfer qoruğu və geopark) yaradılması prioritet istiqamətlərdəndir. Azərbaycan və Almaniya Hökumətləri arasındakı razılaşmaya əsasən "Azərbaycan Respublikasının mühafizə olunan ərazilərinə dəstək proqramı, Zaqatala-Balakən Regionu" layihəsi üzrə müvafiq işlər aparılır. Layihənin yekununda ölkədə və Cənubi Qafqazda ilk Zaqatala-Balakən biosfer qoruğu yaradılacaqdır.

Biosfer qoruğu Zaqatala-Balakən regionunda kənd turizmi və ekoturizmin inkişafına müsbət təsir edəcək, orqanik kənd təsərrüfatı istehsalını və ailə təsərrüfatı fəaliyyətini stimullaşdıracaq, turizm məhsullarının yaranmasına və turizmdə məşğulluğun artmasına gətirib çıxarılacaqdır. Beləliklə, yaradılacaq biosfer qoruğu bioloji müxtəlifliyin mühafizəsi sahəsində yeni mərhələ olmaqla, həm də regionun sosial-iqtisadi rifahına töhfə verəcəkdir. Eyni zamanda, bu gələcəkdə transsərhəd ekoturizm marşrutlarının yaranmasına imkan verəcəkdir.

Palçıq vulkanları əsaslı geoparkın yaradılması isə ölkədə geoturizmin inkişafına və Azərbaycanın palçıq vulkanlarının ən çox yayıldığı ölkə kimi tanınmasına və xarici turistlərin ölkəyə səfər etməsinə təkan verəcəkdir.

Azərbaycanın zəngin bioloji müxtəlifliyi barədə beynəlxalq səviyyədə məlumatlılığın artırılması əsas məqsədlərdən biridir. Bu istiqamətdə Azərbaycan Respublikasının Hirkan meşələrinin və palçıq vulkanlarının YUNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi nəzərdə tutulmuşdur.

Bu tədbirlərin davamı olaraq ətraf mühitin sağlamlaşdırılması və təbii sərvətlərdən dayanıqlı istifadənin təmin edilməsi, xüsusi mühafizə olunan təbiət əraziləri şəbəkəsinin, nadir təbiət komplekslərinin və obyektlərinin qorunub saxlanılması istiqamətində Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 20 oktyabr tarixli Sərəncamına əsasən işğaldan azad olmuş ərazilərdə Bəsitçay Dövlət Təbiət Qoruğunun fəaliyyətinin bərpası ilə bağlı tədbirlər görülür.

Təbii və antropogen təsirlər nəticəsində sayı azalmaqda olan həssas, təhlükədə olan növlərin sayı son 30–40 ildə xeyli artmışdır. 1989-cu ildə Azərbaycanın "Qırmızı kitab"ının I nəşrinə nadir, nəsli kəsilmək və təhlükə altında olmaqla, qorunmasına ehtiyac yaranan 108 növ heyvan və 140 növ bitki adı daxil edildiyi halda, 2013-cü ildə nəşr olunmuş "Qırmızı kitab"a artıq 223 növ heyvan və 300 növ bitki adı daxil edilmişdir.

Biomüxtəlifliyin müşahidə edilən azalması insanların təbii kompleksə birbaşa və ya dolayı, əhəmiyyətli və ya hiss edilməyən təsiri nəticəsində baş verir. Su və torpaq ehtiyatlarından səmərəli istifadə edilməməsi atmosferə və iqlim proseslərinə təsir edir. İqlim və atmosferdə baş verən dəyişikliklər isə ekosistemə birbaşa təsir göstərərək bioloji müxtəlifliyin azalmasına səbəb olur. 1950-ci ildən bəzi heyvan növlərinin (vaşaq, kaftar, bəbir, çöl pişiyi, ceyran, safsar, bezoar keçisi, muflon) sayı azalmış, turan pələnginin kökü kəsilmişdir.

Nadir və həssas növlərin bərpası məqsədilə layihələrin həyata keçirilməsi, ceyranların mühafizəsi və tarixi areallarının bərpası, zubrların ölkəmizə reintroduksiyası prosesi davam edir. Xüsusi mühafizə olunan təbiət ərazilərində faunanın mühafizəsi tədbirlərinin hesabına bəbir və onun qida obyektləri olan iri dırnaqlı heyvanların (Bezoar keçisi, muflon və s.) sayının artması üçün şəraitin mövcudluğu nəsli kəsilmək təhlükəsi altında olan növlərin bərpası üçün zəmin yaradır.

Nadir və nəsli kəsilmək təhlükəsində olan bioloji növlərin mühafizəsi, artırılması və onların tarixən məskunlaşdıqları ərazilərdə bərpası prosesində son illərdə 265 baş ceyran, 26 baş Avropa bizonu və 58 ədəd Şahin quşu köçürülmüşdür.



**Şəkil 2.** Şirvan Milli Parkı



**Şəkil 3.** Şahdağ Milli Parkı

Nəsli kəsilmək təhlükəsi altında olan fauna və flora növlərinin dəqiqləşdirilməsi və mühafizəsinin gücləndirilməsi məqsədilə "Qırmızı Kitab"ın yeni nəşri ilə bağlı tədbirlərə başlanılmışdır. 2023-cü ildə işıq üzü görəcək "Qırmızı Kitab"ın növbəti nəşri respublikamızın bioloji müxtəlifliyinin qorunması tədbirlərinin daha da gücləndirilməsi və eyni zamanda aparılacaq işlərin əsas istiqamətverici sənədi olacaqdır. Bu nəşrdə əvvəlki nəşrdən fərqli olaraq növlər Beynəlxalq Təbiəti Mühafizə İttifaqının (IUCN) yeni təlimatı əsasında qiymətləndirilir, həmçinin uzun müddətli fasilədən sonra Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları üzrə növlər də tədqiq edilir.

Xüsusi mühafizə olunan təbiət ərazilərinin genişləndirilməsi və effektiv idarə olunması hesabına ekoturizmi inkişaf etdirərək ölkəyə turist axınını stimullaşdırmaq əsas məqsədlərdən hesab olunur. Son illərdə ekoturizm

fəaliyyətinin təkmilləşdirilməsi və infrastrukturun yenilənməsi istiqamətində aparılmış tədbirlər nəticəsində Milli parkların ərazisinə daxil olan turistlərin sayı ilbəil artmaqdadır.

Son illər müxtəlif səbəblərdən balıq ehtiyatlarının həcmi getdikcə azalır. Bu prosesin qarşısının alınması üçün balıq ehtiyatlarının artırılması istiqamətində davamlı olaraq tədbirlər həyata keçirilməkdədir. Su bioresurslarının ehtiyatlarının artırılması məqsədilə mütəmadi olaraq nərəkimi, çəkikimi və qızılbalıq körpələri yetişdirilərək təbii su hövzələrinə buraxılır.



**Şəkil 4.** Bəsitçaya balıq körpələrinin buraxılışı

2011-ci ildən bütün Xəzəryanı ölkələrin ümumi razılığına əsasən Xəzər dənizində nərə cinsli balıqların kommersiya ovlanmasına texniki moratorium tətbiq edilir və nərə balıqlarının əmtəə ovu aparılmır, yalnız balıqartırma və elmi-tədqiqat məqsədləri üçün kiçik həcmlərdə ovlanır.

Balıqartırma müəssisələrinin fəaliyyətinin səmərəliləşdirlməsi, brakonyerliyə qarşı mübarizə, balıq ehtiyatlarının süni yolla artırılması, Xəzər dənizində nadir və nəsli kəsilməkdə olan nərə cinsli və qızılbalıq növlərinin təbii bərpası istiqamətində tədbirlər görülür. Lakin balıqların mühafizəsi və süni şəkildə artırılması problemin həllinə tam şəkildə kömək edə bilmir. Bunun üçün ən optimal yol hazırda dünyada ümumi balıq ovu və istehsalının yarısını təşkil edən akvakultura balıqçılığının inkişaf etdirilməsidir.

Akvakulturanın inkişafı ilə ölkə əhalisinin balıq mənşəli məhsullara tələbatının əsasən yerli məhsullar hesabına ödənilməsi, ixrac imkanlarının yaranması, balıqçılıq üzrə idarəetmə sisteminin təkmilləşdirilməsi, su və torpaq resurslarının daha səmərəli istifadəsinin təmin edilməsi, balıq yemi istehsalının və balıq emalı sənayesinin inkişaf etdirilməsi, məşğulluq səviyyəsinin yüksəldilməsi üçün balıqçılığın inkişafının stimullaşdırılması və davamlı fəaliyyətinə nail olmaq nəzərdə tutulur.

Bu istiqamətdə intensiv sənaye tipli akvakultura təsərrüfatları yaradılması, qəfəs təsərrüfatçılıq modellərinin tətbiqi nəzərdə tutulur. Respublika ərazisində ixtisaslaşdırılmış balıq satışı mərkəzləri yaradılması və akvakulturanın inkişafı bu sahə ilə əlaqəli olan digər fəaliyyət istiqamətlərinə (yem, balıq unu, dərman preparatları və s. istehsalı) dəstək olacaqdır.

Balıqovlamadan akvakultura fəaliyyətinə keçid son nəticədə Xəzər dənizində balıq ehtiyatlarının, xüsusilə nərəkimilərin təbii populyasiyasına antropogen təzyiqin azalmasına gətirib çıxaracaqdır.

Azərbaycan azmeşəli ölkədir və meşələrin artırılması, mühafizəsi, o cümlədən meşə təsərrüfatından beynəlxalq təcrübələr əsasında davamlı və səmərəli istifadə edilməsi prioritetdir.

Respublikamızın meşə fondu ölkə ərazisinin 14%-ni, meşə ilə örtülü sahələr isə 12%-ni təşkil edir.



**Şəkil 5.** Azərbaycanın dağ-meşə ekosistemi

Sənaye qırıntılarının qadağan olunması, meşələrin mühafizəsi tədbirlərinin gücləndirilməsi, o cümlədən qanunsuz ağac kəsmə hallarının qarşısının alınması, regionların qazlaşdırılması və ictimaiyyət arasında aparılan təbliğat hesabına qırıntı hallarının ilbəil azalmasına nail olunmuşdur.

Meşələrin fitosanitar vəziyyətinin qiymətləndirilməsi, xəstəlik və ziyanvericilərə qarşı mübarizə tədbirləri, meşə yanğınlarının qarşısının alınması üçün yanğınsöndürmə vasitələrinin təmin edilməsi, yüksək ixtisaslı meşə kadrlarının hazırlanması və digər bu kimi bir sıra tədbirlər görülür.

Meşələrin idarə edilməsi və planlaşdırılması üçün istifadə olunan inventarlaşdırma və məlumat bazası köhnəlmişdir. Buna görə müasir inventarlaşdırma üsullarından istifadə etməklə meşə ehtiyatlarının qiymətləndirilməsi işləri aparılır.

Mövcud meşələrin yaxşılaşdırılması və meşə ərazilərinin genişləndirilməsi yaxın dövr üçün əsas prioritetlərindəndir. Hazırda meşə ərazilərinin genişləndirilməsi üçün kütləvi şəkildə meşə əkinləri və aqrobağların salınması işləri həyata keçirilir.

Hədəf yaxın 5 ildə meşə ilə örtülü sahələrin respublikanın ərazisinə nisbətdə 12,3%-ə çatdırmaqdır. Bu strateji hədəfə çatmaq üçün özəl sektorun, beynəlxalq ekoloji qurumların dəstəyindən yararlanmaq istiqamətində də işlərin aparılması və müvafiq layihələrin həyata keçirməsi nəzərdə tutulur.

Azərbaycan Qırğızıstanda keçirilmiş Qafqaz və Mərkəzi Asiya üzrə Meşə Konqresi çərçivəsində qəbul edilmiş Bonn çağırışına qoşulmuş və 2030-cu ilədək 270 min hektar meşə ərazisini bərpa etməyə hazır olduğunu bəyan etmişdir. Bunun 170 min hektarının daxili imkanlar, 100 min hektarının isə beynəlxalq yardım hesabına həyata keçirilməsi nəzərdə tutulur.

Respublikanın meşə resurslarının inkişafında ictimaiyyətin və digər maraqlı tərəfdaşların geniş iştirakı, hazırki meşə resurslarının mövcud vəziyyətinin ətraflı analizi, meşələrin müasir vəziyyətinin tədqiqi və onların bərpası üçün konkret hədəflərin müəyyən edilməsi və eləcə də meşə sahəsi üzrə siyasət və strategiyaların inkişaf etdirilməsi, meşə sahəsinin davamlı inkişafı kontekstində ətraf mühitin, biomüxtəlifliyin qorunması, iqlim dəyişmələrinə adaptasiya, eləcə də kənd yerlərinin inkişafına töhfə verilməsinə xüsusi diqqət yetirilir.

Müasir tələblər nəzərə alınaraq, təbii və süni meşələrin regional, milli və qlobal rolunun müəyyən edilməsi, resurslardan mümkün qədər səmərəli istifadə olunması, rekreasiya əhəmiyyətli zonalardan istifadə, aqromeşə massivlərinin salınması, kənd yerlərində yaşayan əhalinin gəlir əldəetmə imkanlarının artması və onların sosial rifah halının yüksəlməsi gözlənilir.

Həyata keçiriləcək tədbirlər meşə sektorunun gücləndirilməsi, meşəbərpa və yeni meşə sahələrinin salınması işlərinin inkişafı ilə əlaqədar tənzimlənmə

sisteminin, o cümlədən qanunvericilik bazasının, institusional mexanizmin təkmilləşdirilməsinə gətirib çıxaracaqdır.

Meşə mühafizəsi tədbirlərinin gücləndirilməsi, bu sahədə innovativ yanaşmaların tətbiqi, ekstensiv heyvandarlıqdan intensiv heyvandarlığa keçid, əhalinin maarifləndirilməsi, regionların tam qazlaşdırılması, həmçinin texniki-iqtisadi cəhətdən qazlaşdırılması səmərəli olmayan ucqar yaşayış məntəqələrinin alternativ enerji mənbələri ilə təminatı, yanğın və ziyanvericilərə qarşı mübarizə üsullarının təkmilləşdirilməsi meşə ehtiyatlarının qorunmasında əhəmiyyətli rol oynayacaqdır.

Yaşıllaşdırma şəhərsalma siyasətinin mühüm tərkib hissəsi olaraq, şəhər və şəhərətrafı ərazilərdə ekoloji təhlükəsizliyin təmin olunması, ətraf mühitin çirklənməsinin azaldılması, sağlam inkişaf, həmçinin estetik görüntünün yaxşılaşdırılması baxımından əhəmiyyətli rola malikdir.



**Şəkil 6.** Kütləvi yaşıllaşdırma tədbirləri

Yarımsəhra iqlim tipinə xas olan əlverişsiz külək rejimi və uzunmüddətli quraqlıq mövsümləri ilə səciyyələnən Abşeron yarımadasında təbii meşələrin olmaması, Bakı şəhəri daxil olmaqla bütün yarımadanın süni yaşıllıq zonaları ilə təmin olunması vəzifəsini zəruri edir.

Bakı şəhərində son illər ərzində davam edən iri həcmli tikintilər, əhali artımı, şəhər infrastrukturunun sürətlə böyüməsi, artan məişət tullantıları və

atmosferə buraxılan zərərli qazlar və buna bənzər digər amillər ekoloji təhlükəsizliyin təmin olunması baxımından yaşıllıq sahələrinin genişləndirilməsini aktual edir.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən qeyri-meşə fondu torpaqlarında salınmış yaşıllıq sahəsi 2010-cu ildəki 1601 hektardan artırılaraq 2022-ci ildə 4676 hektara çatdırılmışdır. Yaşıllaşdırma layihələrinin davamlılığının təmin edilməsi üçün ərazilər damcılı suvarma sistemləri ilə təmin olunur. Suvarmada alternativ su mənbələrindən – təmizlənmiş tullantı sularından, həmçinin duzsuzlaşdırılmış dəniz suyundan istifadə olunur. Bundan başqa, məhsul verən ağaclara, o cümlədən zeytun və digər ağacların əkilməsinə üstünlük verilir.

Bakı və ətraf ərazilərin torpaq və iqlim şəraitini, ərazilərin sürüşməyə meyilliliyini və əhalinin sıxlığını nəzərə alaraq, boş və istifadəsiz ərazilərdə yerli torpaq-iqlim şəraitinə uyğun ağac və kol bitkilərindən ibarət yaşıllıq massivlərinin salınması nəzərdə tutulur.

Yalnız 2021-ci ildə IDEA İctimai Birliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə “Yaşıl Marafon” kampaniyası çərçivəsində yaz və payız mövsümləri zamanı ölkə boyu kütləvi ağacəkmə aksiyaları keçirilmişdir. Aksiyalar zamanı iydə, şam, fıstıq, sərv, akasiya, ağcaqayın, göyrüş, qoz, palıd, şabalıd, zeytun və s. yerli cinslərdən olmaqla ümumilikdə 1 milyondan çox ağac əkilmişdir.



**Şəkil 7.** Abşeron yarımadasının yaşıllaşdırılması

Yaşıllaşdırma işlərinin intensivliyinin və kütləviliyinin miqyasının artırılması məqsədilə cəmiyyətin müxtəlif təbəqələri, dövlət təşkilatları və özəl sektor nümayəndələri, vətəndaş cəmiyyəti institutları, təhsil müəssisələri mütəmadi olaraq tinglə təmin edilir. Təkcə 2021-ci ərzində kənar təşkilatlara əvəzsiz olaraq 683 min ədəd əkin materialları, o cümlədən 410 min tut tingi verilmişdir.



**Şəkil 8.** Tinglərin paylanılması

Su ehtiyatlarının səmərəli idarə olunması, sudan qənaətlə istifadə edilməsi, itkilərin minimuma endirilməsi və su ehtiyatlarının çirklənməsinin qarşısının alınması qarşıya qoyulmuş əsas hədəflərdəndir.

Su ehtiyatlarından səmərəli istifadə edilməsi hər bir ölkə üçün enerji, ərzaq, nəqliyyat təhlükəsizliyi kimi strateji əhəmiyyətli məsələlər sırasına daxil olmuşdur. Müasir dövrdə su çatışmazlığı dünyanı təhdid edən qlobal problemlərdən biridir və dövlətlərarası münasibətlərə təsir göstərə bilən amillərdən birinə çevrilməkdədir.

Ölkənin yerüstü su ehtiyatlarının mənbələrini çaylar, göllər, su anbarları, buzlaqlar təşkil edir. Şirin su ehtiyatlarının 70%-dən çox hissəsi ölkə hüdudlarından kənarda formalaşır və transsərhəd çaylarla ölkə ərazisinə daxil olur.

Azərbaycanda yeraltı su hövzələrinin rejim və balansına əməl edilmədən quyuların pərakəndə qazılması və istismarı nəticəsində yeraltı suların bərpa-

olunma imkanları azalmış və səviyyəsi aşağı düşmüşdür. Bu baxımdan yeraltı su ehtiyatlarından səmərəli istifadə olunması, mühafizəsinin yaxşılaşdırılması, uçot və nəzarət mexanizmlərinin təkmilləşdirilməsi son dərəcə vacibdir.

Son illər baş vermiş quraqlıq və respublikanın çaylarında sululuğun azalması nəticəsində su anbarlarında suyun səviyyəsi azalmışdır. Aparılan qarölçmə işlərinin nəticələrinə əsasən qar ehtiyatları ilbəil azalır və bu yaz-yay gursululuq və yay dövrlərində çaylarda sululuğun normadan az olmasına gətirib çıxarır.

Digər tərəfdən su itkilərinin miqyası böyükdür. Əsas su itkiləri torpaq məcrada tikilmiş açıq suvarma kanalları və təsərrüfatdaxili suvarma şəbəkələrində baş verir. Bu baxımdan ölkənin davamlı sosial-iqtisadi inkişafında mühüm rolu olan su ehtiyatlarının istifadəsi və mühafizəsi sahəsində mövcud problemlərin həll edilməsi üçün təxirəsalınmaz tədbirlər davam etdirilir.

Beynəlxalq praktikaya uyğun olaraq çevik su idarəçiliyinin tətbiq olunması ilə problemin həllinə nail olmaq mümkündür. Buraya suyun mənbədən götürülməsindən ətraf mühitə qaytarılmasınadək dəqiq uçotunun aparılması, itkilərin azaldılması, suya qənaətedici texnologiyalardan istifadə edilməsi, kollektor-drenaj və təmizlənmiş tullantı sularından suvarmada təkrar istifadə olunması, kiçik su tutarlarının yaradılması, istehlak olunan suyun miqdarından asılı olaraq fərqli tariflərin, eləcə də sudan səmərəli istifadənin stimullaşdırılması məqsədilə iqtisadi alətlərin tətbiq edilməsi daxildir.

Respublikamızda iqtisadiyyatının müxtəlif sahələrinin yüksək sürətlə inkişafı, suvarılan kənd təsərrüfatı sahələrinin genişlənməsi səbəbindən suya olan tələbatın artması su ehtiyatlarının səmərəli istifadəsi istiqamətində görülən işlərin daha da sürətləndirilməsi zərurətini ortaya çıxartmışdır.

Azərbaycan Respublikası Prezidentinin 15 aprel 2020-ci il tarixli Sərəncamı ilə ölkə ərazisində su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi, su təsərrüfatının idarə olunmasının təkmilləşdirilməsi və bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə Komissiya yaradılmışdır.

2020-ci ildə ilk dəfə su ehtiyatlarının idarə olunması sahəsində Azərbaycan Respublikasının illik su təsərrüfatı balansı təsdiq edilmiş və “Elektron su təsərrüfatı” informasiya sistemi yaradılmışdır.

Su itkilərinin qarşısının alınması məqsədilə suvarma kanallarının yenidən qurulması və bərpası, içməli su mənbələrinin yaradılması, sugötürücü qurğuların təmir-bərpası və yenidən qurulması, həmçinin su ehtiyatlarının artırılması və bu istiqamətdə dağ çayları sularının yığılması üçün relyefə uyğun su anbarlarının yaradılması istiqamətində tədbirlər həyata keçirilir.

Tullantı sularından təkrar istifadə edilməsi məqsədilə çirkab sutəmizləyici qurğuların inşa edilməsi ilə bağlı təkliflər hazırlanmış, yeni su anbarlarının yaradılması istiqamətində işlərə başlanılmışdır.

Xəzər dənizinin ekoloji problemlərinin əsas səbəbləri çay suları ilə dənizə müxtəlif çirkləndirici maddələrin gətirilməsi, məişət tullantı sularının təmizlənmədən dənizə axıdılması, dənizdə karbohidrogen ehtiyatlarının axtarışı, hasilatı və nəqli zamanı ekoloji tələblərin gözlənilməməsi, sənaye tullantıları, üzən vasitələrdən atılan tullantılar, kənd təsərrüfatında istifadə olunan gübrələrin yağıntı və suvarma suları ilə yuyularaq çaylar-kanallar vasitəsilə dənizə axması və s. ilə bağlıdır.

Respublikanın sahil zolağında yerləşən rayonların əksəriyyətində təmizləyici qurğular olmadığından burada formalaşan müxtəlif tərkibli tullantı suları təmizlənmədən və zərərsizləşdirilmədən Xəzər dənizinə axıdılır. Bunun nəticəsində dənizin və sahil zolağının ekoloji vəziyyəti pisləşir.

Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan bölməsində və onun sahil zolağında fəaliyyət göstərən müəssisə və təşkilatlarda, obyektlərdə, üzən vasitələrdə, sahilboyu ərazilərdən dənizə olan axarlarda həyata keçirilmiş ekoloji monitorinqlər zamanı Xəzər dənizinə tökülən 100-dən çox axar qeydə alınmışdır.

Təmizlənməmiş çirkab sularının dənizə axıdılmasının qarşısını almaq üçün böyük investisiyalar qoyulur, layihələr həyata keçirilir, iri həcmli təmizləmə qurğuları modernləşdirilir, yeni müasir təmizləmə qurğuları və kanalizasiya sistemləri quraşdırılır. Təkcə son dövrlərdə Bakı buxtasına axıdılan əsas çirklənmiş su axarları aradan qaldırılmışdır.

Azərbaycan iqlim dəyişmələrinin təsirlərinə həssas ölkədir. Azərbaycanın qlobal emissiyalarda payının cəmi 0,15% olduğuna baxmayaraq iqlim dəyişmələri ilə mübarizədə qlobal səylərə öz töhfəsini vermək üçün 2030-cu ilə qədər istixana effekti yaradan qaz tullantıları səviyyəsinin 1990-cı il səviyyəsindən 35% aşağı salınmasını Milli Səviyyədə Müəyyən olunmuş Töhfələr (NDC) sənədində hədəf kimi götürmüşdür.

Azərbaycanda istilik effekti yaradan qazların (İEYQ) emissiyaları 1990-cı ildə təxminən 79,0 milyon ton $CO_2$ ekvivalenti həcmində olmuşdur. Bundan sonra iqtisadi aktivliyin aşağı düşməsi ilə bağlı 2000-ci ilə qədər emissiyalar azalmışdır. Lakin sonrakı dövrdə iqtisadiyyatın inkişafı ilə emissiyalar da artmışdır. Ölkədə istilik effekti yaradan qazların emissiyalarının həcmində artımın iqtisadiyyatın inkişaf tempi ilə müqayisədə nisbətən az olması bir sıra tədbirlərin, o cümlədən bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsi, enerji səmərəliliyinin artırılması, meşə örtüyünün bərpası, yeni meşə zolaqlarının salınması və s. həyata keçirilməsi ilə bağlıdır.

Proqnoz hesablamalara görə, ölkəmizdə iqtisadiyyatın daha yüksək templə inkişafı mövcud texnologiyalar əsasında baş verərsə bu, yaxın perspektivdə İEYQ emissiyalarının daha da artmasına səbəb ola bilər.




**Qrafik 1.** Sektorlar üzrə İEYQ-nin atılmalarının dəyişmə dinamikası (%-lə)

2021-ci ilin sonunda Böyük Britaniyanın Qlazqo şəhərində keçirilmiş BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyanın Tərəflərinin 26-cı Konfransı çərçivəsində Azərbaycan iqlim dəyişmələrinə təsirlərin azaldılması və iqlim dəyişmələrinə uyğunlaşma üzrə beynəlxalq səyləri dəstəkləyərək Paris Sazişi çərçivəsində yeni niyyəti, yəni müasir texnologiyalara əlçatanlığın təmin edilməsi və Konvensiyanın müvafiq mexanizmlərinin, həmçinin maliyyə institutlarının dəstəyi olacağı təqdirdə 2050-ci ilə emissiyaların səviyyəsində 40% azaldılma hədəfini bəyan etmişdir.

İşğaldan azad edilmiş ərazilərin dirçəldilməsi istiqamətində ölkə rəhbərliyi tərəfindən verilmiş bir sıra mühüm qərarların, o cümlədən "yaşıl" enerji zonası, "yaşıl" kənd təsərrüfatı, "yaşıl" nəqliyyat, "ağıllı" şəhərlər, "ağıllı" kəndlər yanaşmalarının tətbiqinin, minlərlə hektar sahədə meşələrin bərpasının həm regional, həm də qlobal miqyasda iqlim dəyişmələrinin təsirləri ilə mübarizə üzrə ümumi səylərə töhfə verəcəyi vurğulanaraq 2050-ci ilə qədər həmin ərazilərin "netto sıfır emissiya" zonası olacağı elan edilmişdir.

Həmçinin Azərbaycan bir sıra, o cümlədən Meşə və Torpaqdan İstifadəyə dair Qlazqo Liderlər Bəyannaməsi, Yaşıl Şəbəkə Təşəbbüsü – Bir Günəş, Bir Dünya, Bir Şəbəkə, İqlim Dəyişmələrinə Uyğunlaşma və Dayanıqlıq üçün Ambisiyaların Artırılması, 100% Sıfır Emissiyalı Avtomobillərə Keçidin Sürətləndirilməsi təşəbbüslərinə qoşulmuşdur.

Araşdırmalar göstərir ki, iqlim dəyişmələrinin təsirləri ölkəmizdə də özünü anomal hidrometeoroloji hadisələrin intensivliyinin artması ilə büruzə verir. Bu da adekvat adaptasiya tədbirlərini ön plana çəkir. Təhlükəli hidrometeoroloji hadisələrə qarşı dayanıqlığı təmin etmək məqsədilə ölkəmizdə erkən xəbərdarlıq sistemi təkmilləşdirilir.

Sənayedə iri infrastruktur layihələrinin icrasında qabaqcıl texnologiyaların tətbiqi öz töhfəsini verir. “Yaşıl iqtisadiyyat”a keçid mərhələsində ekoloji tələblərə cavab verməyən müəssisələrin ləğv olunması və ya yenidən qurularaq modernləşdirilməsi işləri davam etdirilir. Yaradılan yeni istehsal müəssisələrdə təbiətə dost texnologiyalar tətbiq edilir. Bütün bunlar sənayenin atmosfer havasına mənfi təsirlərini əhəmiyyətli dərəcədə azaltmışdır.

Hazırda atmosfer havasının keyfiyyəti ilə bağlı əsas narahatçılıq nəqliyyat vasitələrinin sayının sürətlə artması və ekoloji standartlara cavab verməyən köhnə avtomobillərin istifadəsi ilə bağlıdır.

Sözsüz ki, burada yanacağın keyfiyyəti də əsas rol oynayır. Heydər Əliyev adına Neft Emalı Zavodunda aparılan yenidənqurma və modernizasiya işləri paytaxtın ekoloji mühitinin yaxşılaşdırılmasına müsbət təsir etməklə yanaşı, yaxın müddətdə zavodda yüksək standartlara uyğun yanacaq istehsalı atmosferə atılmaların kifayət qədər azalmasına şərait yaradacaqdır.

Nəqliyyat sektorunun ətraf mühitə mənfi təsirinin azaldılması üçün ölkənin avtomobil parkının yenilənməsi və ekoloji cəhətdən təmiz avtomobillərdən (elektrik mühərrikli və hibrid nəqliyyat vasitələri) istifadənin genişləndirilməsi vacibdir.

Buna nail olmaq məqsədilə dünya təcrübəsində ekoloji cəhətdən təmiz avtomobillərdən istifadənin təşviq edilməsi üçün müxtəlif stimullaşdırıcı tədbirlər həyata keçirilir və paralel olaraq köhnə avtomobillərin istifadəsi mərhələlərlə məhdudlaşdırılır. Ölkəmizdə də artıq vergi, idxal rüsumu və aksiz dərəcələri ilə bağlı bir sıra güzəştlər tətbiq olunmağa başlanmışdır. Elektrik və hibrid mühərrikli avtomobillərin idxalı və satışı, o cümlədən onların istifadəsi üçün vacib olan elektrik enerji doldurucularının idxalına vergi güzəştləri tətbiq olunur.

Eyni zamanda, benzin və dizel mühərrikli avtomobillərin idxalına istehsal tarixindən asılı olaraq differensial aksiz vergisi tətbiq olunur. Bu tədbirlərin növbəti illərdə ölkəmizin nəqliyyat parkının yenilənməsinə və nəticədə atmosfer havasının keyfiyyətinin yaxşılaşmasına müsbət töhfə verəcəyi gözlənilir.

Ölkədə əhalinin, onun əmlakının və iqtisadiyyatın ayrı-ayrı sahələrinin hidrometeoroloji təhlükəsizliyinin təmin edilməsi, təhlükəli hava hadisələri və iqlim dəyişikliklərinin mənfi təsirlərinin azaldılması və ekoloji vəziyyətlə bağlı dəqiq məlumatların əldə olunması qarşıya məqsəd kimi qoyulmuşdur.

Əhalinin və inkişaf edən iqtisadiyyatın hidrometeoroloji və ətraf mühitin vəziyyəti haqqında digər informasiyalara artan tələbatlar fonunda hidrometeoroloji təminatın texniki və texnoloji cəhətdən tam şəkildə avtomatlaşdırılmış sistemə keçməsinə ehtiyac vardır.

Hidrometeoroloji məlumatların emalı və operativ çatdırılması prosesinin modernləşdirilməsi, erkən xəbərdarlıq sistemlərinin təkmilləşdirilməsi istiqamətində atılan addımlar əhalinin həyat təhlükəsizliyinin təmin olunmasında və iqtisadiyyatın bir sıra sahələrinə dəyən ziyanın aradan qaldırılmasında böyük rol oynayır.

İqlim dəyişmələrinin təsirindən yaranan təhlükəli hidrometeoroloji hadisələrə nəzarətin gücləndirilməsi, proqnoz və erkən xəbərdarlıq sisteminin təkmilləşdirilməsi üçün hidrometeorologiya sahəsində yeni texnologiyaların tətbiqi, modernləşdirmə işləri aparılır.

Erkən xəbərdarlıq sisteminin yaradılması istiqamətində müasir müşahidə sistemləri olan "Dopler" hava radarlarının, atmosferdə müxtəlif hündürlüklər üzrə baş verən dəyişmələri izləmək üçün radiozondların və dəniz avtomat hidrometeoroloji stansiyaların tətbiqi istiqamətində tədbirlər görülür.

Qısa müddət ərzində hidrometeoroloji müşahidə sistemlərinin modernləşdirilməsi sahəsində 25 avtomat hidroloji stansiya, Şamaxı və Göygöldə ən müasir tələblərə cavab verən dopler radiolokatorları quraşdırılaraq istifadəyə verilmişdir.

Yerüstü su ehtiyatlarının qiymətləndirilməsi məqsədilə işğaldan azad edilmiş ərazilərdə 10 çay üzərində 11 hidroloji avtomat stansiyanın quraşdırılması işlərinə başlanılmışdır.



**Şəkil 9.** Dopler radar stansiyası

Azərbaycan Respublikasının Ümumdünya Meteorologiya Təşkilatı (ÜMT) ilə əməkdaşlığı çərçivəsində yeni texnologiyaya əsaslanan müşahidə metodlarının mənimsənilməsi, məlumat mübadiləsinin aparılması, hidrometeoroloji məlumatların yeni texnologiya ilə sistemləşdirilməsi və arxivləşdirilməsi istiqamətində işlər aparılır.

Ətraf mühitin monitorinqinin müasir üsullarla aparılmasının təmin edilməsi qarşıya məqsəd kimi qoyulmuşdur. Ətraf mühitin çirklənməsinin monitorinqi sisteminin inkişaf etdirilməsi və beynəlxalq standartların tələblərinə uyğun qurulması ekoloji vəziyyətlə bağlı dəqiq məlumatların əldə olunması, ətraf mühitin çirklənmə səviyyəsinin müəyyən edilməsi

və bununla bağlı operativ tədbirlərin görülməsi ətraf mühitin mühafizəsində əsas amildir. Avtomatik monitorinq sisteminin modernləşdirilməsi insanların sağlam ətraf mühitdə yaşaması, ətraf mühitlə bağlı xəstəliklərin azaldılması sahəsində mühüm əhəmiyyət kəsb edir.



**Şəkil 10.** Avtomat hidroloji stansiya

Ölkənin iri sənaye şəhərlərində atmosfer havasının keyfiyyətinin ölçülməsi məqsədilə 5 ədəd avtomat stansiya və operativ nəzarəti həyata keçirmək üçün müasir səyyar laboratoriya alınmışdır. Stansiyalardan və mobil laboratoriyadan fasiləsiz olaraq atmosfer havasında azot və kükürd oksidləri, dəm qazı, hidrogen sulfid, dispers toz hissəcikləri (PM2.5 və PM10), ozonun yer səthində səviyyəsi, benzol, toluol və digər çirkləndiricilər, həmçinin meteoroloji parametrlər (küləyin istiqaməti, sürəti, temperatur, təzyiq, rütubət, yağış) üzrə monitorinq nəticələri əldə olunur.

Müşahidə şəbəkəsindən daxil olan məlumatların müasir tələblərə uyğun formada qəbulu, təhlili və vizuallaşması məqsədilə Situasiya mərkəzi yaradılmışdır. Mərkəzdə müşahidə stansiyaları şəbəkəsindən məlumatların mərkəzləşmiş qaydada toplanması və operativ kompleks təhlili təmin edilir.

Tullantıların idarə olunması ilə bağlı problemlər bütün ölkələrə xas olan problemdir və iqtisadi inkişaf dövrünü yaşayan ölkəmizdə də özünü göstərir. Ölkədə kommunal xidmətlərin yaxşılaşdırılması məqsədi ilə görülən işlərə və əldə olunan nailiyyətlərə baxmayaraq, məişət tullantılarının yığılması, daşınması və zərərsizləşdirilməsi sahəsində çatışmazlıqlar hələ də mövcuddur.

Hazırda paytaxt Bakıda məişət tullantılarının idarə edilməsində irəliləyişə nail olunsa da, regionlarda bu məsələ həll olunmamış qalmaqdadır. Regionlarda formalaşan bərk məişət tullantılarının dəqiq uçotu yoxdur, çeşidlənmə kiçik miqyasda qismən aparılır, tullantıların yığılması və daşınması əsasən rayon mərkəzlərində və qəsəbələrində həyata keçirilir.

Tullantıların idarə olunmasının əsasını onların çeşidlənməsi təşkil edir. Tullantıların növlər üzrə çeşidlənərək yığılması tullantılardan səmərəli istifadə olunmasına şərait yarada bilər. Lakin ölkəmizdə bu mərhələ üzrə fəaliyyət hələ də nizamlanmamışdır.

Azərbaycan Respublikası Baş Nazirinin 27 noyabr 2021-ci il tarixli Sərəncamı ilə işğaldan azad edilmiş ərazilər də daxil olmaqla, ölkə üzrə bərk məişət tullantılarının idarə edilməsinin yaxşılaşdırılması məqsədilə Komissiya yaradılmışdır.

Bərk məişət tullantılarının idarə edilməsində qabaqcıl təcrübənin və mütərəqqi texnologiyaların tətbiqi bütövlükdə bu sahədə idarəetmə keyfiyyətinin artırılması və səmərəliliyin təmin edilməsinə yardımçı olacaqdır.

Tullantıların çeşidlənməsi nəticəsində emal üçün yararlı olan kağız, şüşə, plastik, metal, habelə digər xammalın ayrılması tullantıların ümumi həcminin azaldılmasına, əlavə xammal bazarının və təkrar emalın formalaşdırılmasına və ən əsası tullantıların ətraf mühitə mənfi təsirinin azaldılmasına gətirib çıxarır.

Qarşıya qoyulan siyasi hədəflərə çatmaq üçün güclü qanunvericilik bazası olmalıdır. Bu baxımdan mövcud qanunvericilik bazasının təkmilləşdirilməsi və idarəetmənin bütün aspektlərinə dair məlumat bazasının yaradılması da önəmlidir.

Tullantıların idarə edilməsi sahəsində qanunvericilik bazasının təkmilləşdirilməsi ölkə ərazisində bərk məişət tullantılarının idarə edilməsi ilə bağlı toplama, daşınma və zərərsizləşdirilmə sisteminin təkmilləşdirilməsinə, səmərəliliyin artırılmasına, əlavə xammal bazarının formalaşdırılmasına, təkrar emal sahələrinin qurulmasına, təkrar istehsal sahəsinə marağı olan potensial sahibkarlar və investorlar üçün əlverişli şəraitin yaradılmasına, təkrar emal bazarının möhkəmləndirilməsinə və əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsinə imkan verəcəkdir.

"Ətraf mühitin mühafizəsi haqqında" Qanuna edilən dəyişikliyə əsasən, qalınlığı 15 mikrona qədər olan polietilen torbaların 2021-ci il yanvarın 1-dən, birdəfəlik istifadə üçün nəzərdə tutulan plastik qarışdırıcı çubuq, çəngəl, bıçaq, boşqab və stəkanların 2021-ci il iyulun 1-dən sahibkarlar tərəfindən idxalı, istehsalı, ticarət, ictimai iaşə və xidmət obyektlərində istehlakçıya satılması və verilməsi qadağan edilmişdir. Eyni zamanda qalınlığı 15-50 mikron olan polietilen torbalardan istifadənin azaldılması məqsədilə Nazirlər Kabinetinin 2021-ci il 2 fevral tarixli Qərarı qəbul edilmişdir.

Azərbaycan münbit torpaq ehtiyatları məhdud olan ölkələr sırasına aiddir. Torpaqlarda eroziya, şorlaşma, bataqlaşma, çirklənmə və s. proseslərin təsiri nəticəsində deqradasiya halları artmışdır. Torpaqların deqradasiyası nəticəsində səhralaşma prosesinin güclənməsi də ciddi narahatlıq doğurur. Suvarılma şəbəkələrinin köhnəliyi, suvarmada qeyri-rasional üsulların tətbiqi və s. kimi hallar torpaqların təkrar şorlaşmasına səbəb olur.

Qeyd olunan problemlər suvarma suyundan qənaətlə və səmərəli istifadə edilməməsi, kollektor-drenaj şəbəkələrinin sıradan çıxması, aqrotexniki qaydalara əməl olunmaması kimi amillərlə bağlıdır.

Otlaq ərazilərindən normadan artıq və təyinata uyğun olmayan istifadə nəticəsində torpaq örtüyü eroziyaya uğrayır, torpağın münbit qatı itirilir, təbii ot örtüyü seyrəkləşir, otlaq sahələrinin keyfiyyəti aşağı düşür, qrunt sularının səviyyəsi qalxır və nəhayət səhralaşma prosesi gedir. Bu səbəblərdən qışlaq və yaylaqlar yararsız hala düşür.

Torpaq ehtiyatlarından səmərəli istifadə olunması üçün torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması, kollektor-drenaj və suvarma şəbəkələrinin bərpası, suvarmada müasir texnologiyalardan istifadə, münbitliyi pozulmuş torpaqların rekultivasiya olunması, planlı otarmanın tətbiqi – ekstensiv heyvandarlıqdan intensiv heyvandarlığa keçilməsi, suya tələbatı az olan kənd təsərrüfatı bitkilərdən istifadə istiqamətində tədbirlərin həyata keçirilməsi zəruridir.

Meşə və meşə zolaqları sahələrinin genişləndirilməsi kənd təsərrüfatında məhsuldarlığın artırılması sahəsində torpaqların münbitliyinin artırılması, bərpası və mühafizəsi, habelə iqlim dəyişmələrinin təsirinin minimum endirilməsi baxımından mühüm töhfədir.

Son illərdə qəbul olunmuş dövlət proqramlarında, müvafiq qanunvericilik aktlarında torpaqların münbitliyinin qorunması, bərpası və mühafizəsi sahəsində icrası zəruri olan bir çox vacib tədbirlər nəzərdə tutulmuşdur.

Uzun illər ərzində neft sənayesinin fəaliyyəti nəticəsində çirklənmiş bir sıra ərazilərin bərpası, təmizlənmiş ərazilərin iqtisadi dövriyyəyə qaytarılması məqsədilə tanınmış beynəlxalq şirkət cəlb edilərək Abşeron yarımadasında gələcək istifadə təyinatından asılı olaraq təmizləmə metodologiyası nəzərə alınmaqla çirklənmiş ərazilərin beynəlxalq standartlara uyğun inventarlaşdırılması və qiymətləndirilməsi işləri aparılmışdır.

Son illər ərzində bu istiqamətdə bir sıra layihələr həyata keçirilmişdir. Suraxanı rayonunda keçmiş Yod-brom zavodu və yaxınlığındakı ərazilərdə müxtəlif tullantılarla çirklənmiş 166 hektar və Heydər Əliyev Beynəlxalq Hava Limanının ətrafında 272 hektar ərazi təmizlənmiş, landşaftı bərpa edilərək yaşıllaşdırılmışdır.

Abşeron yarımadasında tullantı və lay suları ilə çirklənmiş və Xəzər dənizinin çirkləndirilməsində mühüm rol oynayan göllər üzrə kompleks araşdırmalar aparılmış, prioritet istiqamətlər müəyyənləşdirilmişdir. Abşeron göllərinin bərpası layihəsi çərçivəsində Böyükşor gölünün kompleks bərpası işləri davam edir. Zığ gölünün ekoloji bərpası məqsədilə işlərə başlanılmışdır.

Azərbaycan Respublikası karbohidrogen ehtiyatları ilə yanaşı, qeyri-neft sektorunun inkişafına mühüm töhfə verə biləcək mineral xammal ehtiyatları ilə zəngindir. Təbii sərvətlərdən səmərəli istifadə olunması məsələləri ən aktual problemlərdəndir. Bu gün xüsusi ilə tikinti sektorunun inkişafı ilə bağlı xammal ehtiyatlarının istifadə sahələri genişlənmişdir.

Respublika ərazisində uzun illər ərzində aparılmış geoloji-kəşfiyyat işləri nəticəsində 1000-dən artıq faydalı qazıntı yatağının ehtiyatı hesablanmış və qeydiyyata alınmışdır. Bu yataqlardan 846-sı qeyri-filiz və inşaat, 52-si filiz, 111-i isə yeraltı şirin, termal və mineral su yataqlarıdır.

Hazırda nəcib və əlvan metal filizi yataqlarının mineral xammal bazasının öyrənilməsi, yataqların kəşfiyyatı, istismara cəlb olunması, işlənilməsi, bu sahədə yeni texnologiyaların tətbiqi, maddi-texniki bazanın müasirləşdirilməsi və dağ-mədən sənayesinin inkişafı istiqamətində işlər görülür, yataqlar haqqında məlumatlar rəqəmsallaşdırılır.

Azərbaycan Respublikasının mövcud mineral xammal bazasını inkişaf etdirmək və onun strateji əhəmiyyətli faydalı qazıntı yataqları hesabına genişləndirilməsi yer təkinin kompleks geoloji öyrənilməsində regional geoloji, hidrogeoloji, mühəndis-geoloji, geoekoloji və bu qəbildən olan digər məxsusi tədqiqatların aparılması zərurətini yaradır. Faydalı qazıntı yataqlarının axtarışı və kəşfiyyatının son nəticəsi isə həmin yataqların təsərrüfat dövriyyəsinə cəlb edilməsinə, iqtisadiyyatın mineral xammala və yeraltı sulara (şirin, mineral, termal) tələbatının ödənilməsinə zəmin yaradır.

Qeyd edilən istiqamətdə həyata keçiriləcək geoloji tədqiqatların əsas məqsədi Azərbaycanda dağ-mədən sənayesinin inkişafına təkan vermək, mühüm sənaye sahələrinin (qara və əlvan metallurgiya, qızılçıxarma, kimya sənayesi, mülki və sənaye tikintisi) mineral xammala olan tələbatını ödəməkdən, xarici və daxili sərmayədarlar üçün maraq doğuran nəcib metal, habelə rəqabət qabiliyyətli qeyri-filiz və digər faydalı qazıntı yataqlarının istismara cəlb etməklə ölkə iqtisadiyyatının davamlı inkişafına dəstək verməkdən ibarətdir.

Mineral xammal bazasının qorunması, təbii sərvətlərdən səmərəli istifadə olunması, xammala olan tələbatın ödənilməsi, yerin təkinin geoloji öyrənilməsi və istifadəsində ciddi qayda yaradılması, qanunvericiliyin tələblərinə, norma və standartlara əməl olunması, təhlükəsizliyin və şəffaflığın təmin edilməsi, ətraf mühitin, təbii landşaftın mühafizəsinə dövlət nəzarətinin gücləndirilməsi istiqamətində yeni yanaşmalar tətbiq olunur.

Yerin təki istifadəçiləri və onların hasil etdikləri faydalı qazıntının növü, həcmi, yerləşdiyi ərazi barədə, həmçinin müsabiqə və hərraca çıxarılan yer təki sahələri və faydalı qazıntıları barədə məlumatların internet saytında yerləşdirilməsi sayəsində təbii ehtiyatların rəqabət prinsipləri gözlənilməklə şəffaf şəkildə istismara verilməsinə və inhisarçılığın qarşısının alınmasına nail olunacaqdır.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandanın rəhbərliyi altında müzəffər ordumuz tərəfindən tarixi torpaqlarımızın işğaldan azad olunması bu ərazilərdə bərpa prosesinin başlanmasına zəmin yaratmışdır.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən işğaldan azad olunmuş ərazilərdə qiymətləndirilmə və ekoloji tarazlığın bərpa olunması ilə bağlı tədbirlər görülür – meşələrin bərpası, xüsusi mühafizə olunan təbiət ərazilərində ekoloji mühitin yaxşılaşdırılması, təbii sərvətlərdən, su ehtiyatlarından səmərəli istifadə, müşahidə və monitorinq sistemlərinin bərpası və digər istiqamətlərdə işlər aparılır.

Ətraf mühitin mühafizəsi sahəsində beynəlxalq təcrübənin öyrənilməsi, BMT sisteminin ətraf mühitin mühafizəsi sahəsində fəaliyyət göstərən əsas təsisatları ilə ikitərəfli və çoxtərəfli formatlarda əməkdaşlığın gücləndirilməsi, xarici ölkə və təşkilatlarla ikitərəfli hüquq müqavilə bazasının genişləndirilməsi, Nazirliyin fəaliyyət istiqamətləri üzrə beynəlxalq layihələr və proqramlar vasitəsilə milli potensialın artırılması və sair istiqamətlərdə işlər görülmüşdür.

Ölkəmizdə vətəndaş cəmiyyəti quruculuğunun genişləndiyi dövrdə cəmiyyətimizdə gedən proseslərin real qiymətləndirilməsi, ölkə rəhbərliyinin həyata keçirdiyi siyasətin hər bir Azərbaycan vətəndaşı tərəfindən düzgün və dərindən dərk edilməsi zərurətə çevrilmişdir. Bununla əlaqədar ideoloji iş, xüsusilə bu işin həlledici sahəsi olan təbliğat işinin gücləndirilməsi və səmərəliliyinin artırılması son dərəcə böyük əhəmiyyət kəsb edir.

Ekologiya və təbii sərvətlərin mühafizəsi sahəsində aparılan ideoloji işin əsas məqsədi təbiətə münasibətdə düşüncə tərzinin dəyişdirilməsi və onun mühafizəsində bütün təbəqələrdən olan vətəndaşların iştirakına nail olunması, ictimai qınaq mexanizminin formalaşdırılması, vətəndaş məmnunluğunun artırılmasından ibarətdir.

Bu sahədə əsas strateji baxış yeni nəslin nümayəndələrinin daha geniş ekoloji biliklər əldə etməsi, ölkəmizin ekoloji siyasəti haqqında məlumatlılığın artırılması nəticəsində mövcud problemlərin tədricən aradan qaldırılması, qanunvericiliyin tələblərinin pozulmasında məsuliyyətin artırılması, indiki və gələcək nəsillərin tələbatını ödəmək məqsədilə təbii ehtiyatlardan səmərəli və qənaətlə istifadə edilməsinə nail olmaq, bu istiqamətdə dünyanın çağırışlarına uyğunlaşmaqdan ibarətdir.

İdarəetmə alətlərindən istifadə etməklə ətraf mühitin mühafizəsi sahəsində fəaliyyət göstərən əməkdaşların peşəkarlıq səviyyəsinin artırılması, vətəndaşlarda ölkənin ekoloji vəziyyəti ilə bağlı məsuliyyət hissinin aşılanması, ekoloji şüur səviyyəsinin artırılması üçün insan-təbiət münasibətlərinə yeni yanaşmalar, maarifləndirici təşəbbüslər tətbiq etməklə ekoloji dünyagörüşün, eləcə də tədris müəssisələrində ekoloji təhsilin inkişafını təmin etmək üçün vətəndaşların maarifləndirilməsində təlimçi-müəllimlər, jurnalist, nüfuzlu ictimaiyyət nümayəndələrinin və s. səylərindən istifadə etmək əsas missiyalardan olmuşdur və bu istiqamətdə çoxşaxəli tədbirlər həyata keçirilmişdir.

## ABSTRACT

## ENVIRONMENTAL PROBLEMS AND STEPS TAKEN TO ENSURE ENVIRONMENTAL SAFETY AND GOALS IN THE FACE OF GLOBAL CHALLENGES

**Karimov V.N.**
*Deputy Minister of Ecology and Natural Resources of the Republic of Azerbaijan*

In the context of dynamic economic development, the protection of ecosystems, reduction of environmental impact, efficient use of natural resources, and environmental protection within the framework of the principles of sustainable development are the main directions of environmental policy to ensure environmental safety.

The main strategic vision in this direction is to solve inherited environmental problems, prevent the activities that can lead to irreversible damage to environmental components, protect the natural environment, reduce the impact of using modern non-waste technologies in production and create a high-quality clean environment.

An important task such as providing a high-quality environment that responds to global climate change and ensures healthy conditions in the face of sustainable and high-growth economic growth was outlined in the document "Azerbaijan 2030: national priorities for socio-economic development" approved by the President of the Republic of Azerbaijan.

The rational use of water resources, protection of the marine environment of the Caspian Sea, waste management, reduction of negative effects of climate change, modernization of observation and monitoring systems, protection of

ambient air, biodiversity protection, development of ecotourism and aquaculture, protection and increase of forest cover, greenery, restoration of polluted areas, an increase of soil fertility, expansion of mineral and natural resources base and raising environmental awareness are the main priority areas towards creating a clean environment.

**Keywords:** *ecosystem protection, strategic vision, environmental safety, low-waste technology, global climate change, biological diversity, anthropogenic impact, Red List, water bioresources, extensive cattle-breeding, erosion, reuse, green economy, modern technologies*

## РЕЗЮМЕ

## ПРОБЛЕМЫ ОКРУЖАЮЩЕЙ СРЕДЫ, ПРЕДПРИНИМАЕМЫЕ ШАГИ ДЛЯ ОБЕСПЕЧЕНИЯ ЭКОЛОГИЧЕСКОЙ БЕЗОПАСНОСТИ, И ЦЕЛИ, ПОСТАВЛЕННЫЕ ПЕРЕД ЛИЦОМ ГЛОБАЛЬНЫХ ВЫЗОВОВ

**Керимов В.Н.**

*Заместитель министра Экологии и природных ресурсов Азербайджанской Республики*

В условиях динамичного экономического развития, защита экосистем, снижение воздействия на окружающую среду, эффективное использование природных ресурсов, а также охрана окружающей среды в рамках принципов устойчивого развития, являются основными направлениями экологической политики в целях обеспечения экологической безопасности.

Основным стратегическим видением в этом направлении является решение унаследованных экологических проблем, предотвращение деятельности, которая может привести к необратимому ущербу компонентам окружающей среды, защита окружающей природной среды, снижение воздействия путем использования современных безотходных технологий в производстве и обеспечение качественной окружающей среды.

В документе «Азербайджан 2030: национальные приоритеты социально-экономического развития», утвержденном Президентом Азербайджанской

Республики на новом стратегическом уровне поставлена важная задача по обеспечению качественной окружающей среды, отвечающей глобальным изменениям климата и обеспечивающей здоровую окружающую среду для населения на фоне устойчивого и высокого темпа роста экономики.

Рациональное использование водных ресурсов для обеспечения чистой окружающей среды, защита экологической среды Каспийского моря, модернизация систем наблюдения и мониторинга, защита атмосферного воздуха и охрана биоразнообразия, являются основными приоритетными направлениями. Также среди основных направлений стоит отметить управление отходами, развитие экотуризма и аквакультуры, охрана и увеличение лесного покрова, озеленение, восстановление загрязненных территорий, повышение плодородия почв, расширение минерально-сырьевой базы, рациональное использование природных ресурсов и повышение экологической осведомленности.

**Ключевые слова:** *защита экосистемы, стратегический обзор, экологическая безопасность, малоотходная технология, глобальное изменение климата, биологическое разнообразие, антропогенное воздействие, Красная Книга, водные биоресурсы, экстенсивное животноводство, эрозия, повторное использование, зеленая экономика, современные технологии*

УДК 502.1(082)

# МЕСТО СИСТЕМНОЙ БИОИНДИКАЦИИ В СТАБИЛИЗАЦИИ И УЛУЧШЕНИИ ЭКОЛОГИЧЕСКОГО СОСТОЯНИЯ НА ТЕРРИТОРИИ АЗЕРБАЙДЖАНА И ЕГО УСТОЙЧИВОГО РАЗВИТИЯ

**Исмаилов Н.М., Мамедова А.О.**

*Бакинский Государственный Университет, Азербайджан*

*e-mail: m.afet@mail.ru*

*В статье представлена информация о роли системной биоиндикации в стабилизации и улучшении экологической ситуации в Азербайджане. Констатируется, что для обеспечения экологической безопасности страны стратегия ее экономического развития должна основываться на принципах «устойчивого развития». Указаны основные экологические факторы, определяющие экономические риски на территории Азербайджана. При этом предложены первоочередные задачи, выполнение которых позволит значительно снизить негативные экологические последствия техногенного воздействия на окружающую среду. Это, в свою очередь, создаст условия для «устойчивого развития» в стране.*

**Ключевые слова:** *системная биоиндикация, экологическая безопасность, устойчивое развитие, техногенное воздействие, окружающая среда*

## Введение

Под экологическим риском понимается интегральная характеристика или количественная мера экологической опасности. А экологическая опасность – это реализованная или возможная экологическая угроза в результате антропогенных или природных воздействий, вызывающая нарушение здоровья человека и ухудшение состояния окружающей среды.

Для программ развития потребовался и новый геополитический импульс, который был найден в концепции устойчивого развития. Устойчивое развитие дает возможность выравнивания социально-экономического уровня развитых и развивающихся стран, стирания различий между формами жизнеобеспечения, снижения негативного влияния на экосистемы, оптимального использования природных ресурсов. Выработалась концепция допустимого, приемлемого риска. В высокоразвитых странах, она легла в основу законодательства в сфере обеспечения экологической безопасности.

Концепция допустимого риска предполагает, что объективно существуют неопределенности в прогнозе опасных природных процессов и в мотивациях людей, принимающих решения по вопросам природопользования. На региональном уровне для отражения распространения опасных природных процессов и явлений применяется вероятностно-площадной подход, основанный на показателях опасности с оценкой возможного ущерба и дифференциацией территории по уровню риска природопользования.

На первом этапе осуществляется сбор и анализ исходной статистической, картографической, фондовой, научной информации, материалов полевых экспедиционных исследований по выявлению опасных процессов, их пространственно-временной динамике и систематизации по видам опасностей. Большое внимание здесь уделяется анализу различных данных дистанционного зондирования. Упорядочение массива информации оформляется как база данных в программной среде ArcGIS. Оценка опасности отдельного процесса или явления заключается в определении количественных показателей (площади распространения, интенсивности проявления, повторяемости) с учетом факторов их формирования и развития. Оценка риска, или возможных потерь определяется через уязвимость ландшафта. Расчет данного параметра позволяет определить удельный физический риск и далее служит основой для оценки экономического и социального риска.

Определение опасности и расчет риска – одна из многих задач оценивания текущего состояния и прогнозирования развития ситуации в будущем. Опасность характеризует общую для всех среду формирования рисков существования и развития различных природных, технических и социально-экономических систем, т.е. географически обусловлена – всякая опасность становится географической и даже геоисторической опасностью, зависит от момента и места происшествия, сложившихся обстоятельств.

Уникальное разнообразие ландшафтов на территории Азербайджана вот уже многие десятилетия осваивается без какого-либо учета пространственно-временных особенностей их устойчивости к техногенезу, а принципы устойчивого развития пока еще не вошли в практику отечественного природопользования. Усиливается очаговое вовлечение в хозяйственный оборот экспортных природных ресурсов – прежде всего сырой нефти и природного газа.

Основные экологические факторы, определяющие экориски на территории Азербайджана:

***– Загрязнение, засоление, эрозия почвенного покрова в основном в аридной зоне страны***

В настоящее время значительная часть площади сельскохозяйственных угодий в Азербайджане находится в состоянии экологической неустроенности, то есть, эродирована, переуплотнена, засолена, загрязнена. В Азербайджане эрозии подвергнуто 3,7 млн. га (43,3% от общей территории страны, засолению - 1,2 млн. га (13,9% от общей площади), химическому загрязнению – 0,03 млн. га (0,3% от общей площади страны [19]. Площадь засоленных земель по республике составляет почти 1,5 млн. га, или более 50% всех сельхозугодий.

Совокупность указанных факторов привела к снижению плодородия почв, загрязнению продукции. В аридной зоне страны чрезмерная эксплуатация агроландшафтов сопровождается их ускоренной экологической деградацией.

Ряд негативных тенденций наблюдается в аграрной сфере (вывод из сельскохозяйственного оборота посевных площадей, уменьшение плодородия, загрязнение агрохимикатами, истощение и деградация почв, развитие эрозионных процессов).

***– Нефтезагрязнение почвенного покрова в зонах нефтедобычи***

Непосредственно в черте города функционируют ряд месторождений нефти и газа (Баил, Раманы, Сабунчи, Сураханы и др.) – фактически город окружен со всех сторон нефтяными месторождениями, которые оказывают сильное техногенное воздействие на все элементы городских ландшафтов – зеленые насаждения, атмосферу и почвенный покров. Площадь нефтезагрязненных земель в регионе превышает 12000 га.

***– Загрязнение водных экосистем: реки Кура, Араз, Самур***

В реках Куры и Араз и в их низовьях фильтруются и накапливаются загрязняющие вещества, поступающие со стоком рек с территории, где проживают более 40% населения Азербайджана, Грузии, Армении, Турции и сосредоточено ¾ промышленного потенциала этих стран.

Основные источники загрязнения водоемов - хозяйственно-бытовые, промышленные и сельскохозяйственные стоки, включающие также и техногенные углеводороды. В Куру сбрасываются сточные воды от населенных пунктов с общим населением более 8 миллионов человек. Только в реку Куру с территории соседних стран сбрасывается до 700 млн. $м^3$ загрязненных вод в год, что повышает экологическую напряженность.

В среднем в реку Куру сбрасывается до 700 тыс. т органических веществ, 30 тыс. т азотно-фосфорных солей, 16 тыс. т разных ПАВ. В бассейн рек Кура и Араз с территории Армении в год сбрасывается в среднем около 350 млн. куб. метров загрязненной воды, с территории Грузии около 330 млн. куб. метров загрязненной воды с высоким содержанием в

воде тяжелых металлов, фенолов, нефтепродуктов, что в свою очередь причиняет ущерб населению, создает экологические проблемы для заповедников и болотных территорий, обогащающихся этими водами. Содержание в реках Кура и Араз фенола, солей тяжелых металлов и других органических веществ превышают норму в десятки раз.

***– Загрязнение вод оросительных каналов и их последствия***

С конца 80-ых годов Армения беспрерывно продолжает загрязнять воды реки Охчучай, который является левым притоком р.Араз. При общей протяженности реки Охчучай в 85 км примерно 40 км проходит по территории Азербайджана. За годы оккупации в захваченных землях незаконно работала немецкая компания "Cronimet", которая добывая медь, молибден и другие цветные металлы, одновременно использовала воды Охчучай, а затем туда же сливала загрязненные водостоки. В результате этого, до настоящего времени в ее водах наблюдается высокое содержание токсичных веществ. Конечно же, такого рода противоправные действия компаний, должны быть наказаны в соответствии с действующими нормами международного права по охране окружающей среды.

За прошедшие годы, несмотря на наши обращения в международные организации о необходимости проведения экологических мониторингов в оккупированных территориях, мы не нашли с их стороны какого-либо понимания. Лишь после поднятия нами в ПАСЕ вопроса об угрозе экологической опасности в районе Сарсангского водохранилища, эта международная организация выразила свою озабоченность. На этом и все закончилось, не были организованы и проведены какие-либо мониторинговые мероприятия.

Все осуществленные мародерства и варварства армян нанесли колоссальный материальный и моральный ущерб нашей стране. Однако, 44-дневная победоносная война Азербайджана поставила на колени Армению и вынудила армянским оккупантам убраться восвояси из Карабаха.

Люди, посетившие освобожденные территории, были поражены дикостью деяний армян. Освобожденные территории представляли собой полностью разрушенные поселения, а огромные свободные пространства, практически по всему периметру, были напичканы минами. По оценке экспертов, количество заложенных мин составляет около 1 млн. штук. Конечно же, для возвращения беженцев, покинувших свои родные очаги, необходимо полное разминирование территорий, что требует огромных финансовых и технических средств. Не трудно предположить,

что на это уйдут многие годы, что затянет процесс возвращения вынужденных переселенцев в свои города и села. Ныне, эти минные поля очищаются силами только наших соответствующих структур, без чьей-либо помощи извне.

### Основные векторы восстановления экономики на освобожденных территориях

Военные конфликты и последующая оккупация территорий имеют колоссальные разрушительные последствия для среды обживания людей. Как показывает международный опыт проведения работ по восстановлению жизни в покинутых территориях, с целью возрождения экономики и осуществления строительных работ целенаправленно выделяются огромные финансовые средства, последовательно реализуется комплекс мероприятий по созданию селитебных зон, производственной инфраструктуры и сферы услуг. Примером тому может служить план Маршалла по восстановлению экономики в Европе, в период после второй мировой войны. В настоящее время значительную помощь со стороны стран запада получает Украина, экономике которой, в результате военных операций был нанесен огромный ущерб. Очевидно, Азербайджан и в целом кавказский регион, с геополитической точки, не представляет идентичного интереса для Запада. Поэтому, в деле восстановления экономики на освобожденных землях, не следует ожидать какой-то целенаправленной финансовой помощи извне. Исходя из этого, Азербайджан самостоятельно, без помощи какой-либо международной организации, начал восстанавливать экономику и жизнь в разрушенных территориях. В сложившихся условиях азербайджанская сторона начала реализовывать стратегию возрождения по следующим основным направлениям:

- Разминирование освобожденных территорий;
- Реализация инфраструктурных проектов, в первую очередь строительство автомобильных дорог и других линий коммуникаций;
- Строительство международных аэропортов;
- Разработка генеральных планов развития городов и сельских поселений;
- Разработка «умных селений», агро- и промышленных парков;
- Реализация проектов по развитию «зеленой энергетики», в частности проектирование и строительство электростанций на основе возобновляемых источников энергии;
- Разработка месторождений цветных металлов;

• Строительство водохранилищ и малых электростанций;
• Создание центров туризма и рекреации.

Последовательная реализация выделенных стратегических направлений будущего развития региона, безусловно, превратит территории освобожденных земель в одну из “полюсов роста” в пространственной структуре экономики страны.

**Зеленая экономика – “Форсайт” будущего развития Карабаха**

В становлении социально-экономического развития региона приоритетным направлением становится выявление возможностей инновационных и технологических прорывов. Именно такой подход способен оказать воздействие на будущее развитие региона.

Азербайджан, как бенефициар углеводородной экономики, имеющий развитую энергетическую инфраструктуру, лишь в последнее десятилетие начал активно участвовать в процессах энергетического перехода к использованию возобновляемых источников энергии. На небольших площадях начали создаваться система ветроустановок и солнечных панелей. Однако, это не получило широкого распространения из-за низкого КПД используемых технологий.

География природно-ресурсного потенциала на территории республики позволяет выделить районы со значительными ресурсами возобновляемых источников энергии, к коим можно отнести приморские зоны Каспийского моря, огромные пространства аридных и семиаридных районов Кура-Аразской низменности. Следует отметить, что потенциал альтернативных источников энергии в республике превышает 26 тыс. МВт, а на Карабах приходится более 9 тыс. МВт из этого объема.

В контексте этого, в возрождении Карабаха особое место отведено сфере использования возобновляемых источников энергии. Знаковыми решениями в этой области стали соглашения с компаниями Masdar (ОАЭ) и ACWA Power (Саудовская Аравия) по строительству солнечной и ветряной электростанций в республике.

Оценка условий использования альтернативных источников энергии в регионе позволила выделить значительный потенциал ресурсов солнечной энергии в Джабраилском и Зангиланском районах, а ветровой энергии – в Кельбаджарском и Лачинском районах. Учитывая эти благоприятные предпосылки по использованию имеющихся ресурсов, проводятся переговоры с ведущими компаниями в этой области, в частности с нефтяной компанией BP, о строительстве солнечной электростанции в Джебраильском районе.

Для придания нового импульса обживания и развития экономики в освобожденных территориях реализуются программы по созданию “умных сел” и промышленных парков, с наиболее продвинутой инновационной начинкой. Создание “умные село” осуществляется в Карабахском экономическом районе, в пределах Зангиланского (с.Агалы) и Физулинского (с. Довлетъярлы) административных районов. В этих селах предполагается строительство 1000-1500 домов. К концу 2022 года предполагается завершение строительства поселка Агали. Использование инновационных разработок в этих селах будет осуществляться исходя национальных целей достижения углеродной нейтральности экономики и разворачивания комплексной программы декарбонизации на основе “зеленых” технологий. В экономическом развитии освобожденных территорий приоритетом становится реализация ставки на использование возобновляемых источников энергии.

Наряду с возрождением хозяйства ведутся работы по созданию промышленных парков в регионе, а именно – в 2021 году были заложены основы 2-ых промышленных парков в Агдаме и Джабраиле. 28 мая 2021 года Президентом Азербайджана Ильхамом Алиевым был подписан указ о создании Агдамского промышленного парка. Территория промышленного парка составляет 190 га, статус резидента уже получили 7 хозяйствующих субъектов, суммарные инвестиции которых оцениваются свыше 45 млн манатов.

В проведении работ по территориальному планированию важное место занимает разработка генеральных планов отдельных административных районов, в том числе районных центров и сел. Обеспечение системного подхода в разработке соответствующих программ территориального планирования, опирающиеся на инновационные решения, станет ключевым звеном в обеспечении устойчивого социально-экономического развития региона.

## Устойчивое развитие экономики республики как важный фактор возрождения Карабаха

Последовательная реализация государственных программ по социально-экономическому развитию республики обеспечили устойчивость экономики страны, в непростых условиях волатильности мирохозяйственной системы. За счет этого, уже к началу апреля 2022 года валютные резервы Азербайджана превысили $52 миллиарда. Использование накопленных финансовых средств позволяет осуществлять реализацию важных государственных программ по развитию регионов и различных отраслей экономики республики.

Симптоматична динамика основных экономических показателей республики. Если в 2021 году рост ВВП республики составил 5,6%, то за первый квартал 2022 года эта величина составила 6,8%. В том числе, ненефтяной сектор показал рост в 10,3%, а ненефтяная промышленность – 18,1%.(3).Благодаря росту нефтяных доходов было обеспечено погашение части внешнего долга республики. Так, за этот период внешний долг снизился с 18 до 12% ВВП республики. К концу нынешнего года предусмотрено снижение этого показателя до 10%. Все эти позитивные сдвиги произошли благодаря выстраивания политики самостоятельного развития страны. Подтверждением тому является оценка Президентом Азербайджана Ильхамом Алиевым новых геополитических реалий и места республики в регионе, изложенная на международном форуме в Дипломатической Академии. В своем выступлении он сказал: «Мы старались усилить нашу независимость, чтобы она приобрела необратимый характер, а также чтобы ни от кого не зависеть, ни в политическом, ни в экономическом, ни в энергетическом отношении».(4). Практическая реализация такой стратегии будущего развития страны определило достижение поставленных целей и нынешнюю реальность в регионе.

Благодаря обеспечению устойчивости развития экономики республики стало возможным реализация программ по восстановлению хозяйства в освобожденных территориях Карабаха. С этой целью, в 2021 году из бюджета республики были выделены средства на сумму в 2,2 млрд. манатов, такой же объем средств выделены и на 2022 год. За счет этого, только в 2021 году были построены международные аэропорты в административных районных центрах Физули и Зангилан. Наряду с вводом новых автомобильных дорог, продолжалось их строительство практически во всех освобожденных районах. Ныне протяжённость этих дорог превышает 700 км. Приграничное положение Зангиланского района с зарубежными странами открыл новые возможности для строительства автомобильных дорог и линий электропередач в направлении Ирана и Турции.

В построении новой архитектуры экономических связей в регионе особую значимость приобретает воссоздание Зангезурского транспортного коридора. Этот маршрут станет важной транспортной артерией, через которую будут проложены – железнодорожная трасса, автомобильная дорога и линии электропередач из основной территории Азербайджана в Нахичеванскую автономную республику. Определенные перспективы этой транспортной артерии связаны со становлением новой евроазиатской логистики.

Изменение условий и возможностей перевозки грузов, конъюнктуры логистического рынка и переформатирование в транспортно-логистической

сфере формирует новую географию экономических связей. В связи с этим, повышается роль Транскаспийского международного транспортного маршрута (Среднего коридора), включающего грузоперевозки, в направлении Китай-Европа. Проект этого коридора существует давно, но он не был конкурентоспособным. Сейчас, когда основной маршрут (Беларусь-Россия-Казахстан) стал не предпочтительным для многих, на западные рынки начнут выходить посредством различных транспортных решений, в том числе через Средний коридор и Турцию"(5). Такой характер изменений экономических связей в евроазиатском регионе обусловливает востребованность транспортных коридоров, насквозь проходящих через территорию Азербайджана. Использование железнодорожного маршрута Баку–Тбилиси-Карс и ввод в эксплуатацию Зангезурского коридора дадут дополнительный импульс экономическому развитию региона. Однако, учитывая враждебность умонастроений большинства армян к азербайджанцам, маловероятным представляется строительство небольшого участка дороги (42 км) в приграничной зоне Армении в ближайшем будущем. Предвидя такой ход событий, Азербайджан заключил с Ираном соглашение по строительству идентичного участка на территории Ирана. Тем самым, в любом раскладе политико-экономических изменений в регионе, можно с оптимизмом предположить возможность строительства Зангезурского участка, который будет уложен на приграничной территории Ирана. Тем самым, Азербайджан воспользуется открывающими новыми выгодами своего экономико-географического положения и использования транзитных транспортных коридоров в регионе. В сложившихся напряженных условиях (сбои в производственных и логистических цепочках во многих регионах мира, высокая инфляция и пр.) каждая страна должна оперативно адаптировать свою экономику на изменившуюся конъюнктуры мирового рынка. В соответствии с этим, наша республика продолжает проводит стратегию будущего развития на основе политики создания сети многовекторных экономических связей.

Вместе с этим, не менее важным представляется развитие транспортной инфраструктуры на региональном уровне. В частности, на освобожденных территориях продолжаются работы по реставрации железнодорожной линии Горадиз-Агбенд, которая является неотъемлемой частью Зангезурского коридора. Сданы в эксплуатацию больше половины 100 километрового участка этой железнодорожной линии и ведется строительство линии Барда-Агдам, а также продолжается строительство автомобильных дорог Кельбаджар-Лачын, Барда-Гадрут, Агдам-Физули и Кельбаджар-Истису. На стадии завершения находится строительство автомобильной дороги Ахмедбейли-Физули-Шуша и тоннелей на этой

дороге в селе Дашалты. Важным аспектом этой автомобильной дороги является ее соединение с Зангезурским коридором.

Согласно плану развития автотранспортной сети в регионе, к концу 2023 года предусмотрено завершение строительства четырехполосной автомобильной дороги Худаферин-Губадлы-Лачын. Трасса этого маршрута в пределах Восточно-Зангезурского экономического района охватывает более 30-ти населенных пунктов. Одновременно с этим, в 2024 году планируется завершение строительства автомобильной дороги Ахмедбейли-Физули-Шуша. Общая протяженность дороги составляет 81,6 км, количество полос движения - 4-6, ширина полосы – 3,5 м.(6).

Освобожденный от оккупации регион обладает богатым и все еще недостаточно использованным природно-ресурсным потенциалом. Вовлечение в хозяйственный оборот земельных, водных, лесных и рекреационных ресурсов, а также использование альтернативных источников энергии станут важными условиями обеспечения инвестиционной привлекательности региона, что скажется на становлении социально-экономической жизни и развитии региона. Возрастающие инвестиционные вливания в регион в скором будущем позволит в полной мере использовать его природные ресурсы. Для поддержки потенциальных инвесторов, на переходный период восстановления хозяйства в освобожденных землях, очевидно, следует внести определенные изменения в отдельные законодательные акты о поощрении инвестиций.

Обострение глобальных климатических изменений и постепенное его потепление особо проявляется в засушливых регионах мира, где проблема водопотребления приобретает наибольшую остроту. В условиях ограниченности водных ресурсов в пределах республики, важную значимость играет использование богатых водных ресурсов Карабаха. Наличие таких рек, как Тертерчай, Акерачай, Гаргарчай, Хачинчай, Агричай, Боранычай, Кондаланчай и Охчучай свидетельствует о значительных водных ресурсах в регионе, что создает благоприятные предпосылки для создания новых водохранилищ. Следует отметить, что на территории региона расположено третье по площади (после Мингечевирского и Шамкирского) водохранилище республики – Суговушан. Наряду с имеющимися здесь водохранилищами (Худаферин, Гыз галасы, Кондалан, Хачинчай и Баргушад), предполагается строительство Зангиланского и Губадлинского водохранилищ.

С восстановлением водохранилищ Кондаланчай-1, Кондаланчай-2 и Ашагы Конделанчай, включенных в общую систему водоснабжения региона, можно будет орошать 6,2 тыс. га посевных площадей в Физулинском районе. Ныне на освобожденных территориях строятся и ремон-

тируются 9 водохранилищ, которые ускорят экономическое развитие региона в целом.

Окончание карабахского конфликта абсолютно не снимает с повестки дня решение проблем обеспечения безопасности в регионе. Пора наконец-то осознать, что мы должны всегда быть готовым к провокациям армянских сепаратистов, которые будут продолжать вынашивать планы военной агрессии против нашей страны. С учетом этого, параллельно социально-экономическому развитию региона, в центре внимания должны оставаться вопросы безопасности граждан республики и принятие превентивных мер по подавлению реваншистских устремлений армянских национал-шовинистов. Для недопущения повторения военных противостояний и кровопролитий в Карабахе необходимо продолжить политику по выстраиванию сильной военной мощи в регионе и поддержки реализации программ возрождения и развития экономики в освобожденных территориях. На основе этого будет создан комплекс необходимых политических, экономических, правовых и безопасных условий для стабильного развития региона.

**Литература:**


1. Mushvig Mehdiyev Armenia's Military Equipment Loss in Recent Karabakh War Stands at $4 Billion, Exceeding State Budget. December 6, 2020. https://caspiannews.com/news-detail/armenias-military-equipment-loss-in-recent-karabakh-war-stands-at-4-billion-exceeding-state-budget-2020-12-6-0/
2. Потери военной техники Армении превысили ее госбюджет. 08.12.2020. https://vestikavkaza.ru/analytics/poteri-voennoj-tehniki-armenii-prevysili-ee-gosbudzet.html
3. Гасанли А. Экономика Азербайджана в 2022 году: курс на опережение. 18 апреля 2022 - https://report.az/ru/analitika/ekonomika-azerbajdzhana-v-2022-godu-kurs-na-operezhenie/
4. Президент Ильхам Алиев выступил в Университете АДА на международной конференции «Южный Кавказ: развитие и сотрудничество».30 апреля 2022 https://apa.az/ru/official-news/prezident-ilxam-aliev-vystupil-v-universitete-ada-na-mezdunarodnoi-konferencii-yuznyi-kavkaz-razvitie-i-sotrudnicestvo-foto-obnovleno-479607/
5. Azerbaijan's role in cargo transportation from China to Europe to increase. March 14, 2022 https://report.az/en/infrastructure/azerbaijan-s-role-in-cargo-transportation-from-china-to-europe-to-increase/
6. Х.Насирзаде. Автодорога Ахмедбейли-Физули-Шуша будет готова в 2024 году. 21.04.2022 - http://interfax.az/view/865276

## XÜLASƏ

# QARABAĞIN İŞĞALDAN AZAD EDİLMİŞ RAYONLARINDA QABAQLAYICI İNKİŞAF ZONALARININ FORMALAŞMASI

**İsmayılov Ç.N.**

*Bakı Dövlət Universitetinin*
*İqtisadi və sosial coğrafiya kafedrasının müdiri,*
*coğrafiya elmləri doktoru, professor*

Azərbaycanın postsovet məkanında ən çox uzanan hərbi münaqişəni qələbə ilə başa vurması və ərazi bütövlüyünü bərpa etməsi regionun geosiyasi mənzərəsini kökündən dəyişdirdi. İstər şimaldan, istərsə də cənubdan məlum güc mərkəzlərinin hərbi-siyasi və iqtisadi dəstəyi ilə Qarabağın Ermənistan tərəfindən təxminən 30 il ərzində işğalı, bu münaqişənin diplomatiya yolu həllinin əvvəlcədən praktiki olaraq mümkünsüz etdi. Dağıdılmış şəhər və kəndləri dirçəltmək, iqtisadiyyatı bərpa etmək, qaçqınları öz doğma yurdlarına qaytarmaq üçün hökumət tərəfindən xeyli maliyyə vəsaiti ayırmış, rayonun inkişaf strategiyasını həyata keçirməyə başlanmışdır. Nəqliyyat kommunikasiya sisteminin qurulması, ağıllı kəndlərin və sənaye parklarının yaradılması Qarabağda qabaqlayıcı inkişaf zonalarının formalaşmasına səbəb olmuşdur.

**Açar *sözlər:*** *azad edilmiş ərazilər, ağıllı kəndlər, innovativ inkişaf, nəqliyyat kommunikasiya sistemi, ərazi planlaşdırılması*

## ABSTRACT

## FORMATION OF ADVANCED DEVELOPMENT ZONES IN THE LIBERATED REGIONS OF KARABAKH

**Ismayilov Ch.N.**
*Head of the Department of Economic and Social Geography*
*Baku State University, Prof. Dr.*

The victorious completion by Azerbaijan of the most protracted military conflict in the post-Soviet space and the restoration of its territorial integrity radically changed the geopolitical picture of the region. The 30-year occupation of Karabakh by Armenia, with the military-political and economic support of the well-known centers of power, both from the north and the south, predetermined the practical impossibility of a peaceful diplomatic resolution of the conflict. In order to revive the destroyed cities and villages, restore the economy, and return refugees to their native lands, the government allocated significant financial resources. It began implementing a strategy for the development of the region. The construction of transport communications and the creation of smart villages and industrial parks led to the formation of priority development zones in the region.

**Keywords:** *liberated territories, smart villages, innovative development, transport communications, territorial planning*

UOT 328; 342.5; 351/354

# DAVAMLI İNKİŞAF MƏQSƏDLƏRİNİN HƏYATA KEÇİRİLMƏSİNDƏ DÖVLƏT QULLUĞUNUN ROLU

**Rəhimli R.Z.**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Dövlət qulluğu və kadr siyasəti" kafedrasının müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent*
*e-mail: rehimli@yahoo.com*

*Məqalədə dövlətin davamlı inkişafı problemləri və bu prosesdə peşəkar dövlət qulluğunun rolu araşdırılır. Davamlı inkişaf siyasətinin formalaşması və həyata keçirilməsinin subyektləri haqqında elmi baxışların təhlili əsasında dövlətin və onun təsisatlarının aparıcı rolu əsaslandırılır. Burada əsas diqqət müasir Azərbaycanın dövlət qulluğu institutunun təhlilinə yönəldilmiş, mövcud sahədə islahatların əsas istiqamətləri göstərilmişdir. Müəllif tədqiq olunan sahənin əsas problemlərinin strukturlaşdırılmasına cəhd edir və dövlətin davamlı inkişafı prosesinin dövlət qulluğunun modernləşdirilməsinin nəticələrindən asılı olduğu haqqında əsaslı fikir irəli sürür.*

**Açar sözlər:** *dövlət, dövlət qulluğu, davamlı inkişaf, islahatlar*

## Giriş

Bu gün dünyada cərəyan edən qlobal çağırışlar şəraitində hər bir ölkə davamlı inkişafın təmin edilməsi üçün müvafiq siyasət həyata keçirir, davamlı inkişaf üçün şəraitin yaradılmasında dövlətin təsiri problemlərini və onun institutlarının rolunu önə çəkir. Bu, ictimai-siyasi həyatın müxtəlif sahələrinin dinamikliyi, dünya miqyasında qüvvələr balansında əhəmiyyətli dəyişikliklər, müasir dövlətlərin üzləşdiyi xeyli sayda yeni çağırış və təhlükələr, iqtisadi inkişafın aşağı səmərəliliyi və real ssenari proqnozlaşdırılması ilə bağlıdır. Davamlı inkişafın təmin edilməsinə həsr olunmuş çoxlu sayda tədqiqat və elmi nəşrlərə baxmayaraq, bu prosesdə dövlətin, dövlət qulluğunun və bilavasitə dövlət qulluqçularının rolu ilə bağlı məsələlər indiyədək tam araşdırılmamışdır. Ümumiyyətlə dövlətin cəmiyyətin iqtisadi-sosial həyatındakı rolu daim siyasi və elmi müzakirələrin mərkəzində olmuşdur. Ekspertlərin fikrincə, davamlı inkişaf konsepsiyası nəzəri modeldir və davamlı inkişafın müəyyən edilmiş postulatlarına nail olmaq üçün heç bir konkret həll və ya alət yoxdur. Hər bir dövlət buna öz imkanları, dövlət idarəçiliyində və sosial-iqtisadi

sahədə həyata keçirdiyi islahatlar yolu ilə nail olmağa çalışır. Bildiyimiz kimi, davamlı inkişaf konsepsiyası təkcə iqtisadiyyatın səviyyəsini xarakterizə etməyə imkan verən iqtisadi altsistemlərin deyil, həm də sabitliyə və rifaha əhəmiyyətli təsir göstərən sosial amillərin vahid və mütərəqqi inkişafını nəzərdə tutur. Dövlət sektorunun inkişafı proqramları arasında dövlət qulluğu institutunda sistemli və struktur dəyişiklikləri xüsusi yer tutur, çünki dövlət qulluqçuları təkcə islahatların obyekti deyil, həm də subyektidir. Dövlət aparatı bütün dövlət sektorunda islahatların həyata keçirilməsinə cavabdehdir və onun fəal iştirakı olmadan islahatların heç biri həyata keçirilə bilməz. Azərbaycanda dövlət idarəetmə sisteminin səmərəli fəaliyyəti üçün nəzərdə tutulan meyarlara nail olmaq üçün dövlət qulluğu institutunun islahatı əsas baza elementi hesab edilir. Dövlət aparatı da təkcə davamlı dəyişikliklərin obyekti deyil, həm də onların fəal subyekti olmalı, adi fəaliyyətdən kənara çıxan bəzən iddialı layihələri işləyib hazırlamalı və onları həyata keçirmək qabiliyyəti olmalı, çevik, innovativ qurum kimi, sosial yeniliklər yaratmalıdır. Eyni zamanda başa düşmək lazımdır ki, dövlət idarəçiliyinin, dövlət qulluğunun keyfiyyəti və səmərəliliyi, dövlət xidmətinin nəticələrindən məmnunluq səviyyəsindən və kumulyativ effekt yarada bilən qarşılıqlı əlaqəli proseslərin sinxron həyata keçirilməsindən asılıdır. Dövlət qulluğu institutunda islahatların əsas istiqaməti vətəndaş cəmiyyətinin inkişafı və dövlətin möhkəmləndirilməsi maraqları naminə dövlət qulluğunun səmərəliliyinin və keyfiyyətinin köklü şəkildə artırılmasıdır. Bunun üçün rəqabətqabiliyyətli, səmərəli dövlət institutları formalaşdırmaq lazımdır ki, bundan ötrü:

maraqlı tərəfləri sosial-iqtisadi siyasətin formalaşdırılması və həyata keçirilməsinə cəlb etmək və cəmiyyətin inkişafı üçün yeni model qurmaq;

dövlətin inkişafının yüksək səviyyəsini və dinamikasını təmin etmək, onun struktur və təsisatlarının fəaliyyətinin səmərəliliyini artırmaq;

dövlət hakimiyyətinin bütün səviyyələrində qərarlar qəbul edərkən sosial qrupların maraqlarını müəyyən etmək, strukturlaşdırmaq və nəzərə almaq, habelə qəbul edilmiş və həyata keçirilən qərarların nəticələri və nəticələrinə görə məsuliyyət daşımaq;

vətəndaş cəmiyyəti institutları, biznes strukturları ilə sosial inkişafın əsas məsələləri üzrə bərabərhüquqlu dialoq aparmaq;

vətəndaşların dövlət qulluğuna və bütövlükdə dövlət institutlarına inamını təmin etmək və yüksək səviyyədə saxlamaq, ölkənin inkişafının əsas məsələlərində geniş ictimai konsensusu təmin etmək.

**Sxem 1.** Səmərəli dövlət institutlarının formalaşdırılması modeli.
Mənbə: Слатенькова М.А. От экономического роста к устойчивому развитию: роль государства. 2013.

Qeyd edək ki, problemin bu cür qoyuluşu onu tələb edir ki, ilk öncə davamlı inkişaf konsepsiyasının həyata keçirilməsində dövlət və cəmiyyətin qarşılıqlı əlaqəsi problemi təhlil edilməlidir. Cəmiyyətin inkişafında dövlətin rolu məsələsinə baxılmalı, davamlı inkişaf konsepsiyasının həyata keçirilməsinin səmərəliliyini ortaya qoyan alətlər toplusu təklif olunmalıdır. Ona görə ki, müasir dünyada inkişafın sosial və ekoloji komponentlərinin pisləşməsi müşahidə olunur, bu özünü terrorizmin, narkomaniyanın, dövlətlərdə siniflərarası gərginliyin artması, gəlirlərin differensasiyası, atmosferə atılan tullantıların artması və s. kimi məsələlərdə büruzə verir. Fikrimcə, müasir çağırışlara və sadalanan qlobal sosial və ekoloji problemlərə ən uyğun cavab bəşəriyyətin zaman və resurslarla məhdudlaşmayan uzunmüddətli mövcudluğunu və inkişafını nəzərdə tutan davamlı inkişaf konsepsiyasıdır. Lakin cəmiyyətin inkişafında davamlılığın qurulmasının mərkəzi məsələlərindən biri biosferin ekoloji imkanları çərçivəsində insanın təsərrüfat fəaliyyətinin təşkilidir. Biosferi resurs mənbəyi kimi yox, həyatın fundamental əsası hesab etmək lazımdır, çünki biosfer olmadan sosial-iqtisadi sistemin fəaliyyəti qeyri-mümkündür [8, s.158]. Beləliklə, davamlı inkişaf konsepsiyası ekoloji, sosial və iqtisadi komponent kimi bir-biri ilə əlaqəli üç komponenti özündə ehtiva edir [9, s. 15]. Bu konsepsiya bilavasitə iqtisadi və texnoloji əsaslandırmaya malikdir, onun mahiyyəti dairəvi iqtisadiyyatın "5 R" adlanan prinsipləri ilə təsvir edilə bilər[1]:




**Sxem 2.** İqtisadiyyatın "5 R" prinsipləri.
https://greenpeace.ru/blogs/2019/07/08/5r-kak-zhit-po-principu-nol-othodov/
(Müraciət vaxtı:18 mart 2022)

---

[1] Егорова М. С., Глик П. А. Экономика замкнутого цикла – новый вектор устойчивого развития. / В мире научных открытий, 2014

Davamlı inkişaf məqsədlərinin həyata keçirilməsində dövlətin və dövlət qulluğunun təsiri və rolu problemlərini Qərb alimləri V.Behrens, Q.Brundtland, D.Meadows, A.Peccei, və b. tədqiq etmişlər. Lakin alimlər dövlətin funksiyalarının sosial mahiyyətinə dair konseptual müddəalarla bağlı araşdırmalara, dövlətin ictimailəşməsi, davamlı inkişafı təmin etmək üçün dövlətin və dövlət qulluğunun rolunun ümumi qiymətləndirilməsini, onun spesifik məzmununu, həyata keçirilmə formalarına az müraciət etmişlər. Zənnimcə bunun üçün davamlı inkişaf məqsədlərinin həyata keçirilməsində dövlət və cəmiyyətin qarşılıqlı fəaliyyətinin səmərəli mexanizmlərini müəyyən etmək lazımdır.

Ümumiyyətlə davamlı inkişafdan ötən əsrin səksəninci illərindən başlayaraq aktiv olaraq danışmağa başlamışlar. Bu terminin tarixinə nəzər salsaq görərik ki, davamlı inkişaf ideyası on səkkizinci əsrin əvvəllərində də müzakirə edilirdi. İlk dəfə "davamlı inkişaf" ideyasına 1713-cü ildə Hans Karl fon Karlovitsin nəşr etdirdiyi "Meşə iqtisadiyyatı" adlı kitabında təsadüf edilir[2]. Karlovits qeyd edirdi ki, "iqtisadiyyatı elə qurmalıyıq ki, gələcəkdə qıtlıq problemi ilə üz-üzə qalmayaq". İllər keçsə də alimin qeyd etdiyi fikirlər aktuallığını itirmədi. 1972-ci ildə Stokholmda keçirilən BMT-nin insan və ətraf mühitin qorunması məsələləri üzrə "İnsanla Əhatə Olunmuş Ətraf Mühit" adlı konfransı ekoloji problemləri beynəlxalq gündəmə çıxartdı. Həmin konfransdan sonrakı BMT-nin Ətraf Mühit üzrə Proqramı (UNEP) təsis olundu. 1980-ci ildə Təbii Ehtiyatların Qorunması üzrə Beynəlxalq İttifaq yüz milyonlarla insanın düşdüyü yoxsulluğu aradan qaldırmağa yönəlmiş inkişaf olmadan təbiətin qorunub saxlanılmasının qeyri-mümkünlüyünü təsdiqləyən Ümumdünya Konservasiya Strategiyasını nəşr etdi. 1982-ci ildə BMT Baş Assambleyasının 48-ci plenar iclasında bəşəriyyətin təbiətin bir hissəsi olması və həyatın isə təbii sistemin fasiləsiz fəaliyyətindən asılı olmasını ifadə edən Təbiətin Ümumdünya Xartiyasını qəbul etdi. Bunun ardınca BMT Baş katibinin təşəbbüsü ilə Norveçin Baş naziri Qru Harlem Brundtlandın[3] rəhbərliyi ilə yaradılmış Ətraf Mühit və İnkişaf üzrə Beynəlxalq Komissiya tərəfindən 1987-ci ildə dərc edilmiş "Bizim ümumi gələcəyimiz" adlı məruzədə inkişafın cari tələblərinin gələcək nəsillərin ehtiyaclarını riskə atmadan ödənilməsi üçün aşağıdakı arqumentləri önə çəkildi ki, bunlar da gələcəyin ehtiyaclarını ödəmək naminə bugünkü ehtiyacları qurban verməmək, planetimizin kasıb əhalisinin iqtisadi

---

[2] Hanns Karl von Karlowitz, Meşə iqtisadiyyatı (bunu Vəhşi ağacların yetişdirilməsi üçün təbii təlimatlar kitabı da adlandırırlar) (1713) meşə təsərrüfatına dair ilk əhatəli əsər oldu.

[3] 1983-cü ilin dekabr ayında, həkim və Norveçin birinci qadın baş naziri Dr. Gro Harlem Brundtland "dəyişiklik üçün qlobal gündəmə" toxunmaq üçün Birləşmiş Millətlər Təşkilatının komissiyasına sədrlik etməyi xahiş etdi. Brundtland, 1987-ci il tarixli "Bizim Ortaq Gələcəyimiz" adlı buraxılışından bəri "davamlılığın anası" kimi tanınmışdır. Burada "davamlı inkişaf" müəyyən edilmiş və bir çox qlobal təşəbbüslərin əsası olmuşdur.

vəziyyətini yaxşılaşdırmaq, təbii sərvətlərdən qənaətlə istifadə və s. idi. 1992-ci ildə Rio-de-Janeyro şəhərində BMT-nin ətraf mühit və inkişaf məsələlərinə həsr edilmiş "Yer kürəsi sammiti" adlı konfransında "Gündəlik 21" sənədinin qəbulu davamlı inkişafın qlobal çərçivədə konseptual əhəmiyyətini daha da gücləndirdi. Bu genişmiqyaslı sənəddə BMT-nin bütün proqramlarında inkişaf məsələlərinin ətraf mühitin qorunması ilə uyğunlaşdırılması zərurəti vurğulandı. "Gündəlik 21"sənədi müasir dövrün inkişaf problemlərini nəzərdən keçirərək, beynəlxalq ictimaiyyəti növbəti yüzilliyin çağırışlarına hazır olmağa dəvət etdi. Bundan əlavə BMT-nin iştirakı ilə XX əsrin 90-cı illərindən etibarən, ətraf mühitin mühafizəsi və davamlı inkişafa dair bir sıra mühüm beynəlxalq sənədlər qəbul olundu ki, bunlara "Bioloji müxtəliflik haqqında konvensiya"[4], "İqlim dəyişməsi üzrə BMT Çərçivə Sənədi", "İstixana effekti yaradan qazların emissiyasının məhdudlaşdırılması üzrə Kyoto Protokolu"[5], "Gündəlik 21" sənədinin birbaşa tövsiyəsi ilə hazırlanmış və 1994-cü ildə Parisdə qəbul edilmiş "Səhralaşmaya qarşı mübarizə haqqında konvensiya" və BMT-nin Avropa İqtisadi Komissiyasının "Orxus Konvensiyası"nı[6] misal göstərmək olar. Davamlı inkişaf məqsədləri (Sustainable Development Goals, SDGs) BMT-nin 2015-ci ilin sentyabr ayında keçirilən tarixi sammitində dünya liderləri tərəfindən qəbul edildi və "2030-cu ilədək davamlı inkişaf sahəsində Gündəlik"də əks olunan Davamlı İnkişaf Məqsədləri[7] (DİM-lər) 1 yanvar 2016-cı il tarixində rəsmi şəkildə qüvvəyə mindi. Məqsədlərdə dünyanın hər bir yerində yoxsulluq və aclığa son qoymaq, qida

[4] The most significant feature of the 1972 World Heritage Convention is that it links together in a single document the concepts of nature conservation and the preservation of cultural properties. The Convention recognizes the way in which people interact with nature, and the fundamental need to preserve the balance between the two. http://whc.unesco.org/en/convention

[5] Kioto protokolu qlobal istiləşmə və iqlim dəyişiqliyi mövzüsünda mübarizə aparmağa yönəlik beynəlxalq tək protokoldur. Birləşmiş millətlər iqlim dəyişikliyi çərçəvə müqəviləsi içində imzalanıb. Bu protokolu imzalayan ölkələr , karbondioksid və kürəsəl isinməyə səbəb olan beş qazın(karbon qazı ($CO_2$), metan ($CH_4$), azot oksidi ($N_2O$), hidrofluorokarbonlar, perfluorokarbonlar, heksaflorid ($SF_6$) ) miqdarını azaltmağa söz veriblər. Protokol, ölkələrin Atmosferə saldıqları Karbon miqdarını 1990 ilində ki səviyyələrə düşürməyi məcbur eləmişdir. 1997-ci ildə imzalanan protokol, 2005-ci ildə qüvvəyə minmişdir.

[6] Orxus Konvensiyası gələcək nəsillər üçün ətraf mühitin mühafizəsi və onun vəziyyətinin yaxşılaşdırılması prosesində ictimaiyyətin və aidiyyəti təşkilatların nümayəndələrinin iştirakını gücləndirmək məqsədilə yaradılmış yeni tip Konvensiyadır. Orada insanların ətraf mühitə dair informasiya əldə etmə, proseslərdə iştirak və ədalət mühakiməsinə müraciət hüquqları göstərilir ki, bu da ətraf mühitə dair məsələlərdə dövlət orqanlarının hesabat verməsi və idarəetmənin şəffaflıq səviyyəsinin yüksəldilməsinə şərait yaradır.

[7] Цели в области устойчивого развития являются своеобразным призывом к действию, исходящим от всех стран — бедных, богатых и среднеразвитых. Он нацелен на улучшение благосостояния и защиту нашей планеты. Государства признают, что меры по ликвидации бедности должны приниматься параллельно усилиям по наращиванию экономического роста и решению целого ряда вопросов в области образования, здравоохранения, социальной защиты и трудоустройства, а также борьбе с изменением климата и защите окружающей среды. https://www.un.org/sustainabledevelopment/ru/

təhlükəsizliyinə nail olmaq, davamlı kənd təsərrüfatını  təbliğ etmək, sağlam həyat tərzini təmin etmək, inklüziv və keyfiyyətli təhsili təmin etmək və inklüziv və davamlı sənayeləşməni və innovasiyanı təbliğ etmək, ölkələrarası və ölkədaxili qeyri-bərabərliyi azaltmaq, şəhərləri və digər insan yaşayış məskənlərini inklüziv, təhlükəsiz, möhkəm və davamlı etmək, davamlı istehlak və istehsal modellərini təmin etmək, iqlim dəyişikliyi və onun təsirlərinə qarşı mübarizə aparmaq üçün təcili addımlar atmaq, su hövzələrini qorumaq və onlardan düzgün istifadə etmək, torpaq deqradasiyasının qarşısını almaq və dayandırmaq, o cümlədən biomüxtəliflik itkisini dayandırmaq və s. məsələlər üzv dövlətlər qarşısında vəzifə kimi qoyuldu. "Gündəlik-2030"un icra vəziyyətinin monitorinq və qiymətləndirilməsi ilə əlaqədar BMT-nin Statistika Komissiyasının 48-ci sessiyasında 244 göstəricidən ibarət ilkin qlobal göstəricilər sistemi müəyyən edilmiş və BMT Baş Assambleyasının 90-cı plenar sessiyasının 6 iyul 2017-ci il tarixli qətnaməsi ilə təsdiq edilmişdir. DİM üzrə qlobal göstəricilər sistemi 2025-ci ilədək hər il mütəmadi olaraq dəqiqləşdirilərək BMT-nin Statistika Komissiyasının 56-cı sessiyasında hərtərəfli nəzərdən keçiriləcəkdir. Belə ki, 2020-ci ilin mart ayında baş tutan BMT-nin Statistika Komissiyasının 51-ci sessiyasında İdarələrarası Ekspert Qrupunun təklifi ilə DİM göstəricilərinə dair 36 müxtəlif dəyişiklik edilmişdir. Bunlara 14 mövcud göstərici digərləri ilə əvəzlənmiş, 8 mövcud göstəricinin adında düzəlişlər edilmiş, 8 yeni göstərici əlavə edilmiş, 6 göstərici qlobal göstəricilər sistemindən çıxarılmışdır. Hazırda qlobal göstəricilər sisteminə 231 DİM göstəricisi daxildir. Təkrarlanan göstəricilər də daxil olmaqla DİM göstəricilərinin ümumi sayı 247-dir [10].

Azərbaycanda davamlı inkişaf məqsədlərinin həyata keçirilməsində dövlət qulluğunun rolunu qeyd edərkən ilk öncə dövlətin davamlı inkişafını təmin edən dövlət təsisatlarının  səmərəli fəaliyyəti və idarəçi kadrların formalaşması məsələsi ön plana çıxır. Əlbəttə ki, Azərbaycan Respublikasının 1992-ci il martın 2-də Birləşmiş Millətlər Təşkilatına üzv qəbul olunması da ölkəmizi dünya ölkələri ilə birgə  ümumi inkişaf prosesinin iştirakçısına çevirdi. Ümummilli lider Heydər Əliyev ikinci dəfə Azərbaycanda siyasi hakimiyyətə gələndə BMT ilə sıx əməkdaşlığa başlamış, BMT platformasından beynəlxalq ictimaiyyətin diqqətini Ermənistan-Azərbaycan münaqişəsinə cəlb etməyə və BMT-nin potensial imkanlarından istifadə etməklə problemin həllinə çalışmışdır. 1993-cü il ərzində BMT-nin Təhlükəsizlik Şurasının (TŞ) Ermənistan-Azərbaycan münaqişəsinə dair 822, 853, 874, 884 saylı qətnamələri qəbul edilmişdir. Hər bir qətnamə Azərbaycan Respublikasının ərazilərinin Ermənistanın silahlı qüvvələri tərəfindən işğalı nəticəsində qəbul edilmişdir. Bu qətnamələr Azərbaycanın ərazi toxunulmazlığını yenidən təsdiq edərək, dərhal atəşkəs elan olunması, hərbi əməliyyatlara son qoyulması və işğalçı qüvvələrin

Azərbaycan Respublikası ərazisindən çıxarılması tələblərini irəli sürmüşdür. Təəssüf ki, BMT-nin bu qətnamələri 27 il ərzində kağız üzərində qalmışdı. Beynəlxalq hüquqa məhəl qoyulmadığı üçün BMT Təhlükəsizlik Şurasının qətnamələrinin güc yolu ilə icrası qaçılmaz idi. Özünümüdafiə hüququnu ehtiva edən BMT Nizamnaməsinin 51-ci maddəsindən istifadə edən Azərbaycan 44 gün davam edən II Qarabağ müharibəsi nəticəsində öz ərazi bütövlüyünü bərpa etdi.

Ölkədə dövlət idarəçiliyi, o cümlədən dövlət qulluğu sahəsində həyata keçirilən islahatlar davamlı inkişafı şərtləndirən amillərdən olmuşdur. Belə ki, ölkədə həyata keçirilən sosial-iqtisadi islahatlarla bərabər dövlət idarəçiliyinin və dövlət qulluğu sisteminin formalaşdırılması prosesi davam etdirilmişdir. 1995-ci ildə Konstitusiya, 2000-ci ildə "Dövlət qulluğu haqqında" qanun qəbul edildi, 1996-cı ildə Hüquqi islahatlar komissiyası, 1998-ci ildə Dövlət idarəetmə sistemində islahatların aparılması üzrə Dövlət Komissiyası yaradıldı. "Dövlət qulluğu haqqında" qanun Azərbaycanda dövlət qulluğu sahəsində vahid dövlət siyasətinin formalaşdırılmasının əsasını qoydu, bu sahədə kadr siyasətinin əsas prinsipləri, dövlət qulluqçularının cəmiyyətdəki yerini və onların hüquq və vəzifələrini müəyyənləşdirdi. Dövlət qulluğu sferasında islahatlar 2003-2005-ci illərdə Avropa İttifaqının TACİS (Technical Assistance for the Commonwealth of Independent States[8], Müstəqil Dövlətlər Birliyinə Texniki Yardım) proqramının layihəsi çərçivəsində Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının və 12 nazirlikdə rəhbər kadrlar ilə dövlət qulluqçusu haqqında məlumatları əhatə etmiş vahid informasiya mərkəzinin formalaşması üzrə iş aparmaqla davam etdi. TACİS layihəsi "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununun icra olunması strategiyasının işlənib hazırlanması, Dövlət Qulluğunu İdarəetmə Şurasının fəaliyyətinin qurulması, Dövlət qulluqçusunun mərkəzləşmiş məlumat sisteminin formalaşması, Dövlət idarəetməsi sahəsində islahatlar strategiyasının işlənib hazırlanmasını nəzərdə tuturdu[9] və qeyd olunan hədəflər demək olar ki, reallaşdırıldı.

Dövlət qulluqçularının fəaliyyətində əhaliyə münasibətdə vətəndaş məmnunluğunun təmin edilməsi istiqamətində yeni yanaşmanın formalaşdırılması məqsədilə, o cümlədən ölkədə dövlət qulluqçusu-vətəndaş münasibətlərinin keyfiyyətcə yeni müstəviyə keçməsi üçün Prezidentin 2012-ci il 13 iyul tarixli 685 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və

---

[8] TACIS is an abbreviation of "Technical Assistance to the Commonwealth of Independent States" programme, a foreign and technical assistance programme implemented by the European Commission to help members of the Commonwealth of Independent States (as well as Mongolia), in their transition to democratic market-oriented economies. TACIS is now subsumed in the EuropeAid programme.

[9] http://www.e-qanun.az/framework/1954

onun nəzdində "ASAN xidmət" mərkəzləri yaradıldı. Mərkəzlərin fəaliyyəti operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri əsasında quruldu. Həmçinin Mərkəzlərin yaradılmasında məqsəd dövlət orqanlarının təkmil idarəçilik (good goverence) prinsipi əsasında fəaliyyətini təkmilləşdirmək və elektron xidmətlərə keçidi sürətləndirmək idi. Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi 2022-2024-cü illəri əhatə edən Strateji Plan da hazırlamışdır. Strateji Planın fəaliyyət istiqamətləri Birləşmiş Millətlər Təşkilatının 2015-2030-cu illəri əhatə edən Dayanıqlı İnkişaf Məqsədlərində müəyyən edilən 8-ci (İnklüziv və dayanıqlı iqtisadi artımı, hamı üçün məşğulluğu və layiqli əməyi təşviq etmək), 9-cu (Möhkəm infrastruktur yaratmaq, inklüziv və dayanıqlı sənayeləşməni təşviq etmək və innovasiyaların inkişafına dəstək vermək), 16-cı (Ədalətli, sülhsevər və açıq cəmiyyətləri təşviq etmək) və 17-ci (Dayanıqlı inkişaf üçün qlobal əməkdaşlığı canlandırmaq) məqsədlərinə uyğun formalaşdırılmışdır. Bu Strateji Plan Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə və Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə qəbul edilən strateji yol xəritələrində Dövlət Agentliyinə aid olan tədbirlərin icrasına uyğun olaraq hazırlanmışdır. Strateji Planın missiyası qlobal çağırışlara cavab verən qabaqcıl mexanizmlərin və innovasiyaların tətbiqi ilə vətəndaşlara xidmətlərin (dövlət və özəl) göstərilməsində davamlı məmnunluğun təmin edilməsi, Strateji baxışın viziyonu isə dövlət idarəçiliyində data əsaslı intellektual və çevik idarəetmə modellərinin tətbiqi ilə reaktiv xidmətlərdən proaktiv xidmətlərə keçidin təmin edilməsidir [11]. Bundan əlavə Azərbaycanda dövlət qulluğu sisteminin formalaşdırılması istiqamətində aparılan islahatlardan biri də dövlət qulluğuna kadrların seçilməsi prosesinin təkmilləşdirilməsi olmuşdur. Belə ki, 2016-cı ildə Azərbaycanda dövlət qulluğu üçün kadrların müsabiqə əsasında seçilməsi və digər məsələlərin tənzimlənməsi məqsədilə Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi (DİM) publik hüquqi şəxs yaradılmışdır. Mərkəzə dövlət qulluğu sahəsində dövlət siyasətinin formalaşdırılmasında iştirak etmək və bu siyasətin həyata keçirilməsini təmin etmək, dövlət qulluğuna dair qanunvericiliyin icra vəziyyətini öyrənmək, dövlət qulluğu məsələləri üzrə beynəlxalq əməkdaşlığı həyata keçirmək, dövlət qulluqçuları tərəfindən etik davranış qaydalarına əməl edilməsi vəziyyətini öyrənmək, dövlət qulluqçularının reyestrini aparmaq və s. məsələlər həvalə edilmişdir [12]. Dövlət idarəetməsinin mühüm institutlarından biri olan dövlət qulluğu sisteminin inkişaf etdirilməsi məqsədilə əsas hədəfləri və bu hədəflərə çatmaq üçün orta və uzun müddəti

əhatə edən çoxşaxəli, ardıcıl, mərhələli tədbirləri müəyyənləşdirmək məqsədilə 23 noyabr 2018-ci il tarixində Prezident İlham Əliyev tərəfindən "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya" təsdiq edildi. Strategiyanın əsas məqsədi dövlət qulluğu sistemində idarəçiliyin təkmilləşdirilməsi, dövlət orqanlarının kadr potensialının inkişaf etdirilməsi, yüksək mənəvi və etik dəyərləri əsas tutan, bilik, bacarıq və müsbət şəxsi keyfiyyətləri ilə seçilən dövlət qulluqçuları korpusunu formalaşdırmaqla dövlət orqanlarının fəaliyyətində səmərəliliyin artırılmasıdır. Strategiya dövlət qulluğu sisteminin inkişafı məqsədilə institusional quruculuq, kadr siyasəti, dövlət qulluqçularının rotasiyası, onların peşəkarlığının və fəaliyyətinin səmərəliliyinin artırılması, dövlət qulluğunda səriştə (kompetensiya) və mütərəqqi motivasiya (həvəsləndirmə) modellərinin tətbiqi, dövlət qulluğunun informasiya təminatının yaxşılaşdırılması sahəsində və bir sıra əlaqəli sahələrdə əsaslı islahatların həyata keçirilməsini nəzərdə tutur. Strategiyanın icrası 2019-2021-ci və 2022-2025-ci illəri əhatə edən iki fəaliyyət planının həyata keçirilməsi ilə təmin edilmişdir. Fəaliyyət planları strategiyada nəzərdə tutulan əsas inkişaf istiqamətləri üzrə müvafiq hədəfləri, həmin hədəflərə çatmaq üçün həyata keçirilməsi tələb olunan konkret tədbirləri, icraçıları və müddətləri özündə əks etdirmişdir[13]. Dövlət qulluğu sahəsində aparılan islahatlardan biri də dövlət qulluqçuları haqqında məlumatların toplanması, təzələnməsi və təhlil edilməsi, onların qulluqda yüksəliş yolu ilə seçilməsi, yerləşdirilməsi, ixtisas dərəcələrinin artırılması məsələlərinin və dövlət qulluğu ilə bağlı digər məsələlərin həllində məlumatlardan istifadə edilməsidir. Bu məqsədlə "Dövlət Reyestri" elektron məlumat sistemi yaradılmışdır. Dövlət Reyestri Prezident Administrasiyası və DİM tərəfindən aparılır. Reyestr dövlət qulluqçuları haqqında informasiya resursu olmaqla mühüm əhəmiyyətə malikdir. Eyni zamanda, reyestr statistik məlumatların əldə edilməsi və müxtəlif təhlillərin aparılması üçün vacib bir alətdir [14].

Azərbaycanda kadr ehtiyatı bankının yaradılmasını təmin etmək məqsədilə intellektual səviyyəsi və idarəçilik bacarıqları yüksək olan perspektiv rəhbər şəxslərin müəyyən edilməsi üçün Azərbaycan Respublikası Prezidentinin 26 iyul 2019-cu il tarixli Sərəncamı ilə "Yüksəliş" müsabiqəsi təsis edilmişdir. "Yüksəliş" müsabiqəsi yeni nəsil idarəçiləri, liderlik müstəvisində proqressiv düşüncə, çevik idarəçilik bacarıqlarına malik peşəkarları aşkara çıxarmaq, onların potensialını lazımi sahələrə yönləndirmək, eyni zamanda, peşəkar kadrların dəyərləndirilməsi və dəstəklənməsi baxımından ölkəmiz üçün böyük əhəmiyyətli müsabiqədir [15]. Bu gün Azərbaycanda dövlət qulluqçularının sayı respublikada məşğul əhalinin altı faizini təşkil edir. Dövlət Statistika Komitəsinin 2021-ci il yanvarın 1-nə olan məlumatına görə ölkədə dövlət qul-

luqçularının sayı 26,7 min nəfərdir. Onlardan 72, 5 faizini kişilər, 27,5 faizini qadınlar təşkil edir. Müasir dövrdə kadr potensialının gücləndirilməsi hər bir ölkənin sosial-iqtisadi inkişafının və davamlı inkişafının təmin edilməsi üçün müstəsna rol oynayır. Cəmiyyətin inkişaf səviyyəsi və istənilən təşkilatın fəaliyyətinin nəticəsi onların əmək potensialının istifadə səviyyəsi ilə birbaşa əlaqəlidir. Davamlı inkişafın təmin edilməsində kadr potensialının gücləndirilməsi kifayət qədər aktual məsələdir [16].

Kadrların düzgün seçilməsi, onların qiymətləndirilməsi, tutduğu vəzifəyə uyğun gəlib-gəlməməsi davamlı inkişafın təmin edilməsində dövlət qulluqçularının rolunun vacib amillərindən biri hesab etmək olar. Dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsini daha da təkmilləşdirmək məqsədi ilə Nazirlər Kabineti tərəfindən 06 aprel 2021-ci il tarixində "Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi Qaydası" təsdiq edildi. Yeni Qaydalara əsasən dövlət qulluqçusunun cari fəaliyyətinə nəzarətin həyata keçirilməsi, onun potensial imkanlarının aşkara çıxarılması və həmin imkanlardan səmərəli istifadə edilməsi, dövlət qulluqçusunun peşə səriştəliyini artırmağa stimullaşdırılması və onun əlavə təhsilə ehtiyacının, habelə tutduğu vəzifəyə uyğun gəlib-gəlmədiyinin müəyyənləşdirilməsi məqsədilə "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 30-1.1-ci maddəsinə əsasən onun xidməti fəaliyyətinin qiymətləndirilməsi həyata keçirilir. Qaydalara əsasən Ali kateqoriya dövlət orqanlarında inzibati vəzifələrin ali-üçüncü təsnifatlarına uyğun dövlət qulluğu vəzifələrini tutan dövlət qulluqçularının, stajçı kimi və sınaq müddəti ilə dövlət qulluğuna qəbul edilmiş şəxslərin, habelə təqvim ilinin sonunadək müvafiq vəzifədə faktiki olaraq 6 (altı) aydan az müddətdə qulluq keçən dövlət qulluqçularının xidməti fəaliyyəti qiymətləndirilmir. Yeni Qaydalara görə dövlət qulluqçusunun fəaliyyət səmərəliliyi bilavasitə rəhbəri tərəfindən hər ilin yanvarın 1-dən dekabrın 31-dək olan dövrü əhatə edən müddət ərzində qiymətləndirilir [17]. Bildiyimiz kimi "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 30-1-ci maddəsinə əsasən, inzibati vəzifə tutan dövlət qulluqçularının xidməti fəaliyyəti hər ilin sonunda qiymətləndirilir. Dövlət İmtahan Mərkəzi tərəfindən 2020-ci ildə də dövlət orqanlarında xidməti fəaliyyətin qiymətləndirilməsi həyata keçirilmiş və 2021-ci ildə bu məlumatlar dərc edilmişdir. Mərkəzi icra hakimiyyəti orqanları və onlara bərabər tutulan orqanlar, yerli icra hakimiyyəti orqanları və məhkəmələr üzrə inzibati vəzifələrin üçüncü-yeddinci təsnifatlarına uyğun olan inzibati vəzifə tutan 11261 dövlət qulluqçusunun xidməti fəaliyyəti qiymətləndirilmiş, onlardan 2228-nin fəaliyyəti əla, 6603-nün fəaliyyəti yaxşı, 2395-nin fəaliyyəti qənaətbəxş, 35-nin fəaliyyəti isə qeyri-qənaətbəxş qiymətləndirilmişdir. Xidməti fəaliyyətin qiymətləndirilməsi üzrə aşağıdakı qrafikdə məlumat verilmişdir.




**Sxem 3.** Dövlət orqanlarında xidməti fəaliyyətin qiymətləndirilməsinin nəticələri.
Mənbə: https://dim.gov.az/center/hesabatlar/(Müraciət vaxtı:17 mart 2022-ci il)

*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası,*
*b.e. üzrə fəlsəfə doktoru*

Ölkənin demoqrafik sabitliyi inkişaf şəraitini və həyat səviyyəsinin sabit göstəricilərini, sosial-iqtisadi amilləri, əlverişli ekoloji mühiti əks etdirir.

Demoqrafik vəziyyət ölkədə insan kapitalının inkişafı indeksi ilə ayrılmaz şəkildə bağlıdır. Gözlənilən ömür uzunluğu, təhsil səviyyəsi və adambaşına düşən gəlir göstəriciləri bir-biri ilə əlaqəlidir və doğum, ölüm, əhalinin sayı, əhalinin sosial müdafiəsi səviyyəsinin demoqrafik göstəricilərindən asılıdır.

"Azərbaycan 2030" sosial-iqtisadi inkişafın milli prioritetləri iqtisadi inkişafla yanaşı, sosial xidmət sistemlərinin gücləndirilməsini, ətraf mühitin ekoloji vəziyyətinin yaxşılaşdırılmasını, yoxsulluğun və işsizliyin minimuma endirilməsini, əmək haqqının layiqli səviyyəsinin və gəlirlərin ədalətli bölgüsünün təmin edilməsini nəzərdə tutur.

Heydər Əliyev Fondu sosial, təhsil, tibbi layihələrdə genişmiqyaslı tədbirlər həyata keçirir, dövlət, özəl sektor və vətəndaş cəmiyyəti arasında tərəfdaşlığın gücləndirilməsinə nümunə olmaqla, əhalinin həyat keyfiyyətinin yaxşılaşdırılmasına yönəlmiş dövlət layihələrinin icrasını optimallaşdırır.

Uğurlu dövlət idarəçiliyi və balanslaşdırılmış sosial-iqtisadi siyasət, vətəndaş cəmiyyəti ilə əməkdaşlıq Azərbaycana sabit demoqrafik göstəricilərə nail olmağa və dövlətin davamlı inkişafı vəzifələrini uğurla həyata keçirməyə imkan verir.

**Açar sözlər:** *davamlı inkişaf, demoqrafik proseslərin sabitliyi, Azərbaycanın milli inkişaf prioritetləri, Heydər Əliyev Fondu*

# ABSTRACT

## DEMOGRAPHIC POLICY AS A FACTOR IN SUSTAINABLE DEVELOPMENT OF THE REPUBLIC OF AZERBAIJAN

**Gulieva R.A.**
*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Doctor of Philosophy in Biological Sciences*

The demographic stability of the country reflects the conditions of development and stable living standards, socio-economic factors, and a favorable ecological environment.

The demographic situation in the country is inextricably linked with the human capital development index. Life expectancy, level of education, and per capita income are interrelated and depend on births, deaths, population size, and demographic indicators of the level of social protection.

The national priorities for socio-economic development "Azerbaijan 2030" provide for strengthening social service systems, improving the ecological state of the environment, minimizing poverty and unemployment, along with economic development, ensuring a decent level of wages and a fair distribution of income.

The Heydar Aliyev Foundation conducts large-scale activities in social, educational, and medical projects, and being an example of strengthening partnerships between the government, the private sector, and civil society, it optimizes the implementation of state projects aimed at improving the quality of life of the population.

Successful government, a balanced socio-economic policy, and cooperation with civil society allow Azerbaijan to achieve stable demographic indicators and successfully implement the tasks of sustainable development of the state.

**Keywords:** *sustainable development, stability of demographic processes, national development priorities of Azerbaijan, Heydar Aliyev Foundation*

UOT 005; 007; 35.01; 658.01

# AZƏRBAYCANIN DAVAMLI İNKİŞAFI VƏ SİYASİ MENECMENT

**Ələkbərova N.İ.**

*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyasının*
*Politologiya və siyasi idarəetmə kafedrasının müdiri,*
*fəlsəfə elmləri doktoru, professor*
*e-mail: nigaralakbar@mail.ru*

*Məqalədə siyasi menecment Azərbaycanın davamlı inkişafının XXI əsrin tələblərinə uyğun olan təhsili kontekstində işıqlandırılır. Siyasi menecment sözün dar mənasında siyasi kampaniyaların idarə edilməsi problemini bütövlükdə əhatə etdiyindən bu fenomen siyasi menecmentin xüsusi növü qismində araşdırılır. Burada siyasi kampaniyaların mahiyyəti, fərqli cəhətləri, strukturu və layihələşdirilməsinin əsas mərhələləri, onların motivasiya prosesinin idarə edilməsi, insan davranışının motivasiya sahəsinə təsir göstərə bilən müxtəlif istiqamətləri ardıcıllıqla təhlil edilir.*

**Açar sözlər:** *Azərbaycanın davamlı inkişafı, XXI əsrin tələblərinə uyğun təhsil, siyasi menecment, siyasi kampaniyaların idarə edilməsi*

## Giriş

"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sırasında rəqabətli insan kapitalı prioritetinin uğurla reallaşdırılması ilk növbədə XXI əsrin tələblərinə uyğun təhsilin formalaşdırılmasını nəzərdə tutur[8]. Çünki ölkəmizin dünyada artan rəqabətə davam gətirə bilmək potensialının gerçəkləşdirilməsi hər bir sahədə, o cümlədən politologiya və siyasi idarəetmə sahəsində mütəxəssis hazırlığının təşkil edilməsi müasir və güclü təhsil sisteminə arxalanmalıdır. Strateji dövrdə innovativ kompetensiya, vərdiş və bacarıqların harmoniyada inkişafına əsaslanan təhsilin qurulması, peşə hazırlığı sisteminin modernləşdirilməsi tədbirləri çərçivəsində beynəlxalq sertifikatlara uyğun mütəxəssis hazırlanması, ali təhsil müəssisələrində beynəlxalq səviyyədə keyfiyyət baxımından rəqabətədavamlığın təmin olunması məqsədilə yüksək və yeni peşə bacarıqlarına malik insan kapitalının yaradılması heç şübhəsiz məxsusi önəm daşıyır. Bu baxımdan tamamilə aydındır ki, əksər qərb ölkələri universitetlərində müvafiq sahə üzrə ixtisaslaşan tələbələrə tədris olunan siyasi menecment siyasi fəaliyyətin əsas istiqamətlərindən biri kimi

Azərbaycanda da hərtərəfli öyrənilməli, tədris proqram və modullarına daxil edilməlidir. Siyasi menecmentin tədrisinin əsas vəzifəsi tələbələrin, doktorantların və müdavimlərin idarəçilik təfəkkürünün formalaşdırılması və təkmilləşdirilməsindən, siyasi menecment prosesində tələb olunan ənənəvi və innovativ bilik, bacarıq və kompetensiyaların aşılanmasından, eyni zamanda həmin prosesdə bilavasitə iştirak edən dövlət qulluqçuları və idarəçilərinin müasir tələbatlara uyğun hazırlanmasından ibarətdir. Bu da həmin məsələnin aktuallığını bir daha sübuta yetirir. Xüsusi vurğulanmalıdır ki, siyasi menecment sözün dar mənasında adətən siyasi kampaniyaların idarə edilməsi kimi başa düşüldüyündən və bütövlükdə həmin problemi əhatə etdiyindən məqalədə bu fenomen əsasən siyasi menecmentin fərqli növü qismində işıqlandırılır.

**Siyasi kampaniyaların mahiyyəti və fərqli cəhətləri**

Ən geniş kontekstdə siyasi kampaniya fenomeninə belə tərif vermək olar: "Siyasi kampaniya açıq-aşkar məcburetmə formalarını istisna edən metod və vasitələrlə müəyyən siyasi məqsədlərə çatmaq üçün siyasi aktor tərəfindən təşəbbüs edilən siyasi prosesdir" [4]. Buradan aydın olur ki, siyasi kampaniya siyasi menecmentdə ayrı bir idarəetmə prosesidir. Bu nöqteyi-nəzərdən siyasi kampaniyada ilkin impuls konkret siyasi aktordan, onun qarşıya qoyduğu siyasi məqsədə nail olmaq və bunun üçün müvafiq siyasi addımlar atmaq şəklində törəyir. Siyasi hərəkətə dair belə hazırlıq ilk öncə həmin siyasi məqsədə yetişmək barədə qəbul edilən qərarı praktikada gerçəkləşdirəcək qrupun yaradılmasında özünü büruzə verir. Siyasi menecmentdə bu qrup idarəetmə subyekti adlanır və siyasi kampaniyada aktiv rol oynayır. O, qərarları qəbul edir, onların gerçəkləşmə yollarını seçir, vəzifələri müəyyənləşdirir, məqsədləri dəqiqləşdirir, nəzərdə tutulan tədbirlərin yerinə yetirilməsini nəzarətdə saxlayır. Onun strategiya və taktikasının əsaslı olmasından siyasi kampaniyanın müvəffəqiyyəti əhəmiyyətli dərəcədə asılıdır. Bu təşkilatlanmış qrupun spesifik xüsusiyyəti ondan ibarətdir ki, o, konkret siyasi vəzifənin yerinə yetirilməsi üçün yaradılır. Siyasi menecmentdə vəzifələr qısa- və uzunmüddətli ola bildiyindən, yaradılan qrup ya müvəqqəti, ya da daimi əsaslarla fəaliyyət göstərə bilər. Birgə iş əsnasında qrup vahid ritmlə çalışan və sinergetik səmərəni təmin edən komandaya çevrilir.

Effektiv komandanın yaradılmasının bünövrəsini üç prinsip təşkil edir: optimal struktur, iştirakçıların fərdi qaydada seçilməsi, komandanın vahid ruh yüksəkliyi.

Siyasi kampaniyanın çox vacib xüsusiyyətlərindən biri də ondan ibarətdir ki, onun daxilindəki idarəçilik münasibətləri dövlət və siyasi təşkilat idarəçiliyinə xas olan strukturlaşmaya malik deyil. Bu münasibətlər siyasi kampaniyaya cəlb edilən insanlar tərəfindən idarəetmə – icra olunma münasibətləri

kimi qəbul edilir. İdarəetmə obyekti özünü hansısa öhdəliklərlə əli-qolu bağlanmış bir kəs qismində hiss etmir. Ona elə gəlir ki, o, tam müstəqil və azad surətdə hərəkət edir.

Bir qayda olaraq, siyasi kampaniya daxilində idarə edənlərlə idarə olunanların qarşılıqlı əlaqəsi birbaşa deyil, dolayısı, müxtəlif növ siyasi-texnoloji üsul və vasitələr sistemi yoluyla gerçəkləşdirilir. Məhz bu siyasi-texnoloji üsul və vasitələr mahiyyəti müxtəlif siyasi aktorların qarşılıqlı hərəkətlərinin ardıcıllıqla həyata keçirilən sisteminə əsaslanan siyasi kampaniyanın praktiki məzmununu təşkil edir.

Siyasi kampaniyanın nəzərdə tutulan planına görə, siyasi menecerlər tərəfindən təşəbbüs edilən qarşılıqlı əlaqələr sistemi siyasi idarəetmə subyektini ehtimal olunan məqsədə yaxınlaşdırmalıdır. Lakin təcrübədə siyasi kampaniyanın yekunu heç də həmişə istənilən məqsədə çatmaq olmur. Belə ki, birmandatlı seçki dairəsində bir neçə namizəd iştirak edə bilər, amma onlardan yalnız biri uğur qazanır. Bu səbəbdən siyasi kampaniyanın yekunu qarşıda qoyulan məqsədə çatmaq deyil, müəyyən nəticənin alınması hesab edilir.

Siyasi menecer məsələsinə gəldikdə, ilk əvvəl vurğulanmalıdır ki, siyasi kampaniyanın gedişatına və yaradılan komandaya ümumi rəhbərliyi məhz həmin menecer həyata keçirir. O, müstəqil siyasi fiqur deyil, qarşıya siyasi məqsədlər qoymur və siyasi qərarlar qəbul etmir. Onun əsas məqsədi – siyasətçiyə, dövlət rəhbərliyinə, digər marağı olan şəxslərə siyasi kampaniyaları təşkil etməyə və keçirməyə köməklik göstərməkdir. Siyasi menecerin funksiyaları aşağıdakılardır:

– siyasi kampaniyanın idarə edilməsini həyata keçirəcək komandanın yaradılması;
– qarşıda qoyulan siyasi məqsədin nail olunmasına aparan bütün vəzifələrin komanda tərəfindən yerinə yetirilməsinin təmin edilməsi;
– komandanın fəaliyyətinin koordinasiyasının təmin edilməsi. O, siyasi kampaniyanın layihəsinin işlənib hazırlanmasına, tədbirlər planının tərtib edilməsinə cavabdehdir və onların şərtsiz yerinə yetirilməsini təmin edir;
– komandada yaradıcı atmosferin formalaşdırılması ;
– komandada münaqişələrin qarşısının alınması və onun həmfikirlər kollektivi kimi işinin təmin ediməsi.

Sadalanan funksiyaların uğurla həyata keçirilməsi üçün siyasi menecer strateji təfəkkürə malik, siyasi kampaniyanın perspektivi və əsas problemlərini görməyə qadir, keçirilən bu kampaniya təşəbbüskarları (siyasətçilər və dövlət xadimləri) ilə normal münasibətlər qurmağı bacaran mütəxəssis olmalı, onların tam etimadını qazanmalıdır. Hətta sonuncu daha önəmlidir. Təsadüfi deyil ki, adətən seçki kampaniyalarında əksər siyasətçilər etimad meyarını peşəkarlıq meyarından üstün tutur və kampaniyanın aparılmasını ən yaxın adamlarına tapşırırlar.

Bundan başqa, siyasi menecer siyasətçi ilə səmərəli əməkdaşlıq etməli, onunla qarşılıqlı əlaqədə olmalı, daim onu siyasi kampaniyanın gedişatı, yaranan problemlər və s. barədə məlumatlandırmalıdır.

Nəhayət, siyasətçi ilə siyasi menecer arasında münasibətlər işgüzar ünsiyyət çərçivəsindən kənara çıxmamalı, bütün kampaniya boyu onların bu münasibətlərinin müntəzəm rəsmi xarakteri gözlənilməlidir.

İndi isə siyasi kampaniyanın strukturu və layihələşdirilməsinin əsas mərhələləri problemlərini təhlil edək.

**Siyasi kampaniyanın strukturu və layihələşdirilməsinin əsas mərhələləri**

İstənilən siyasi kampaniyanın strukturu elə labüd elementlər sırasından qurulur ki, onların əhəmiyyəti müəyyən şərtlərdən, o cümlədən siyasi menecment subyektlərindən, menecerlərin nəzəri-metodiki hazırlığından, siyasi komandanın səmərəliliyindən, lazımı resursların mövcudluğundan və s. asılıdır.

Bir qayda olaraq, siyasi kampaniya sosial-siyasi situasiyanı, kampaniyanın başlıca ideyasının qısaca və dürüst ifadə edilməsini, kampaniyanın layihəsi, resursları və müvafiq iştirakçılar komandasını daxil edir. Siyasi kampaniyanın layihələşdirilməsi və gerçəkləşdiriməsində baş rol onun subyektinə məxsusdur. Siyasi kampaniyanın səmərəliliyinin mühüm əhəmiyyətli şərtləri kimi onun strategiyası və taktikasının hərtərəfli əsaslandırılması, siyasi subyektin peşəkarlıq məharəti və yüksək hazırlıq səviyyəsi çıxış edir. Bütün bu şərtlər siyasi kampaniyanın layihələşdirilməsi və gerçəkləşdirilməsinin müxtəlif mərhələləri boyu ardıcıllıqla üzə çıxır. Siyasi kampaniyanın layihəsinin işlənib hazırlanması mərhələsi isə ən ciddi əhəmiyyətə malikdir.

Burada siyasi layihə siyasi menecerlərin nəzərdə tutulan (yaxud konkret siyasi subyekt tərəfindən sifariş edilən) siyasi məqsəd və vəzifələrin həyata keçirilməsi üzrə səylərinin təşkili üsulu kimi başa düşülür. Müəyyən siyasi niyyətin (planın) gerçəkləşməsi üçün istifadə edilən institusional forma onun real ifadəsidir. Deməli, siyasi layihələşdirmə siyasi menecmentin bir növüdür. Həmin növ çərçivəsində fəaliyyətin optimallaşdırılması strategiyaları işlənib hazırlanır, ən perspektiv qərarların alqoritmləri düşünülür, layihənin resurs bazası hesablanır, bütün kampaniyanın konkret planı tutulur və müvafiq icraçılar komandasının yaradılması şərtləri müəyyənləşdirilir. Bütövlükdə siyasi menecmentdən fərqli olaraq siyasi kampaniyanın layihələşdirilməsinin mənası bu, yaxud digər niyyətin praktiki təcəssümü ilə bağlı olan ən müxtəlif xərclər və başqa növ mümkün risklərin minimuma endirilməsidir. Siyasi kampaniyaların layihələşdirilməsi siyasi menecmentin ən vacib aspektlərindən biridir, hansı ki, siyasi idarəetmə fəaliyyətinin məqsəd və vəzifələrinin qoyulması, həm də metodlarının seçilməsi və müqayisəsi ilə bağlıdır. Bu isə layihənin işlənib hazırlanması və idarə edilməsi prosesinin alqoritmləşdirilməsini nəzərdə tutur.

Siyasi menecment sahəsində nəzəri işləmələr və daha çox siyasi idarəetmə praktikası hər bir siyasi kampaniya üçün layihə hazırlanmasının labüdlüyünü sübuta yetirir. Siyasi layihələşdirmənin lazımı qədər qiymətləndirilməməsi siyasi kampaniyanın gedişatı və nəticələrinə son dərəcə mənfi təsir göstərə bilər. Əvvəla, siyasi kampaniyanı həyata keçirən komandanın üzvləri kampaniyanın strateji məqsədlərinə müxtəlif cür baxa bilərlər. Hətta onların bir-birinə zidd olan gerçəkləşdirmə texnologiyalarına müraciəti belə istisna deyil. Bundan başqa, siyasi kampaniyanın təşəbbüskarları ictimai rəydən geri qalaraq ona uyğunlaşmaq, onun ardınca getmək məcburiyyətində ola bilər, halbuki insanların əhval-ruhiyyəsi, məslək və əqidəsinə aktiv təsir etmək həmin təşəbbüskarların başlıca vəzifəsidir. Lakin layihə seçki öncəsi mübarizənin bütün müddəti boyu edilən hərəkətlərin, atılan addımların vahid xəttini başa çatdırmağa real imkan verir.

Siyasi kampaniyanın layihələşdirilməsinin birinci mərhələsində hal-hazırda yaranmış siyasi situasiyanın təhlili, kampaniyanın siyasi məqsədlərinin dəqiqləşdirilməsi aparılır. Siyasi kampaniyanın layihəsi bir qayda olaraq belə strukturlaşdırılır. Həmin layihə: siyasi kampaniyanın strategiyası; siyasi kampaniyanın resurs təminatı;siyasi kampaniyanın taktikası və strategiyasının gerçəkləşməsinin aparıcı istiqamətləri, yolları və üsulları; icraçılar komandasına dair tələblər; siyasi kampaniyanın plan-qrafiki bölmələrini əhatə edən yazılı sənəddir.

Öz xarakterinə görə mürəkkəb siyasi kampaniyaların ümumi layihələrinə spesifik məqsədlərə istiqamətlənmiş "xüsusi" layihələr də daxil ola bilər. Bu növ layihələr, məsələn, seçicilərin ayrı-ayrı kateqoriyaları ilə məqsədyönlü işin aparılması tələbatı yarandıqda, rəqiblərin uğurlu siyasi fəaliyyətinin səmərəliliyini neytrallaşdırmaq lazım gəldikdə hazırlanır.

Siyasi kampaniyanın layihəsinin ümumi xarakteri və məzmunu bəzi tələbləri, o cümlədən əsaslandırılma, konkretlik və bu layihəyə çixişin (onunla tanış olmaq imkanının) məhdudiyyəti tələblərini irəli sürür.

Siyasi kampaniyanın layihələşdirilməsinin ikinci mərhələsində onun nüvəsini təşkil edən strategiya işlənib hazırlanır.

Siyasi kampaniyanın strategiyası – bu kampaniya nəticəsində təmin ediməli əsas məqsəd, həmin məqsədin əldə olunması prinsipləri və üsullarıdır. Strategiyada kampaniyanın əsas məqsədi dəqiq müəyyənləşdirilməlidir (bir qayda olaraq, siyasi kampaniyanın sifarişçiləri tərəfindən). Əsas məqsədə nail olmaq üçün reallaşdırılması lazım gələn əlavə məqsədlərin işlənib hazırlanması isə artıq siyasi menecerlərin vəzifəsidir. Burada ön plana idarəetmə məqsədlərinin qısa və dürüst ifadə edilməsi çıxır. Həmin məqsədlər insanların motivasiyasında, onların yönümlükləri və dəyər istiqamətlərində, siyasi subyektə münasibətlərində siyasi kampaniya rəhbərləri tərəfindən arzu olunan dəyişikliklərin müəyyənləşdirilməsini nəzərdə tutur. Başqa sözlə, idarəetmə

məqsədlərini ifadə etmək üçün “insanların motivasiyası necə olmalıdır ki, onlar idarəetmə subyektinə əlverişli olan davranış xəttini birmənalı seçsin?” sualına dəqiq cavab tapılmalıdır.

Siyasi kampaniyanın strategiyasının mütləq elementi – siyasi rəqiblər və müttəfiqlərlə işin əsas xəttinin müəyyənləşdirilməsidir. “Siyasi kampaniyanın strategiyası” adlı yazılı sənədin strukturu aşağıdakı elementləri daxil edə bilər: kampaniyanın əsas siyasi məqsədi; başlıca idarəetmə məqsədləri; ünvanlı qruplar; kampaniyanın əsas mövzusunun (kommunikasiya təsirinin mövzusu) qısa və dürüst ifadə edilməsi; kampaniyanın ən vacib problemlərinin xülasəsi; rəqiblərlə münasibətə dair strategiyanın müəyyənləşdirilməsi; ümumi strategiyanın dəqiqləşdirilməsi və korrektə edilməsi.

Real sosial-siyasi situasiyanın öyrənilməsi strategiyaya başqa müddəaların salınmasını mümkün edir. İstənilən halda menecer strategiyanı işləyib hazırlayarkən institusional məkanın, əhalinin konkret qruplarının sosial xüsusiyyətlərini, planlaşdırılan siyasi kampaniyanın gerçəkləşdirilməsi ehtimal edilən ərazidə siyasi kommunikasiyanın spesifikasını nəzərə almalıdır.

Siyasi kampaniyanın layihələşdirilməsinin üçüncü mərhələsi onun resurs təminatı ilə bağlıdır. Siyasi kampaniyanın resurs təminatı anlayışı kadr təminatını (insan resursları), ictimai dəstək elementlərini (ictimai təşkilatlar, QHT-lər, biznes-birlikləri və s.), maliyyə vəsaiti, texniki və nəqliyyat təminatı, əlaqə vasitələri, kütləvi media strukturlarını və s. daxil edir. Bunlar barədə qısaca məlumat verək.

İnsan resursları iki əsas qrupa – könüllülərə və işə götürülmüş heyətə bölünür. Könüllü fəaliyyətlə məşğul olan insanların motivləri müxtəlif ola bilər. Belə ki, hazırda peşəkar könüllülük, yəni seçilmiş peşə üzrə təcrübənin alınmasına yönəlmiş fəaliyyət kifayət qədər geniş yayılmışdır. Məsələn, gələcək sosioloqlar, psixoloqlar, politoloqlar, hüquqşünaslar, pedaqoqlar peşə bacarıqlarını əldə etmək üçün könüllülər hərəkatını seçirlər. Könüllülərin digər kateqoriyası kütləvi faydalı işlə (ərazinin təmizlənməsi, ağacların əkilməsi və s.) bağlı olan ictimai könüllülükdür. Bu növ işin məqsədi yeni insanlarla tanışlıq, ünsiyyət və cəmiyyətə köməkdir. Get-gedə virtual könüllülük – ev şəraitində pulsuz internet-iş geniş yayılır.

Siyasi kampaniyanın tədbirlərinin maddi dəstəyini təmin etmək üçün (əlaqə vasitələri, nəqliyyat, mətbəə xidmətləri və s.) tez-tez onun müvəffəqiyyətlə başa çatmasında maraqlı olan biznes-strukturlar iştirak edir. Həmin istiqamətdə menecer işi əvvəlcədən planlaşdırılır və daim korrektə edilir.

Kampaniyanın resurs təminatının ən mürəkkəb istiqamətlərindən biri onun maliyyə təminatıdır. Müasir menecmentdə bu iş fandrayzinq (ingiliscə fund-vəsait, maliyyələşdirmə, raize-tapmaq, yığmaq) adlanır. Siyasi kampaniya üçün vəsaitin axtarışı prosesi çox çətin və adətən uzunmüddətli olduğundan əsaslı hazırlıq tələb edir.

Siyasi kampaniyanın layihələşdirilməsinin dördüncü mərhələsi kampaniya taktikasının işlənib hazırlanması ilə bağlıdır.

Taktika siyasi kampaniyanın başlıca vəzifələrinin (məsələlərinin) həll edilməsi üsulları və vasitələrinin cəmidir. Siyasi kampaniyanın strategiyası və taktikasının arasındakı fərq ondan ibarətdir ki, strategiya həmin kampaniyanın məzmununu izah etməli, taktika isə "bunu necə, hansı məntiq və zaman ardıcıllığı ilə yerinə yetirək?" suallarını cavablandırmalıdır. Əksər hallarda kampaniyanın taktikası yazılı sənəd formasında hazırlanır. Yaxşı düşünülmüş taktika siyasi kampaniyanın iştirakçılarının hamısına hərəkət alqoritmini tapmağa və strategiyanın gerçəkləşməsini təmin etməyə imkan verir. Taktikanın işlənib hazırlanması kampaniyanın menecerlərindən xüsusi bacarıq tələb edir, çünki taktika bütün mövcud resursların bölüşdürülməsi ilə bağlıdır. Hazırda siyasi kampaniya taktikasının hazırlanmasına dair vahid yanaşma hələ yoxdur. Belə taktikanın ən geniş istifadə olunan modelinin istiqamətləri aşağıdakılardır: təşkilati struktur; kampaniyanın plan-qrafiki; yerlərdə iş; ictimaiyyətlə əlaqələrin qurulması; kampaniyanın maliyyələşdirilməsinin təşkili.

Siyasi kampaniyanın beşinci mərhələsi onun aparılması çərçivəsində bütün tədbirlərin planlaşdırılması ilə bağlıdır. Kampaniya taktikasının işlənib hazırlanmasından sonra layihələşdirilmə bu kampaniyanın konkret seçki planına transformasiya edilir. Seçki kampaniyasının planı onun məkan və zaman daxilində keçirilməsini dəqiqləşdirən yazılı sənəddir. Planda bütün addımların, tarixlərin, tədbirlərin, məsul şəxslərin və s. təfərrüatı ilə qeyd olunması onu əldə rəhbər tutulan işçi sənəd edir. Kampaniyanın ümumi planı əsas qrafiklərin, o cümlədən: şəbəkə qrafiki; maliyyə qrafiki; ictimaiyyətlə görüşlərin qrafiki; kütləvi mediada materialların dərc edilməsinin başlanılması və dayandırılması qrafiki; siyasi reklam tədbirləri kompleksinin keçirilməsi qrafikinin tərtib edilməsi üçün istifadə olunan yeganə sənəddir.

Planın işlənib hazırlanmasına peşəkarcasına yanaşmaq, onu tənqidi surətdə təhlil etmək və siyasi kampaniyanın iştirakçıları ilə razılaşdırmaq lazımdır. Əks-təqdirdə o, işlək olmayacaq. Aydındır ki, istənilən siyasi kampaniya özünəməxsusluğu ilə seçilir. Buna görə kampaniya planının tərtib edilməsi siyasi menecerlərin peşəkarlıq səviyyəsi və bacarıqlarının göstəricisi olan yaradıcı prosesdir. Planda kampaniyanın ideyaları elə konkret hərəkətlər dilinə çevrilir ki, onları qarşıda qoyulan siyasi məqsədə çatmaq üçün komandanın bütün üzvləri bilməlidirlər.

**Siyasi kampaniyalarda motivasiya prosesinin idarə edilməsi**

Siyasi kampaniyalarda iştirak könüllü məsələdir. Kimsə seçki məntəqəsinə gedib müəyyən namizədə səs vermək istəməsə, onu bu işi yerinə yetirməyə güclə məcbur etmək mümkün deyil. Lakin siyasi kampaniyanın idarəetmə subyektində insanı seçkiyə getməyə inandırmaq, yaxud həvəsləndirmək

imkanı həmişə var. Bu imkanı gerçəkləşdirmək üçün insanlarda hər hansı hərəkətlərə təkan verən motivlərin necə formalaşmasını mütləq bilmək gərəkdir.

Xüsusi vurğulanmalıdır ki, hər bir siyasi kampaniyada siyasi məqsədlərlə yanaşı spesifik idarəetmə məqsədləri də mövcuddur. Sonuncular idarəetmə təsirinin obyekti olan insanların motivasiya sahəsinin arzu edilən vəziyyətini müəyyənləşdirir. Çox önəmlidir ki, idarəetmə məqsədlərinin məzmunu siyasi məqsədlərdən asılıdır, amma heç vaxt onlarla tam üst-üstə düşmür. Siyasi məqsədlər siyasi menecmentə insanların motivasiya sahəsinə istiqamətlənmiş, nəzarətdə saxlanılan, təşkil olunmuş təsir prosesi kimi baxmağa imkan verir.

Müasir siyasi psixologiyada insanların siyasi davranışını izah edən bir-neçə nəzəri-metodoloji konsepsiya yaranıb. Bunların hər biri nəinki motivasiya proseslərini izah edir, eyni zamanda siyasi texnoloqlara bu, yaxud digər situasiyada hansı təsir metodlarının daha səmərəli olmasını göstərir. Həmin konsepsiyaların ən əhəmiyyətliləri F.Skinnerin operant öyrənmə nəzəriyyəsi, şəxsiyyətin dispozisiya nəzəriyyələri, motivasiyanın situasionist nəzəriyyəsi, strukturalist nəzəriyyə, sosial-psixoloji nəzəriyyə, rasional seçim nəzəriyyəsi və koqnitiv nəzəriyyədir. Amma siyasi hərəkətlərin motivasiyasını işıqlandıran xüsusilə maraqlı nəzəriyyə məhz sonuncu - koqnitiv nəzəriyyə hesab edilir. Bu nəzəriyyə insan davranışını elə mürəkkəb psixi proseslərin nəticəsi kimi izah edir ki, həmin proseslər ona yaranmış vəziyyəti başa düşməyə və bundan irəli gələrək hərəkət etməyə imkan verir. Başqa sözlə, koqnitiv nəzəriyyə siyasi davranışa fərdin duyduğu koqnitiv proses, yəni sosial informasiyanın qavranılmasını, onun dərk edilməsini və bunun əsasında müəyyən qərarın qəbul edilməsini təmin edən mental reaksiyaların və təfəkkür aktlarının hansısa ardıcıllığının nəticəsi kimi baxır. Xarici mühitdən gələn informasiyanın fərd tərəfindən qavranılması, qiymətləndirilməsi və işləməsinin psixoloji mexanizmlərinin elmi izahı ilk növbədə koqnitiv nəzəriyyə çərçivəsində yaranmışdır. Siyasi kampaniyalarda motivasiyaya əsas təsiretmə üsulu informasiya təsiri olduğundan, koqnitiv nəzəriyyə həqiqətən bu kampaniyalarda kommunikasiya proseslərinin rasional surətdə qurulmasının elmi əsaslandırılmasını təmin edir.

Siyasi kampaniyanın təşkilatçısı üçün insan tərəfindən informasiyanın necə qəbul edilməsini bilmək çox vacibdir, çünki siyasi layihəni gerçəkləşdirən komandanın əsas səyləri müxtəlif növ məlumatların (xəbərlərin) yaradılmasına yönəlir. Həmin məlumatlar vasitəsilə siyasi texnoloqlar mövqeləndirilən siyasi aktorların müsbət obrazının (imicinin) quraşdırılması, siyasi davranış modellərinə yönümlüklərin formalaşdırılması, siyasi qərarların qəbul edilməsinə təsir kimi məsələləri həll edirlər. Qavrama bir informasiyanın şüurlu, yaxud şüursuz seçiminin və digərinin nəzərə alınmamasının psixofizioloji prosesi olan diqqətin köməkliyi ilə aktivləşir.

Diqqətlə eyni vaxtda daha bir mental proses – insana ayrı-ayrı əlamətlər, cizgilər əsasında xarici obyektləri fərqləndirməyə, yaxud eyniləşdirməyə imkan verən kateqorizasiya prosesi işə salınır. Kateqorizasiya (hansısa koqnitiv struktura, yəni kateqoriyaya aid edilmə) mexanizmi belə işləyir: diqqəti çəkən informasiya fərdin uzunmüddətli yaddaşında saxlanılan koqnitiv strukturlarla əlaqələndirilir və bunun əsasında obyektin, situasiyanın müəyyənləşdirilməsi baş verir.

Bir çox hallarda insan informasiyanın natamamlığı ilə rastlaşır, bu da ona təzahürü yaddaşındakı koqnitiv strukturlarla birmənalı əlaqələndirməyə imkan vermir. Belə halda yaranan ikimənalılığı aradan qaldırmaq və müxtəlif təzahürlər arasında qarşılıqlı əlaqəni anlamaq üçün insan informasiya boşluqlarını doldurmağa can atır (hərçənd bu can atma onun tərəfindən heç də tamamilə dərk edilmir). Həmin mental proses atribusiya adlanır. Atributiv proseslər situasiyanı daha həcmli qurmağa köməklik göstərir, çünki onların vasitəsi ilə çatışmayan məntiqi əlaqələr şüurda bir sıraya düzülür. Atributiv proseslər də təhtəlşüur səviyyəsində ötüb keçir, insanın şüuru isə artıq atribusiyanın izahedici sxem və hökm şəkli alan nəticələri ilə işləyir. Atribusiyanın köməkliyi ilə insan siyasət dünyasının qavranılmasının tamlığını və qeyri-ziddiyyətliliyini saxlaya bilir.

İnformasiyanın qavranılması onun şüurda sonrakı işlənib hazırlanması üçün zəmin yaradır. Psixologiyadan bəllidir ki, sosial informasiyanın qavranılmasının iki: aktiv (mərkəzi) və passiv (qeyri-mərkəzi, periferiya) üsulu var. Mərkəzi üsul fərd tərəfindən alınan informasiyanın dərin işlənib hazırlanmasını nəzərdə tutur. Bu da alınan məlumatı diqqətlə, əsaslı surətdə düşün-məyə, dəlillərin məntiqini dərk etməyə, onların vəziyyəti və keyfiyyətini dəyərləndirməyə səy göstərməkdən ibarətdir. Resipiyent öz diqqətini arqumen-tasiya üzərində cəmləşdirir, müxtəlif informasiyanın mümkün qədər hərtərəfli təhlilinə can atır. Məsələn, seçkilərdə bir neçə namizədin iştirak edəcəyi barədə məlumat aldıqda, insan onların hər biri haqqında daha çox informasiya toplamağa, proqramlarını təhlil etməyə, hansı siyasi qüvvələrlə bağlı olduğunu bilməyə çalışır. Periferiya üsulu informasiyanın səthi işlənməsini nəzərdə tutur. Bu zaman fərd məlumatın məzmununu dərindən dərk etməyə səy göstərmir, əsas olmayan və təsadüfi amillərə, məsələn, natiqin xarici görünüşünə, onun geyiminə, vizual reklam xəbərinin rəng ahənginə və s. diqqət yetirir. Burada insan daha çox hisslərinə arxalanır, ilkin kateqorizasiya və atribusiyanın nəticələrini tənqidi təhlil etmir.

Elmi təcrübə göstərir ki, informasiyanın işlənməsinin mərkəzi üsulu dayanıqlı siyasi məsləklərin formalaşmasına köməklik göstərir, periferiya üsulu isə çox tez ötüb keçən, yəni yeni informasiyanın təsiri altında asanlıqla dəyişən mülahizələrə səbəb olur. Resipiyent tərəfindən informasiyanın işlənməsinin bu, yaxud digər üsulunun seçilməsinə ilk növbədə həmin informasiyanın subyektiv əhəmiyyətliliyi təsir edir.

Siyasi kampaniyanı keçirən menecer (texnoloq) yadda saxlamalıdır ki, ayrı-ayrı insanlara və böyük sosial qruplara (kütlələrə) səmərəli təsir yalnız motivasiyanın idarə edilməsi imkanlarını və məhdudiyyətlərini bildikdə mümkündür.

Siyasi kampaniyalarda motivasiyanın idarə edilməsi imkanları. Siyasi kampaniyaları keçirdikdə siyasi texnoloqların səyləri aşağıdakı istiqamətlərdə tətbiq edilməlidir: diqqət maneəsinin aşılması (dəf edilməsi); adekvat kateqorizasiyanın təmin edilməsi; koqnitiv dissonans problemlərini bilmə; informasiyanın yadda saxlanılmasının təmin edilməsi; informasiyanın işlənib hazırlanmasının mərkəzi və periferiya xüsusiyyətlərini bilmə.

Beləliklə, müasir elm siyasi texnoloqlara insanların motivasiya sahəsinə və nəticə etibarilə maraqlı olduqları hərəkətlər etmələrinə müxtəlif təsir imkanlarını açır. Eyni zamanda, onları imkanlarının şişirdilməsindən çəkindirərək göstərir ki, xarici informasiya təsirinin tamlığını mümkünsüz edən bir sıra məhdudiyyətlər mövcuddur. Həmin məhdudiyyətlərə aşağıdakılar aiddir:

– hərtərəfli dərketmə üçün başqa insanın daxili aləminin nisbi çətinliyi (əlçatmazlığı). Siyasi texnoloqlarda insanların dəyər istiqamətləri, baxışları, etiqadları, yönümlükləri barədə həmişə təxmini bilgilər var və bu səbəbdən onların müəyyən səhvlərə yol verməlvaleri qaçılmazdır;
– insanların yaddaşında saxlanılan koqnitiv strukturların və onların təşkili üsullarının fərdi, özünə görə unikal dəsti. Siyasi texnoloqlar, bir qayda olaraq, əhalinin böyük massivlərinə (seçicilərə, siyasi hərəkat tərəfdarlarına və b.) təsir etdikləri üçün, onlar konkret fərdləri deyil, hansısa orta, abstrakt şəxsiyyəti nəzərdə tutmağa məcburdurlar. Həmin şəxsiyyət öz motivasiya strukturunda yalnız ən geniş yayılmış, bir çox insan üçün tipik xüsusiyyətləri akkumulyasiya edir ki, bu da idarəçilik təsirinin effektini kəskin surətdə azaldır;
– şəxsiyyətin koqnitiv strukturlarının dəyişkənliyi. İnsanlar xarici ətrafın təsiri altında öz dəyər istiqamətləri və üstünlüklərinə yenidən baxmağa meyillidirlər. Onların baxışları dəyişir, yeni maraqları əmələ gəlir. Əlbəttə, kütlələrin əhval-ruhiyyəsinin dəyişməsini ictimai rəyin monitorinqi vasitəsi ilə izləmək mümkündür. Lakin onun keyfiyyətli keçirilməsi çox zəhmət tələb edən elə işdir ki, bunu bəzən böyük siyasi təşkilatlar da həyata keçirmək iqtidarında deyil. Bundan başqa, cəmiyyət həyatında hərdənbir kütləvi əhval-ruhiyyə qeyri-dayanıqlı xarakter ala bilir və belə olan təqdirdə hətta yaxşı təşkil olunmuş monitorinq xidməti kütlələrin gözləntiləri, hissləri və arzularını dəqiq müəyyənləşdirə bilmir. Demək, siyasi kampaniyalarda çox vaxt siyasi texnoloqlar müəyyən yönümlük və məsləklərə təsir etmək üçün cəhd göstərir, halbuki insanların hərəkətlərinin əsasını artıq yeni baxışlar və maraqlar təşkil edir;

– psixikanın fərdi xüsusiyyətləri. İnsanlar hətta məzmunca oxşar koqnitiv strukturlara (bir-birinə bənzər rəylərə, məsləklərə, dəyər oriyentasiyalarına) sahib olsalar belə, bu heç də o demək deyil ki, müəyyən situasiyalarda onlar eynitipli hərəkətlər edəcək. Çünki sensitivlik, rigidlik, emosional vəziyyət, intellekt xüsusiyyətləri kimi fərdi psixoloji xarakteristikalar insanların eyni sosial informasiyaya reaksiyalarını şaxələndirir.

Beləliklə, siyasi davranış motivasiyasının idarə edilməsi bir sıra ciddi məhdudiyyətlərə malikdir və siyasi texnoloqların insanların davranışına təsir imkanları heç də tam əhatəli deyil.

Motivasiya proseslərinin idarə edilməsi insanları siyasi kampaniyaya cəlb etmək və qarşıda qoyulan məqsədlərə cavab verən hərəkətlərə təhrik etmək niyyəti ilə onların motivasiya sahəsinə istiqamətlənmiş təsirdir. Motivasiya sahəsi insanın aktivliyinə nüfuz edən psixi strukturların və psixi proseslərin mürəkkəb sistemi olduğu üçün ona müxtəlif istiqamətlər üzrə təsir göstərilə bilər.

Birinci istiqamət – motivasiya sahəsində elə dayanıqlı strukturların məqsədyönlü yaradılmasıdır ki, bunlar özləri müəyyən siyasi şəraitdə siyasi davranış modeli ola bilsin. Bu cür dayanıqlı strukturlara yönümlüklər, dəyər istiqamətləri və stereotiplər aiddir.

Yönümlükləri müəyyən davranış modelinə meyilliliyi formalaşdıran affektiv-koqnitiv strukturlar kimi xarakteriza etmək olar. Müsbət yönümlüyü yaratmaq vətəndaşlara siyasi aktor barədə elə informasiyanı təklif etmək deməkdir ki, həmin informasiya onlarda bu aktora qarşı güclü rəğbət hissi oyatsın və beləliklə elektoral, yaxud başqa bir dəstək göstərməyə vadar edə bilsin.

Yönümlüklərdən fərqli olaraq, dəyərlər insanı konkret siyasi fiqurları dəstəkləməyə istiqamətləndirən bilavasitə motiv deyil. Dəyərlər siyasi aktorların qiymətləndirməsinin müəyyən bir vektorunu verir. Məsələn, əgər kütləvi şüurda liberal dəyərlər kök salıbsa, onda insanlar siyasi aktorların hərəkətlərinə azadlıq, hüquqi dövlət, ideoloji plüralizm və s. uyğun dəyərlər nöqteyi-nəzərindən baxaraq onları qiymətləndirəcəklər. Belə olan təqdirdə çox güman ki, əksər səslər kommunist, yaxud millətçi-şovinist şüarları ilə çıxış edən namizədlərə deyil, məhz liberal yönümlü namizədlərə veriləcək.

Stereotiplərin formalaşdırılması rəqiblərin mövqeyini zəiflətmək fikrində olan siyasi qüvvələri maraqlandıra bilər. Burada stereotip ayrı-ayrı xüsusiyyətləri və keyfiyyətləri qabardılan hansısa obyektin ifrat dərəcə bəsitləşdirilmiş sxematik obrazıdır. Məsələn, seçki dairəsində "bütün sahibkarlar əliəyridir, fırıldaqçıdır" stereotipinin aktiv yeridilməsi sahibkar namizədə əksər səslərin qazanılmasında mane ola bilər.

Yuxarıda sadalanan bütün məsələlər gərgin və uzunmüddətli iş tələb edir, çünki yönümlüklər, dəyərlər və stereotiplər kütləvi şüurda bir anda formalaş-

mır. Bunun üçün müvafiq informasiya kifayət qədər davamlı zaman ərzində geniş yayılmalıdır. Lakin siyasi kampaniyanın gedişatında adətən qısa müddətdə motivasiyaya təsir etmək lazım gəlir. Belə halda artıq formalaşmış motivləri aktuallaşdırmaq və (yaxud) onların yeni obyektlərə dair səmtini dəyişdirmək istiqamətində iş getməlidir.

Motivasiyanın idarə edilməsinin ikinci istiqamətinin mənası insanda mövcud motivasiya strukturlarını aktivləşdirmək, situasiyanın dərk edilməsinin fərdi psixi proseslərini idarəetmə subyekti üçün arzuolunan məcraya yönəltməkdən ibarətdir. Qısamüddətli siyasi kampaniyalarda (məsələn, seçki kampaniyalarında) motivasiyanın belə idarə edilməsi tez-tez onun əsas növü olur. Bu yol seçildikdə, siyasi texnoloqlar bir sıra məsələləri həll etməlidirlər.

Əvvəla, söhbət "mürgüləyən motivin" aktuallaşdırılmasından gedir. Yəni siyasi texnoloq başqa məsələlərə üstünlük verən insanları seçki kampaniyasına cəlb etmək üçün elə etməlidir ki, konkret vaxtda iştirak motivi insanlarda gündəlik qayğılardan və digər problemlərdən daha vacib olsun. İkincisi, "qeyri-siyasi" motivi aktuallaşdırmaq mümkündür. İnsanlar çox vaxt siyasətə birbaşa aidiyyəti olmayan motivlərin təsiri altında siyasi hərəkətlər edir, məsələn, əksəriyyət tərəfindən dəstəklənən namizədə səs verirlər. Yəni formalaşmamış ideoloji baxışlar, siyasi həvəsin olmaması heç də insanların siyasi fəaliyyətdən kənarlaşdırılması üçün səbəb deyil. Hansısa "qeyri-siyasi motivləri" aktuallaşdıraraq bu insanları siyasi iştirakla bağlı hərəkətə gətirmək mümkündür. Hətta siyasi fəaliyyətə spontan qoşulma idarəetmə subyektinə lazım olan siyasi yönümlüklərin formalaşdırılmasının başlanğıcı ola bilər. Buna görə də motivasiyaya təsirin sözügedən üsulu siyasi kampaniyalarda geniş istifadə olunur.

İnsanı müəyyən hərəkətə vadar etməyin digər üsulu həmin insan tərəfindən mövcud olduğu situasiyanın qavranılmasına təsir etməkdir. Bizim əksər əməllərimiz situasiyanın məhz subyektiv interpretasiyasından asılıdır. Biz öz ətrafımızdakı vəziyyəti necə qəbul ediriksə, o cür də hərəkət edirik. Məsələn, vəziyyət təhlükəli kimi qavranılırsa, onda insan bu təhlükənin səviyyəsini aşağı sala bilən, sabitliyi və rifahı qaytarmaq iqtidarında olan kəsi dəstəkləməyə meyillidir. Deməк, əgər eyni vaxtda cəmiyyətdə qorxu hissi artırılır və müəyyən siyasi aktor "xilaskar" kimi mövqeləndirilirsə, onda aktuallaşdırılmış təhlükəsizlik tələbatı çox güman ki, bu aktorun dəstəklənməsi məcrasına yönəldiləcək.

**Nəticə**

Beləliklə, insanları siyasi kampaniyada fəal iştiraka cəlb etmək, onlarda bu kampaniyanın məqsədlərinə uyğun hərəkətə dair həvəs oyatmaq üçün siyasi texnoloqlar onların dəyər istiqamətlərini, yönümlüklərini formalaşdırmalı və (yaxud) dəyişməlidirlər. Ya da siyasi texnoloqlar bu insanlar tərəfindən konkret situasiyanın qavranılmasına elə təsir göstərməlidirlər ki, belə təsir müəyyən

şəraitdə tələb olunan siyasi aktivliyi törədə biləcək digər motivlərin aktuallaşdırılmasına gətirib çıxarsın. Qeyd edək ki, təcrübədə adətən hər iki göstərilən istiqamətdə işləmək lazım gəlir.

**Ədəbiyyat:**


1. Robbins Stiven, Koulter Meri, De Senzo Devid. İdarəetmənin əsasları(ingilis dilindən tərcümə).Bakı: TEAS Press Nəşriyyat evi,2019
2. Володенков С.В. Управление современными политическими кампаниями. Москва: Изд-во МГУ,2012
3. Государственная политика и управление./ Под ред. А.И. Соловьева. Москва: Изд-во Аспект Пресс,2018
4. Пушкарева Г.В. Политический менеджмент: учебник и практикум для академического бакалавриата. Москва: Изд-во “ Юрайт”, 2018
5. Семенов В.А., Колесников В.Н. Политический менеджмент: Учебное пособие. Стандарт третьего поколения. Для бакалавров. СПБ: Питер,2012
6. Agranoff R., Mc Guire M. Collaborative Public management: New Strategies for Local Governments. Washington D.C.: Georgetown University Press, 2003
7. http://24megabit.ru/az/raschety/politicheskii-menedzhment-struktura-i-vidy-chto-takoe-politicheskii-menedzhment.html
8. https://president.az/az/articles/view/50474


## ABSTRACT

## POLITICAL MANAGEMENT AND SUSTAINABLE DEVELOPMENT OF AZERBAIJAN


**Alakbarova N.I.**
*Head of Political Science and Political Management Department*
*The Academy of Public Administration*
*under the President of the Republic of Azerbaijan*
*Doctor of Philosophy Sciences, professor*



The article highlights political management in the context of education, meeting the requirements of sustainable development of Azerbaijan in the XXI century. As political management in a narrow sense covers the problem of management of political campaigns, this phenomenon is studied as a particular type of political management. Essence, distinctive features, structure, and main

stages of a political campaign are projected; motivation of their management processes; different directions of impact on the motivational aspect of human behavior are being consecutively analyzed.

**Keywords:** *sustainable development of Azerbaijan, education meeting requirements XXI century, political management, management of political campaigns*

## РЕЗЮМЕ

## ПОЛИТИЧЕСКИЙ МЕНЕДЖМЕНТ И УСТОЙЧИВОЕ РАЗВИТИЕ АЗЕРБАЙДЖАНА

**Алекперова Н.И.**
*Заведующая кафедрой политологии и политического управления*
*Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики,*
*доктор философских наук, профессор*

В статье политический менеджмент освещается в контексте образования, соответствующего требованием устойчивого развития Азербайджана в XXI веке. Поскольку политический менеджмент в узком смысле слова в целом охватывает проблему управления политическими кампаниями, постольку данный феномен исследуется в качестве особого вида политического менеджмента. Здесь последовательно анализируются сущность, отличительные черты, структура и основные этапы проектирования политических кампаний, мотивация процессов их управления, различные направления воздействия на мотивационную область поведения человека.

***Ключевые слова:*** *устойчивое развитие Азербайджана, образование, соответствующее требованиям XXI века, политический менеджмент, управление политическими кампаниями*

UOT 351.07/.08

# DÖVLƏTİN EKOLOJİ SİYASƏTİNİN HƏYATA KEÇİRİLMƏSİNDƏ İCRA HAKİMİYYƏTİ ORQANLARININ ROLU

**Məmmədova S.İ.**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası,*
*siyasi elmlər doktoru, dosent*
*e-mail: smammedova10@rambler.ru*

*Məqalədə müasir dövlətin funksional təyinatı çərçivəsində reallaşdırdığı ekoloji siyasətin həyata keçirilməsi mexanizmində icra hakimiyyəti orqanlarının rolu araşdırılır. Ekoloji qanunvericiliyinin ekoloji idarəetmə fəaliyyəti kontekstində həmin orqanların üzərinə qoyduğu vəzifələr və funksiyalar praktik aspektlərdən konkretləşdirilərək nəzərdən keçirilir, onların məcmu şəklində ekoloji-hüquqi mexanizmini təşkil etdiyi göstərilir. Ekoloji sahənin dövlət tənzimlənməsinin mahiyyəti açıqlanır, bu sahədəki təcrübənin təkmilləşdirilməsinə yönələn məqsədəmüvafiq tədbirlər təklif edilir. Azərbaycan Respublikasının və bir sıra digər dövlətlərin təcrübəsinə istinad edilərək icra hakimiyyəti orqanları tərəfindən dövlətin ekoloji funksiyasının reallaşdırılması, bu sahədə dövlət idarəçiliyi orqanları sisteminin formalaşdırılması və inkişaf etdirilməsi təhlil olunur. Bu zaman Azərbaycanda həmin orqanlar sisteminin təkmilləşdirilməsinin nəticəsi olaraq ölkə Prezidentinin Fərmanı ilə yaradılmış Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, dövlətin ekoloji siyasətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı kimi, funksiya və vəzifələri, struktur baxımından orqanlar sistemi təqdim edilir. Məqalə Azərbaycanda ekologiya sahəsinin məqsədli proqramlar vasitəsilə idarə edilməsinin praktiki aspektlərinin təhlil olunması, ümumiləşdirmiş müddəalar və tövsiyələrin irəli sürülməsi ilə başa çatdırılır.*

**Açar sözlər:** *dövlətin ekoloji siyasəti, həyata keçirilməsi mexanizmi, dövlət idarəçiliyi, icra hakimiyyəti orqanları, funksiyalar, məqsədli ekoloji proqramlar*

## Giriş

Ətraf mühitin mühafizəsi və təbiətdən istifadə prosesində tətbiq olunan mexanizmlərin səmərəliliyinin təmin edilməsi bu sahədə dövlət idarəçiliyinin zəruriliyini şərtləndirir və dövlətin ekoloji funksiyasının məzmununu müəyyən edir. Dövlətin ekoloji funksiyasının təyinatı cəmiyyətin ekoloji və iqtisadi maraqlarının elmi cəhətdən əsaslandırılmış nisbətinin təmin edilməsindən, insanın sağlam və yaşayış üçün əlverişli ətraf mühitə hüququnun reallaşması üçün

zəruri təminatların yaradılmasından ibarətdir. Dövlətin bu funksiyasının reallaşmasına yönələn ekoloji siyasətinin həyata keçirilməsi mexanizmində icra hakimiyyəti orqanlarının rolu xüsusi əhəmiyyət kəsb edir. Tədqiqat mövzusunun aktuallığı icra hakimiyyəti orqanlarının fəaliyyətinin müxtəlif aspektlərdən öyrənilməsinə marağın artması ilə şərtlənir. Bu sahədə Azərbaycan Respublikasının və dünya ölkələrinin təcrübəsi də maraq doğurur.

**İcra hakimiyyəti orqanlarının fəaliyyətinin ekoloji-hüquqi mexanizmi**

Müasir dövlətin ekoloji funksiyasının reallaşması çərçivəsində ekoloji qanunvericiliyin yaradılması və təkmilləşdirilməsi qanunvericilik hakimiyyətinin üzərinə qoyulan başlıca vəzifədir. Bu, parlamentin cəmiyyətin ümumi ekoloji maraqlarını təmsil etmək kimi funksional təyinatından irəli gəlir. Ətraf mühitin mühafizəsinin təmin olunmasında icra hakimiyyəti orqanlarının isə rolu onların ekoloji qanunvericiliyin həyata keçirilməsi mexanizmində yeri ilə müəyyən olunur. Hakimiyyətlərin bölgüsü prinsipinə müvafiq olaraq dövlət hakimiyyətinin müstəqil qolu kimi icra hakimiyyətinin rolu ekoloji qanunvericiliyin icrasının ardıcıl və səmərəli surətdə təmin edilməsindən ibarətdir. Bütün dövlətlərdə ekoloji qanunvericiliyin icrası aktual problemə çevrildiyi müasir şəraitdə dövlət idarəetməsi orqanları kimi icra hakimiyyəti orqanlarının fəaliyyəti bu qanunvericilikdən irəli gələn idarəetmə vəzifələri və funksiyalarının yerinə yetirilməsinə yönəlir. Bir çox ölkələrin təcrübəsi göstərir ki, məhz icra hakimiyyəti orqanlarının bu istiqamətdəki fəaliyyətində çatışmazlıqlar ölkədə ekoloji böhranı şərtləndirən əsas səbəblərdən biri olur.

Ekoloji qanunvericiliyin həyata keçirilməsində icra hakimiyyəti orqanları qarşısında iki bir-biri ilə qarşılıqlı əlaqədə olan vəzifə durur: birincisi, ətraf mühitin mühafizəsi sahəsində xüsusi səlahiyyətli dövlət orqanlarının optimal sistemini yaratmaq və onların üzərinə qoyulan idarəetmə vəzifələri və funksiyaların reallaşdırılması. Bu zaman həmin idarəetmə funksiyalarının yerinə yetirilməsinin səmərəliliyi əsasən qeyd olunan xüsusi səlahiyyətli dövlət orqanları sisteminin elmi cəhətdən əsaslandırılması və həmin orqanların fəaliyyəti ilə müəyyən olunur. Nəzərə alsaq ki, ekoloji siyasət ekoloji idarəetmə subyektinin təbiəti mühafizə və təbiətdən istifadə sahəsində aktual problemlərin həllinə yönələn fəaliyyətidir [10 , s.7]. Bu sahədə icra hakimiyyəti orqanlarının fəaliyyəti qanunvericiliyə müvafiq olaraq ilk növbədə onların üzərinə qoyulan təbiəti mühafizə və təbiətdən istifadəyə dövlət və sahə idarəetməsi vəzifələri və funksiyalarının yerinə yetirilməsindən ibarətdir. Qanunvericiliyin təhlili onlardan aşağıdakıları ayırmağa imkan verir: normayaradıcılığı; ekoloji fəaliyyətin əlaqələndirilməsi; ətraf mühitin, təbii ehtiyatların mühafizəsinin, onlardan istifadənin planlaşdırılması; ekoloji normalaşdırma; ekoloji ekspertiza; ekoloji lisenziyalaşdırma; ekoloji nəzarət; ekoloji audit; ekoloji monitorinq; ekoloji təhsil və tərbiyə və s.

Ekoloji qanunvericilik kontekstində qeyd olunan həmin funksiyalar ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan səmərəli istifadənin təmin edilməsi tədbirləridir. Məcmu şəklində bu tədbirlər ekoloji-hüquqi mexanizmi təşkil edir. Dövlət idarəçiliyi kontekstində isə bu tədbirlər təbiəti mühafizə sahəsində idarəetmə funksiyaları kimi çıxış edir. Bu funksiyalar bizim baxdığımız halda qanunla ətraf mühitin mühafizəsi tədbirləri kimi müəyyən olunur. İcra hakimiyyəti orqanlarının bu sahədəki fəaliyyətinin əsas mahiyyəti də məhz bu tədbirlərin daha səmərəli həyata keçirilməsindən ibarətdir.

**Ekologiya sahəsində dövlət tənzimlənməsi**

Ətraf mühitin mühafizəsinin dövlət idarəetməsi özünün funksional təyinatını ilk növbədə bu sahənin dövlət tənzimlənməsində tapır. Bütövlükdə, dövlət idarəçiliyi icra hakimiyyətinin praktiki reallaşması prosesi olmaqla mahiyyətcə tənzimləyici fəaliyyətdir. Funksional baxımından tənzimləmə idarəetmə fəaliyyətinin ayrılmaz elementini təşkil edir və ümumi idarəetmə funksiyalarından biri kimi çıxış edir. Beləliklə, göründüyü kimi, tənzimləmə idarəetmə prosesinin tərkib hissəsini, onun funksiyasını təşkil edir. Tənzimlənmənin mahiyyəti nizama salınma, inkişafın istiqamətləndirilməsi, müəyyən qaydaya tabeedilmə, düzgün qarşılıqlı əlaqələrin müəyyən edilməsi, normal iş şəraitinin yaradılmasından ibarətdir. Başqa sözlə, tənzimlənmə idarəçilik fəaliyyəti prosesində həyata keçirilən hərəkətlər kompleksini ifadə edir. Bu mənada dövlət tənzimlənməsi səlahiyyətli icra hakimiyyəti subyektləri tərəfindən onlar üçün müəyyən olunmuş fəaliyyət sahələrində həyata keçirilən normativ tənzimləmədə öz ifadəsini tapır və dövlət idarəçiliyinin aparıcı funksiyası kimi çıxış edir. Bununla da idarəçilik sisteminin müəyyən olunmuş rejimdə işləməsi təmin edilir.

Bu baxımdan təhlillər əsasında qeyd etmək olar ki, ekologiya sahəsində dövlət tənzimlənməsi dövlət hakimiyyəti orqanları və digər səlahiyyətli subyektlərin ekoloji qanunvericiliyin tələblərinə riayət edilməsinin, insanların və bütövlükdə cəmiyyətin ekoloji əhəmiyyətli davranışının təşkili, nizama salınması və ona nəzarət olunmasına dair hərəkətlər və fəaliyyətləri məcmusunu təşkil etməklə, hüquqi, inzibati və iqtisadi xarakterli tədbirlər kompleksi vasitəsilə həyata keçirilir. Bu tədbirlər kompleksi də məcmu şəklində dövlətin ekoloji siyasətini formalaşdırır.

Ətraf mühitin mühafizəsi və təbiətdən istifadənin tənzimlənməsi sahəsində tətbiq olunan vasitələrdən ətraf mühitə təsirin yol verilən hədlərinin normalaşdırılması və limitləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir ki, bu da çirkləndirmənin ekoloji cəhətdən təhlükəsiz, ən yaxşı dünya texnologiyalarına uyğun olan səviyyələrədək mərhələli şəkildə aşağı salınması normativləri və planlarının müəyyən edilməsini nəzərdə tutur. Bu mənada normalaşdırma xüsusi diqqət tələb edir, çünki bu gün təcrübə göstərir ki, normativlər öz funksiyasını lazımınca yerinə yetirmir: ekoloji cəhətdən zərərli təsirin məlum növlərinin heç də hamısı normalaşdırılmır, atılma və axıtmaların müvəqqəti razılaşdırma limitləri geniş yayıl-

mış, limitlərin müəyyənləşdirilməsinə fərdi yanaşmalar da geniş yayılmışdır. Bütün bunlar isə yeni tənzimləmə modelinə keçidi zəruri edir [11 , s. 52].

Bütövlükdə, təhlillər ekologiya sahəsində dövlət tənzimlənməsinin təkmilləşdirilməsinə yönələn aşağıdakı tədbirlərin məqsədəuyğun olduğunu göstərir:

– ətraf mühitin mühafizəsi sahəsində dövlət tənzimlənməsi sisteminin islahatı siyasətinin sistemli yanaşmaya əsaslanması;
– ekoloji regionlardakı icra hakimiyyəti orqanları və bələdiyyə strukturlarının məsuliyyətinin daha da artırılması;
– ətraf mühitə təsirə dair normativlər sisteminin ətraf mühitin real durumu, ərazilərin spesifik xüsusiyyətləri nəzərə alınmaqla təkmilləşdirilməsi;
– modernləşmə proqramlarının həyata keçirilməsində hökumətlə yanaşı – sahibkarların istehsalatda texnologiyalardan, o cümlədən müasir təmizləyici sistemlərin tətbiqinə, ekoloji normalara riayət edilməsinə görə həvəsləndirilməsi tədbirlərinin genişləndirilməsi, eləcə də ekoloji hüquq pozuntusuna görə müvafiq cərimə sanksiyalarının tətbiq edilməsi, başqa sözlə, ekoloji məsuliyyətin sahibkarlıq fəaliyyətinin normasına çevrilməsi və s.

### İcra hakimiyyəti orqanları tərəfindən dövlətin ekoloji funksiyasının reallaşdırılması

Dövlətin ekoloji idarəetmə funksiyası həm ümumi, həm də xüsusi səlahiyyətli icra hakimiyyəti orqanları tərəfindən yerinə yetirilir. Ümumi səlahiyyətli dövlət orqanlarının xüsusiyyəti ondan ibarətdir ki, onlar bu sahədəki fəaliyyəti özlərinin səlahiyyətlərinə daxil olan digər vəzifələrin (iqtisadiyyatın inkişaf etdirilməsi, sosial sahənin, mədəniyyətin və s. inkişafının idarə edilməsi) yerinə yetirilməsi ilə yanaşı həyata keçirirlər. Həmin icra hakimiyyəti orqanları öz səlahiyyətləri çərçivəsində istənilən məsələlər üzrə, o cümlədən ətraf mühitin mühafizəsi və təbiətdən istifadə məsələləri ilə bağlı qərarlar qəbul edirlər. Xüsusi səlahiyyətli orqanlar isə bilavasitə ətraf mühitin mühafizəsi sahəsində idarəçilik funksiyalarını yerinə yetirir və onlar bununla bağlı dövlətin ayrı-ayrı funksiyalarının həyata keçirilməsi üçün xüsusi olaraq yaradılır [8].

Beləliklə, dövlətin ekoloji funksiyasının reallaşdırılması bir qrup dövlət orqanları üçün əsas, başlıca vəzifə, digərləri üçün isə başqa funksiyalarla paralel olaraq icra olunan əlavə funksiya kimi çıxış edir.

Ətraf mühitin mühafizəsi sahəsində bu cür dövlət idarəçiliyi orqanları sisteminin yaradılması dövlətin ekoloji funksiyasının, təbiəti mühafizə qanunvericiliyinin icra hakimiyyəti orqanları tərəfindən səmərəli həyata keçirilməsinin əsas şərtlərindən birini təşkil edir.

Məhz ekoloji qanunvericiliyin təkmilləşdirilməsi və onun reallaşdırılmasını təmin etmək üçün bu sahədə xüsusiləşdirilmiş dövlət idarəçiliyi orqanlarının yaradılması inkişaf etmiş dövlətlərin keçən əsrin 60–70-ci illərinin təcrübəsini səciyyələndirən əsas xüsusiyyət olmuşdur. Bu sahədə baş icraedici-sərəncam-

verici orqanlar kimi ABŞ-da 1970-ci ildə yaradılmış Ətraf mühitin mühafizəsi üzrə Agentliyi, Böyük Britaniyada həmin ildə yaradılmış Ətraf mühit işləri üzrə Nazirliyi, Yaponiyada 1971-ci ildə yaradılmış Ətraf mühitin mühafizəsi üzrə Agentliyi və s. göstərmək olar. Həmin orqanlar qrupunun vəzifələrinə ekoloji siyasətin işlənilməsi, ətraf mühitin mühafizəsi üzrə proqramların hazırlanması və əlaqələndirilməsi, ekoloji standartların işlənib hazırlanması, ətraf mühit haqqında qanunvericiliyin yerinə yetirilməsinin təmin edilməsi və s. daxildir. Bundan başqa ətraf mühitin mühafizəsi və təbiətdən istifadə sahəsində dövlət idarəçiliyində digər dövlət orqanları da iştirak edirlər. Məsələn, ABŞ-da strukturunda bu sahədə müvafiq bölmələr olan Daxili İşlər, Kənd təsərrüfatı, Ədliyyə Nazirlikləri xüsusi rol oynayırlar. Bu qrup inkişaf etmiş ölkələrdə bir xüsusiyyət də ondan ibarətdir ki, ətraf mühitin mühafizəsinə dair qanunvericilik dövlət səviyyəsində qəbul edilsə də, onun yerinə yetirilməsinin təmin edilməsi əksər hallarda daha aşağı orqanların – bələdiyyələrin üzərinə qoyulur [12].

ABŞ-da ekoloji idarəetmə sisteminin formalaşması bir neçə mərhələdən keçmişdir: birinci mərhələdə (XX əsrin 60-cı illərinin sonu) ekoloji idarəetmənin əsasını birbaşa inzibati qadağalar sistemi təşkil etmişdir ki, bu da bir sıra ekoloji cəhətdən "çirkli" istehsalatların işləməsini məhdudlaşdırır, bəzi hallarda isə onların bağlanılması haqqında qərarlar da qəbul olunurdu. Bu ciddi tədbirlər isə müəssisələrin iqtisadi fəallığının aşağı salınmasına və istehsalat sahələrinin inkişafda olan ölkələrə keçirilməsinə gətirib çıxarmışdır; ikinci mərhələ (70–80-ci illər) çirklənmənin dövlət normalaşdırılması və "çirkləndirən ödəyir" prinsipinin tətbiqi ilə bağlı olmuşdur. Bu mərhələdə ABŞ-da dövlətin inzibati qanunvericilik tədbirlərinə və güclü maliyyə dəstəyinə söykənən ekoloji idarəetmə sistemi formalaşmış və bu sahədəki idarəçilik prosesində inzibati metodlar üstünlük təşkil etmişdir; XX əsrin 80-ci illərində bu ölkədə yeni ekoloji siyasətə keçid başlamış və inzibati-normativ metodların modernləşdirilməsi və ətraf mühitin mühafizəsinin iqtisadi mexanizmlərinin rolu gücləndirilmişdir. Təbiəti mühafizə məqsədlərinə dövlət xərcləri xeyli azaldılmış, federal idarəetmə orqanlarının fəaliyyəti məhdudlaşdırılmış və bunun da nəticəsində onların funksiyalarının bir hissəsi ştatlara və yerli hakimiyyətə ötürülmüşdür. Beləliklə də, ekoloji proqramların bazar mexanizmlərinin inkişafı hesabına reallaşdırılması tendensiyaları formalaşmışdır [9, s. 245-248].

Azərbaycan Respublikasında bu sahədə ümumi səlahiyyətlər ölkə Prezidenti, Milli Məclis, Nazirlər Kabineti, yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları tərəfindən həyata keçirilir. Görkəmli siyasətçi və dövlət xadimi, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin ətraf mühitin mühafizəsi sahəsində həyata keçirdiyi düşünülmüş dövlət siyasəti xüsusi əhəmiyyət kəsb etməklə, həmin siyasət müvafiq dövlət idarəetməsi orqanları sisteminin təkmilləşdirilməsinə, onların fəaliyyətinin səmərəliliyinin yüksəldilməsinə yönəlmişdir. Məhz Ulu öndərimiz Heydər Əliyevin rəhbərliyi altında ölkədə uğurla aparılan

struktur islahatları çərçivəsində ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan istifadənin ayrı-ayrı istiqamətləri ilə məşğul olan və fəaliyyətlərində bir-birini təkrarlayan dövlət orqanları Azərbaycan Respublikası Prezidentinin 23 may 2001-ci il tarixli 485 nömrəli Fərmanı ilə ləğv edilərək, Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət və Dövlət Geologiya və Mineral Ehtiyatlar Komitələri bazasında Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yaradılmış, 18 sentyabr 2001-ci il tarixli Prezident Fərmanı ilə həmin Nazirlik haqqında Əsasnamə təsdiq edilmişdir. Əsasnamədə Nazirliyin Azərbaycan Respublikası ərazisində, o cümlədən, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində ətraf mühitin qorunması, təbiətdən istifadənin təşkili, yeraltı sulardan, mineral xammal ehtiyatlarından və yerüstü təbii sərvətlərdən səmərəli istifadə edilməsi, onların bərpası, hidrometeoroloji proseslərin müşahidəsi və proqnozlaşdırılması sahəsində dövlət siyasətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı olduğu göstərilmişdir. Burada Nazirliyin bu istiqamətdə geniş funksiyaları onların təsərrüfat-istismar və nəzarət funksiyalarına bölünməsi əsasında müəyyən edilmişdir ki, bununla da, bütövlükdə, təbiəti mühafizə və təbiətdən istifadə sahəsində dövlət idarəçiliyinin səmərəli surətdə həyata keçirilməsinə zəmin yaradılmışdır [2].

Azərbaycan Respublikası Prezidentinin 27 mart 2020-ci il tarixli 975 nömrəli Fərmanı ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi haqqında təsdiq olunmuş Əsasnaməyə görə, Nazirliyin fəaliyyət istiqamətlərini müvafiq sahədə vahid dövlət siyasətinin formalaşdırılmasında iştirak etmək və bu siyasətin həyata keçirilməsini təmin etmək; dövlət nəzarətini həyata keçirmək; beynəlxalq əməkdaşlığı həyata keçirmək; qanunla müəyyən olunmuş hallarda və qaydada müvafiq sahədə təbiətdən istifadə ilə bağlı icazələrin verilməsini təşkil etmək, lisenziya və icazələrin şərtlərinə riayət olunmasına nəzarət etmək; aidiyyəti dövlət qurumları ilə birlikdə tullantısız və ya aztullantılı istehsalın inkişafının təşviqi ilə bağlı tədbirləri həyata keçirmək; aidiyyəti dövlət qurumları ilə birlikdə ekoloji təhsil və maarifləndirmə sahəsində dövlət siyasətinin hazırlanmasında və həyata keçirilməsində iştirak etmək və s. təşkil edir [4].

Struktur baxımından Nazirlik Azərbaycan Respublikasının rayonlarında, şəhərlərində (şəhər rayonlarında) və bölgələrində birbaşa ona tabe olan müvafiq rayon, şəhər və bölgə idarələrini (şöbələrini, bölmələrini və digər idarəetmə qurumlarını) yaradır. Məhz ekoloji qanunvericiliyin təkmilləşdirilməsi və onun reallaşdırılmasını təmin etmək üçün bu sahədə xüsusiləşdirilmiş dövlət idarəçiliyi orqanlarının yaradılması keçən əsrin 60-70-ci illərində inkişaf etmiş dövlətlərin təcrübəsini səciyyələndirən əsas xüsusiyyətlərdən biri olmuşdur. Azərbaycanda təbiəti mühafizə sahəsində bu cür dövlət idarəetməsi orqanları sisteminin yaradılması dövlətin ekoloji funksiyasının, təbiəti mühafizə qanunvericiliyinin icra hakimiyyəti orqanları tərəfindən səmərəli həyata keçirilməsinin əsas şərtlərindən biri kimi çıxış edir.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin son illərdə gördüyü işlərə dair hesabatlarının təhlili onun geniş istiqamətlər üzrə fəaliyyətini uğurla davam etdirdiyini göstərir. Belə ki, Nazirlik 2020-ci il ərzində öz fəaliyyətini dövlət proqramlarında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi; Ölkədə aparılan struktur islahatları çərçivəsində idarəetmədə çeviklik və səmərəliliyin artırılması; müşahidə və monitorinqlərin aparılmasında müasir yanaşmalar və üsulların tətbiq edilməsi; su ehtiyatlarının idarə olunması və qiymətləndirilməsi, su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi; plastik və polietilen qablaşdırma tullantılarının ətraf mühitə mənfi təsirinin azaldılması; iqlim dəyişmələrinə təsirlərin yumşaldılması; meşə ilə örtülü ərazilərin dəqiqləşdirilməsi məqsədilə meşələrin inventarlaşdırılması; kökünün kəsilməsi təhlükəsi altında olan heyvanların reintroduksiyası və tarixi areallarının bərpası; ictimaiyyətin məlumatlandırılması və maarifləndirilməsi işinin aparılması və s. kimi istiqamətlər üzrə təşkil edərək davam etdirmişdir. Xüsusi mühafizə olunan təbiət əraziləri şəbəkəsinin genişləndirilməsi və bioloji müxtəlifliyin qorunması istiqamətində aparılan işlər davam etdirilmişdir. Hazırda ölkəmizdə ümumi sahəsi 892874.7 hektar olan xüsusi mühafizə olunan təbiət əraziləri, o cümlədən 10 milli park, 10 dövlət təbiət qoruğu və 24 dövlət təbiət yasaqlığı fəaliyyət göstərir. Ümumilikdə, xüsusi mühafizə olunan təbiət əraziləri ölkə ərazisinin 10,31%-ni, ayrılıqda milli parklar ölkə ərazisinin 4,87%, dövlət təbiət qoruqları 1,39%, dövlət təbiət yasaqlıqları isə 4,05%-ni təşkil edir [5].

Məlum olduğu kimi, Ermənistanın Azərbaycana qarşı 30 il davam edən təcavüzü ərzində işğal altında olan ərazilərdə təbiətimizə qarşı ekosoyqırım (ekosid) törədilmiş, meşələr və biomüxtəliflik qərəzli şəkildə vəhşicəsinə məhv edilmiş, torpaq və meşə massivlərinin tamamilə kül olmasına gətirib çıxaran genişmiqyaslı yanğınlar törədilmişdir. Ölkəmizin iqtisadi potensialında mühüm əhəmiyyət kəsb edən təbiət abidələri, 155 növ müxtəlif faydalı qazıntı yataqları, o cümlədən 5 qızıl, 6 civə, 2 mis, 1 qurğuşun və sink, 19 üzlük daş, 10 mişar daşı, 4 sement xammalı, 13 müxtəlif növ tikinti daşları, 1 soda istehsalı üçün xammal yataqları, 11 şirin yeraltı su və 10 mineral su yataqları işğal altında qalaraq talan edilmişdir [6].

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin fəaliyyətində 44 günlük Vətən müharibəsi nəticəsində təcavüzkar Ermənistan dövlətinin işğalından azad olunmuş Azərbaycan ərazilərində ekoloji tarazlığın bərpa olunmasına xüsusi yer verilir. Belə ki, Nazirlik tərəfindən işğaldan azad edilmiş ərazilərdə ekoloji terrora məruz qalmış və talan edilmiş meşə ehtiyatlarının, fauna və floranın, su ehtiyatlarının, faydalı qazıntı yataqlarının qiymətləndirilməsi və həmin ərazilərdə ekoloji tarazlığın bərpa olunması ilə bağlı işlər aparılır, xüsusi mühafizə olunan təbiət ərazilərinin bərpa edilməsi və yenidən qurulması, eləcə də yenilərinin yaradılması istiqamətində tədbirlər həyata keçirir.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi fəaliyyətinin səmərəliliyinin, qarşısında duran vəzifələrin lazımınca yerinə yetirilməsinin kadrların peşəkarlıq səviy-

yəsindən asılı olmasını nəzərə alaraq, yaşıl düşüncəyə malik olan dövlət qulluqçularının hazırlanmasına xüsusi əhəmiyyət verir və bu məqsədlə həm Nazirlik xətti ilə, həm də onun struktur bölmələrində çalışan işçiləri üçün Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası ilə birgə kurslar təşkil olunur. Bundan başqa, Dövlət İdarəçilik Akademiyasında "Ekologiya" və "Davamlı inkişafın idarə edilməsi" ixtisası üzrə idarəçilik kadrlarının hazırlanması da bu məqsədə xidmət edir.

Dövlətin ekoloji idarəetmə sistemində vaxtaşırı həyata keçirdiyi islahatlar icra hakimiyyəti tərəfindən bir sıra funksiyaların yerinə yetirməsini nəzərdə tutur ki, onları aşağıdakı iki qrupda birləşdirmək olar:

Birinci qrup funksiyalar təbiətdən istifadənin səmərəli şəkildə idarə olunmasının təmin olunmasına, həmçinin dövlətin təbii resurslardan istifadəsi səlahiyyətinin icrasına yönəldilib. Bu qrupa daxildir: təbii resursların uçotu, qiymətləndirilməsi və kadastrı (vergi obyekti kimi siyahıya alınması); təbiətdən istifadənin normativ-hüquqi bazasının yaradılması; təbii resursların vəziyyətinin monitorinqi; təbiətdən istifadə və ətraf mühitin qorunması sahəsində beynəlxalq əməkdaşlıq və s. İkinci qrup funksiyalar isə özünə ətraf mühitin mühafizəsinin səmərəli dövlət idarəetməsini əks etdirir və özünə aşağıdakıları daxil edir: dövlətin ekoloji siyasətinin formalaşdırılması və həyata keçirilməsi; ətraf mühitin qorunması üçün normativ-hüquqi bazanın hazırlanması; ətraf mühitin dövlət ekoloji monitorinqi və ekoloji nəzarəti; dövlət ekoloji ekspertizası; ekoloji xarakterli informasiyanın hazırlanması və yayılması; ekoloji təhsil; ətraf mühitin mühafizəsi sahəsində beynəlxalq əməkdaşlıq və s. [13, s.126-127].

Göründüyü kimi, bu funksiyalar kontekstində ətraf mühitin mühafizəsi sahəsində idarəçilik mexanizminin ayrılmaz elementini ətraf mühitə neqativ təsirin profilaktikasında hüquqi statusa malik olan səmərəli vasitə kimi dövlətin ekoloji ekspertizası təşkil edir. Digər tərəfdən, ekoloji ekspertiza təsərrüfat subyektlərinin ətraf mühitə mənfi təsirlərinin qarşısının alınmasında müstəqil dövlət aləti kimi çıxış edir. Dövlətin ekoloji funksiyasının yerinə yetirilməsində yerli icra hakimiyyəti orqanları da qanuna uyğun şəkildə öz səlahiyyətləri çərçivəsində iştirak edirlər. Belə ki, Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə təsdiq edilmiş «Yerli icra hakimiyyətləri haqqında» Əsasnamədə rayon, şəhər və şəhər rayonu icra hakimiyyəti başçılarının bu sahədəki səlahiyyətləri müəyyən edilmişdir. Əsasnamənin müddəalarına müvafiq olaraq yerli icra hakimiyyətləri başçılarının səlahiyyətlərinə aid edilir:

– ekoloji proqramlar hazırlamaq və təsdiq etmək, respublika ekoloji proqramlarının və tədbirlərinin keçirilməsində iştirak etmək;
– rayonun, şəhərin və şəhər rayonunun ərazisində ətraf mühitin mühafizəsini təşkil etmək;
– layihələrin, habelə tikilməkdə olan obyektlərin, ətraf mühiti çirkləndirən müəssisələrin işinin ekoloji ekspertizasının keçirilməsini tələb etmək;

– ekoloji şərait barədə əhaliyə məlumat vermək, təbii fəlakət və qəza baş verdikdə əhalinin təhlükəsizliyinin təmin olunması sahəsində tədbir görmək və s. (maddə 28, 33) [7].

**Azərbaycan Respublikasında ekoloji sahənin dövlət proqramları vasitəsilə idarə edilməsi**

Həyata keçirilən dövlət siyasətinin səmərəliliyi baxımından Ümummilli liderimiz Heydər Əliyevin ekoloji sahənin dövlət proqramları vasitəsilə idarə edilməsi təcrübəsi Prezident İlham Əliyev tərəfindən zənginləşdirilərək uğurla davam etdirilir. Bu sahədə məqsədyönlü siyasətin aparılmasına böyük əhəmiyyət verən dövlətimizin başçısı göstərir: “Ekoloji məsələlərə diqqət, münasibət eyni zamanda, ölkənin ümumi siyasətinin, ümumi mədəniyyətinin təzahürüdür. Son illərdə ən önəmli sahə budur. ... təbiət, ətraf mühit – bu daimi sərvətdir...Bizim vəzifəmiz ondan ibarətdir ki, bunu qoruyaq. Özümüz üçün, gələcək nəsillər üçün, ölkəmizin yaşaması üçün qoruyaq. Ona görə biz bu məsələlərə çox böyük önəm veririk. Çalışırıq ki, ekoloji proqramların icrasında Azərbaycan qabaqcıl yerlərdə olsun” [1].

Azərbaycan Respublikası Prezidentinin Sərəncamları ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında hidrometeorologiyanın inkişaf Proqramı”, “Azərbaycan Respublikasında yay-qış otlaqlarının, biçənəklərin səmərəli istifadə olunması və səhralaşmanın qarşısının alınmasına dair Dövlət Proqramı”, “Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı”, “Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunması və davamlı istifadəsinə dair 2017–2020-ci illər üzrə Milli Strategiya”, “Azərbaycan Respublikasında bərk məişət tullantılarının idarə edilməsinin təkmilləşdirilməsinə dair 2018–2022-ci illər üçün Milli Strategiya”, “Azərbaycan Respublikasında plastik qablaşdırma tullantılarının ətraf mühitə mənfi təsirinin azaldılmasına dair 2019–2020-ci illər üçün Tədbirlər Planı”, “Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020–2022-ci illər üçün Tədbirlər Planı”, “Yerin təkinin geoloji öyrənilməsinə və mineral xammal bazasından səmərəli istifadəyə dair 2020-2024-cü illər üçün Dövlət Proqramı” və bir sıra digər məqsədli proqramların reallaşdırılması istiqamətində Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən ardıcıl iş aparılmışdır.

Bununla yanaşı, digər sahələrdə qəbul olunmuş Dövlət Proqramlarında da ekoloji məsələlərə geniş yer verilir. Bu mənada ölkə iqtisadiyyatında müvafiq texnoloji dəyişiklikləri nəzərdə tutan Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair Dövlət Proqramlarının, “2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı”, “2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı” və digər proqramların qəbul edilməsi və müvəffəqiyyətlə yerinə yetirilməsi xüsusi

əhəmiyyətli olmuşdur. Ölkədə ekoloji cəhətdən təmiz texnologiyaların tətbiqi və davamlı sosial-iqtisadi inkişafın təmin edilməsinə, ekoloji cəhətdən təmiz enerji istehsalı üçün bərpa olunan enerji mənbələrindən səmərəli istifadəyə, həmçinin enerji səmərəliliyi üzrə, yanacaq-energetika kompleksinin inkişafına dair Dövlət Proqramları da yönəlmişdir.

Yuxarıda qeyd olunan və digər Dövlət Proqramlarında nəzərdə tutulan hədəflərin reallaşması üçün Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən yerinə yetirilməsi zəruri olan vəzifələr müəyyənləşdirilmiş, buna uyğun olaraq ətraf mühitin bütün trayektoriyasında, o cümlədən biomüxtəlifliyin mühafizəsi, meşələrin inkişafı, yaşıllıqların artırılması, su ehtiyatlarının davamlı idarə olunması sahəsində nəzərəçarpacaq nailiyyətlər əldə olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 26 dekabr 2014-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planında da ölkəmizdə sənayenin rəqabət qabiliyyətinin artırılması, potensialının gücləndirilməsi və qanunvericiliyin təkmilləşdirilməsi tədbirləri sırasında müəssisələrdə enerjidən səmərəli istifadə edən ekoloji cəhətdən əlverişli texnologiyaların tətbiqinin təşviq edilməsi ilə bağlı, eləcə də ətraf mühitə ziyan vuran sənaye müəssisələrinə nəzarətin gücləndirilməsi, bununla bağlı qanunvericilikdə dəyişikliklərə dair təkliflərin hazırlanması və aidiyyəti üzrə təqdim olunması Ekologiya və Təbii Sərvətlər Nazirliyinə tapşırılmışdır [3].

Beləliklə, birincisi, məqsədli proqramlar qanunlardan fərqli olaraq adətən müəyyən bir dövrü əhatə edir və konkret tədbirlərin görülməsini nəzərdə tuturlar; ikincisi, aparılan təhlillər Azərbaycan Respublikasında uğurla reallaşan məqsədli sosial-iqtisadi və ekoloji proqramların müvafiq tələblərə cavab verdiyini göstərir ki, bu da həmin proqramların səmərəliliyinə zəmin yaradır; üçüncüsü, təcrübənin təhlili məqsədli proqramlarda seçilmiş probleminin prioritetliyinin əsaslandırılması, onun həlli konsepsiyasında bu problemin həllinə dair alternativ variantların, qoyulan məqsəd və vəzifələrə müvafiq olaraq proqramın daha səmərəli reallaşması mərhələləri və istiqamətlərinin, eləcə də zəruri resursların həcminin müəyyən edilməsi vacibdir. Digər tərəfdən, istənilən məqsədli proqramın, o cümlədən ekoloji proqramların işlənilməsi və yerinə yetirilməsi sistemli yanaşmaya əsaslanmaqla, kompleksli xarakter daşımalıdır.

**Nəticə**

Baxılan problemin tədqiqinə sistemli yanaşmanın tətbiqi dövlətin ekoloji siyasətinin həyata keçirilməsi mexanizmində icra hakimiyyəti orqanlarının yeri və rolunun öyrənilməsinə imkan verir. Azərbaycanda bir sıra ekoloji problemlərin mövcudluğu fonunda onların həllinin siyasi mexanizmi çərçivəsində bu problemlərin aradan qaldırılmasına və çirklənmənin qarşısının alınmasına yönə-

lən fəaliyyətdə və ekoloji qanunvericiliyin reallaşdırılmasında icra hakimiyyəti orqanlarının rolunun yüksəldilməsi tələbatı getdikcə artır. Bu orqanların fəaliyyətinin təkmilləşdirilməsinin vacib istiqamətini həmçinin ekoloji qanunvericilikdən irəli gələn bütün idarəetmə funksiyalarının səmərəli yerinə yetirilməsinin təmin edilməsi təşkil edir. İlk növbədə icra hakimiyyəti orqanlarının üzərinə dövlətin ekoloji funksiyası çərçivəsində ətraf mühitin mühafizəsinin təmin edilməsinə görə məsuliyyət qoyulmuşdur. İkincisi, məhz icra hakimiyyəti orqanlarından vətəndaşlar onların hüquqları və qanuni maraqlarının, bütövlükdə, ətraf mühit haqqında qanunvericiliyinə riayət olunmasına görə cavab tələb edirlər.

Bütövlükdə, ətraf mühitin mühafizəsinin dövlət idarəetməsi sistemi bu sahədə dövlət siyasətinin reallaşması və təkmilləşdirilməsinə; təsərrüfat sahəsində təhlükəsiz istehsal mühitin yaradılmasına; ətraf mühitin mühafizəsi və ekoloji təhlükəsizlik məsələlərinin həllində iştirak edən bütün subyektlərin qarşılıqlı əlaqələrinin səmərəli şəkildə əməkdaşlığının təmin edilməsinə yönəlməlidir. Digər tərəfdən, maraqlı tərəflərin belə əməkdaşlığını nəzərdə tutan "tərəfdaşlıq modelinin" inkişaf etdirilməsi ekoloji münasibətlərin intensivləşdirilməsinin daha səmərəli istiqamətlərindən birini təşkil edir. Bütün bunlar da müasir mərhələdə ölkəmizdə bu sahədə həyata keçirilən dövlət siyasətində müvafiq surətdə öz ifadəsini tapır.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniyanın Mixail Zukkov Fondunun ali mükafatının təqdim olunma mərasimində nitqi – 15 noyabr 2006-cı il // Əliyev İlham. İnkişaf – məqsədimizdir. 21-ci kitab. – Bakı: Azərnəşr. – 2015. – 392 səh.
2. Azərbayçan Respublikası Prezidentinin Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yaradılması haqqında Fərmanı. 23 may 2001-ci il.
3. Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 26 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir.
4. Azərbayçan Respublikası Prezidentinin "Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Əsasnaməsinin təsdiq edilməsi haqqında" Fərmanı. 27 mart 2020-ci il.
5. Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən 2020-ci il ərzində görülmüş işlər // http://eco.gov.az/az/nazirlik/illik-hesabat
6. İşğal olunmuş Azərbaycan ərazilərində ətraf mühitə və təbii sərvətlərə dəymiş ziyan // http://eco.gov.az/frq-content/plugins/pages_v1/entry/20190823174831_88765600.pdf

7. «Yerli içra hakimiyyətləri haqqında» Əsasnamə. Azərbayçan Respublikası Prezidentinin 16 iyun 1999-cu il tarixli Fərmanı ilə təsdiq edilmişdir.
8. Белых, Л.А., Шихалева, О.В. Некоторые вопросы государственного регулирования в экологической сфере // Бизнес, менеджмент и право. – 2008. – №2(17). – с. 74-77 // https://www.elibrary.ru/item.asp?id=15239065
9. Муравых, А.И. Управление экологической безопасностью: учебное пособие. – Москва: Изд-во РАГС. – 2006. – 288 с.
10. Муравых, А. И. Государственная экологическая политика. – Москва: Изд-во РАГС. – 2003. – 50 с.
11. Нуртдинов А.Р. Институциональные основы государственной политики устойчивого развития // Экономические науки. – 2010. – №12(73). – с.51-54.
12. Олейникова, А. Я. Зарубежный опыт охраны окружающей среды в аспекте управления // Электронное научное издание «Ученые заметки ТОГУ». – 2014. – том 5. – №4. – с. 767-775 // http://pnu.edu.ru/media/ejournal/articles-2014/TGU_5_276.pdf
13. Экологическое управление / под общ.ред. А.Д.Урсула. – Москва: Изд-во РАГС. – 2005. – 284с.

## ABSTRACT

## THE ROLE OF EXECUTIVE AUTHORITIES IN THE IMPLEMENTATION OF ENVIRONMENTAL POLICY OF THE STATE



**Mammadova S.I.**
*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan,*
*Doctor of Political Sciences, Associate professor*



The article examines the role of executive authorities in the mechanism of implementation of the state's environmental policy. It specifies and considers from a practical point of view the tasks and functions assigned to these bodies by environmental legislation, which constitute the ecological and legal mechanism for implementing state environmental policy. The essence of state regulation of environmental relations is revealed, and appropriate measures are proposed to improve practice in this area. With reference to the experience of the Republic of Azerbaijan and some other states, the implementation of the ecological function of the state by the executive authorities is analyzed. The functions of the Ministry of Ecology and Natural Resources, established by the Decree of the President of the Republic of Azerbaijan as the central executive body implementing the state's environmental policy, are considered. The article concludes with an analysis of the practical aspects of environmental management in Azerbaijan through targeted programs and the presentation of generalized provisions and recommendations formulated on their basis.



***Keywords:*** *environmental policy of the state, implementation mechanism, public administration, executive authorities, functions, targeted environmental programs*

## РЕЗЮМЕ

# РОЛЬ ОРГАНОВ ИСПОЛНИТЕЛЬНОЙ ВЛАСТИ В РЕАЛИЗАЦИИ ЭКОЛОГИЧЕСКОЙ ПОЛИТИКИ ГОСУДАРСТВА

**Мамедова С.И.**
*Академия Государственного Управления при Президенте Азербайджанской Республики, доктор политических наук, доцент*

В статье рассматривается роль органов исполнительной власти в механизме реализации экологической политики государства. Конкретизируются и рассматриваются с практической точки зрения задачи и функции, возложенные на эти органы экологическим законодательством, которые в совокупности составляют эколого-правовой механизм осуществления государственной экологической политики. Раскрывается сущность государственного регулирования экологических отношений, предлагаются целесообразные меры, направленные на совершенствование практики в данной области. Со ссылкой на опыт Азербайджанской Республики и некоторых других государств анализируется реализация органами исполнительной власти экологической функции государства. Рассматриваются функции Министерства Экологии и Природных Ресурсов, созданного Указом Президента Азербайджанской Республики как центрального органа исполнительной власти, осуществляющего экологическую политику государства. Статья завершается анализом практических аспектов управления экологической сферой в Азербайджане посредством целевых программ, а также выдвижением обобщенных положений и сформулированных на их основе рекомендаций.

**Ключевые слова:** *экологическая политика государства, механизм осуществления, государственное управление, органы исполнительной власти, функции, целевые экологические программы*

UOT 327-027.21

# YAŞIL SİYASƏT VƏ DAVAMLI İNKİŞAF

**Nəcəfov E.Ə.**
*Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin baş məsləhətçisi, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Fəlsəfə və Sosial Psixologiya kafedrasının professoru, fəlsəfə elmləri doktoru*
*e-mail: eanajafov@gmail.com*

*Məqalədə beynəlxalq münasibətlərin tənqidi nəzəriyyələrindən olan yaşıl siyasət nəzəriyyəsinin davamlı inkişafla münasibəti təhlil olunur.*

*Yaşıl siyasət nəzəriyyəsi beynəlxalq münasibətlərin tənqidi nəzəriyyəsi kimi dövlətlərin daxili və xarici durumuna tənqidi münasibət nümayiş etdirərək orada ətraf mühitin qorunması ilə bağlı ciddi problemlərin olduğunu göstərir. Bu problemlərin həll olunması məqsədilə yaşıl siyasət nəzəriyyəsi cəmiyyətdə əsaslı dəyişikliklərin həyata keçirilməsinin zəruriliyini qeyd edir və bununla bağlı müəyyən tövsiyələr və təkliflər irəli sürür.*

*Yaşıl siyasət nəzəriyyəsi tərəfindən təklif olunan dəyişikliklərin əsasını antroposentrizmdən ekosentrizmə keçid və mərkəzləşdirilmiş dövlət sistemindən imtina ilə yanaşı davamlı inkişaf modelinə keçid təşkil edir. Eksponensial inkişaf modelinə alternativ olan davamlı inkişaf modeli indiki nəsillərin maddi tələbatlarını ödəməklə yanaşı gələcək nəsillərin də tələbatlarının ödənilməsi üçün lazımi şəraitin yaradılmasına yönəlmişdir. Gələcək nəsillərin tələbatlarının ödənilməsi üçün davamlı inkişaf modeli iqtisadi artımın təmin edilməsi ilə yanaşı ətraf mühitin və təbii ehtiyatların qorunmasını, cəmiyyətdəki sosial və mədəni problemlərin həll edilməsini təmin etməlidir. Əks halda, o, gələcəkdə iqtisadi artımın da qarşısını almış olur. Başqa sözlə desək, davamlı inkişaf iqtisadi, sosial və ekoloji məsələlərin həll olunmasına yönəlmişdir.*

*Eksponensial inkişaf modelindən fərqli olaraq davamlı inkişaf modeli müasir elmə və onun əsasında hazırlanan yüksək texnologiyanın inkişafına xüsusi önəm verir. Bundan başqa, eksponensial inkişaf modelindən fərqli olaraq davamlı inkişaf modeli dövlətləri bir-biri ilə elm və yüksək texnologiya sahələrində əməkdaşlığa istiqamətləndirməklə müharibə təhlükəsinin qarşısını alır. Xammaldan geniş istifadəyə əsaslanan eksponensial inkişaf modeli dövlətləri xammal uğrunda mübarizəyə qaldırmaqla onlar arasında münaqişələr üçün zəmin yaradır. Davamlı inkişaf modelinin qeyd olunan xüsusiyyətləri onun yaşıl siyasət nəzəriyyəsinin təbliğ etdiyi inkişaf modelinin əsasını təşkil etdiyini göstərir.*

**Açar sözlər:** *beynəlxalq münasibətlərin tənqidi nəzəriyyəsi, yaşıl siyasət nəzəriyyəsi, eksponensial inkişaf modeli, davamlı inkişaf modeli, ətraf mühitin qorunması*

## Yaşıl siyasət beynəlxalq münasibətlərin tənqidi nəzəriyyəsi kimi

Müasir ədəbiyyatda beynəlxalq münasibətlər nəzəriyyələrini iki qrupa bölürlər: hakim və tənqidi nəzəriyyələr.*

Beynəlxalq münasibətlərin hakim nəzəriyyələrinə realizm, liberalizm, neorealizm, neoliberalizm və İngilis Məktəbi (rasionalizm) daxildir.**

Ədəbiyyatda beynəlxalq münasibətlərin hakim nəzəriyyələrinin əsas xüsusiyyəti kimi onların mövcud sosial və siyasi strukturları legitimləşdirmək, bu strukturların mövcud olmalarına bəraət qazandırmaq cəhdi qeyd olunur. Lakin bu xüsusiyyəti beynəlxalq münasibətlərin hakim nəzəriyyələri qrupuna daxil olan hər bir nəzəriyyəyə eyni dərəcədə şamil etmək düzgün deyil. Belə ki, qeyd olunan nəzəriyyələrin hər biri mövcud sosial və siyasi strukturları legitimləşdirməyi qarşısında məqsəd kimi qoymur. Məsələn, bu nəzəriyyələrdən liberalizm mövcud cəmiyyətin siyasi, iqtisadi, sosial sahələrində müəyyən transformasiyanın, daha konkret desək, demokratiya və bazar iqtisadiyyatı istiqamətində əsaslı islahatların həyata keçirilməsini vacib hesab edir. Liberalizmə əsasən, dövlətin daxilində həyata keçirilən bu islahatlar beynəlxalq münasibətlər sahəsində də müsbət dəyişikliklərə səbəb olur. İlk növbədə bu sahədə müharibə təhlükəsinin qarşısı əhəmiyyətli dərəcədə alınır. Başqa sözlə desək, realizmdən fərqli olaraq, liberalizm mövcud sosial və siyasi strukturlarda müəyyən transformasiyanın zəruriliyini göstərir.

---

* Qeyd: Frankfurt Məktəbinin görkəmli nümayəndələrindən biri Maks Horkhaymer beynəlxalq münasibətlər nəzəriyyələrini ənənəvi və tənqidi nəzəriyyələr qruplarına, neo-marksist Robert Koks isə onları problemi həll edən və tənqidi nəzəriyyələr qruplarına bölür. Gördüyümüz kimi, bu müəlliflər hakim nəzəriyyələri ənənəvi və ya problemi həll edən nəzəriyyələr kimi adlandırırlar. Lakin bu fərq formal xarakter daşıyır, çünki beynəlxalq münasibətlərə dair ədəbiyyatda tənqidi nəzəriyyələrə qarşı qoyulan hakim, ənənəvi və ya problemi həll edən nəzəriyyələrin mahiyyəti eynidir. Hakim, ənənəvi və ya problemi həll edən nəzəriyyələr kimi adlandırılan nəzəriyyələr, tənqidi nəzəriyyələrdən fərqli olaraq, istər dövlətin daxilində, istərsə də beynəlxalq münasibətlər sahəsində mövcud siyasi, iqtisadi, sosial durumun saxlanılmasına və hakimiyyətdə olanların maraqlarına xidmət edir. Elə bu xüsusiyyətlərinə görə tənqidi nəzəriyyələrə qarşı qoyulan nəzəriyyələrin ənənəvi və ya problemi həll edən nəzəriyyələr yox, hakim nəzəriyyələr adlandırılmasını daha məqsədəuyğun hesab edirik.

** Qeyd: Bəzi müəlliflər İngilis Məktəbinin (rasionalizm) hakim və tənqidi nəzəriyyələrin xüsusiyyətlərini özündə cəmləşdirdiyini nəzərə alaraq onu qeyd olunan qrup arasına yerləşdirirlər. (Məsələn: Oliver Daddow İnternational Relations Theory. London, 2009, pp.102-103.

Tənqidi nəzəriyyələr sosial gerçəklik ilə ictimai elmlər sahəsinə aid olan bilik, nəzəriyyə, o cümlədən beynəlxalq münasibətlər nəzəriyyəsi arasında sıx əlaqənin, daha konkret desək, bu biliyin, nəzəriyyənin sosial gerçəkliyin inikası olduğunu göstərir. Bununla tənqidi nəzəriyyələr pozitivist metodologiyasına əsaslanan realistlərdən fərqli olaraq, ictimai elmlər sahəsində tədqiqatın subyekti ilə obyektinin bir-birindən ayrılması və obyektiv biliyin olması ideyalarını rədd edir.

Tənqidi nəzəriyyələrin nümayəndələri öz nəzəriyyələrinin hakim nəzəriyyələrdən əsas fərqini tənqidi nəzəriyyələrin mövcud siyasi, iqtisadi, sosial, ekoloji, mədəni və digər durumda, o cümlədən beynəlxalq münasibətlər sahəsində ciddi problemlərin olduğunu göstərməsində və bu problemlərin həll olunması üçün burada köklü dəyişikliklərin həyata keçirilməsinə dair tövsiyələrin və təkliflərin verməsində görürlər. Onların fikrincə, bu dəyişikliklərin reallaşdırılması cəmiyyətin bütün sahələrində sosial ədaləti bərqərar edəcək, dövlət daxilində əhalinin bütün təbəqələrinin, beynəlxalq münasibətlər sistemində isə bütün dövlətlərin maraqlarına cavab verən şərait yaradacaqdır. Realizm, liberalizm, neorealizm, neoliberalizm və İngilis Məktəbi (rasionalizm) kimi hakim nəzəriyyələr isə nə dövlətdaxili, nə də ki, dövlətlərarası münasibətlərdə hökmranlığa, istismara son qoyur. Tənqidi nəzəriyyələrin nümayəndələri hesab edirlər ki, hakim nəzəriyyələrin irəli sürdükləri ideyalar ölkə daxilində hakimiyyətdə olan siniflərin, beynəlxalq müstəvidə isə hegemon dövlətlərin maraqlarını müdafiə edir və mövcud siyasi, iqtisadi və sosial vəziyyətin dəyişməsini öz qarşısında məqsəd kimi qoymur.

Avstraliyalı politoloq Riçard Devetak tənqidi nəzəriyyələri xarakterizə edərkən qeyd edir ki, bu qrupa daxil olan nəzəriyyələr (yaşıl siyasət, feminizm, modernizm, post-modernizm, konstruktivizm) aralarındakı müəyyən fərqlərə baxmayaraq onlar bir ideya ətrafında birləşirlər – beynəlxalq münasibətlərin tədqiq olunması azadedici siyasət tərəfindən istiqamətləndirilməlidir (4, p.138-139.). Devetakın dediklərini belə izah etmək lazımdır – beynəlxalq münasibətlərin tədqiqi elə bir nəzəri yanaşmaların əsasında aparılmalıdır ki, bu yanaşmalar ictimai həyatın daxili və beynəlxalq sahələrindəki istismara və hökmranlığa son qoysun, sosial ədaləti bərqərar etsin, bütün aktorların maraqlarını eyni səviyyədə müdafiə etsin, bu sahələrdə mövcud olan problemlərin həll olunmasına kömək etsin.

Tənqidi nəzəriyyələrin meydana gəlməsi Avropanın İntibah dövrünə təsadüf edir. Tənqidi yanaşmanın cizgilərini İmmanuel Kant, Georq Vilhelm Fridrix Hegel, Karl Marks, Fridrix Nitsşe və başqa mütəfəkkirlərin yaradıcılıqlarında görmək olar. Bu mütəfəkkirlər yaşadıqları dövrün, cəmiyyətin siyasi, iqtisadi, sosial və mənəvi reallıqlarını tənqid edirdilər. Məsələn, Karl Marks kapitalist cəmiyyətini ədalətsiz, istismar üzərində qurulmuş, müharibəyə səbəb

olan bir cəmiyyət kimi tənqid edərək onun yeni ictimai-iqtisadi formasiya olan kommunizmlə əvəz olunmasının yollarını göstərirdi.

Hakim nəzəriyyələrdən fərqli olaraq tənqidi nəzəriyyələr sosial gerçəkliyə tənqidi münasibət bəsləyərək onu əsaslı şəkildə dəyişmək istəyir. Tənqidi nəzəriyyələrin mövqeyinin mahiyyəti Karls Marksın "Feyerbax haqqında tezislər" adlı əsərinin 11-ci tezisində aydın şəkildə ifadə olunmuşdur. Burada Marks özündən əvvəlki fəlsəfəni qiymətləndirərkən qeyd edir: "Filosoflar dünyanı müxtəlif cür izah edirdilər, lakin əsas məsələ onu dəyişməkdən ibarət idi" (10, c.3). "Dünyanı dəyişmək," cəmiyyətin müxtəlif sahələrində əsaslı dəyişikliklər həyata keçirmək məsələsi tənqidi nəzəriyyələrin qarşısında duran əsas məsələdir. Bu dəyişikliklərin əsas əhəmiyyəti ictimai həyatın daxili və beynəlxalq sahələrində istismara, hökmranlığa son qoymaq, sosial ədaləti bərqərar etmək, ümumiyyətlə insanın azad olunmasına nail olmaqdır.

Beynəlxalq münasibətlərin tənqidi nəzəriyyələrinin müasir növlərindən biri, yaşıl siyasət nəzəriyyəsidir. Yaşıl siyasət mühüm siyasi qüvvə kimi bir çox ölkələrdə 1970-ci illərin ortalarından başlayaraq özünü büruzə verməyə başladı. Həmin vaxt beynəlxalq münasibətlərə yaşıl siyasət yanaşması ətraf mühitlə bağlı problemlərin artmasına cavab olaraq formalaşmışdır. Artıq ötən əsrin sonlarında yaşıl siyasət nəzəriyyəsi beynəlxalq münasibətlər nəzəriyyəsi fənnində öz yerini tutdu.

Beynəlxalq münasibətlərin yaşıl siyasət nəzəriyyəsinin görkəmli nümayəndələrindən Metyu Patersonu, Hyu Dayeri, Endryu Dobsonu, Robin Ekkerslini, Erik Helleyneri, Robert Qudini və başqalarını göstərmək olar. Bu müəlliflərin əsərlərində beynəlxalq münasibətlərə dair yaşıl siyasət nəzəriyyəsinin əsas müddəaları əks olunmuşdur.

Yaşıl siyasət nəzəriyyəsi yaşıl hərəkatın tərkib hissəsi kimi çıxış edir. Yaşıl hərəkatın nümayəndələrinin yazılarında və fəaliyyətlərində qlobal siyasətin dinamikasının təhlili ilə yanaşı dünya siyasətinin restrukturizasiyasına dair normativ baxışlar da əks olunmuşdur.

Yaşıl siyasət nəzəriyyəsinə əsasən, beynəlxalq münasibətlər nəzəriyyəsi fənninin predmetini ətraf mühitlə bağlı olan iqlim dəyişikliyi, stratosferdə ozonun azalması, havanın və suyun keyfiyyətinin pisləşməsi, içməli su qıtlığı, torpağın eroziyası, meşə zolaqlarının qırılması, biomüxtəlifliyin azalması kimi problemlərin beynəlxalq münasibətlər sisteminə təsiri təşkil edir. Bu problemlərin yaranması insanın təbiətə münasibətdə təcavüzkar fəaliyyətinin nəticəsidir. Yaşıl siyasət nəzəriyyəsinin nümayəndələrinə görə, beynəlxalq münasibətlərin ənənəvi nəzəriyyələri rasionalist yanaşmanı əsas götürdüklərinə və dövləti tədqiqatlarının mərkəzinə qoyduqlarına görə ətraf mühitlə bağlı olan problemləri və onların beynəlxalq münasibətlər sisteminə təsirini dərk etmək iqtidarında deyil.

**Yaşıl siyasət nəzəriyyəsinin əsas müddəaları**

Ədəbiyyatda yaşıl siyasət nəzəriyyəsinin üç əsas müddəanı təbliğ etdiyi qeyd olunur (14, pp. 235–57). Birinci müddəa ekosentrizmlə bağlıdır. Yaşıl siyasət antroposentrizmdən ekosentrizmə keçidi təbliğ edir. Bu keçidin nəticəsində insanla yanaşı bütün canlı varlıqlara, ümumiyyətlə, bütün təbiətə dəyər verilir. Antroposentrik etikadan imtina etməklə ekosentrik etikanın qəbul olunması yaşıl siyasətin əsas cəhəti hesab olunur. Robin Ekkersli "Ekologizm və Siyasi nəzəriyyə: Ekosentrik yanaşmaya doğru" ("Environmentalism and Political Theory: Towards an Ecocentric Approach") adlı kitabında ekosentrizmin bir neçə mühüm xüsusiyyətinin olduğunu göstərir (6, p.24). Ekosentrizm insanın və digər varlıqların bir-biri ilə sıx bağlı olduqlarını, onların bütöv bir ekosistemin tərkib hissələri olduqlarını qeyd edir. Eyni zamanda ekosistem çərçivəsində bütün varlıqlar öz nisbi azadlıqlarını saxlayırlar. Belə bir şəraitdə insan təbiətin digər varlıqları üzərində hökmranlıq etmək iqtidarında olmur. Ekosentrizm insanın maraqlarının dar iqtisadi maraqlarla, ilk növbədə təbii sərvətlərin istismarı ilə məhdudlaşdırmır. O, insanın maraqları çərçivəsinə ekosistemin qorunmasını da daxil edir. Ekosentrizm insanla yanaşı təbiətin də maraqlarını, ilk növbədə onun qorunmasını nəzərə alır. Məhz bu səbəbdən ekosentrizm indiki nəsillərlə yanaşı gələcək nəsillərin də maraqlarını nəzərə alır.

Robert Qudin hesab edir ki, yaşıl siyasət nəzəriyyəsinin ən mühüm cəhətlərindən biri onun etik-əxlaqi məsələlərin təbliğ etməsindədir. Qudin bu cəhəti "yaşıl əxlaq" adlandırır (8, p.26). Onun sözlərinə görə, yaşıl əxlaq fauna və floranı, ümumiyyətlə təbiəti qorumaq üçün insanın maddi inkişafının məhdudlaşdırılmasının zəruriliyini göstərir. Qeyd olunan məhdudlaşdırma insanın istehlak azadlığını məhdudlaşdırsa da, onun insanlara xeyri daha çoxdur. İnsanların ənənəvi azadlıqlarına bəzi məhdudiyyətlərin qoyulması yolu ilə təbiətin qorunması onların maddi maraqlarının təmin edilməsi ilə müqayisədə daha vacibdir. Təbiətin qorunmasına böyük önəm verməklə yaşıl siyasət nəzəriyyəsi ekosentrizmi təbliğ edir.

Qudin ekosentrizmi xarakterizə edərkən bu yanaşmanın antroposentrizmdən fərqini onun təbiətin qorunması məsələlərinə xüsusi diqqət yetirməkdə görür. O, haqlı olaraq qeyd edir ki, ekosentrizm ilə antroposentrizm arasındakı bu fərq yaşıl siyasətin mahiyyətini dərk etməyə kömək edir (8, p.128). O, bu iki yanaşma arasında olan fərqin səbəbini ekosentrizmin insanın bəzi tələbat və istəklərinin məhdudlaşdırdığı ilə deyil, əksinə bu tələbat və istəklərin daha geniş ekoloji perspektivə daxil etdiyi ilə əlaqələndirir. Ekosentrizm sağlam ekosistemlərin yaradılmasını prioritet məsələ hesab edir, çünki ekosistemlər insanın sağlamlığı və rifahı üçün böyük əhəmiyyət kəsb edir. Antroposentrizm isə təbiəti insanların yalnız praqmatik məqsədləri üçün əhəmiyyət kəsb

etdiyini göstərir və ona insanların maddi tələbatlarını ödəyən vasitə kimi yanaşır.

Yaşıl siyasət nəzəriyyəsinin təbliğ etdiyi ikinci müddəa ekoloji böhranın səbəbini "inkişafa məhdudiyyətlər"lə əlaqələndirməkdədir. Söhbət cəmiyyətin inkişafının qarşısını alan məhdudiyyətlərdən gedir. "İnkişafa məhdudiyyətlər" termini analitik mərkəz olan Roma Klubunun* sifarişi ilə qlobal inkişafın proqnozlaşdırılmasına dair 1972-ci ildə Donella Medouz, Denis Medouz, Yorqen Randers və Uilyam Behrens tərəfindən hazırlanmış "İnkişafa məhdudiyyətlər" ("The Limits to Growth") adlı hesabatdan götürülmüşdür (11). Bu hesabat kitab formasında 30 milyon nüsxədə və müxtəlif dillərdə nəşr olunaraq dünyanın bir çox ölkələrində yayılmışdır. Hesabatın əsas ideyası ondan ibarətdir ki, eksponensial iqtisadi inkişaf (birtərəfli, davamlı olmayan, ətraf mühitə ziyan vuran inkişaf. – E.N.) və əhalinin sürətlə artımı bir-biri ilə bağlı olan böhranlara səbəb olur. Belə ki, eksponensial iqtisadi inkişaf elə bir vəziyyət yaradır ki, bir tərəfdən, əhalinin qida məhsullarına və sənayenin xammala olan tələbatlarını ödəmək mümkün olmur, digər tərəfdən isə sənayenin inkişafı nəticəsində təbiətə atılan tullantılar ətraf mühiti çirkləndirir. Kompüter modelləşdirilməsi metodu əsasında apardıqları tədqiqatın əsasında hesabatın müəllifləri qlobal inkişafın olduqca bədbin proqnozunu verirlər. Bu proqnoza əsasən, hazırki iqtisadi inkişaf modeli, yəni eksponensial iqtisadi inkişaf davam etdikdə bir çox təbii resurslar sürətlə tükənəcək, ekologiya çirklənəcək və bunun nəticəsində 2100-cü ilə qədər insan cəmiyyətləri ciddi böhranla üzləşərək tənəzzülə uğrayacaqlar.

Qeyd etmək lazımdır ki, hesabatda təqdim olunan proqnoz bir çox tədqiqatçılar tərəfindən əsaslı şəkildə təhlil olunaraq təkzib olunmuşdur. Lakin yaşıl siyasət nəzəriyyəsinin tərəfdarları sözügedən hesabatdan eksponensial iqtisadi inkişaf modelinin zərərli model olmasına dair fikrini iqtibas etdilər. Endryu Dobson bu fikirdə üç arqumentin böyük əhəmiyyət kəsb etdiyini qeyd edir (5, pp.28-54). Birinci arqumentə əsasən, texnoloji inkişaf cəmiyyətlərin üzləşəcəkləri böhranın baş verməsinin qarşısını ala bilməz. O, sadəcə olaraq bu böhranın başlanmasının tarixini bir qədər geriyə ata bilər. İkinci arqument inkişafın

* Qeyd: Roma Klubu 1968-ci ildə italiyalı sənayeçi və xeyriyyəçi Aurelio Peççei, şotlandiyalı kimyaçı və davamlı inkişaf hərəkatının banisi Aleksandr Kinq, məhşur amerikalı bankçı Deyvid Rokfeller tərəfindən təsis olunmuşdur. Qeyri-kommersiya və qeyri-hökumət təşkilatı olan Roma Klubunun 100 nəfərdən ibarət olan üzvləri sırasında sabiq və indiki dövlət və hökumət başçıları, yüksək rütbəli siyasi xadimlər, tanınmış alimlər, diplomatlar, iqtisadçılar, iş adamları və beynəlxalq təşkilatların nümayəndələri vardır. Təşkilatın baş qərargahı İsveçrənin Vinterthur şəhərində yerləşir. Roma Klubunun əsas məqsədi elmin müxtəlif sahələrində çalışan tanınmış alimləri cəlb etməklə müasir dövrdə bəşəriyyəti narahat edən ətraf mühitin çirklənməsi, iqlim dəyişikliyi, endemik xəstəliklərin, yoxsulluğun, cinayətkarlığın artması və bu kimi digər problemlərin təhlil olunması və onların həllinə dair təklif və tövsiyələrin hesabat formasında hazırlanmasını təşkil etməkdir. İndiyədək Roma Klubunun təşkilatçılığı ilə yüzlərlə hesabat hazırlanmışdır.

eksponensial xarakteri cəmiyyətlərin gələcəkdə üzləşəcəkləri böhranın müəyyən vaxt ərzində gizli şəkildə qaldıqdan sonra qəflətən baş verəcəyini göstərir. Nəhayət, üçüncü arqumentə əsasən, inkişafla bağlı olan problemlər bir-biri ilə əlaqəlidir. Onların ayrı-ayrılıqla həll edilməsi səmərəli deyil. Məsələn, çirklənmə probleminin inkişafla bağlı olan digər problemlərdən ayrılıqda həll edilməsi çirklənmənin baş verdiyi mühiti bir qədər dəyişə bilər, lakin çirklənmənin qarşısını tamamilə ala bilməz. Buna görə də inkişafla bağlı olan problemlər sistemli şəkildə, birlikdə həll edilməlidir. Bununla əlaqədar Roma Klubunun təsisçilərindən biri Aurelio Peççei qeyd edirdi ki, bəşəriyyətin üzləşdiyi problemlərə – ətraf mühitin çirklənməsi, yoxsulluğun, cinayətkarlığın artması, endemik xəstəliklərin geniş yayılması – təcrid olunmuş problem yaxud "öz çərçivəsində həll oluna bilən problem" kimi yanaşıldıqda, onun həlli mümkün olmur. O, bunu göstərilən problemlərin bir-biri ilə bağlı olmaları ilə izah edirdi.

Yaşıl siyasət nəzəriyyəsinin təbliğ etdiyi üçüncü müddəa kimi mərkəzləşdirilmiş dövlət sistemindən imtina etməyi göstərmək olar. Başqa sözlə desək, bu nəzəriyyə mərkəzsizləşdirməni təbliğ edir və dövlətə münasibətdə bir növ anarxist mövqeyi nümayiş etdirir. Ədəbiyyatda bəzi müəlliflər mərkəzsizləşdirməni yaşıl siyasət nəzəriyyəsinin yuxarıda qeyd olunan iki müddəasından (ekosentrizm və eksponensial inkişaf modelinin tənqidi) irəli gəldiyini göstərirlər, digərləri isə onu yaşıl siyasətin əsas müddəası kimi təqdim edirlər.

Mərkəzsizləsdirmə dövlətin bir institut kimi tənqid olunmasında özünü büruzə verir. Dövləti cəmiyyətin ən yüksək iyerarxik institutu hesab edən yaşıl siyasət nəzəriyyəsinin nümayəndələri onu ekoloji böhranın əsas səbəbkarı kimi təqdim edirlər. Bununla əlaqədar britaniyalı filosof Alan Karter "Yaşıl siyasət nəzəriyyəsinə doğru" ("Towards a Green Political Theory") adlı məqaləsində qeyd edir ki, dövlət müasir ekoloji böhrana səbəb olan müasir cəmiyyətin dinamikasının tərkib hissəsidir. Karter məqalədə cəmiyyətin ekoloji cəhətdən təhlükəli dinamikasını belə təsvir edir: "Mərkəzləşdirilmiş, psevdo-təmsilçi, kvazidemokratik dövlət ətraf mühitə ciddi zərər vuran "sərt" texnologiyaları inkişaf etdirən rəqabətli, qeyri-bərabər iqtisadi münasibətləri tənzimləyir. Bu texnologiyaların tətbiq olunması dövləti gücləndirən (millətçi və militarist) məcburedici qüvvələr tərəfindən dəstəklənir" (1, p.45).

Yuxarıda qeyd etdiyimiz kimi, bəzi müəlliflər mərkəzsizləşdirməni yaşıl siyasətin əsas müddəası kimi qələmə verirlər. Məsələn, Mətyo Paterson mərkəzsizləşdirmə məsələsini yaşıl siyasət nəzəriyyəsinin beynəlxalq münasibətlərə gətirdiyi ən vacib mövzu hesab edir. Bu, özünü yaşıl siyasətin ən məşhur siyasi şüarlarından birində – "qlobal miqyasda düşün, yerli səviyyədə isə hərəkət et" – büruzə verir 14, p.244).

Paterson mərkəzsizləşdirməni yaşıl siyasət nəzəriyyəsinin mühüm bir müddəası olmasını qeyd etməklə yanaşı onun qlobal xarakter daşıyan ekoloji

problemlərin həllinin mühüm şərti kimi dövlətlər arasında əməkdaşlığın inkişafı ideyasına uyğun gəlmədiyini qeyd edir (14, pp.246-248). Mərkəzsizləşdirmənin nəticəsində yaranan kiçik anarxik cəmiyyətlər ilk növbədə öz maraqlarını güddüklərinə görə icmalararası əməkdaşlığın yaradılmasına can atmayacaqlar. Bundan başqa onlar qlobal ekoloji problemlərin həlli üçün münasib səmərəli mexanizm inkişaf etdirmək iqtidarında deyil. Buna görə də ekoloji problemlərin həllinə yönəlmiş dövlətlərarası əməkdaşlığın reallaşması suveren dövlətlərin fəaliyyəti ilə bağlıdır. Bu, o deməkdir ki, mərkəzsizləşdirmə yaşıl siyasət nəzəriyyəsinin bir müddəası kimi onun digər iki müddəasından (ekosentrizm və eksponensial inkişaf modelinin tənqidi) fərqli olaraq tənqid olunur.

**Davamlı inkişaf eksponensial inkişafa alternativ kimi**

Yaşıl siyasət nəzəriyyəsi ekosentrizmi təbliğ, eksponensial inkişaf modelini isə tənqid edərək davamlı inkişaf modelini müdafiə edir. Davamlı inkişaf modeli yaşıl siyasət nəzəriyyəsinin mühüm kateqoriyalarından biri hesab olunur.

Davamlı inkişaf konsepsiyası ətraf mühitin qorunması məsələləri üzrə ixtisaslaşan BMT-nin Bruntland Komissiyasının 1987-ci ildə hazırladığı “Bizim ümumi gələcəyimiz” adlı Hesabatında “gələcək nəsillərin öz ehtiyaclarını ödəmək qabiliyyətinə xələl gətirmədən indiki ehtiyaclara cavab verən inkişaf” kimi təqdim edilmişdir (15). Davamlı inkişaf elə bir inkişaf modelidir ki, o, indiki nəsillərin maddi tələbatlarını ödəməklə yanaşı gələcək nəsillərin də tələbatlarının ödənilməsi üçün lazımi şərait yaradır. Gələcək nəsillərin tələbatlarının ödənilməsi üçün inkişaf tək iqtisadi artımın təmin edilməsi ilə məhdudlaşmamalıdır. O, həmçinin, hətta ilk növbədə, ətraf mühitin və təbii ehtiyatların qorunmasına, cəmiyyətdəki sosial və mədəni problemlərin həll edilməsinə də yönəlməlidir (12, s.125). Məlum olduğu kimi, əgər iqtisadi artım ətraf mühitin və təbii ehtiyatların qorunmasını təmin etmirsə, bu, gələcəkdə iqtisadi artımın da qarşısını almış olur. Bununla bərabər qeyd etmək lazımdır ki, dövlətin həyata keçirdiyi iqtisadi artım inkişaf proqramı cəmiyyətdəki sosial vəziyyətin gərginləşməsinin qarşısının alınmasını da nəzərdə tutmalıdır. Burada cəmiyyətdəki etnik, irqi, dini və mədəni müxtəlifliklərin düzgün təm-zimlənməsinin xüsusi əhəmiyyəti vardır. Başqa sözlə desək, davamlı inkişaf iqtisadi, sosial və ekoloji sahələrdə inkişafın əldə olunmasına yönəlmişdir. Bu, 2015-ci ilin sentyabrın 25-də BMT-nin Baş Assambleyası tərəfindən “2030-cu ilədək Davamlı İnkişaf sahəsində Gündəlik”(Gündəlik) adlı qəbul edilən sənəddə aydın şəkildə görünür. Gündəliyə əsasən, 2016-2030-cu illər ərzində bütün dünyada davamlı inkişafı təmin etmək üçün 17 məqsəd və bu məqsədlərdən irəli gələn 169 hədəfə nail olmaq lazımdır. Bu məqsəd və hədəflər iqtisadi, sosial və ekoloji sahələri əhatə edir (16).

Davamlı inkişaf termini ilk dəfə 1980-ci ildə beynəlxalq QHT olan "Təbiətin Qorunması naminə Beynəlxalq Birlik" tərəfindən hazırlanmış "Təbiətin Qorunmasının Ümumdünya Strategiyası: Davamlı İnkişaf naminə Canlı Resursların Qorunması" adlı sənəddə işlədilmişdir (18). Bu sənəddə göstərilir ki, təbiətin qorunmasının ümumdünya strategiyasının qarşısında 3 əsas vəzifə durur: Birincisi, insanların sağ qalmalarının asılı olduğu mühüm ekoloji proseslərin və yaşamalarını dəstəkləyən sistemlərin (torpağın bərpası və qorunması, suyun və havanın təmizlənməsi) qorunması. İkincisi, genetik müxtəlifliyin saxlanılması. Üçüncüsü, milyonlarla kənd icması və əsas sənaye sahələrini dəstəkləyən növ və ekosistemlərin (xüsusilə balıq və bir çox vəhşi heyvanlar, meşələr və otlaq sahələri) davamlı şəkildə istifadəsinin təmin edilməsi (18, pp.22-31).

Ötən əsrin 80-ci illərində davamlı inkişaf termini ədəbiyyatda geniş istifadə olunduğuna və yuxarıda qeyd etdiyimiz Roma Klubunun sifarişi ilə hazırlanmış "İnkişafa məhdudiyyətlər" adlı hesabatda verilən proqnozlar səhv çıxdığına görə inkişafının qarşısını alan məhdudiyyətlər məsələsi arxa plana düşdü. Lakin 1990-cı illərdə iqtisadi inkişafa qarşı çıxan siyasət inkişaf etmiş ölkələrdə yenidən gündəmə gəldi. Belə bir şəraitdə iqtisadi inkişaf, xüsusilə eksponensial inkişaf yenidən tənqid mövzusu oldu.

Eksponensial inkişafın tənqidi yaşıl siyasət nəzəriyyəsində daha aydın şəkildə özünü büruzə verir. Yaşıl siyasət nəzəriyyəsinin tərəfdarları inkişafa məhdudiyyətləri əsas götürərək və eksponensial inkişafa qarşı çıxaraq onun ekoloji fəsadları ilə sosial fəsadları arasında sıx əlaqənin olduğunu iddia edirlər. Başqa sözlə desək, onlar iqlim dəyişikliyi, havanın və suyun keyfiyyətinin pisləşməsi, içməli su qıtlığı, torpağın eroziyası, biomüxtəlifliyin azalması və digər bu kimi ekoloji problemlərin yaranmasının insanların sağlamlığı, həyat şəraiti, rifahı, uşaq doğumunun səviyyəsinin aşağı düşməsi kimi sosial problemlərin kəskin şəkildə artmasına təsir göstərdiyini qeyd edirlər.

Yaşıl siyasət nəzəriyyəsinin tərəfdarları yaranmış şəraitdə real çıxış yolu kimi eksponensial inkişafın alternativi olan davamlı inkişaf modelinin qəbul olunması ideyasını irəli sürürlər. Eksponensial inkişaf modelindən fərqli olaraq davamlı inkişaf modeli müasir elmə və onun əsasında hazırlanan yüksək texnologiyanın inkişafına əsaslanır. Məlum olduğu kimi, müasir elmin nailiyyətləri əsasında hazırlanmış yüksək texnologiyalar vasitəsilə ətraf mühitin çirklənməsinin qarşısı alınır və təbii ehtiyatların qorunması təmin edilir. Eksponensial inkişaf üçün tələb olunan xammal qıtlığı dövlətləri bir-biri ilə münaqişələrə sürüklədiyi halda, davamlı inkişaf dövlətləri bir-biri ilə əməkdaşlığa istiqamətləndirir.

Beləliklə, davamlı inkişaf modeli yaşıl siyasət nəzəriyyəsinin təbliğ etdiyi inkişaf modelinin əsasını təşkil edir.

**Yaşıl siyasət nəzəriyyəsi və iqlim dəyişikliyi**

Yaşıl siyasət nəzəriyyəsinin diqqət mərkəzində ətraf mühitin qorunması məsələsi durur. Beynəlxalq münasibətlərin realizm, liberalizm, neorealizm və digər hakim nəzəriyyələrindən fərqli olaraq yaşıl siyasət nəzəriyyəsi ətraf mühitin qorunmasına böyük əhəmiyyət verir. O, ölkələri ətraf mühitin qorunması məsələsinə xüsusi fikir verməyə yönəldir, onların bu istiqamətdə ciddi tədbirlərin həyata keçirilməsinin zəruriliyini göstərir. Bunun ilkin və zəruri şərti kimi yaşıl siyasət nəzəriyyəsi dövlətləri beynəlxalq münasibətlər sistemində hərbi gücün istifadə olunmasından imtina etməyə çağırır.

Məlum olduğu kimi, müasir dövrdə ətraf mühitin qorunmasını şərtləndirən əsas məsələ qlobal iqlim dəyişikliyinin qarşısının alınmasıdır. Belə ki, hazırda ətraf mühitin qorunmasına təhdid edən atmosferdə karbon qazının miqdarının artması, içməli su mənbələrinin tükənməsi, meşə yanğınları, Arktikada və Antarktidada buzların əriməsi səbəbindən dənizlərdə suyun səviyyəsinin qalxması nəticəsində yaşayış məntəqələrinin su altında qalması, torpağın eroziyası, kənd təsərrüfatı sahəsində məhsuldarlığın aşağı düşməsi, biomüxtəlifliyin azalması və digər bu kimi problemlər məhz iqlim dəyişikliyinin nəticəsində meydana gəlir. İqlim dəyişikliyi nəticəsində ətraf mühitdə baş verən bu böhran hadisələri insanların sağlamlığına və rifahına da mənfi təsir göstərir.

İqlim dəyişikliyi problemi öz mahiyyətinə görə qlobal problemdir. Bu problemin yaranmasında əsas səbəbkar inkişaf etmiş sənaye ölkələrinin olmasına baxmayaraq onun fəsadları bütün dünyada özünü göstərir. Qlobal problem olduğuna görə iqlim dəyişikliyi problemi yalnız bütün ölkələrin birgə səyi ilə həll edilməlidir. Heç bir dövlət tək başına onu həll etmək iqtidarında deyil.

Dünyanın üzləşdiyi iqlim dəyişikliyi problemi ilə birgə mübarizə aparmaq məqsədilə 1992-ci ilin iyun ayında Rio-de-Janeyroda keçən Yer Sammitində BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası 154 dövlət tərəfindən imzalanmışdır.* Konvensiya üzv dövlətləri iqlim sisteminə insanın təhlükəli müdaxiləsinin qarşısının alınmasına çağırır (17). Bundan başqa, Konvensiyada qida istehsalına təhdidlərin aradan götürülməsi və iqtisadi inkişafın davamlılığının təmin edilməsi məqsədilə ölkələr arasında birgə elmi araşdırmaların aparılması, müntəzəm görüşlərin və danışıqların keçirilməsi planlaşdırılır.

Qlobal iqlim dəyişikliyi dedikdə, iqlimə antropogen xarakterli təsirin nəticəsində Yer kürəsində havanın istiliyinin artması nəzərdə tutulur. Planetimizdə temperaturun artması atmosferə karbon qazının buraxılması səbəbindən baş verir. Sənayeləşmədənəvvəlki dövrlə müqayisədə hazırda planetimizdə orta temperatur 1.1 dərəcə selsiya artmışdır. Bu, mütəxəssislərin qırmızı xətt kimi

---

* Qeyd: Hazırda 197 dövlət BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasına qoşulmuşdur.

müəyyən etdikləri temperaturun 2 dərəcə artması həddinə yaxınlaşmağı göstərir. Məlum olduğu kimi, hazırda bütün dünyada temperaturun artması müşahidə olunur. Hesablamalara görə, planetimizdə orta temperaturun 2 dərəcə artması insanlara və təbiətə ciddi təhlükələr törədəcəkdir. Dünya əhalisinin üçdə biri müntəzəm şəkildə şiddətli istiyə məruz qalacaqdır. Bu, insanlar arasında müxtəlif xəstəliklərin, o cümlədən ölüm hallarının artmasına səbəb olacaqdır. Arktikada və Antarktidada dəniz buzlarının əriməsi yaşayış məntəqələrinin və əkin sahələrinin suyun altında qalmasına səbəb olacaqdır. Bu isə öz növbəsində sənayenin və kənd təsərrüfatının inkişafına, eləcə də insanların rifahına mənfi təsir göstərəcəkdir. Bu fəlakətin qarşısını almaq üçün orta temperatur bu əsrin sonunadək 1,5 dərəcə istiləşməni keçməməlidir.

Qlobal istiləşmənin bütün dünya üçün təhlükəli problem olmasını nəzərə alan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası bu problemin həllinə nail olmaq məqsədilə indiyədək bir neçə mühüm sənəd qəbul etmişdir.

1997-ci ildə Kioto Protokolu qəbul olunmuşdur. Kioto Protokolu Konvensiyanın hədəflərinə uyğun olaraq 37 sənaye ölkəsinin qarşısında istixana qazlarının emissiyasının həcmini 1990-cı il ilə müqayisədə 2008-2012-ci illərdə 5 faiz azaltmaq öhdəliyini qoydu (9).

2015-ci ildə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının 21-ci konfransında Paris Sazişi qəbul olunmuşdur (13). Bu Sazişi 175 dövlət imzaladı.* 2016-cı il noyabrın 4-də Avropa İttifaqı Paris Sazişini ratifikasiya etdikdən sonra o, qüvvəyə minmişdir. Kioto Protokolundan fərqli olaraq Paris Sazişi ilk dəfə olaraq hər bir dövlətin qarşısında karbon qazı emissiyasının azaldılması ilə bağlı hüquqi öhdəlik qoymuşdur. Ərazisinin böyüklüyündən və ya kiçikliyindən asılı olmayaraq Paris Sazişini imzalamış hər bir dövlət sənayeləşmədənəvvəlki dövrlə müqayisədə bu əsr ərzində qlobal istiləşməni 2 dərəcədən aşağı, ideal olaraq isə 1,5 dərəcəyədək məhdudlaşdırmaq üçün karbon qazı emissiyasını azaltmaq öhdəliyini qəbul etdi (13).

Qlobal istiləşmə probleminin qarşısının alınmasına həsr olunmuş BMT-nin daha bir mühüm konfransı 2021-ci il oktyabrın 31-dən noyabrın 12-dək Böyük Britaniyanın Qlazqo şəhərində keçirildi (7). Bu, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının 26-cı konfransı idi. Konfransda iştirakçı dövlətlərin qarşısında atmosferə karbon qazının emissiyasını azaltmaqla 2050-ci ilədək qlobal xalis sıfır emissiyaya (net zero emission) nail olmaq və bununla da istiləşməni 1,5 dərəcəyədək məhdudlaşdırılmasının əlçatanlığını mümkün etmək məqsədləri dururdu.** Bu məqsədlərə çatmaq üçün ölkələr kömürün isti-

* Qeyd: 2021-ci il mart ayına Paris Sazişini imzalamış dövlətlərin sayı 195 çatmışdır.

* Qeyd: Xalis sıfır emissiya insanın fəaliyyəti nəticəsində atmosferə karbon qazının emissiyasının miqdarı ilə atmosferdən çıxarılan qazın miqdarı arasındakı tarazlığı ifadə edir. Başqa sözlə desək, xalis sıfır emissiya atmosferə atılan qazın tamamilə oradan təmizlənməsini göstərir.

fadəsini dayandırmalı, meşələrin məhv olunmasının qarşısını almalı, elektrik nəqliyyat vasitələrinə keçidi sürətləndirməli, bərpa olunan mənbələrə investisiyaların qoyuluşunu dəstəkləməli və bu kimi digər məsələləri həll etməli idilər. İki həftəlik intensiv və qızğın danışıqlardan sonra 200 yaxın ölkə kompromis iqlim sazişi qəbul etdi. Sazişdə qlobal istiləşmənin qarşısının alınması məsələsi əsas hədəf kimi qeyd olunur. Lakin sənəddə Hindistan tərəfindən son anda irəli sürülən təklifə əsasən kömürün istifadəsindən birdəfəlik deyil, tədricən, mərhələli şəkildə imtina olunması nəzərdə tutulur (2). Hindistanın bu təklifini kömür istifadə edən ölkələrin bir çoxu dəstəklədi. Bu, qlobal istiləşmənin qarşısının alınması hədəfinə istiqamətdə bir növ geriləmə olsa da, ümumilikdə, qəbul olunmuş sözügedən sənəd iqlim dəyişikliyi ilə mübarizədə mühüm bir irəliləyiş idi.

Beləliklə, ətraf mühitin qorunmasını əsas məsələ kimi təqdim edən yaşıl siyasət nəzəriyyəsi bu məsələnin həlli üçün dövlətlərin əməkdaşlığını vacib hesab edir. Bu əməkdaşlığın zəruriliyi müasir dövrdə iqlim dəyişikliyinin əsas səbəbi olan qlobal istiləşmə probleminin xarakterindən irəli gəlir. Bu problem sərhəd tanımır. Qlobal istiləşmənin yaranmasının əsas səbəbkarları müəyyən ölkələr olsa da, onun təhlükəli fəsadları bütün ölkələri əhatə edir. Buna görə də onun qarşısının alınması üçün ölkələr səylərini birləşdirməlidir.

**Nəticə**

Yaşıl siyasət nəzəriyyəsi beynəlxalq münasibətlərin yeni nəzəriyyələrindən biri olmaqla yanaşı onun müasir dövr üçün böyük əhəmiyyət kəsb edən nəzəriyyələrindən biridir. Belə ki, bu nəzəriyyənin tədqiq etdiyi ekoloji problemlər müasir dövrün ən aktual problemlərindəndir. Yaşıl siyasət nəzəriyyəsi bəşəriyyətin üzləşdiyi ekoloji böhrana cavab olaraq meydana gəlmişdir. Bu nəzəriyyə dövlətlərin üzləşdikləri qlobal xarakter daşıyan ekoloji problemlərin həlli yollarının müəyyən edilməsini qarşısında əsas məqsəd kimi qoyur.

Müasir dövrdə ətraf mühitin qorunmasının əsas problemi olan iqlim dəyişikliyinin səbəbi qalıq yanacaqlarının istifadəsi ilə bağlıdır.* Qalıq yanacaqlarının, xüsusilə də kömürün istifadə olunması qlobal istiləşməyə səbəb olur. Yaşıl siyasət nəzəriyyəsi qlobal istiləşmənin qarşısını almaq üçün bu istiqamətdə dövlətlərin birgə fəaliyyətini vacib hesab edir. Yaşıl siyasət nəzəriyyəsi dövlətlərin birgə fəaliyyətinin ilkin və əsas şərti kimi insanların ekoloji şüurunun inkişafının zəruriliyini göstərir. Ekoloji şüur insanların təbiətdə maraqlarının müdafiə olunması məsələsindən daha çox təbiətin özünün maraqlarının müdafiə olunması məsələsini ortaya qoyur. Buna görə də ekoloji şüurun inki-

---

* Qeyd: Qalıq yanacaqları dedikdə ilk növbədə kömür, neft, yanar şist, təbii qaz nəzərdə tutulur. Məlum olduğu kimi, bu yanacaqlar məhv olmuş bitki və heyvanların qalıqlarından yaranır. Onlara torpağın və/ və ya suyun altında rast gəlinir. Bu yanacaqların tərkibində olan karbon və hidrogeni yandırmaqla enerji alınır.

şafı təmin edilmədikdə, dövlətlərin hərbi və iqtisadi sahələrdə davam edən rəqabəti iqlim dəyişikliyi probleminin həll olunmasının qarşısını alır.

Yaşıl siyasət nəzəriyyəsi mərkəzsizləşdirmə ideyasına əsaslanaraq dövləti cəmiyyətin ən yüksək iyerarxik institutu kimi ekoloji böhranın əsas səbəbkarı hesab edir. Yaşıl siyasət nəzəriyyəsi qlobal istiləşmənin qarşısının alınmasında beynəlxalq qurumların, qeyri-hökumət təşkilatlarının, yaşıl hərəkatların roluna yüksək önəm verir. Bu nəzəriyyə rəqabət şəraitində fəaliyyət göstərən suveren milli dövlətlər ideyasının mütləqləşdirilməsinə qarşı çıxır. O, dövlətlərin dar milli maraqlar çərçivəsindən çıxaraq qlobal xarakter daşıyan iqlim dəyişikliyi probleminin həlli istiqamətində birgə fəaliyyət göstərmələrinin vacibliyini qeyd edir. Bununla da beynəlxalq münasibətlərin ənənəvi nəzəriyyələrindən fərqli olaraq yaşıl siyasət nəzəriyyəsi beynəlxalq münasibətlərə dair yeni baxışı və onun təkmilləşdirilməsinin yeni konsepsiyasını təqdim edir.

Beləliklə, yaşıl siyasət nəzəriyyəsi, bir tərəfdən, beynəlxalq münasibətlər sahəsində antroposentrizm prinsipinin geniş yayılmasını tənqid etməklə ekosentrizm ideyasını irəli sürür, digər tərəfdən isə ölkələrin inkişafında iqtisadi və ekoloji böhranlara səbəb olan eksponensial inkişaf modelinin səmərəsiz model olduğunu göstərməklə davamlı inkişaf modelini təbliğ edir. Antroposentrizmdən ekosentrizmə keçid, eləcə də ekoloji böhrana səbəb olan, dövlətlər arasında xammal uğrunda mübarizəyə, hətta müharibələrə səbəb olan, ümumiyyətlə inkişafa məhdudiyyət qoyan eksponensial inkişaf modelindən imtina etməklə davamlı inkişaf modelinin qəbul olunması yaşıl siyasət nəzəriyyəsinin beynəlxalq münasibətlərin digər nəzəriyyələrindən əsas fərqini göstərir.

**Ədəbiyyat:**

1. Carter, A. (1993) ‘Towards a Green Political Theory’, in A. Dobson and P. Lucardie (eds), The Politics of Nature: Explorations in Green Political Theory (London). p.45.
2. COP26: A snapshot of the agreement. https://unric.org/en/cop26-a-snapshot-of-the-agreement/
3. Daddow O. İnternational Relations Theory. London, 2009
4. Devetak R. Critical Theory. // Theories of International Relations (eds. Burchill, Scott and Andrew Linklater). Palgrave Macmillan Press, 2005, p.138-139.
5. Dobson, A. (1990) Green Political Thought (London).
6. Eckersley R. Environmentalism and Political Theory: Towards an Ecocentric Approach. London, 1992.p.24
7. Glasgow Climate Change Conference. October-November. United Nations, 2021. https://unfccc.int/conference/glasgow-climate-change-conference-october-november-2021

8. Goodin, R. (1992) Green Political Theory (Cambridge).
9. Kyoto Protocol to the United Nations Framework Convention on Climate change. United Nations. 1998.
10. Meadows D., Randers J. and Behrens W. The Limits to Growth. London, 1972.
11. Nəcəfov E.Ə. Multikulturalizmin sosial-fəlsəfi təhlili. Bakı, 2020. səh.125
12. Paris Agreement. https://treaties.un.org/doc/Treaties/2016/02/20160215%2006-03%20PM/Ch_XXVII-7-d.pdf
13. Paterson M. "Green Politics". In Burchill, Scott; Linklater, Andrew (eds.). Theories of International Relations (3-rd ed.). Basingstoke: Palgrave Macmillan. pp. 235-57. 2013.
14. Sustainable Development. https://en.unesco.org/themes/education-sustainable-development/what-is-esd/sd
15. Transforming our world: the 2030 Agenda for Sustainable Development. https://sustainabledevelopment.un.org/post2015/transformingourworld
16. United Nations Framework Convention on Climate change. United Nations. 1992.
17. World Conservation Strategy: Living Resource Conservation for Sustainable Development. Prepared by the International Union for Conservation of Nature and Natural Resources (IUCN). 1980. https://portals.iucn.org/library/efiles/documents/wcs-004.pdf

## ABSTRACT

## GREEN POLITICS AND SUSTAINABLE DEVELOPMENT


**Najafov E.A.**
*Senior Adviser of the Department of Humanitarian Policy, Diaspora, Multiculturalism, and Religious Issues of the Administration of the President of the Republic of Azerbaijan, Professor of the Department of Philosophy and Social Psychology of the Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Doctor of Philosophical Sciences, professor*



The article deals with the relationship between green political theory, one of the critical theories of international relations, and sustainable development.

As a critical theory of international relations, green political theory demonstrates a critical attitude to states' domestic and foreign situations. It reveals serious problems related to the protection of the environment. In order to solve these problems, the theory emphasizes the need for fundamental changes in society and makes certain recommendations and suggestions in this regard.

The changes proposed by the green political theory are based on the transition from anthropocentrism to ecocentrism, the rejection of a centralized state structure, and the transition to sustainable development. Being an alternative to the exponential development model, the sustainable development model aims to meet the material needs of current generations and create the necessary conditions to meet the needs of future generations. To meet the needs of future generations, the sustainable development model should ensure, along with economic growth, the protection of the environment and natural resources and the solution of social and cultural problems in society. Otherwise, it will hinder future economic growth as well. In other words, sustainable development addresses economic, social, and environmental issues.

Unlike the exponential development model, the sustainable development model emphasizes the development of modern science and high technologies based on it. In addition, unlike the exponential development model, the sustainable development model, which orients states to cooperate in the field of science and high technology, prevents the danger of war between them.

The exponential development model based on the extensive use of raw materials creates a basis for future conflicts between states because states struggle for raw materials.

The noted features of the sustainable development model prove that sustainable development underlies the development model proposed by green political theory.

**Keywords:** *critical theory of international relations, green policy theory, exponential development model, sustainable development model, environmental protection*

## РЕЗЮМЕ

## ЗЕЛЕНАЯ ПОЛИТИКА И УСТОЙЧИВОЕ РАЗВИТИЕ

**Наджафов Э.А.**
*Старший консультант отдела по гуманитарной политике, вопросам диаспоры, мультикультурализма и религии Администрации Президента Азербайджанской Республики, профессор кафедры Философии и социальной психологии Академии Государственного Управления при Президенте Азербайжанской Республики, доктор философских наук*

В статье рассматривается связь между зеленой политической теорией, которая является одной из важнейших теорий международных отношений, и устойчивым развитием.

Будучи критической теорией международных отношений, зеленая политическая теория демонстрирует критическое отношение к внутреннему и внешнему положению государств. Она выявляет серьезные проблемы, связанные с защитой окружающей среды. Для решения этих проблем теория подчеркивает необходимость кардинальных изменений в обществе и дает в связи с этим определенные рекомендации и предложения.

Изменения, предлагаемые зеленой политической теорией, основаны наряду с переходом от антропоцентризма к экоцентризму и отказом от централизованного государственного устройства, также с переходом к устойчивому развитию. Являясь альтернативой модели экспоненциального развития, модель устойчивого развития направлена на удовлетворение материальных потребностей нынешних поколений, а также на создание необходимых условий для удовлетворения потребностей будущих поколений. Для удовлетворения потребностей будущих поколений модель устойчивого развития должна обеспечивать наряду с экономическим ростом также охрану окружающей среды и природных ресурсов, решение социальных и культурных проблем в обществе. В противном случае она будет препятствовать будущему экономическому росту. Другими словами, устойчивое развитие направлено на решение экономических, социальных и экологических проблем.

В отличие от модели экспоненциального развития, модель устойчивого развития придает особое значение развитию современной науки и высоких технологий на ее основе. Кроме того, в отличие от модели экспоненциального развития, модель устойчивого развития, ориенти-

рующая государства на сотрудничество друг с другом в области науки и высоких технологий, предотвращает опасность войны между ними. Экспоненциальная модель развития, основанная на экстенсивном использовании сырья, создает основу для будущих конфликтов между государствами. Потому что государства борются за сырье.

Вышеуказанные особенности модели устойчивого развития доказывают, что устойчивое развитие составляет основу модели развития, предложенной зеленой политической теорией.

**Ключевые слова:** *критическая теория международных отношений, теория зеленой политики, модель экспоненциального развития, модель устойчивого развития, охрана окружающей среды*

UOT 351

# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT İDARƏÇİLİYİNDƏ İQLİM DƏYİŞİKLİKLƏRİ PRİZMASINDA İSLAHATLAR

**Əliyev E.S.**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyasının*
*İnzibati idarəetmə fakültəsinin dekanı,*
*dosent, siyasi elmlər üzrə fəlsəfə doktoru*
*e-mail: ealiyev7@gmail.com*

*İqlim dəyişikliyi və onun təsirləri ilə mübarizə üçün təcili tədbirlərin görülməsi planetin mühüm məsələlərindəndir. İqlim dəyişikliyi XXI əsrin ən böyük problemlərindən biri olaraq insan sağlamlığı və inkişafına təhlükə yaradır. İqlimə zərərli emissiyaları azaltmaq və iqlim dəyişikliyinin təsirlərinə uyğunlaşmanı dəstəkləmək üçün çevik fəaliyyətə keçilməsi qlobal davamlı inkişaf üçün çox vacibdir. Bu baxımdan məqalədə Azərbaycan Respublikasında dövlət idarəçiliyində iqlim dəyişiklikləri prizmasında mövcud vəziyyət, bu sahədə aparılan dövlət siyasəti və islahatların siyasi, hüquqi və institusional çərçivəsi araşdırılmışdır.*

**Açar sözlər:** *iqlim dəyişikliyi, davamlı inkişaf məqsədləri, dövlət idarəçiliyi islahatları, institusional çərçivə*

## Giriş

İnsanın fəaliyyəti nəticəsində iqlim dəyişiklikləri riskləri XX əsrdə, xüsusilə də XX əsrin ikinci yarısında kifayət qədər artmışdır. Təbii iqlim dəyişiklikləri ilə yanaşı, hazırda insanın sənaye, kənd təsərrüfatı, nəqliyyat sektorunda fəaliyyətinin doğurduğu dəyişikliklər də qeydə alınmaqdadır. XX əsrin ortaları ilə müqayisədə karbondioksid qazının atmosferə atılması kifayət qədər artıb və bu proses hələ də davam edir. İqlim dəyişikliklərinin təzahürü kimi qlobal istiləşmə bəşəriyyəti qayğılandıran problemə çevrilmişdir (6).Son illərdə iqlim dəyişiklikləri müzakirə olunan ən aktual problemlərdəndir. Xüsusilə də son 10 illikdə ən isti onilliklərdən biridir. İqlim tarixən dəyişmişdir lakin, bugün üzləşdiyimiz iqlim dəyişkliyinin fərqi ondan ibarətdir ki, bu proses sürətlənib. Təbii hadisələr, təhlükəli hidrometeoroloji hadisələr artmışdır. Aparılan tədqiqatlar göstərir ki, iqlim dəyişmələri fonunda təbii risklər sosial risklərin artmasına da təkan verir. Belə ki, yağıntıların azalması təbii risk hesab edilir. Bu risk kənd təsərrüfatına təsir göstərdiyi üçün sosial riskə çevrilir. Digər bir nümunə olaraq quraqlıq da təbii riskdir, lakin bu risk qida təhlükəsizliyi

problemi yaradır. Anomal istilər, güclü küləklər, bütün bunlar sosial riskə çevrilərək insanların həyatı üçün riskə çevrilir.

Beynəlxalq səviyyədə bu çağırışlara cavab üçün özəl konvensiyalar qəbul edilib, qlobal iqlim dəyişikliklərinin qarşısının alınmasına, onun mümkün mənfi nəticələrinin qarşısını almağa yönəlmiş çoxtərəfli və ikitərəfli beynəlxalq anlaşmalar mövcuddur.

İstixana qazlarının və iqlim dəyişikliyinin azaldılması məqsədilə 1985-ci ildə Ozon qatının mühafizəsi haqqında Vyana Konvensiyası qəbul edilmiş və 1988-ci ildə qüvvəyə minmişdir. Bu Konvensiya çərçivəsində Ozon qatını məhv edən maddələr haqqında Monreal Protokolu qəbul edilmiş və 1987-ci ildə qüvvəyə minmişdir.

1992-ci ildə Rio Konfransında imzalanmış İqlim dəyişikliyi çərçivə konvensiyasına uyğun olaraq, inkişaf etmiş ölkələrin istixana qazlarının azaldılmasına görə məsuliyyətini müəyyən edən üst struktur yaradılmış və bu Konvensiyanın bir ünsürü kimi Kioto Protokolu 1997-ci ildə imzalanmış və 2005-ci ildə qüvvəyə minmişdir. Protokoldan uzun müddət keçməsinə və 2020-ci ildə başa çatmasına baxmayaraq, protokolun istənilən səviyyədə səmərəli olmadığı müşahidə olunub. Bu səbəbdən, beynəlxalq ictimaiyyət tərəfindən könüllü töhfələrə və fərqli məsuliyyətlərə əsaslanan yeni müqavilə mətni olan Paris Sazişi 2015-ci ilin dekabrında Parisdə keçirilən Tərəflərin 21-ci Konfransında tərəf dövlətlər tərəfindən rəsmi olaraq qəbul edilmişdir. Bu saziş 2016-cı ilin noyabrında rəsmi olaraq qüvvəyə minmişdir. Paris sazişi 2020-ci ildə başa çatmış Kioto protokolunun ikinci müddətindən sonra İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası (UNFCCC) çərçivəsində qlobal birliyin iqlim dəyişikliyinə qarşı mübarizəsi üzrə əsas sənədidir.

Qlobal iqlim dəyişikliklərinin təsirlərinin azaldılması hazırda bəşəriyyət qarşısında duran vacib məsələlərdəndir. Bununla bağlı olaraq, inklüziv inkişaf indeksi hesablanarkən istehsal olunmuş bir vahid ÜDM-ə görə atmosferə istixana qazları tullantısının intensivliyi də nəzərə alınır. Bərpa olunan enerjinin sərfi atmosferə daha az istixana qazlarının atılması və müvafiq olaraq qlobal iqlim dəyişikliklərinə daha az təsir deməkdir (5).

Qlobal iqlim dəyişiklikləri ilə mübarizə dünya ictimaiyyəti tərəfindən 21-ci əsrin prioriteti kimi qəbul edilən Davamlı İnkişaf Məqsədlərinin vacib elementlərindəndir. Davamlı İnkişaf Məqsədləri qlobal iqlim dəyişikliklərinə təsirlərin azaldılması üzrə tədbirlərin zəruriliyini önə çəkir. Davamlı inkişafın üç ölçüsünü birləşdirməyə və balanslaşdırmağa yönəlmiş 2030 Gündəliyi və davamlı inkişaf məqsədləri yoxsulluğun aradan qaldırılması, keyfiyyətli təhsil, gender bərabərliyi, iqlim dəyişikliyi ilə mübarizə və s. kimi geniş spektrli məsələləri əhatə edir və bu məqsədlərin tətbiqinə yönəlik inteqrasiya olunmuş yanaşmaya ehtiyac duyulmaqdadır.

**Ölkələrin iqlim dəyişikliyi ilə mübarizədə beynəlxalq müqayisəli təhlili**

Azərbaycanın və seçilmiş ölkələrin İqlim Dəyişikliyi ilə mübarizə sahəsində və davamlı inkişaf məqsədləri üzrə ümumi vəziyyətinin dəyərləndirilməsi aşağıdaki cədvəldə təqdim olunmuşdur.

**Cədvəl 1.** Azərbaycanın seçilmiş ölkələrlə müqayisəsi: İqlim dəyişikliyi

Mənbə: Sachs və BMT-nin 2017-ci il statistik məlumatlarından istifadə etməklə müəllif tərəfindən hazırlanmışdır.




Yuxarıdakı cədvəl təhlil edildikdə, bu başlıq altında Azərbaycanın və digər ölkələrin vəziyyəti müqayisəli şəkildə verilmişdir. 13-cü davamlı inkişaf məqsədi olan iqlim dəyişikliyi ilə mübarizə başlığı altında müqayisə edilən ölkələrin vəziyyəti davamlı inkişaf sahəsində onların ümumi vəziyyəti ilə müqayisədə inkişaf etmiş ölkələrdə orta səviyyədən aşağı, inkişaf etməkdə olan ölkələrdə isə daha yaxşıdır. 13-cü Davamlı inkişaf məqsədi olan iqlim dəyişikliyi ilə mübarizə başlığında Azərbaycanın adı çəkilən ölkələrlərlə ciddi fərqinin olmadığı görünür. Bununla belə ABŞ-ın İqlim Dəyişikliyi ilə mübarizədə digər ölkələrlə müqayisədə aşağı səviyyədə olduğu görünür. Davamlı inkişaf məqsədləri üzrə Azərbaycanın beynəlxalq müqayisələr çərçivəsində (DİM-6) təmiz suya çıxışda İranı (DİM-16) sülh və ədalətdə Rusiya və Qazaxıstanı, (DİM-8)

layiqli əmək və iqtisadi artımda Gürcüstanı, sənaye, innovasiya və infrastrukturda İranı və Gürcüstanı qabaqladığı görünməkdədir.

Bununla belə, inkişaf etmiş ölkələrin İqlim Dəyişikliyi ilə Mübarizə üzrə performansları onların davamlı inkişaf sahəsindəki ümumi göstəricilərindən xeyli yüksəkdir.

**Cədvəl 2.** Azərbaycanın iqlim dəyişikliyi ilə mübarizə üzrə əsas göstəriciləri

| Göstərici | Dəyər | Dərəcə |
|---|---|---|
| Enerji qaynaqlı $CO_2$ emissiyası ($tCO_2$ / adam başına) | 3.8 | Orta |
| İqlim Dəyişikliyi Həssaslıq İdeksi (0-1) | 0.2 | Orta |

Mənbə: Sachs və digərləri, 2017:150-151.

Azərbaycanın İqlim Dəyişikliyi ilə Mübarizə sahəsində əsas göstəriciləri (Cədvəl 2.) araşdırıldığında adambaşına enerji qaynaqlı CO2 emissiyaları və iqlim dəyişikliyinə həssaslıq indeksi baxımından orta səviyyədə olduğu görünür. Həssaslıq indeksi hər hansı bir ölkənin və ya bölgənin iqlim dəyişikliyinin təsirinə məruz qalma dərəcəsini qiymətləndirmək üçündür.

Qlobal iqlim dəyişikliklərinə təsir edən istixana qazlarının atmosferə tullanması intensivliyinin azaldılması göstəricisinə görə Azərbaycan Respublikası Xəzər regionu ölkələri arasında da liderdir (5). Bu, Azərbaycan Respublikasının beynəlxalq konvensiyalar, o cümlədən qlobal iqlim dəyişiklikləri ilə bağlı konvensiyaların tələblərinin yerinə yetirilməsi üzrə öhdəliklərinə məsuliyyətlə yanaşmasının göstəricisidir.

İqlim dəyişikliklərinin təsirinə məruz qalan əsas sektorlar kənd təsərrüfatı, su ehtiyatları, sahil zonaları, quraqlıq və daşqınlara məruz qalan ərazilər olduğundan bu sahələrə əsas diqqət yetirilməsi vacibdir. Aparılan təhlillər göstərir ki, Azərbaycanda iqlim dəyişmələrinin ən böyük mənfi fəsadı təbii nəmlənmə şəraitinin pisləşməsidir ki, bu da müxtəlif təbiət ekosistemlərinin daxili strukturunun nəzərə çarpacaq dərəcədə dəyişməsi ilə nəticələnə bilər.

### İqlim Dəyişikliyi ilə Mübarizə üzrə dövlət siyasətinin mövcud vəziyyətinin dəyərləndirilməsi

Azərbaycanda havanın çirklənməsinə səbəb olan sabit mənbəli emissiyalar iqtisadi fəaliyyətlər baxımından qiymətləndirildikdə, neft hasilatı və elektrik enerjisinin istehsalında qalıq yanacaqların istifadəsi səbəbindən $SO_2$ emissiya-

larının 95,6 faizi, $CO_2$ emissiyalarının 74,5 faizi və $NO_2$ emissiyalarının 87,4 faizi mədənçıxarma və enerji sektorlarından qaynaqlanır (7).

Dövlətin ekoloji siyasəti 1996-cı ildə Azərbaycanda Ətraf Mühitin Milli Vəziyyəti Hesabatının bir hissəsi kimi müəyyən edilmişdir. Ətraf Mühitin Mühafizəsi üzrə Milli Fəaliyyət Planı 1988-ci ildə hazırlanmışdır və bu sənəd ekoloji problemlər üzrə prioritet tədbirləri müəyyən etmişdir. Sosial-iqtisadi proseslər sürətlə inkişaf etdikcə ekoloji siyasətdə yeni metodologiya və prinsiplər meydana çıxır. Mütərəqqi ekoloji siyasəti əks etdirən və bu siyasətin həyata keçirilməsi üçün yeni imkanlar yaradan "Ekoloji Cəhətdən Davamlı Sosial-İqtisadi İnkişaf üzrə Milli Proqram"ı Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən hazırlanmış və təsdiq edildikdən sonra 2003-cü ildə qüvvəyə minmişdir. Son illərdə Azərbaycan Respublikası Milli Məclisi tərəfindən ekoloji problemlərə dair bir sıra qanunlar, o cümlədən "Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında" qanun bu sahədəki boşluqları doldurmağa imkan vermişdir(12).

Abşeron rayonu, Bakı və Sumqayıtın daxil olduğu Xəzər dənizi, torpağın və suyun kəskin çirklənməsi səbəbindən dünyanın ekoloji cəhətdən ən həssas ərazilərindən biri kimi tanınır (14). Neft sənayesi ilə bağlı istehsalatların emissiyaları Azərbaycanda Bakı və Sumqayıtda yüksək cəmləşib. Lakin ölkənin üzləşdiyi ən mühüm ekoloji problemlər keçmişdə baş vermiş çirklənmədir. Azərbaycanda neft hasilatının uzun keçmişi nəticəsi olaraq hava, quru, dənizin və ətraf mühitin çirkələnməsindən miras qalmışdır ki, bu da böyük ölçüdə əsasən neft və digər kimyəvi maddələrdən qaynaqlanır. Bununla belə, dövlət səviyyəsində məsələ ilə bağlı artan fəaliyyətlər sayəsində son illərdə ətraf mühitin mühafizəsi sahəsinə qoyulan investisiyalarda əhəmiyyətli artım olmuşdur (4).

İqlim dəyişikliyinin, temperaturun və yağıntının dəyişməsinin əkinlərə birbaşa təsiri, məhsuldarlığı qorumaq üçün suvarma ehtiyacının artması və daha çox buxarlanma və daha az yağıntı ilə birlikdə su təchizatının azalması şəklində təsiri Azərbaycanda məhsulun məhsuldarlığına mənfi təsir göstərəcəyi hesab edilməkdədir (1).

Azərbaycan su ehtiyatlarının idarə olunması baxımından yerüstü sular üçün kiçik su anbarlarının yaradılması və yağış sularının mikrosututmalardan yığılması, daşqınlar, suyun təmizlənməsi və təkrar istifadəsi üçün xəbərdarlıq mexanizmlərinin işlənib hazırlanması, su təsərrüfatında su sızmalarının azaldılması Azərbaycanda iqlim dəyişikliyinə uyğunlaşması üçün prioritet sahələr kimi qiymətləndirilə bilər.

İqlim dəyişikliyi nəticəsində Kür-Araz, Xəzər sahilləri və dağlıq rayonlar kimi təxminən üç yerə bölünə bilən hər üç kənd təsərrüfatı rayonunda tempe-

ratur yüksələcək və tarixi artım tendensiyası sürətlənəcəkdir. Növbəti 50 il ərzində temperaturun orta artımının təxminən 2,4 °C olacağı gözlənilir. Hesab olunur ki, 1961-ci ildən 2000-ci ilə kimi Azərbaycanın qərb bölgəsində 0,75 °C, digər bölgələrdə isə 0,6 °C artımla müqayisədə bu artım kifayət qədər yüksək olacağı dəyərləndirilir (1).

İqlim dəyişikliyi nəticəsində Azərbaycanda yağıntıların daha dəyişkən olacağı və kənd təsərrüfatı istehsalına mənfi təsirlərin ən çox mühüm dövr olan avqust-oktyabr ayları arasında olacağı təxmin edilir. Bəzi rayonlarda su ehtiyatları hələ də kifayət qədər olsa da Lənkəran/Cənubi Xəzər, Şərqi aşağı Kür və Samux/Mərkəzi Xəzər hövzələrində artıq su çatışmazlığı mövcuddur və bunun iqlim dəyişikliyi ssenarilərində artacağı gözlənilir. İqlim dəyişikliyinin heyvandarlığa birbaşa mənfi təsir göstərəcəyi gözlənilir (2). Bu kontekstdə fermerlərin keyfiyyətli hidrometeoroloji məlumatlara çıxışının təmin edilməsi, xüsusilə quraqlıq dövrlərdə kənd təsərrüfatı məhsullarının sığortası imkanlarının təmin edilməsi, kənd təsərrüfatı ilə məşğul olan kənd əhalisinin yeni texnologiyalara çıxışını təmin etmək üçün kənd yerlərində maliyyə imkanlarının yaxşılaşdırılması, fermerlərin istehsal texnologiyaları və kənd təsərrüfatı bazarlarında ən son yeniliklər barədə məlumatlandırılması və bu istiqamətdə təlim xidmətlərinin göstərilməsi və fermerlərin bu xidmətlərə çıxış imkanlarının artırılması iqlim dəyişikliyinin təsirlərinin kənd təsərrüfatı sektoruna təsirlərini yumşaltmaq üçün irəliləyişin görülməli olduğu sahələr hesab edilir (3). Yaxın onilliklər ərzində dünya miqyasında kənd təsərrüfatı sahəsinin bir sıra problemlərlə qarşılaşacağı gözlənilir. Su ehtiyatlarının məhdudlaşması, torpaqların deqradasiyası və eyni zamanda planetimizdə əhalinin sayının artması qida təhlükəsizliyi problemini daha da kəskinləşdirəcəkdir. Bəzi kənd təsərrüfatı regionları üçün iqlim dəyişmələri real təhlükə yaradacaq və bir sıra regionlarda bəzi müsbət dəyişmələrin baş verməsi istisna olunmur. Tədqiqatçıların fikrincə iqlim dəyişmələri fəsadlarının qarşısını almaq mümkün olmasa da, düzgün uyğunlaşma siyasətini həyata keçirməklə bu fəsadların təsirini yumşaltmaq mümkündür. Son illərdə iqlimin sürətli dəyişməsi son məlumatlara əsaslanmaqla iqlim ehtiyatlarının yenidən qiymətləndirilməsini, təsərrüfatın müxtəlif sahələrinin, o cümlədən kənd təsərrüfatının daha səmərəli planlaşdırılmasını tələb edir.

Nəqliyyat vasitələrinin texniki vəziyyətinə nəzarətin gücləndirilməsi, nəqliyyat vasitələrinin emissiya standartlarının Avropa standartlarına uyğunlaşdırılması, nəzarət ölçmə məntəqələrinin yaradılması, köhnəlmiş nəqliyyat vasitələrinin ləğvi, yol hərəkətinin tənzimlənməsi vasitələri ilə tıxacların qarşısının alınması və digər tədbirlərin həyata keçirilməsi havanın çirklənməsini azaldan və iqlim dəyişikliklərinin təsirlərinin azaldılması yönündə fəaliyyətlər

görülmüşdür. Azərbaycanda iqlim dəyişikliyi ilə bağlı təhlükəli hidrometeoroloji hadisələrin vurduğu zərərin azaldılması üçün əvvəlcədən xəbərdarlıq sistemi yaradılmışdır (15). Bundan əlavə, 2009-cu ildə havanın çirklənməsi və havada metroloji şəraitlə bağlı iş aparmaq üçün Hidrometrologiya və Ekoloji Elmi Tədqiqat Mərkəzi yaradılmışdır.

Bundan əlavə, iqlim dəyişikliyinin mənfi təsirlərinin yumşaldılması və bunun nəticəsində baş verən hadisələrə uyğunlaşma kontekstində Azərbaycanın regional fəlakət risk xəritələri və mümkün fəlakət zamanı irəli sürüləcək fövqəladə tədbirlər planları hazırlanmalı və təbii fəlakətlər üzrə koordinasiya ilə bağlı institusional potensialın artırılması zəruridir.

Dövlət idarəçiliyində iqlim dəyişikliyi ilə mübarizə prizmasında islahatları iki əsas qrupda dəyərləndirmək olar. Bunlardan birincisi iqlim dəyişikliklərinə uyğunlaşmadır. İkinci isə iqlim dəyişikliklərinin təsirinin azaldılmasını qeyd edə bilərik. İqlim dəyişikliyinin təsirinin azaldılması istixana qazaları emissiyalarının azaldılmasıdır. Uyğunlaşma siyasəti isə həyat tərzimizin, sistemlərin uyğunlaşmasıdır.

### Dövlət idarəçiliyində iqlim dəyişikliyi prizmasında islahatların siyasi çərçivəsi

Azərbaycanda iqtisadiyyat (sənaye, energetika, kənd təsərrüfatı və sair) və ətraf mühitin ayrı-ayrı sahələri üzrə milli və dövlət proqramları, strategiyalar, konsepsiyalar, fəaliyyət planları qəbul edilərək icra olunmaqdadır. Bu siyasi sənədlərdə iqlim dəyişmələri, onların fəsadlarının qarşısının alınması, nəticələrinin aradan qaldırılması məsələləri də öz əksini tapır. Bu məqsədlə müxtəlif maliyyə mənbələrindən lazımi miqdarda vəsaitlər ayrılır, “yaşıl iqtisadiyyat”, “yaşıl enerji” texnologiyaları cəlb olunur, qurğu və avadanlıqlar tətbiq olunur. Azərbaycan 1995-ci ildə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasını (UNFCCC) ratifikasiya edib. Azərbaycan bu Konvensiyanın (UNFCCC)-nin Əlavə-1 siyahısında yer alan ölkələr sırasında olmadığı üçün Kioto protokolu çərçivəsində kəmiyyət öhdəlikləri götürməyib. Buna görə də ölkə yalnız Kioto Protokolunun Təmiz İnkişaf Mexanizminə daxil ola bilər (7). Hökumətin BMT-nin iqlim dəyişmələri üzrə öhdəliklərini yerinə yetirməsi üçün Ekologiya və Təbii Sərvətlər Nazirliyi BMT-nin İnkişaf Proqramı ilə sıx əməkdaşlıq edir, müxtəlif layihələr həyata keçirir. Bu əməkdaşlığın məntiqi davamı olaraq, 2021-ci ilin mart ayında BMT və Azərbaycan Hökuməti arasında 2021-2025-ci illər üçün Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə Sənədi imzalanmışdır. “Çərçivə Sənədi BMT-nin inkişaf sisteminin 2021–2025-ci illər üçün diqqətini yönəldəcəyi 4 prioritet sahələrindən biri də ətraf mühitin mühafizəsi və iqlim dəyişikliyi ilə mübarizədir.

**Dövlət idarəçiliyində iqlim dəyişikliyi prizmasında islahatların qanunvericilik çərçivəsi**

Azərbaycan 1995-ci ildə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasını ratifikasiya edib. Azərbaycan Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikikliyi üzrə Çərçivə Konvensiyasına dair Paris Sazişinin iştirakçısı olub və könüllü olaraq istixana qazaları emissiyalarının 1990-cı illə müqayisədə 35 faiz azaldılması hədəfini qəbul edib.

| s/n | İqlim dəyişmələri sahəsində milli qanunvericilik | Qəbul olunduğu tarix |
|---|---|---|
| 1 | "Ekoloji təhlükəsizlik haqqında" | 1999 |
| 2 | "Ətraf mühitin mühafizəsi haqqında" | 1999 |
| 3 | "Atmosfer havasının mühafizəsi haqqında" | 2001 |
| 4 | "Hidrometeorologiya fəaliyyəti haqqında" | 1998 |
| 5 | "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" | 2018 |
| 6 | "Su təchizatı və tullantı suları haqqında" | 1999 |
| 7 | "İstehsalat və məişət tullantıları haqqında" | 1998, 2007 |
| 8 | "Texniki təhlükəsizlik haqqında" | 1999 |
| 9 | "Hidrotexniki qurğuların təhlükəsizliyi haqqında" | 2002 |
| 10 | Torpaq Məcəlləsi | 1999 |
| 11 | Meşə Məcəlləsi | 1997 |
| 12 | Su Məcəlləsi | 1997 |
| 13 | "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" | 2000 |
| 14 | "Əhalinin sağlamlığının qorunması haqqında" | 1997 |
| 15 | "Ətraf mühitə dair informasiya almaq barədə" | 2002 |
| 16 | "Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında" | 2003 |

Aşağıdaki cədvəldə milli iqlim dəyişmələri sahəsində milli qanunvericilik verilmişdir.

İqlim dəyişmələri ilə bağlı Azərbaycan Respublikası bir çox beynəlxalq sənədlərə, ilk növbədə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına (1995) və onun Kioto Protokoluna (2000), Protokolun Doha Düzəlişinə (2015), bu Konvensiya çərçivəsində qəbul olunmuş Paris Sazişinə (2016) qo-

şulmuşdur. Eyni zamanda iqlim dəyişmələrinə aidiyyatı olan "Böyük məsafələrdə havanın transsərhəd çirkləndirilməsi haqqında" Konvensiyasının (2002), "Ozan qatının qorunması haqqında" Vyana Konvensiyasının, "Ozon qatını dağıdan maddələr üzrə Monreal Protokolu"nu və bu Protokola aid olan müvafiq düzəlişlərin (1996), "Sərhədlərarası kontekstdə ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Espo Konvensiyasının (1999), Səhralaşma ilə mübarizə üzrə BMT Konvensiyası (1998) və "Xəzər dənizinin dəniz ətrafı mühitinin mühafizəsi haqqında" çərçivə Konvensiyasının tərəfidir.

Davamlı inkişaf məqsədlərinə o cümlədən iqlim dəyişiklikləri ilə mübarizə başlığı da daxil olmaqla bu məqsədlərə nail olmaq üçün qanunvericilik və hüquqi əsas olmadan yeni qanunlar qəbul edilmədən, hüquqi baza hazırlanmadan bu hədəflərə çatmaq çətindir. Azərbaycanın iqlim dəyişmələri ilə bağlı beynəlxalq sənədlərə qoşulması ölkənin qüvvədə olan müvafiq qanunvericilik aktlarında lazımı dəyişikliklərin edilməsini, həmin sənədlərə iqlim dəyişmələri bağlı müddəaların salınmasına imkanlar yaradır.

## Dövlət idarəçiliyində iqlim dəyişmələri prizmasında islahatların institusional çərçivəsi

1997-ci ildə yaradılmış İqlim Dəyişikliyi üzrə Dövlət Komissiyası (İDDK) 18 nazirliyin və digər dövlət qurumlarının nümayəndələrinin daxil olduğu yüksək səviyyəli orqandır və BMTİDÇK (İqlim Dəyişmələri Çərçivə Konvensiyası) çərçivəsində götürülmüş öhdəliklərin icrasını əlaqələndirmək həvalə edilmişdir.

2020-ci ilin mart ayında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə İDDK 11 nazirlik və digər dövlət qurumlarının nümayəndələrinin daxil olduğu yeni tərkibi təsdiq edilmişdir və komissiyaya baş nazirin müavini sədrlik edir.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası, iqlimlə əlaqəli digər beynəlxalq sənədlər, maliyyə qurumları, o cümlədən Yaşıl İqlim Fondu ilə əməkdaşlıq üzrə Milli Səlahiyyətli Orqan (MSO) təyin edilmişdir. Yuxarda qeyd edildiyi kimi, iqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasında müəyyən olunmuş öhdəliklərin icrasını təmin etmək məqsədi ilə İqlim Dəyişmələri üzrə Dövlət Komissiyası və onun işini əlaqələndirən İşçi Qrup yaradılmışdır.

Azərbaycanda dövlət qurumlarının mövcud səlahiyyət və funksiyaları çərçivəsində 13-cü Davamlı inkişaf məqsədi olan iqlim Dəyişikliyi ilə Mübarizə sahəsində hədəflərə məsul olan və onlarla əlaqəli qurumları əhatə edən institusional çərçivə aşağıdaki cədvəldə təqdim olunmuşdur.

**Cədvəl 3.** Davamlı İnkişaf Məqsəd 13: İqlim dəyişikliyinə qarşı mübarizə üzrə institusional çərçivə

| Davamlı inkişaf hədəfləri | Məsul qurum | Əlaqəli qurum |
|---|---|---|
| 13.1. Bütün ölkələrdə iqlimlə bağlı təhlükələrə və təbii fəlakətlərə qarşı dayanıqlığı və uyğunlaşma potensialını gücləndirmək. | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | Fövqəladə Hallar Nazirliyi |
| 13.2 İqlim dəyişikliyi ilə bağlı tədbirləri milli siyasətlərə, strategiyalara və planlaşdırmaya daxil etmək. | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Fövqəladə Hallar Nazirliyi |
| 13.3 İqlim dəyişikliyinin fəsadlarının yüngülləşdirilməsi, uyğunlaşma, təsirin azaldılması və erkən xəbərdarlıq üzrə təhsil, maarifləndirmə və insan və təşkilati potensialı artırmaq. | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | İqtisadiyyat Nazirliyi, Təhsil Nazirliyi, Fövqəladə Hallar Nazirliyi |

Aşağıda adıçəkilən qurumlar qanunvericiliklə müəyyən edilmiş çərçivədə və səlahiyyətləri daxilində sözügedən sahə üzrə konkret fəaliyyət göstərirlər:

Ekologiya və Təbii Sərvətlər Nazirliyi
İqtisadiyyat Nazirliyi,
Kənd Təsərrüfatı Nazirliyi,
Fövqəladə Hallar Nazirliyi,
Energetika Nazirliyi,
Səhiyyə Nazirliyi,
Daxili İşlər Nazirliyi,
Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi,
Azərbaycan Dövlət Neft Şirkəti,
"Azərenerji" Səhmdar Cəmiyyəti,
Azərbaycan Milli Elmlər Akademiyası,
yerli icra hakimiyyəti orqanları,
Bələdiyyələr.

İqlim dəyişiklikləri ilə mübarizədə qurumların səviyyəsi, ümumiyyətlə dünya təcrübəsində tez-tez bəzi idarəetmə dəyişiklikləri ilə ölçülür. Məsələn, şəffaflıq, Monitorinq, qiymətləndirilmə və hesabatlılıq mexanizmlərinin səmərəliliyinin artırılması əhəmiyyət kəsb edir.

**Nəticə**

Azərbaycan iqtisadiyyatı son illər sürətlə inkişaf etmişdir. İqtisadiyyatın bütün seqmentlərinin sürətli inkişafı ətraf mühitə və təbii sərvətlərin insan fəaliyyəti ilə həddindən artıq işləməsinə getdikcə daha çox mənfi təsir göstərir. Azərbaycanda iqtisadiyyatın müxtəlif sahələrinin inkişafında yeni texnologiyalar tətbiq edilir və atmosferə atılan istixana qazlarının miqdarının sürətlə artmasının qarşısı alınmaqdadır. Azərbaycanda iqlim dəyişikliyini yumşaltmaq üçün bərpa olunan enerji resurslarından istifadə, enerji sektorunda daha səmərəli texnologiyaların tətbiqi, meşə sahələrinin artırılması kimi müxtəlif tədbirlər həyata keçirilmişdir.

İqtisadiyyat, enerji kimi müəyyən sektorlardakı dövlət siyasəti ətraf mühitin mühafizəsi, iqlim dəyişikliyinin azaldılmasına əhəmiyyətli təsir göstərir. Xüsusilə, enerji siyasəti sahəsində atılacaq addımlar bu başlıq altında Azərbaycanın göstəricilərinə birbaşa təsir edəcəkdir.

Tədqiqatçıların fikrincə iqlim dəyişmələri fəsadlarının qarşısını almaq mümkün olmasa da, düzgün uyğunlaşma siyasətini həyata keçirməklə bu fəsadların təsirini yumşaltmaq mümkündür. İqlim dəyişmələri üzrə məlumatlılığın artırılması, iqlimə dair məlumatlandırma və xidmətlərin təkmilləşdirilməsi (elmi fəaliyyət daxil olmaqla), əhalinin, iqtisadiyyatın və təbiətin iqlim dəyişmələrinin nəticələrinə qarşı həssaslığının azaldılması mərkəzi və regional səviyyədə iqtisadi və sosial tədbirlərin görülməsi və s. daxildir. İqlim dəyişiklikləri ilə mübarizədə dövlət qurumları arasında koordinasiya və kommunikasiyanın artırılması zəruridir.

Bu çərçivədə, bütün ölkələrdə və bu kontekstdə iqlimlə bağlı təhlükələrə və təbii fəlakətlərə qarşı davamlılıq və uyğunlaşma potensialının gücləndirilməsi, milli və yerli səviyyədə fəlakət riskinin azaldılması strategiyalarının hazırlanması, iqlim dəyişikliyi ilə bağlı tədbirlərin milli siyasət, strategiya və planlara inteqrasiyası, iqlim dəyişikliyinin azaldılması, iqlim dəyişikliyinə uyğunlaşma və bunun təsirlərinin azaldılmasında insan və institusional potensialın inkişafı və əvvəlcədən xəbərdarlıq sistemlərinin inkişafı bu başlıq altında diqqət çəkən məsələlərdir. Gələcəyimizi uğurlu və daha yaxşı qurmaq üçün iqlim dəyişiklikləri ilə mübarizədə səylərimizi birləşdirməliyik.

**Ədəbiyyat:**


1. Ahouissoussi, N., Neumann, J. E., Srivastava, J. P., Boehlert, B. B., & Strze, K. M. (2014). Reducing the Vulnerability of Azerbaijan's Agricultural Systems to Climate Change. Washington, DC: The World Bank. https://doi.org/http://dx.doi.org/10.1596/978-1-4648-0184-3
2. Ahouissoussi, N., Neumann, J.E., Srivastava, J.P., Boehlert, B.B., & Strze, K.M. (2014). Reducing the Vulnerability of Azerbaijan's Agricultural Systems to Climate Change. Washington, DC: The World Bank. https://doi.org/http://dx.doi.org/10.1596/978-1-4648-0184-6 . Səh 6.
3. Ahouissoussi, N., Neumann, J. E., Srivastava, J. P., Boehlert, B.B., & Strze, K.M. (2014). Reducing the Vulnerability of Azerbaijan's Agricultural Systems to Climate Change. Washington, DC: The World Bank. https://doi.org/http://dx.doi.org/10.1596/978-1-4648-0184-6. Səh 93-99
4. ADB. (2005). Country Environmental Analysis- Azerbaijan. Asian Development Bank. Retrieved from https://www.adb.org/sites/default/files/institutional-document/32178/aze-cea.pdf
5. Ələkbərov U.K. Davamlı inkişaf və ekoloji sivilizasiyanın idarə edilməsinin əsasları. – Bakı: Təhsil. – 2017. – s.27-33.
6. Ələkbərov U.K. Azərbaycan Respublikasının İnklüziv İnkişaf İndeksi Ölkənin İnnovativ İnkişafının Göstəricisi Kimi // Dövlət idarəçiliyi Nəzəriyyə və Təcrübə jurnalı
7. SSC. (2017a). Energy of Azerbaijan. Azerbaijan: The State Statistical Committee of the Republic of Azerbaijan. Retrieved from www.stat.gov.az 124.
8. Sachs, J., Schmidt-Traub, G., Kroll, C., Durand-Delacre, D., & Teksoz, K. (2017). SDG Index and Dashboards Report 2017 - Global Responsibilities. Retrieved from http://www.sdgindex.org/assets/files/2017/2017-SDG-Index-and-Dashboards-Report--full.pdf
9. Scholz, G. (2017). From MDGs to SDGs in Azerbaijan : The Way to Sustainability and Inclusion.
10. The Republic of Azerbaijan. (2015). Information on on the Intended Nationally Determined Contribution (INDC) of the Republic of Azerbaijan. Retrieved from http://www4.unfccc.int/ndcregistry/PublishedDocuments/Azerbaijan First/INDC Azerbaijan.pdf
11. The World Bank. (2011). Azerbaijan : Country Environmental Analysis. Retrieved from https://openknowledge.worldbank.org/handle/10986/12496

12. MENR. (2012a). Technology Needs Assesment - Adaptation. Azerbaijan: The Ministry of Ecology and Natural Resources.
13. MENR. (2012b). Technology Needs Assesment - Mitigation.
14. UNEP. (2012). Green Economy Scoping Study – Azerbaijan. United Nations Environment Programme.
15. UNECE. (2011). 2nd Environmental Performance Review - Azerbaijan. New York and Geneva: United Nations Economic Commission for Europe, United Nations. Retrieved from http://www.unece.org/fileadmin/DAM/env/epr/epr_studies/azerbaijan II.pdf

**İnternet resursları**
https://www.preslib.az/
https://nk.gov.az/
https://azertag.az/
http://eco.gov.az/
http://e-qanun.az/

## ABSTRACT

## CLIMATE CHANGE REFORMS IN THE PUBLIC ADMINISTRATION OF THE REPUBLIC OF AZERBAIJAN

**Aliyev E.S.**
*Dean of the Faculty of Administrative Management*
*Academy of Public Administration*
*under the President of the Republic of Azerbaijan,*
*Associate Professor, Ph.D. in Political Science*

One of the most important issues on the planet is to take urgent actions to combat climate change and its impacts. Climate change is one of the major problems of the 21st century, threatening human health and development. Taking urgent actions to reduce climate-harmful emissions and support adaptation to the effects of climate change is crucial to global sustainable development. In this regard, the article examines the current situation and adjustments in public administration in the Republic of Azerbaijan through the prism of climate change, the political, legal, and institutional framework of public policy, and reforms in this area.

***Keywords:*** *Climate change, Sustainable Development Goals, public administration reforms, institutional framework*

## РЕЗЮМЕ

# РЕФОРМЫ В ПРИЗМЕ КЛИМАТИЧЕСКИХ ИЗМЕНЕНИЙ В ГОСУДАРСТВЕННОМ УПРАВЛЕНИИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

**Алиев Э.С.**
*Декан факультета Административного управления Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доцент, доктор философии по политическим наукам*

Одной из важнейших задач на планете является принятие срочных мер по борьбе с изменением климата и его последствиями. Защита глобального изменения климата является одной из самых больших проблем 21-го века. Переход к гибкой деятельности по сокращению вредных выбросов в климат и поддержке адаптации к последствиям изменения климата имеет важное значение для глобального устойчивого развития. С этой точки зрения, в статье исследована текущая ситуация в призме климатических изменений в государственном управлении Азербайджанской Республики, государственная политика и политические, правовые и институциональные рамки реформ, проводимых в этой сфере.

**Ключевые слова:** *изменение климата, цели устойчивого развития, реформы государственного управления, институциональная рамка*

UOT 351

# RƏQƏMSAL ÇAĞDA DAVAMLI İNKİŞAFIN TƏMİN OLUNMASINDA İNSAN RESURSLARININ ROLU

**Həsənov M.İ.**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyasının*
*"Dövlət qulluğu və kadr siyasəti" kafedrasının dosenti,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*
*e-mail: m_hasanoglu@yahoo.com.tr*

*Dövlət idarəetməsinin müasir modelinin ortaya çıxması, ictimai sektorun islahatının əhatə dairəsini və səmərəliliyini artırmışdır. İRİ-nin dövlət idarəçiliyinə tətbiq edilməsi hökumət xərclərinin azaldılması ilə yanaşı, kadrların və əməliyyatların daha səmərəliliyini təmin etməklə dövlət sektorunda islahatların və yenidən təşəbbüslərin sistemli inkişafına xidmət edir. Hal-hazırda, İRİ-nin dövlət sektorunda tətbiqi daha dərindən öyrənilərək, beynəlxalq səviyyədə müzakirə edilir. Bu çalışmada rəqəmsal çağda davamlı inkişafın təmin olunmasında insan resurslarının idarə edilməsinin keçmişdən günümüzə qədər konseptual inkişafı müzakirə olunur. İnformasiya cəmiyyəti ilə birlikdə inkişaf edən texnologiyanın bugünkü insan resurslarının idarə edilməsi proseslərində necə istifadə edildiyi, özəl şirkətlərin və dövlət qurumlarının diqqət mərkəzi kimi təsvir olunmağa çalışılmışdır. İnkişaf edən texnologiyanın dövlət qurumlarında insan resurslarının idarə edilməsinə təsiri hansı formadadır və həmin bu təsirlər dövlət qurumlarında insan resurslarının idarə edilməsini gələcəkdə necə formalaşdıracaq formasında hazırlanmışdır.*

**Açar sözlər:** *dövlət idarəçiliyi, insan resursları, davamlı inkişaf, planlaşdırma, informasiya cəmiyyəti*

## Giriş

Çağdaş dövrdə, rəqəmsal cəmiyyətdə strateji önəm daşıyan, tükənməyən və davamlı olaraq təkmilləşən təbii sərvətlər arasında ən böyük əhəmiyyətə malik olanı məhz insan potensialıdır. İnsan amili hər zaman inkişafın həlledici amili kimi çıxış edib və indi də etməkdədir. Ölkənin inkişafı, əhalinin həyat səviyyəsi və rifahı bilik və bacarıqdan asılıdır.Yeni biliklərin yaradılması, bu biliyin bacarığa çevrilməsi və bunların əsasında yaradılan məhsulların, həmçinin yeni texnologiyaların müxtəlif ölkələrə ixrac edilməsi iqtisadiyyatın gəlirli istiqamətinə çevrilib.

İyirminci (XX) əsrin ikinci yarısından etibarən bütün dünyada, qloballaşma, beynəlxalq rəqabət, informasiya, istehsal və xidmət sahələrindəki texnologiyaların sürətli inkişafı, kapitalistləşmə həvəsi və modasının təsiri nəticəsində

inkişaf etmiş olsun və ya inkişaf etməkdə olan olsun bir çox ölkənin iqtisadi, siyasi, sosial, mədəni, texniki və inzibati sistemlərində köklü dəyişiklikləri reallaşdırma yolunda əhəmiyyətli addımlar atılmışdır. Bu dəyişikliklər digər sahələrdə olduğu kimi dövlət idarəçiliyi sahəsində də reallaşdırılması üçün müəyyən paradiqmaları özüylə birlikdə gətirmişdir. Ümumi olaraq dövlət idarəçiliyi sahəsində yeni paradiqmaların ortaya çıxarılmasının əsas səbəblərindən biri, mövcud idarəçilik sisteminin işləməsi nəticəsində meydana gələn siyasi, iqtisadi, hüquqi, sosial, mədəni sahələrdəki böhranları aradan qaldırmaq və təkmilləşdirilməsindən ibarətdir.

Təşkilatların ən vacib məqsədi olan işçilərin işə götürülməsi, yerləşdirilməsi, qiymətləndirməsi kimi bir çox proseslə məşğul olan insan resurslarının idarə edilməsi idarəetmə funksiyasının ayrılmaz bir hissəsinə çevrilmişdir. İnsan resurslarının idarə edilməsi bir təşkilatın insan resurslarının və bu resursların sahib olduğu bilik, təcrübə, bacarıq kimi qabiliyyətlərin və təşkilatın sahib olduğu digər resurslarla (maliyyə, istehsal müəssisələri, avadanlıqlar və s.) birlikdə necə istifadə olunacağı və idarə ediləcəyinə dair əsas məlumatlar verməkdədir.

Texnologiyanın qlobal təsirləri zaman keçdikcə insan resurslarının idarə edilməsi anlayışına, tətbiq edilməsinə və həyata keçirilmə müddətlərinə yeniliklər gətirmişdir. İşçilərin seçilməsi, təlimi, hazırlanması, bacarıqlarının, biliklərinin inkişaf etdirilməsi, karyeranın idarə edilməsi, planlaşdırılması, işçilərin performanslarının qiymətləndirilməsi, işdən çıxarılacaq kadrların müəyyənləşdirilməsi kimi bir çox prosesdə texnoloji əsaslı proqramlar insan resursları üzrə ixtisaslaşan menecerlər tərəfindən istifadə edilir.

Müvafiq olaraq texnologiyanın qlobal təsirləri zaman keçdikcə insan resurslarının idarə edilməsi anlayışına, tətbiq edilməsinə və həyata keçirilmə müddətlərinə yeniliklər gətirmişdir. İşçilərin seçilməsi, təlimi, hazırlanması, bacarıqlarının, biliklərinin inkişaf etdirilməsi, karyeranın idarə edilməsi, planlaşdırılması, işçilərin performanslarının qiymətləndirilməsi, işdən çıxarılacaq kadrların müəyyənləşdirilməsi kimi bir çox prosesdə texnoloji əsaslı proqramlar insan resursları üzrə ixtisaslaşan menecerlər tərəfindən istifadə edilir.

### Davamlı inkişaf və Azərbaycan

XX əsrin sonların başlayaraq insanlar arasında sosial bərabərsizliyin daha da dərinləşməsi, iqtisadi və sosial amillərin bir-biri ilə uyğunlaşmaması, təbiətin bizə verdiyi resurslardan səmərəsiz istifadə nəticəsində yaranan problemlər ortaya çıxdı, buda gələcək üçün ciddi təhlükə yaradacaqdı. Bununla da “dağıtmadan inkişaf” prinsipi yaradıldı və davamlı inkişaf konsepsiyası meydana gəldi. Digər keçid iqtisadiyyatlı ölkələrdə olduğu kimi müstəqil Azərbaycanda da davamlı (dayanıqlı) inkişafın təmin edilməsi əsas prinsiplərdən birinə çevrildi.

Davamlı İnkişaf Məqsədləri (DİM), başqa sözlə Qlobal Məqsədlər, yoxsulluğu aradan qaldırmaq, planetimizi qorumaq və bütün insanların sülh və firavanlıq içində yaşamalarını təmin etmək üçün universal fəaliyyətə çağırışdır.

"Davamlı inkişaf" (sustainable development) termin kimi ilk dəfə Qru Xarlem Bruntland tərəfindən 1983-cü ildə xüsusi olaraq yaradılmış "Ətraf mühitin mühafizəsi üzrə Beynəlxalq Komissiya"nın hazırladığı hesabatda işlədildi.

"Davamlı inkişaf" nədir? bu terminə bir çox təriflər verilmişdir lakin, onun mahiyyəti haqqında birmənalı, hamı tərəfindən qəbul olunmuş fikir hələki yoxdur. Davamlı inkişaf elə inkişaf formasıdır ki, gələcək nəsillərin tələbatlarını ödəməsini təhlükə altına salmadan indiki zəmanənin tələblərini ödəyən inkişaf nəzərdə tutulur. Davamlı inkişafa 2 anlayış daxildir: tələbatlar və məhdudiyyətlər. Yəni, sonsuz tələbatların məhdud resurslarla ödənilməsidir.

Davamlı inkişaf cəmiyyətin iqtisadi və ekoloji təhlükəsizliyi olmaqla yanaşı, sosial inkişafda stabillikdir. Buradan aydın olduğu kimi, davamlı inkişaf konsepsiyası 3 əsas məqsədin birləşməsindən yaranıb: iqtisadi, ekoloji və sosial. Davamlı inkişafın vəziyyəti bu elementlərin qarşılıqlı fəaliyyətində müəyyən olunur.

Davamlı inkişaf iqtisadiyyatın artımının və insan fəaliyyətinin idarə edilməsinin elə bir formasıdır ki, o, çağdaş nəsillərin tələblərini ödəməyə qadirdir və eyni zamanda, gələcək nəsillərin də öz tələbatlarını ödəməsi üçün əngəllər yaratmır [13 səh 34]. Buradan aydın olduğu kimi, ətraf mühitin qorunmasını və resurslardan son dərəcə səmərəli istifadə olunması, eyni zamanda insanın inkişafı üçündə əlverişli sosial mühitin yaradılmasını nəzərdə tutulur.

BMT-nin 2015-ci ilin sentyabrında keçirilən əhəmiyyətli sammitində dünya liderləri tərəfindən qəbul edilmiş "2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"də əks olunan Dayanıqlı İnkişaf Məqsədləri rəsmi şəkildə 1 yanvar 2016-cı ildə qüvvəyə mindi. Hər kəsi əhatə edən və universal xarakter daşıyan bu Məqsədlər fondu əhatə edəcəyi 15 il ərzində "heç kəsi kənarda qoymamaq" prinsipini özünə rəhbər tutmuşdu [12]. Məqsədlər əsasən yoxsulluğun bütün formaların aradan qaldırmaqla bərabərsizliyə qarşı tədbirlər görmək və iqlim dəyişikliyi ilə mübarizə aparmaq yönümündədir. Dayanıqlı İnkişaf Məqsədləri özündə 17 məqsədi və 169 hədəfi cəmləşdirir ki, bunlar dövlətlər arasıda icrası zəruri deyildir ancaq, dövlətlər bu məqsədləri qəbul etmək və nəticələrinə nail olmaq, təhlil etmək üçün milli çərçivələr yaratmalıdırlar:

1. Yoxsulluğa son – yoxsulluğun bütün formalarına hər yerdə son qoymaq;
2. Aclığa son –ərzaq təhlükəsizliyinə və yaxşı keyfiyyətli qidalanmaya, dayanıqlı kənd təsərrüfatı inkişafına nail olmaq;
3. Yaxşı səhiyyə və rifah – yaşından asılı olmayaraq hər kəsin sağlamlığının və rifahının yüksək olmasını təmin etmək;
4. Keyfiyyətli təhsil – hər kəsi ömür boyu təhsilə təşviq edərək inklüziv və keyfiyyətli təhsili təmin etmək;

5. Gender bərabərliyi;
6. Təmiz su və sanitariya;
7. Sərfəli və təmiz enerji – hər kəsin sərfəli, etibarlı və müasir enerji mənbələrinə çıxışını təmin etmək;
8. Layiqli əmək və iqtisadi artım – hər kəsi layiqli əməyə təşviq etməklə məşğulluğun səviyyəsinin artırılması, inklüziv və dayanıqlı iqtisadi inkişaf;
9. Sənaye innovasiya və infrastruktur – dayanıqlı infrastruktur yaratmaq, inklüziv və dayanıqlı sənayeləşməni təşviq etmək və innovasiyaların inkişafına dəstək vermək;
10. Bərabərsizliyin azaldılması;
11. Dayanıqlı şəhərlər;
12. Məsuliyyətli istehlak və istehsal;
13. İqlim dəyişikliyinə qarşı mübarizə – iqlim dəyişikliyi və onun təsirlərinə qarşı mübarizə aparmaq üçün ardıcıl tədbirlər həyata keçirmək;
14. Dəniz ekosisteminin mühafizəsi;
15. Torpaq ekosisteminin mühafizəsi;
16. Sülh, ədalət və səmərəli institutlar;
17. Məqsədlər üçün tərəfdaşlıq [12].

Azərbaycan Respublikasının Prezidentinin 1066 nömrəli Fərmanı ilə 6 oktyabr 2016-cı ildə Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradıldı. Şuranın məqsədi ölkədə həyata keçirilən strategiyaların və dövlət proqramlarının Dayanıqlı İnkişaf Məqsədləri ilə uzlaşdırılmasını təmin etmək və məqsədlərə nail olunması barədə illik hesabatları hazırlamaqdır.

Azərbaycan öz uğurlu inkişaf strategiyası əsasında BMT-nin “Davamlı inkişaf hesabatı 2020” sənədində 166 ölkə arasında “davamlı inkişaf məqsədləri indeksi” üzrə mümkün 100 baldan 72.6 bal toplayaraq 54-cü pillədə qərarlaşıb. Bu indeksə görə dünya ölkələri arasında mühüm nəticə nümayiş etdirərək regional liderdir və qonşu ölkələri geridə qoyur. Azərbaycan Respublikası səhiyyə, yoxsulluq, qidalanma, təmiz su, enerji, ədalət və s. kimi sahələrdə irəliləyiş edib. Hesabatda Rusiya 57-ci, Gürcüstan 58-ci, İran 59-cu, Qazaxıstan 65-ci, Türkiyə 70-ci, Ermənistan 75-ci, Türkmənistan 114-cü mövqedədir. Şərqi Avropa və Mərkəzi Asiyada orta göstərici isə 70.9 baldır.

2019-cu ildə Azərbaycan Respublikasının Prezidenti və Azərbaycanın Birinci vitse-prezidentinin rəhbərliyi və təşəbbüsü ilə iki sosial paket tətbiq olundu, buda xüsusilə sosial indekslərin yaxşılaşdırılmasına və vətəndaşların sosial təminatını daha da gücləndirdi. O paketlər həm minimum əmək haqqı, həm də orta aylıq əmək haqqı məbləğlərinin təxminən 2 dəfəyə yaxın artımları ilə nəticələndi. Orta aylıq əmək haqqı və minimum pensiyada 93 faizdən çox artım qeydə alındı.

Azərbaycanın əldə etdiyi uğurların səbəbi isə 2003-cü ildən bu günümüzə qədər ardıcıl, çox şaxəli, bir-birini tamamlayan nəticələrə əsaslanır. Təbii ki,

inkişafın səbəbi düzgün, şəffaf, məqsədyönlü islahatların aparılması, nailiyyətlərin əldə olunmasıdır. İnsanlar arasındakı bərabərsizliyi ölçən Cini əmsalı Azərbaycanda 38.6 olması ölkəmizdə keçirilən sosial siyasətin uğurundan xəbər verir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev çıxışlarında 2019-cu ili islahatlar ili kimi səciyyələndirib. Bütün bunlarla yanaşı, məşğulluq səviyyəsini artırmaqla yoxsulluğun aradan qaldırılması, səhiyyə sisteminin müasir standartlara uyğun yenidən qurulması, əhalinin kommunal problemlərinin, o cümlədən içməli su probleminin səmərəli həlli, ölkənin enerji təhlükəsizliyinin təmin olunması, mövcud olan təhlükəsizlik, milli həmrəylik mühiti, ümumiyyətlə, son 18 il ərzində Azərbaycanın inkişaf strategiyasının uğurla reallaşdırılması beynəlxalq səviyyədə, dünyanın aparıcı siyasi, iqtisadi, maliyyə və digər qurumları tərəfindən də etiraf olunub [15].

**Keçmişdən günümüzə qədər insan resurslarının idarə edilməsi**

Təşkilatın fəaliyyət sahələrində ən vacib resurs həmişə insan olmuşdur. İstər idarəetmə anlayışının başqa bir anlayışla əvəzlənməsiylə, istərsə də ölkələrin sürətlə dəyişən siyasi qərarlarının nəticəsində təşkilatlar sahib olduqları resursları idarəetmə qaydalarında müasir dövrlə adaptasiya olmaq üçün dəyişikliklər etdilər.

İdarəetmə prosesi planlaşdırma, təşkil etmə, nəzarət etmə və kadr kimi bir çox funksiyanı əhatə edən mürəkkəb, kompleks bir prosesi ifadə edir. Müasir dövrdə kadr funksiyası insan resurslarının idarə edilməsi kimi istifadə edilir. Eyni zamanda kadr funksiyası işçilərin işə qəbul edilməsi, təlimi, hazırlanması, mükafatlandırılması və qiymətləndirilməsi kimi funksiyaları özündə birləşdirir [5].

İnsan resurslarının idarə edilməsinin keçmişdən bu günə qədər olan inkişafını izah edərkən bu inkişaf tarixi hadisələr çərçivəsində şərh edilir. Müəllifin fikrincə, insan resursları idarə edilməsi xüsusilə 1900-cü illərin əvvəllərində I Dünya müharibəsinin təsiri ilə sistematik olaraq inkişaf etməyə başlamışdır. Müharibəyə hazırlaşan ölkələrdə silahdan ərzaq istehsalına qədər ümumi bir döyüş hazırlığı başlamış və bu hazırlıq çərçivəsində istehsal prosesini öz öhdəsinə götürən müəssisələr və şirkətlər arasında şəbəkələr yaradılmağa başlanmışdı. Yaranan şəbəkələrdə işləyən kadrların sayı da yaradılmış şəbəkələrdən asılı olaraq artmışdı. Bunun nəticəsində ilk olaraq “rifah orqanları” təyin edildi və ofislər yaradıldı.

Müharibədən sonra xüsusən 1920-ci illərdən 1930-cu illərin ortalarına qədər istehsal gücünü artırmaq məqsədi ilə insan resursları üzərində bir ida-rəetməyə ehtiyac duyulmağa başlanmışdı və bunun nəticəsində “personal idarəsinin” hakim olduğu dövr olmuşdur. “Personal idarəsinin” meydana çıxmasında işə qəbul, təlim, kadr uçotunun aparılması, kadrların motivasiyası, işçilərə

nəzarət və inkişafı kimi funksiyaların idarə edilməsinin zəruriliyi təsir etdi [14].

1930-cu illərin sonu 1940-cı illərdə xüsusilə də II Dünya Müharibəsi dövründə və sonrasında görülən işlərdə təcrübə, təşkilati səmərəlilik və iş performansı kimi xüsusiyyətlər əhəmiyyət qazanmağa başlamışdır. Bu xüsusiyyətlərin əhəmiyyət qazanmasında o dövrdə aparılan akademik tədqiqatlardan və bu tədqiqatları aparan alimlərin maraq göstərdikləri insan davranışlarının və nəhayət Elton Mayo və Kurt Lewin rəhbərlik etdiyi İnsan Münasibətləri Məktəbinin təsirləri olmuşdur. Bu təsirlərin nəticəsi olaraq, personal idarəsi "kadr idarəetməsi" ilə əvəz edilmişdir. Kadr idarəetməsi kadrların idarə işlərini personal idarəsinə görə daha əhatəli və çox ölçülü bir formada (kadrların öz aralarındakı münasibətləri, kadr psixologiyası və s.) əhatə edir [14].

1950-1960-cı illər isə kadr idarəetməsi sahəsində aparılan akademik tədqiqatların intensivləşdiyi illər olmuşdur. Kadr idarəetməsi nəzəriyyələri, təcrübələri, prosesləri, eləcə də təşkilati inkişaf, idarəetmənin inkişaf etdirilməsi və bu istiqamətdə təlimlərin aparılması kimi əsas məsələlər bu tədqiqatların əsas mövzularını təşkil etmişlər. Tədqiqatlar geniş vüsət aldıqdan sonra kadr idarəetməsi anlayışı 1960-cı illərdən sonra "kadr / insan resurslarının idarə edilməsi" kimi adlandırılmağa başlanmışdır.

1990-cı illərdə isə əvvəlki illərdə tətbiq edilən kadr idarəetməsi tədqiqatlarının təşkil etdiyi məlumatlarla birlikdə kadr idarəetməsi ayrı bir intizam olaraq qəbul edilmişdir. 1995-ci ildə Michael Armstrong kadr idarəetməsinin ümumi tərifini təqdim etmişdir. Armstrong'a görə, kadr idarəetməsi insanların bir təşkilata daxil edilməsinin, qiymətləndirilməsinin, fəaliyyətlərinin mükafatlandırılmasının və təşkilati məqsədlərə çatmaq üçün bu insanların hazırlanmasının, öyrədilməsinin bir prosesidir. 2000-ci illərdən sonra insan resurslarının idarə edilməsi idarəetmə sahəsindəki tədqiqatların intensivləşdiyi "strateji idarəetmə" anlayışının təsiri ilə birlikdə "strateji insan resurslarının idarə edilməsi" olaraq adlanmağa və araşdırılmağa başlandı [14].

**İnsan resurslarının idarə edilməsinin məqsədi və funksiyaları**

İnsan resurslarının idarə edilməsi (HRM) təşkilatdakı rəqabət üstünlüklərini təmin etmək məqsədi ilə lazımi insan resuslarının müəyyən edilməsi, istifadə edilməsi və inkişafı ilə əlaqəli siyasətin qurulması, planlaşdırılması, təşkili, istiqamətləndirilməsi və nəzarət fəaliyyətlərini özündə cəmləşdirən bir intizamdır. Bu fəaliyyətlər elə bir şəkildə təşkil edilməlidir ki, bir tərəfdən təşkilati məqsədlər həyata keçirilə bilsin, digər tərəfdən işçilərin ehtiyacları təmin olunsun və eyni zamanda müəssisənin cəmiyyət qarşısında məsuliyyəti yerinə yetirilə bilsin.

**İnsan resurslarının idarə edilməsinin məqsədi**

Təşkilati struktur daxilindəki vəzifələri nə olursa olsun və hansı bölmədə çalışmasından asılı olmayaraq, müəssisədəki hər bir insan insan resurslarının idarə edilməsinə daxil olur. İnsan resurslarının idarə edilməsi (HRM) hər hansı bir işçinin işə daxil olmasından pensiyaya çıxmasına qədər, hətta pensiyaya çıxdıqdan sonra belə vacib vəzifələr tutmaqda, onların effektiv, məhsuldar və səmərəli işləmələri üçün müasir metodlar hazırlayır və tətbiq edir. İnsan resurslarının idarə edilməsi iki əsas fəlsəfə üzərində qurulur [9]:

- Müəssisənin məqsədinə uyğun olaraq işçi qüvvəsindən səmərəli istifadə olunması;
- İşçilərin ehtiyaclarının qarşılanması və inkişafının təmin edilməsi.

Yuxarıdakılara əsaslanaraq qeyd edək ki, insan resurslarının idarə edilməsinin iki məqsədi var. Bunlardan birincisi, təşkilatda çalışan insanların bilik, bacarıq və qabiliyyətlərini rasional şəkildə istifadə etməklə təşkilata olan faydalarını maksimum səviyyəyə qaldırmaq, ikincisi təşkilatda çalışanların mümkün qədər öz vəzifələrindən məmnun olmasını təmin etməkdir. Başqa sözlə, insan resurslarının idarə edilməsi bir tərəfdən işçilərin təşkilatda yüksək performansla işləməyini, digər tərəfdən işçilərin həyat səviyyəsini artırmağı qarşısına məqsəd qoyar.

Bütün bu fəaliyyətlərin hamısını həyata keçirmək üçün müəssisələr səmərəli işçi qüvvəsi planı hazırlamaq məcburiyyətindədirlər. Təşkilatdakı menecerlərin özləri işçi qüvvəsinə birbaşa çata bilmələri və işçiləri işə götürərək qiymətləndirmələri çox çətindir. Bu səbəbdən də təşkilatlarda insan resurslarının idarə edilməsi adı altında ixtisaslaşmış bir şöbənin fəaliyyət göstərməsinə ehtiyac hiss olunmuşdur.

**İnsan resursları idarə edilməsinin funksiyaları**

İnsan resurslarının idarə edilməsi sahəsindəki işləri ən uyğun şəkildə yerinə yetirilə bilməsi üçün bəzi əsas funksiyaları həyata keçirilməsi lazımdır. İnsan resurslarının idarə edilməsinin əsas funksiyaları bunlardır: İnsan resurslarının planlaşdırılması, kadr hazırlığı, ölçmə və qiymətləndirilməsi, mükafatlandırılması, təlimi, inkişafı, mühafizə və sənaye əlaqələri. Bundan əlavə son illərdə əhəmiyyət kəsb etməyə başlayan informasiya sistemləri də İnsan resurslarının idarə edilməsinin əsas funksiyaları sırasında qiymətləndirilir.

İdarəçilik sahəsində insan resurslarının idarə edilməsinin funksiyalarını yerinə yetirərkən insan resurslarının idarə edilməsi sahəsinə daxil olan məsələlərdə digər şöbələrlə fikir mübadiləsi aparılır, müxtəlif şöbələr arasında insan resursları idarə edilməsi funksiyalarının uyğun şəkildə təşkil olunması təmin edilir [16].

İnsan resurslarının idarə edilməsi ilə əlaqəli bütün funksiyaların məqsədi müəssisənin fəaliyyət göstərdiyi biznes sahəsində rəqabət üstünlüyünü təmin etmək və həyat səviyyəsinin daha yaxşı vəziyyətdə olmasını təmin etməkdir. Bunun bir nəticəsi olaraq, yeni məhsul və texnologiyaların yaradıla və istifadə edilə biləcək, yeni bazarlarda uyğun şəkildə rəqabət edə biləcək, böyümə və inkişafa nail ola biləcək və bütün bu funksiyaları bir-biri ilə uyğun şəkildə yerinə yetirə biləcək işçi qüvvəsini, insan resursunu müəssisəyə qazandırmaq və onlardan səmərəli istifadə etmək ən vacib məsələlərdən biridir. Buna görə də ənənəvi funksiyasından əlavə İnsan resurslarının idarə edilməsinin strateji bir funksiyası vardır [14].

İdarəçilik sahəsində insan resursları məhsuldarlıq və keyfiyyətin əsas göstəricisidir. Buna görə də bu resurslardan effektiv və səmərəli şəkildə istifadə etmək və onu inkişaf etdirmək müəssisənin əsas məqsədlərindən biri olmalıdır. Xüsusilə insan resursları idarə edilməsinin funksiyaları müəssisələrdə əsas məqsəd olaraq həyata keçirilməkdədir.

**İnsan Resurslarının Planlaşdırılması**

İnsan Resurslarının planlaşdırılması mərhələsində, planlar, proqramlar hazırlayaraq iş analizləri və iş təhlilləri aparıla bilər. İnsan Resurslarının planlaşdırılmasında mövcud işçi qüvvəsinin hazırkı vəziyyəti müəyyən edilərək gələcəkdə müəssisənin ehtiyac duyacağı İnsan Resurslarının miqdarı və keyfiyyəti müəyyənləşdirilir. İş analizinin və iş təhlilinin aparılmasında isə müəssisədə görülən işlər ayrı-ayrılıqda və detallı şəkildə müəyyən edilərək işin xüsusiyyətləri aşkara çıxarılır. Buna əsasən mövcud işin, İnsan Resurslarının analizi, təhlili aparılmış olur.

Müəssisələrin sahib olduqları insan resurslarından daha səmərəli şəkildə istifadə edilməsinin vacib bir yolu olan planlaşdırma müəyyən bir zamanda və yerdə ən uyğun sayda və keyfiyyətdə işçi qüvvəsinin olması, təşkilatdakı mövcud İnsan Resurslarının bilik və bacarıqlarından ən uyğun şəkildə istifadə edilə bilməsidir. Bundan əlavə, İnsan Resurslarının planlaşdırması, təşkilatdakı İnsan Resurslarının xərc amili olmasından yayındıran və istehsal amilinə çevirən bir funksiyadır [4].

**İşə qəbul**

İnsan Resursları'nın işə qəbulu prosesi kadrların müəyyənləşdirilməsi, seçilməsi, müəyyən vəzifədə yerləşdirilməsi və istiqamətləndirilməsi kimi əsas fəaliyyətlərdən ibarətdir. Kadrların müəyyənləşdirilməsi işə qəbulu prosesində hər hansı bir iş üçün müraciət edən namizədlərin qəbul edilməsidir. Müəyyən vəzifədə yerləşdirilməsi isə işə uyğun hesab edilən namizədlərin işə başlamasıdır.

Müraciətlər namizədlər tərəfindən elektron formada təşkil edilə biləcəyi kimi, həm də ərizə formalarının doldurulması ilə də həyata keçirilir. Müsahi-

bədən sonra işə götürülməyə layiq olanlar sağlamlıq və psixotexniki müayinələrdən sonra işə başlamağa hüquqları vardır. İşə yeni başlayan şəxslərə iş yerini və şərtlərini öyrənməsi üçün həyata keçirilən təlimə "Oriyentasiya təlimi" deyilir [3].

**İnsan Resurslarının Təlimi və İnkişafı**

İnsan resurslarının idarə edilməsində informasiya cəmiyyətinə keçid ilə tələb olunan inkişafın təmin olunmasında Təlim və inkişaf funksiyası həlledici rola malikdir. Təlimin nəticəsi daha bilikli, daha bacarıqlı, nəzərdə tutulan davranışları nümayiş etdirən, bir sözlə, daha bacarıqlı, ixtisaslı kadrlardır [9].

Bir müəssisədə İnsan Resursları sahəsində tətbiq olunan təlim və inkişaf funksiyaları çərçivəsində qiymətləndirilən digər vacib bir araşdırmada karyeranın planlaşdırılmasıdır. Karyera planlaşdırması işçinin sahib olduğu bilik, istedad, bacarıq və motivlərinin inkişafı ilə işlədiyi təşkilatdaxilində irəliləyişin və ya konkret olaraq yüksəlişin planlaşdırılmasıdır.

Psixotexnik, yəni işçinin bilik və maraq dairəsi təhlil etməklə müəssisədə işçi-insan harmoniyasını asanlaşdırma funksiyasını da təlim funksiyası daxilində qiymətləndirmək mümkündür [1].

**İnsan resurslarının qiymətləndirilməsi və mükafatlandırılması**

Müvəffəqiyyətin qiymətləndirilməsi, işçinin özündən gözlənilən vəzifələri nə dərəcədə yaxşı yerinə yetirdiyini müəyyənləşdirən bir prosesdir. Nailiyyətin qiymətləndirilməsinin məqsədləri ümumiyyətlə qiymətləndirmə və inkişaf məqsədləri formasında iki əsas qrupa bölünür. Qiymətləndirmə məqsədləri pul mükafatı, mükafatlandırma, vəzifədə yüksəliş, ixtisar, işdən azad olmaq kimi məsələlərlə əlaqədardır. İnkişaf məqsədləri isə idarəetmənin inkişafı, müvəffəqiyyətin inkişaf etdirilməsi, əks əlaqə kimi proseslərlə əlaqədardır.

İnsan Resurslarının seçimi və təlimində göstərilən qayğıya baxmayaraq, işçilərin eyni performans göstərmələri gözlənilməz. İnsanların fitri qabiliyyətləri, işə marağı və uyğunlaşma xüsusiyyətləri həmişə bir-birindən fərqlənir. İnsan resurslarının idarə edilməsi işçilər arasındakı bu fərqləri izləməli, ölçməli və obyektiv meyarlara əsaslanaraq qiymətləndirmək məcburiyyətindədir [9].

**İnsan resursları və sənaye əlaqələri**

Sənaye əlaqələri anlayışı geniş və dar mənada olmaqla iki formada istifadə olunur. Dar mənada sənaye əlaqələri sənaye sektorunda çalışanların iş şəraitini təyin edilməsidir. Geniş mənada isə bütün əmək haqqı alan işçilərin əlaqələri olan fərdi əlaqələr, həmkarlar ittifaqları ilə işəgötürənlər arasındakı kollektiv əlaqələr və dövlət orqanlarının tənzimləmələri daxildir.

Başqa sözlə, sənaye əlaqələri əmək münasibətlərinin məzmunu və tənzimlənməsi ilə fiziki ehtiyatların, insan resurslarının istifadəsinə və paylanmasına

təsir edən işçi qüvvələrinin, müəssisələrin və hökumətlərin strateji qərarlarına, kollektiv hərəkətlərinə bağlı olan, münaqişə, əməkdaşlıq və qarşılıqlı güc münasibətləri kontekstində təhlil edilməsi vacib olan bir araşdırma sahəsidir [6]. Müasir dövrdə həm işəgötürənlərin, həm də işçilərin nümayəndələri ümumilikdə həmkarlar ittifaqlarıdır.

**İnsan resurslarının müdafiəsi**

İnsan resurslarının müəssisədə səmərəli və effektiv işləməsi üçün sağlamlıq və təhlükəsizlik məsələlərinin daxil olduğu müdafiə funksiyasının tətbiq edilməsi vacibdir. İşçilərin sağlamlığı bütün peşələrdə işçilərin fiziki, psixoloji və sosial rifahının ən yüksək səviyyədə olmasını iş şəraiti və istifadə olunan zərərli maddələrə görə işçilərin sağlamlığına vurula biləcək hər hansı bir zərərin qarşısının alınmasını, işçinin psixoloji və fizioloji xüsusiyyətlərinə uyğun yerləşdirilməsini tələb edir [10].

İnsan resurslarına dəyər vermənin bir göstəricisi olan işçilərin sağlamlığı və təhlükəsizliyi məsələlərində ciddi tədbirlər görülməsi vacibdir. Görülməsi vacib olan tədbirlərin həyata keçirilib-keçirilmədiyinin yoxlanılması səlahiyyəti də dövlətə aiddir. Türkiyədə həmin bu yoxlama əsas etibarilə dövlət adına səlahiyyətli təşkilatların iş müfəttişləri ilə yerinə yetirilir [7].

**İnsan Resurslarında İnformasiya Sistemi**

Son illərdə vacib məsələyə çevrilməyə başlayan informasiya sistemləri İnsan resurslarının idarə olunmasının əsas funksiyaları arasında qiymətləndirilir. İnsan resurslarında informasiya sistemi (HRIS) bir təşkilatın İnsan resursları, kadr fəaliyyəti, təşkilati bölmələri və xüsusiyyətləri ilə əlaqəli ehtiyacı olan məlumatların toplanması, saxlanması, qorunması, yenilənməsi və təhlil edilərək müxtəlif hesabatların hazırlanmasını təmin edən bir prosesdir.

Bu sistem İnsan Resurslarının əsas məqsədlərini həyata keçirilməsində istifadə olunan bir vasitədir. İnsan resurslarında informasiya sistemi kadr fəaliyyətinin müvəffəqiyyətlə başa çatmasına olan təsirini, təhlükəli vəziyyətlərdə görüləcək tədbirlərin müəyyən edilməsini və ya İnsan resursları sahəsində daha yaxşı qərar qəbul etməsi üçün lazım olanları qiymətləndirəcək məlumatları özündə cəmləşdirir. İnsan resurslarının hər bir funksiyasının sistemdə özünəməxsus xüsusi yeri vardır [11].

İnsan resursları informasiya sistemində olan İnsan resurslarının funksiyaları müəssisədən müəssisəyə dəyişə bilər. Bununla yanaşı, ideal olan strukturun əsas məqsədi müəssisədəki bütün İnsan resursları fəaliyyətini özündə cəmləşdirən bir sistemin qurulmasıdır. Bu çərçivədə İnsan resurslarında informasiya sisteminə daxil edilməli olan İnsan resursları fəaliyyətləri aşağıdakı kimi olmalıdır:

- Kadrın şəxsi məlumatları;
- Təhsil haqqında məlumatları;
- Ödəniş məlumatları;
- İş təcrübəsi haqqında məlumatları;
- Əlaqə məlumatları;
- İşə qəbul prosesi haqqında məlumatlar;
- Fəaliyyətin qiymətləndirilməsi barədə məlumatlar;
- İş prosesi haqqında məlumatlar;
- Həmkarlar ittifaqı məlumatları;
- Sağlamlıq məlumatları;
- Əmək bazarı haqqında məlumatlar;
- İşdən ayrılma haqqında məlumatlar.

**Nəticə**

Davamlı İnkişaf Məqsədləri başladığımız işi sona çatdırmaq və bu gün dünyamızın üzləşdiyi bəzi ağır problemləri həll etmək üçün çox cəsarətli bir öhdəlikdir. Davamlı İnkişafın on yeddi məqsədləri bir-birinə bağlıdır; başqa sözlə, birində uğur başqalarına təsir edəcəkdir. Misal üçün; İqlim dəyişikliyi təhlükəsinə qarşı tədbir görmək məhdud təbii ehtiyatlarımızı necə idarə etdiyimizə təsir edir; gender bərabərliyinin təmin edilməsi və ya ümumi sağlamlığın yaxşılaşdırılması yoxsulluğun aradan qaldırılmasına kömək edir. Davamlı inklüziv inkişaf sosial bərabərsizliyi azaldır və iqtisadi tərəqqini artırır və gələcək nəsillərin həyatını yaxşılaşdırmaq üçün ən böyük fürsətimizdir.

Hər bir təşkilat yaradıldığı zaman hansı məqsədlər üçün fəaliyyət göstərəcəyi müəyyən olunur. Təşkilati məqsədlər müəyyənləşdirildikdən sonra həmin məqsədlərə çatmaq üçün təşkilat fəaliyyətə başlayır. Təşkilatın fəaliyyətini həyata keçirən onun işçiləri olur ki, həmin işçilər də təşkilatın insan resurslarını təşkil edir. Təşkilatlar səmərəli fəaliyyətini təmin etmək üçün insan resursları sahəsində öz siyasətini hazırlamalı və həyata keçirməlidir.

Hər bir təşkilat öz məqsədlərini müəyyənləşdirdiyi zaman insan resurslarının idarə edilməsi də əsas məqsədlərindən biri kimi özünü göstərməlidir. Belə ki, təşkilatın fəaliyyətini insanlar, təşkilatın işçiləri həyata keçirir ki, həmin işçilər öz sahələrində nə qədər ixtisaslaşmış olsalar, təşkilatın yüksək səmərə ilə işləməsi bir o qədər yaxşı təmin olunar. Buna görə də insan resurslarının idarə edilməsi təşkilatın əsas mıqsədlərindən biri olmalıdır.

Təşkilatlarda səmərəli fəaliyyətin təmin edilməsində ilk addım öz sahələrində ixtisaslaşmış işçilərin seçilməsidir. İnsan resurslarının idarə edilməsi sahəsində işçilərin seçilməsinin xüsusi rolu vardır. Bundan əlavə həmin işçilərin özlərini daim inkişaf etdirməsi üçün şəraitin yaradılması, onların təlimi, hazırlanması, bacarıqlarının, biliklərinin inkişaf etdirilməsi, karyeranın idarə

edilməsi, insan resurslarının planlaşdırılması, işçilərin fəaliyyətlərinin qiymətləndirilməsi insan resurslarının idarə edilməsinin əsasını təşkil edir.

İnsan resurslarının idarə edilməsi sahəsində təşkilati siyasət hazırlanarkən ilkin növbədə insan resurslarının düzgün planlaşdırılması lazımdır. Planlaşdırma aparılarkən insan resurslarından səmərəli istifadə edilməsi, xərc amili nəzərə alınmalıdır. Daha sonra işçilərin işə qəbulu üçün müəyyən metod işlənib hazırlanmalıdır ki, həmin metod işçilərin seçiminin düzgün formada aparılması, onların işlərdə düzgün yerləşdirilməsini təmin edərək təşkilati məqsədə çatmağa köməklik etsin.

Bütün bunları nəzərə alaraq onu qeyd edə bilərik ki, hər bir təşkilat insan resurslarının idarə edilməsi sahəsində öz siyasətini hazırlamalı və həmin siyasəti düzgün formada həyata keçirməlidir. Təşkilatlar mövcud insan resurslarından səmərəli istifadə etməli, onların özlərini inkişaf etdirməsi üçün təlimlər təşkil etməli, bacarıqlarını, biliklərini inkişaf etdirmələri üçün müəyyən metodlar hazırlamalı, işçilərə karyeranın planlaşdırılmasında köməklik etməlidir.

İnsan resurslarının idarə edilməsi idarəetmə funksiyasının ayrılmaz tərkib hissəsi olmaqla yanaşı, həmçinin, hər bir təşkilatın səmərəli idarə edilməsində və əsas məqsədlərinə nail olmasında mühüm rol oynayır.

**Ədəbiyyat:**


1. Akyüz Ö.F., "Değişim Rüzgarlarında Stratejik İnsan Kaynakları", İstanbul, Sistem Yayıncılık, 2001
2. Batur R., "İş Sağlığında ve Güvenliğinde Gelişmeler", Türkiye İşvern Sendikaları Konfederasyonu Dergisi, Nisan 2004
3. Bayraktaroğlu S., "İnsan Kaynakları Yönetimi", İstanbul, Yargı Yayınları, 2003
4. Bingöl D., "İnsan Kaynakları Yönetimi", 4.basım, İstanbul, Beta Yayınları, 1998
5. Dessler, Gary,"Human Resource Management", Prentice Hall, New Jersey, 10. Baskı, 2005
6. Erdut T.,"İnsan Kaynakları Yönetimi ve Endüstri İlişkilerinde Değişim", İzmir, Türk Ağır Sanayi ve Hizmet Sektörü Kamu İşverenleri Sendikası Yayınları, 2002
7. İtika, Josephat Stephen,"Fundamentals of Human Resources Management", African Studies Center, Hollanda 2011
8. Naib Niftəliyev - Davamlı inkişaf strategiyası. Bu, hər bir Azərbaycan vətəndaşının sosial rifahının təmin edilməsinə yönəlib. Səs.- 2010.- 14 oktyabr.- S. 6
9. Palmer M., Winners K.T., "İnsan Kaynakları", İstanbul, Rota Yayınları, 1993;
10. Sabuncuoğlu Z., "İnsan Kaynakları Yönetimi", Bursa, Ezgi Kitapevi, 2000
11. Tonus Z., "Temel İnsan Kaynakları İşlevlerinde İnsan Kaynakları Bilgi Sisteminin Kullanımı ve Önemi", Eskişehir, Anadolu Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Dergisi, 2002

12. United Nations Azerbaijan rəsmi saytı: http://unazerbaijan.org/en/
13. Urxan Ələkbərov – Davamlı insan inkişafının əsasları, Bakı -2007
14. Ülgen H., MİRZE S.K., "İşletmelerde Stratejik Yönetim", İstanbul, Literatür Yayınları, 2004
15. Vaqif Bayramov - Azərbaycan BMT-nin "Davamlı inkişaf məqsədləri indeksi"nə görə regional liderdir, "Xalq qəzeti", http://xalqqazeti.com/az/news/52050
16. Yüksel, Ö., "İnsan Kaynakları Yönetimi", Ankara, Gazi Kitapevi, 2000
17. https://sherg.az/x%C9%99b%C9%99r/132515

**ABSTRACT**

**THE ROLE OF HUMAN RESOURCES IN ENSURING SUSTAINABLE DEVELOPMENT IN THE DIGITAL AGE**

**Hasanov M.I.**
Department of Civil Service and Personnel Policy
The Academy of Public Administration
under the President of the Republic of Azerbaijan,
Ph.D. in Political Sciences, Associate Professor

The emergence of a modern model of public administration has increased the scope and effectiveness of public sector reforms. Implementing HRM in public administration will reduce government expenditures and contribute to the systematic development of public sector reforms and initiatives while ensuring more efficient staffing and operations. Currently, the implementation of HRM in the public sector is being studied more deeply and is discussed internationally. This study examines the conceptual development of human resource management from the past to the present in ensuring sustainable development in the digital age. Together with the information society, it has sought to portray how technology evolves in today's human resource management processes as a focus of private companies and government agencies.

The article examines the impact of emerging technology on human resource management in government agencies. It demonstrates how those impacts have been formulated to shape human resource management in government agencies further.

**Keywords:** *Public Administration, Human Resources, Management, Sustainable Development, Planning, Information Society*

## РЕЗЮМЕ

# РОЛЬ ЧЕЛОВЕЧЕСКИХ РЕСУРСОВ В ОБЕСПЕЧЕНИИ УСТОЙЧИВОГО РАЗВИТИЯ В ЦИФРОВУЮ ЭПОХУ

**Гасанов М.И.**
*Доцент кафедры «Государственная служба и кадровая политика» Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор философии по политическим наукам*

Появление современной модели государственного управления повысило охват и эффективность реформы общественного сектора. Внедрение УЧР в государственное управление наряду со снижением государственных расходов служит, обеспечивая большую эффективность кадров и операций, так же и системному развитию реформ и инициатив в государственном секторе. В настоящее время применение УЧР в государственном секторе изучается более глубоко и обсуждается на международном уровне. В этом исследовании рассматривается концептуальное развитие управления человеческими ресурсами от прошлого до настоящего в обеспечении устойчивого развития в эпоху цифровых технологий. Дается попытка описания вопроса о том, как использовать технологии, которые развивались наряду с информационным обществом, в процессах современного управления человеческими ресурсами, как центр внимания частных компаний и государственных структур. Была изучена степень воздействий развивающихся технологий на управление человеческими ресурсами, а также как эти воздействия создают дальнейшую форму управления человеческими ресурсами в государственных учреждениях.

**Ключевые слова:** *государственное управление, человеческие ресурсы, устойчивое развитие, планирование, информационное общество*

UOT 005:001.83(100); 658:001.83(100); 338:001.83(100)
UOT 351.78: 504.4/8:614.8; UOT 327(4/9); 930.22(4.9)

# ENVIRONMENTAL AND REGIONAL SECURITY ISSUES IN THE SOUTH CAUCASUS

**Humbatov F.D.**
*Department of Planning and Management of Sustainable Development*
*The Academy of Public Administration*
*under the President of the Republic of Azerbaijan,*
*Doctor of Philosophy in Mathematics,*
*Associate Professor Master's Degree in Law (LLM)*
*Ph.D. student, Institute of Law and Human Rights of the National*
*Academy of Sciences of the Republic of Azerbaijan*
*e-mail: fuad.humbatov@mail.ru*

*The article examines the concepts of the various environmental crimes such as eco-terrorism, environmental war, and ecocide in the context of their impacts on regional security. It studies the environmental crimes of the Republic of Armenia against the Republic of Azerbaijan over the past 30 years from the perspective of international relations and humanitarian law.*

**Keywords:** *armed conflicts, environmental security, environmental terrorism, ecocide, ecological war, security of the environment*

The issue of environmental protection has been on the agenda of the international community as a global challenge since the early 1960s. The problem has always been in agenda of the international community in various aspects both in peacetime and during conflicts.

It is known that one of the common features of the international conflicts and wars that have taken place in different periods is that they not only negatively affect the defense capabilities of the parties to the conflicts, life and health, socio-economic, political and military situation, but also seriously damage environment, environmental stability, and the environmental security system of the states involved in the conflict.

A number of scientific and other literature exists on possible anthropogenic damages or a threat of their occurrence to the environmental security system of each country during economic activity. This article will consider the notions of environmental terrorism, ecosystem and environmental war as the main threats to environmental security system, and in light of these definitions it will examine a number of environmental crimes committed by Armenia as part of

its policy of aggression against the Republic of Azerbaijan over the past 30 years, these crimes will be classified from point of view of international relations and humanitarian law.

İt's obvious that the scientific and technological progress that took place enabled strengthening military potential of various countries, combat capabilities of the relevant armed forces. It's particularly important during the 4th Industrial Revolution that is going on. In the same time during various armed conflicts this progress could cause very serious and dangerous damages to the environmental security systems of parts involved to conflicts. Along with the creative feature of the scientific and technological progress and innovations, there are plenty of historical facts about their use in armed conflicts, wars, terror attacks and other destructive acts causing various humanitarian problems, as well as hard environmental damages. For example, during the First World War, on April 22, 1915, near the Belgian city of Ypres, the German armed forces released up to 180 tons of the yellow suffocating chlorine gas onto the French military unit using the direction of the wind. As a result, three thousand French soldiers died of suffocation and seven thousand were badly burned. For the first time in the history of the armed conflicts, this incident went down in the history of armed conflicts as the widespread use of chemical weapons. Professor Fritz Haber, a businessman and scientist who developed and introduced this "mysterious weapon" to the German military machine and later led its mass production and made a lot of money later on was awarded the Nobel Prize in Chemistry in 1918 for the synthesis of ammonia as if he had no role in the aforementioned crime that caused the loss of so many lives and environmental problems. In fact, he went down in history as the founder of the "Chemists' War"([15]). However, the use of this poisonous substance called mustard by the German armed forces in World War I was directly contrary to Article 23a of The Hague Convention of 1907 (18.10.1907) on the "Laws and Customs of War on Land" and was considered a war crime ([16]). As can be seen, this even was a clear example of double standards in the history of international relations, when a person who has committed a flagrant crime against humanity was awarded the Nobel Prize. Unfortunately, at the end of the twentieth century, another manifestation of these double standards took place when Mikhail Gorbachev, the last president of the USSR committed a crime against humanity by ordering the mass and brutal killing of the civil population in Baku on January 20, 1990, was awarded the Nobel Peace Prize.

It should be noted that despite the fact that the act of using poison near the city of Ypres was a war crime, unfortunately, in the next stages, other countries, such as the United States, Great Britain and others, will also be involved. They widely used various chemicals and their suffocating types (phosgene,

diphosgene, mustard, sarin, time, V-gases) in their armed forces. The damage caused by these chemical weapons to the environment, air, soil and water resources, fauna and flora, which caused a large number of casualties, seemed to be of less concern to the public at that time.

In this article, before analyzing the various types of intentional environmental crimes mentioned in international conflicts, such as environmental terrorism, ecocide, and environmental warfare, let us first look at the concept of environmental security.

There are various definitions and interpretations of the concept of environmental security in the relevant scientific literature. Their main point all these definitions is that the environmental security of any state as part of its overall national security system consists of a set of international, local, legal, administrative and other measures aimed at protecting the environment from the dangers posed by anthropogenic influences during the rational use of natural resources and other activities, as well as natural influences in order to ensure the existentially vital interests of man and society.

In this sense, the environmental security system should be treated using complex approach, and the means and measures used to ensure the operationalization of this system must become one of the main functions of each state. Concerning the Republic of Azerbaijan, the environmental security issues are included in the Constitution of the Republic of Azerbaijan and other relevant legislative acts. Thus, Article 39 of the Constitution of the Republic of Azerbaijan, among other things, establishes a right of every person to live in a healthy environment, as well as the state's guarantee of ecological balance ([17]).

At the same time, the Law of the Republic of Azerbaijan No. 677-IQ of 08.06.99 on “Environmental Security” regulates judicial liability, access to the relevant information, the role of the community in this area and other issues ([18]).

Ensuring environmental security in the context of international relations is one of the main activities of all states, relevant international organizations, other stakeholders through the means and mechanisms enounced in the relevant multilateral and bilateral agreements. There are a number of researches on international and local legal aspects of environmental security, including energy security ([2,3,11]). The international legal aspects of the environmental security and the comparative analysis of the definitions of the environmental security concept are widely reflected.in various sources ([11]).

Taking into account the analysis of all these definitions and aspect, this article examines in term of international relations and international humanitarian law the damages caused by Armenia to the environmental

security system of the Republic of Azerbaijan during the policy of aggression pursued by Armenia during the Armenia-Azerbaijan conflict since the 1990s.

In general, for classification of illegal environmental crimes in terms of international relations and international humanitarian law of during armed conflicts and not only, it is important to assess modus operandi, gravity of damages, personality of criminals of these acts. Since, for example, the illegal acts such as environmental terrorism, ecosystems and environmental wars sometimes are very similar in terms of modus operandi, damages and some other elements of corpus delict of crimes, but they ultimately differ in personality of criminals, gravity of damages and other elements.

First of all, let's look at the concept of environmental terrorism (ecoterrorism). It’s well known that environmental terrorism has begun to form since the mid-20th century as a modern, but detrimental in terms of humanitarian consequences type of political terrorism which was widely used since the late 19th century and mastered later on as a main political struggle tool by all Armenian nationalist organizations like that Armenian Revolutionary Federation (Dashnaktsutyun), Social Democrat Hunchakian Party (Hnchak) etc ([5]). It is interesting that Armenian nationalists and some other organizations, who are well acquainted with political terrorism methods, managed to master this new type of terrorism in a short time as well. It’s is evident by the environmental crimes committed against Azerbaijan during the policy of aggression of the Republic of Armenia that has lasted for more than 30 years. Some of them will be analyzed in the article.

As noted, the development of scientific and technological progress today, especially the achievements of the 4th Industrial Revolution, has made critical infrastructure in various countries, including the nuclear complex, hydrocarbon production and its distribution-transportation infrastructures, and other areas extremely vulnerable to environmental terrorism. That’s why this technological trend has made the protection of the mentioned critical infrastructure one of the major challenges of the 21st century on a global scale. In the same time, despite the various forms of terrorism, its content and purpose have remained virtually unchanged. Thus, although there are different definitions of this concept in many literatures, there is no widely accepted definition of it. For example, in the Republic of Azerbaijan, the Law on Combating Terrorism No. 687-IQ of 18.06.1999 defines that terrorism is an explosion, fire or other acts (act of terrorism), as well as threats to commit such acts that might kill people, injure their health, cause significant property damage or other socially dangerous consequences in order to disrupt public security, cause panic among the population or influence the decision-making by public authorities or international organizations ([19]).

If the national legislation decides to give the definition of the environmental terrorism in the future, there should be included “favorable environment” as an object of damage of the illegal act or threating, in terms of special, different feature of ecoterrorism. Moreover, the distinctive feature of the ecoterrorism is causing significant (that is assessable category and could be clarified if it’s needed) environmental e damage or threatening of such damage in order to influence the decision-making (action or inaction) of government or international organizations (or another legal entities) ([13]). Later on in the paper we will address this issue thoroughly.

At the same time, depending on criminal personality and other elements of the corpus delict of crimes, it is necessary to distinguish the ecoterrorism from another ecological crime such as ecocide or, environmental war that are sometimes objectively (modus operandi) very alike to it.

R – интенсивность развития болезни, %

В течение 2021-2022 гг. нами разработана система агротехнических мероприятий по борьбе с бактериальным раком земляники (Agrobacterium tumefaciens Conn.) в условиях западной части Азербайджана:

Следует возделывать устойчивые к экономически значимым заболеваниям сорта, использовать здоровый качественный посадочный материал, выращиваемый в специализированных маточниках. Чем интенсивнее производство земляники (Fragaria L.) (в открытом грунте с поливом дождеванием и напуском, с капельным орошением; в защищенном грунте по гидропонным технологиям), тем выше должна быть устойчивость сортов и обязательно регулярное проведение фитосанитарного мониторинга;

Товарные и маточные посадки земляники (Fragaria L.) нужно закладывать раздельно;

Периодически нужно осматривать маточные плантации и удалить все больные растения;

Соблюдать культурооборот: нельзя закладывать посадки земляники (Fragaria L.) после ягодников, плодового питомника и сада, некоторых технических культур;

Необходимо поддерживать высокий уровень агротехники, включая систему удобрений. Также эффективным является регулирование закладки цветоносов, формирование надземной и подземной массы растений препаратами со специальными регуляционными свойствами, многие из которых обладают иммуномодуляционными, антистрессовыми свойствами.

При подкормке не применяют хлористые формы калийных удобрений, к которым чувствительна земляника (Fragaria L.); следует избегать одностороннего внесения азотных удобрений;

Систематически проводить борьбу с почвенными вредителями (майскими жуками, проволочниками, корневыми долгоносиками и т.д.);

В связи с опасностью перекрестного заражения нельзя культивировать землянику (Fragaria L.) в междурядьях молодого сада. Избегать загущения посадок и застоя поливной воды в понижениях рельефа;

Соблюдение правильной агротехники, способствующей повышению устойчивости растений к заболеванию. К ней относятся: нормальная густота посадки (не допускать загущения), ограничение органических и азотных удобрений, регулярная обработка почвы и борьба с сорняками. Особое значение имеет своевременный сбор урожая с обязательным выбором больных ягод;

Весеннее мульчирование плантации навозом, что способствует разрушению спороношений фитопатогенных грибов. Дело в том, что в навозе имеются микробы – антогонисты, уничтожающие споры возбудителя болезни;

Позднеосенняя или ранневесенняя обработка почвы, при которой пораженные листья с источником инфекции заделываются в почву. На приусадебных участках и дачах рекомендуется сгребать и закапывать в компостные кучи опавшие листья.

**Выводы**

Бактериальный корневой рак (Agobacterium tumefaciens Conn.) широко распространенное и вредоносное заболевание в земляничных плантациях республики Азербайджан;

Нарушение поступления питательных веществ в растения при поражении патогеном ослабляет их рост и развитие, что проявляется в снижении урожайности земляничных кустов, уменьшении выхода посадочного материала в питомнике, сокращении долговечности плантаций;

Источником инфекции является пораженные кусты и почва. Критическим моментом в проникновении бактерии в растение является наличие свежей раны;

Защита насаждений земляники (Fragaria L.) от бактериального корневого рака (Agrobacterium tumefaciens Conn.) может быть успешной только при регулярном проведении системы профилактических и агротехнических мероприятий в питомнике, в молодой и плодоносящей плантации.

**Литература:**


1. Баранов, В.Д., Устименко, Г.В. Мир культурных растений. – М.: Мысль. – 1994. – 99 с.
2. Глебова, Е.И., Даньков, В.В., Скрипниченко М.М. Ягодный сад. Л.: Лениздат. – 1990. – 5 с.
3. Белобородова, Г.Г. Агрометеорологические основы повышения продуктивности плодоводства. Л.: Гидрометеоиздат. – 1982. – 69 с.
4. Бейкер, Х. Плодовые культуры. – Москва: Мир. – 1986. – 49 с.
5. Кривко, Н.П., Агафонов, Е.В., Чулков, В.В. Плодоводство. – Москва: Лань. – 2014. – 39 с.
6. Исин, М.М. Болезни сада. – Алма-Ата: Кайнар. – 1984. – 146 с.
7. Головин, П.Н. Фитопатология. – Л.: – Колос. – 1980. – 73 с.
8. Корчагин, В.А. Защита сада от вредителей и болезней. – Москва: Колос. – 1978. – 189 с.
9. Станчева, Й. Атлас болезней сельскохозяйственных культур. Т. 3., (перевод с болгарского). – София: Пенсофт. – 2002. – 57 с.
10. Красильников, Н.А. Определитель бактерий и актиномицетов. – Москва: Колос. – 1976. – 127 с.
11. Харрион, Д. Болезни сада. /пер с англ. А.Карасева/, СПб.: Амфора ТИД Амфора. – 2011. – 391 с.
12. Гулиев, Ф.А., Гусейнова, Л.А. Изучение и диагностика ботритиоза или серой гнили земляники в условиях западной части Азербайджана / Материалы IX Международной научно-практической конференции «Наука и Образование в современном мире: Вызовы XXI века», Казахстан. – 2021. – 21-25 с.
13. Купревич, В.Ф. Физиология больного растения в связи с общими вопросами паразитизма. – Москва: Колос. – 1989. – 60 с.
14. Доспехов, Б.А. Методика полевого опыта. – Москва: Агропромиздат. – 1985. – 122 с.
15. Горленко, М.В. Бактериальные болезни растений. – Москва: Высшая школа. – 1973. – 29 с.

## XÜLASƏ

# AZƏRBAYCANIN QƏRB HİSSƏSİ ŞƏRAİTİNDƏ ÇİYƏLƏK KOLLARININ BAKTERİAL XƏRÇƏNGİ XƏSTƏLİYİNİN YAYILMASI, İNKİŞAF DİNAMKASI VƏ ZƏRƏRİ

**Quliyev F.A.**
*Azərbaycan Milli Elmlər Akademiyasının*
*Lənkaran Regional Elmi Mərkəzi,*
*kənd təsərrüfat elmləri doktoru, professor*

**Hüseynova L.A.**
*Bitki Mühafizə və Texniki bitkilər*
*Elmi-Tədqiqat İnstitutu, doktorant*

Çiyələk bitkisi (Fragaria L.) bir çox göbələk (mikoz), bakterial (bakterioz), fitoplazma (fitoplazmoz), virus (viroz), viroid və qeyri-infeksion mənşəli xəstəliklərin təsirinə məruz qalır. Azərbaycanın qərb bölgəsi şəraitində çiyələk bitkisinin (Fragaria L.) ən geniş yayılmış xəstəliklərinə aiddir: ramulyarioz və ya ağ ləkəlilik (Ramularia tulasnei Sacc.), qonur ləkəlilik (Marssonina potentillae (Desm.) P. Magn. f. fragariae (Lib.) Ohl.), botritioz və ya giləmeyvələrin boz çürüməsi (Botritis cinerea Pers.), bakterial kök xərçəngi və ya köklərin çinədanlığı (Agrobacterium tumefaciens Conn.), yarpaqların qırışıqlılığı (Strawbery crinkl virus), "Şeytan süpürgəsi" və ya çiyələk bitkisinin qeyri-normal böyüməsi (Strawbery witchs broom virus), cırtdanlılıq (Strawbery stunt virus) və s.

Bakterial kök xərçəngi və köklərin çinədanlığı xəstəliyi (Agrobacterium tumefaciens Conn.) çiyələk bitkisinin (Fragaria L.) ən geniş yayılmış xəstəliklərindən biri olub, Azərbaycanın bütün giləmeyvəçilik bölgələrində təsadüf edilir. Lakin, xəstəliyə əksərən, ölkənin Gəncə-Qazax coğrafi bölgəsində rast gəlinir.

Bakterial kök xərçəngi və ya köklərin çinədanlığı xəstəliyi (Agrobacterium tumefaciens Conn.) çiyələk bitkisinin (Fragaria L.) vaxtından əvvəl qurumasına və bitkinin məhsuldarlıq dövrünün məhdudlaşmasına səbəb olur. Xəstəliklə sirayətlənmiş kollar zəif böyüyür və onların məhsuldarlığı kəskin şəkildə azalır. Belə çiyələk kolları qışadavamlılıq qabiliyyətini itirir və bir qədər aşağı temperaturda şaxtadan donur.

Məqalədə Azərbaycanın qərb bölgəsində çiyələk kollarının (Agrobacterium tumefaciens Conn.) bakterial kök xərçənginin tədqiqi üzrə tədqiqatların nəticələri təqdim olunur. Çiyələk bitkisinin (Fragaria L.) kök sistemindən təcrid

olunmuş Agrobacterium tumefaciens Conn.-un fizioloji, biokimyəvi və patogenlik xüsusiyyətləri müəyyən edilmişdir.

Respublikada ilk dəfə olaraq aqrotexniki mübarizə üsullarını özündə birləşdirən çiyələk plantasiyalarının bakterial kök xərçəngindən (Agrobacterium tumefaciens Conn.) mühafizəsi sistemi hazırlanmış və istehsalata təklif edilmişdir. Mühafizə tədbirləri sisteminin işlənib hazırlanması məqsədilə, aqrotexniki tədbirlərin səmərəliliyi öyrənilmişdir.

**Açar sözlər:** *çiyələk, bakterial xərçəng və ya köklərin çinədanlığı, sirayətlənmə, bakteriya, xəstəlik törədici*

## ABSTRACT

## THE SPREAD, DYNAMICS OF DEVELOPMENT, AND HARMFULNESS OF BACTERIAL ROOT CANCER OF STRAWBERRY BUSHES IN THE WESTERN PART OF AZERBAIJAN

**Guliyev F.A.**
*Dr. Agricultural Sciences, Professor,*
*Lankaran Regional Scientific Center of ANAS*

**Huseynova L.A.**
*PH.D. Candidate, Scientific Research Institute*
*of Plant Protection and Industrial Crops*

Strawberries (Fragaria L.) are susceptible to many fungal (mycosis), bacterial (bacteriosis), phytoplasmic (phytoplasmas), and viral (virosis), viroid, and non-infectious diseases. Among the most common diseases in the western part of the republic is ramularia or white leaf spot (Ramularia tulasnei Sacc.), brown leaf spot (Marssonina potentilla (Desm.) P. Magn. f. fragariae (Lib.) Ohl.), botrytis or gray rot of berries (Botrytis cinerea Pers.), bacterial root cancer or root goiter (Agrobacterium tumefaciens Conn.), leaf crinkle (Strawberry crinkle virus), "Witch's broom" or strawberry growth (Strawberry witch's broom virus), strawberry dwarfism (Strawberry stunt virus), etcetera.

Bacterial root cancer or root goiter is one of the most common diseases of strawberries, found in almost all areas of berry growing in Azerbaijan. However, the disease is most common in the Ganja-Kazakh geographical zone of the country. Bacterial root cancer or root goiter causes premature drying of strawberries and reduces their productive period. On the affected bushes, the

growth is minimal; the yield is sharply reduced. Such strawberry bushes lose their winter hardiness and freeze at slightly low temperatures.

The article presents the results of the study of bacterial root cancer of strawberry bushes (Agrobacterium tumefaciens Conn.) in the western part of Azerbaijan. The physiological, biochemical, and pathogenic properties of Agrobacterium tumefaciens Conn. isolated from the strawberry root system were determined.

For the first time in the republic, a system for protecting strawberry plantations from bacterial root cancer (Agrobacterium tumefaciens Conn.), which included agrotechnical control methods, was developed and proposed for production. The effectiveness of agrotechnical measures was studied to develop a system of protective measures.

**Keywords:** *strawberries, bacterial cancer or root goiter, infection, bacterium, the causative agent*

UOT 632.3:634.75

# ANTENATAL DÖVRDƏ HİPOKSİYA FAKTORUNUN TƏSİRİNƏ MƏRUZ QALMIŞ VƏ SOSİAL İZOLYASİYA OLUNMUŞ DOVŞAN BALALARINDA QANIN REALOJİ XÜSUSİYYƏTLƏRİNİN TƏDQİQİ

**Cəfərova G.Q.**
*Azərbaycan Milli Elmlər Akademiyasının*
*akademik Abdulla Qarayev adına Fiziologiya İnstitutu*
*e-mail: gulya25mustafayeva@rambler.ru*

*Tədqiqatlarımızda əsas məqsəd embrional inkişafın ən kritik dövrünə təsadüf edən antenatal hipoksiya və sosial izolyasiya amillərinin gələcək nəslin hemoqrammasında yaratdığı dəyişkənliklərin izlənməsi olmuşdur. Təcrübə üçün "Şinşilla" cinsinə məxsus dovşanlardan istifadə olunmuş və embrional inkişafın rüşeym dövründə hipoksiyaya məruz qalmış balalarda və eyni zamanda postnatal inkişafın 30 günlüyündə etibarən sosial izolyasiya tətbiq olunmuş balalarda hemoqlobinin, eritrosit və leykositlərin dəyişmə dinamikası izlənmişdir. Alınmış nəticələrin müqayisəli analizi embrional dövrə təsadüf edən hipoksiya şəraitində qanın kəmiyyət və keyfiyyət xüsusiyyətlərində əhəmiyyətli dəyişkənliklərin olduğunu, hemoqlobinin səviyyəsinin və eritrositlərin miqdarının aşağı düşməsini, leykositlərin miqdarının nisbətən yüksəlməsini göstərmişdir. Tədqiqatların nəticələrinin statistik təhlili antenatal hipoksiya amili kimi sosial izolyasiya amilinin də mənfi təsiredici rolunu ortaya qoymuşdur.*

**Açar sözlər:** *hipoksiya, sosial izolyasiya, ontogenez, qan, hemoqramma*

## Giriş

Oksigen aclığı şəraitinə orqanizmin adaptasiya olunması daim tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Belə ki, həyat fəaliyyəti dövründə müşahidə olunan bir çox fizioloji və patoloji proseslərin əsasında bilavasitə və ya dolayı yolla təsir edən hipoksiya amili dayanır. Bətndaxili inkişafın patologiyaları sırasında bətndaxili hipoksiya faktoru dölün normal inkişafı və sağlamlığı üçün real təhlükə yaradır. Belə ki, antenatal hipoksiya ana-döl sistemində ciddi zədələnməyə səbəb olan əsas stress faktor hesab olunur (2; 5). Bir sıra tədqiqatlarla müəyyən olunub ki, embrional inkişaf zamanı müşahidə olunan hipoksik təsir şəraitində ilkin olaraq hemostaz sisteminin sabitliyinin qorunub saxlanılmasına yönəlmiş bərpa reaksiyaları baş verir. Bu faktorun uzunmüddətli təsiri zamanı isə orqanizmdə struktur-funksional dəyişkənliklər gedir və

orqanizmdə sistematik olaraq patoloji dəyişkənliklərə gətirib çıxarır. Bütün bu dəyişkənliklər isə ilkin olaraq qan sistemində öz əksini tapır (1; 3;4). Buna görə də perinatalogiyada yeni doğulmuşlarda qan sisteminin tədqiqi əsas istiqamətlərdən hesab olunur.

**Material və metodlar**

Tədqiqatlar boğazlığın rüşeym mərhələsində (embrional inkişafın 1–7 günləri) hipoksik hipoksiyaya məruz edilmiş və eyni zamanda embrional inkişafını normal şəraitdə keçirmiş "Şinşilla" cinsinə məxsus ana dovşanlardan alınmış və postnatal inkişafın 30-cu günündən etibarən sosial izolyasiya şəraitində olmuş 45–60 günlük dovşanların balaları üzərində aparılmışdır. Bu məqsədlə hipoksiya şəraiti ümumi sahəsi 0,12m$^2$ olan xüsusi barokamerada yaradılmış və təcrübə qrupundan olan heyvanlar boğazlığın 1–7-ci günləri 20 dəq. müddətində tərkibi 95% $N_2$ və 5% $O_2$ olan qazlar qarışığı ilə tənəffüs etdirilmişlər. Boğazlığın sonrakı mərhələlərində boğaz dovşanlar normal vivarium şəraitində saxlanılmışlar. Daha sonra bu heyvanlardan alınmış balalar 20 günlüyündən analardan ayrılaraq sosial izolyasiya şəraitində saxlanılmışlar. İstər təcrübə, istərsə də kontrol qrupdan olan 45 və 60 günlük heyvanların qulaq venasından müvafiq qan nümunələri götürülərək analizlər aparılmışdır. Hemoqlobinin qatılığı "065" markalı eritrohemometr cihazı ilə və QS-3 hemometri ilə, eritrositlərin və leykositlərin sayı Qaryayev kamerasında, eritrositlərin çökmə sürəti isə Pançenkov cihazı vasitəsilə tədqiq olunmuşdur. Alınmış nəticələrin statistik analizi aparılmışdır.

**Alınmış nəticələr və müzakirəsi**

Tədqiqatlar yaş faktoru (45 və 60 günlük), sosial izolyasiya (postnatal inkişafın 30-cu günündən etibarən) və hipoksiya amili (embrional inkişafın 1-7 günlüyündə (rüşeym dövrü) tətbiq olunmuş) nəzərə alınmaqla 4 qrup üzrə aparılmışdır:

I. Boğazlıq dövrünü normal vivarium şəraitində keçirmiş analardan alınmış 45 və 60 günlük balalar (kontrol).

II. Boğazlıq dövrünü normal vivarium şəraitində keçirmiş analardan alınmış, postnatal inkişafın 30-cu günündən etibarən analardan sosial təcrid olunmuş 45 və 60 günlük balalar (izolyasiya kontrol)

III. Boğazlığın rüşeym dövründə hipoksiya amilinin təsirinə məruz qalmış analardan doğulmuş 45 və 60 günlük balalar (hipoksiya təcrübə)

IV. Boğazlığın rüşeym dövründə hipoksiya amilinin təsirinə məruz qalmış analardan doğulmuş, postnatal ontogenezin 30-cu günündən etibarən analardan sosial təcrid olunmuş 45 və 60 günlük balalar (hipoksiya izolyasiya təcrübə).

Embrional inkişafını normal şəraitdə keçirmiş kontrol qrupdan olan və normal inkişaf dövrü keçirmiş, ancaq 30-cu gündən etibarən sosial izolyasiya olunmuş heyvanların 45 günlük balalarında hemoqlobinin qatılığı (kontrol qrupda orta hesabla 12,2±0,1 q%, izolyasiya kontrol qrupda isə 11,8±0,3 q%) demək olar ki, fərqlənmir. Lakin embrional inkişafın rüşeym dövründə hipoksiyaya məruz qalmış 45 günlük balalarda hemoqlobinin miqdarı bir qədər düşərək orta hesabla 9,8±0,4 q% , eyni zamanda sosial izolyasiyaya məruz qalmış balalarda isə 9,2±0,5 q% təşkil etmişdir(şək.1). Eritrositlərin dinamikasında da ciddi fərq müşahidə olunmuşdur; kontrol qrupda orta miqdar 7,5 ±0,9 q/l təşkil etdiyi halda izolyasiya kontrol qrupda bu göstərici 5,7±0,5 q/l səviyyəsində müəyyən edilib. Hipoksik təsirə məruz qalmış balalarda bu fərq 5,3±0,7 q/l səviyyəsində, hipoksiya izolyasiya təcrübə qrupundan olan heyvanlarda isə daha kəskin düşərək 4,7±0,6 q/l müəyyən edilmişdir (şək. 2). Leykositlərin miqdarında isə əksinə tendensiya müşahidə olunmuşdur. Belə ki, kontrol qrupda leykositlərin miqdarı 6,8±1,1 q/l səviyyəsində olduğu halda, izolyasiya kontrol qrupdan olan heyvanlarda leykositlərin miqdarı bir qədər yüksələrək 8,6± 1,0 q/l səviyyəsində müəyyən olunmuşdur. Hipoksiyanın təsiri ilə bu qrupdan olan heyvanlarda bu göstərici 9,2± 1,0 q/l, həm hipoksiya, həm də sosial izolyasiya faktorunun təsiri ilə isə daha kəskin yüksələrək 13,9± 1,0 q/l səviyyəsində müəyyən olunmuşdur (şək. 3). Eritrositlərin çökmə sürətində də fərqli nəticələr əldə olunmuşdur: kontrol qrupda EÇS 1 mm/saat, izolyasiya kontrol qrupda 4 mm/saat, hipoksiya və hipoksiya izolyasiya təcrübə qrupundan olan heyvanlarda isə 2 mm/saat təşkil etmişdir.




**Şəkil 1.** Antenatal hipoksiya və sosial izolyasiya faktorlarının 45 və 60 günlük dovşan balalarının qanında hemoqlobinin dinamikasına təsiri




**Şəkil 2.** Antenatal hipoksiya və sosial izolyasiya faktorlarının 45 və 60 günlük dovşan balalarının qanında eritrositlərin dinamikasına təsiri




**Şəkil 3.** Antenatal hipoksiya və sosial izolyasiya faktorlarının 45 və 60 günlük dovşan balalarının qanında leykositlərin dinamikasına təsiri

Tədqiqatların növbəti seriyası 60 günlük balalar üzərində aparılmış və demək olar ki, 45 günlük balalarda analoji dinamika izlənmişdir. Belə ki, embrional inkişafını normal şəraitdə keçirmiş kontrol qrupdan olan heyvanların 60 günlük balalarında hemoqlobinin qatılığı 11,7±0,2 q% olduğu halda, embrional inkişafını normal şəraitdə keçirmiş kontrol qrupdan olan və sosial izolyasiya tətbiq olunmuş 60 günlük balalarda hemoqlobinin miqdarı orta hesabla 12±0,5 q% təşkil etmişdir. Antenatal hipoksiyanın təsiri ilə 60 günlük balalarda bu göstərici üzrə orta miqdar 10,8±0,1 q%, eyni zamanda sosial izolyasiya olunmuş balalarda isə 8,5±0,3 q%-ə qədər enmişdir (şəkil 1).

Eritrositlərin dinamikasında da eyni tendensiya müşahidə olunmuşdur. Kontrol qrupdan olan heyvanlarda eritrositlərin miqdarı 7,4±0,9 q/l, sosial izolyasiya tətbiq olunmuş kontrol qrupdan olan balalarda eritrositlərin orta miqdarı bir qədər düşərək 5,1±0,9 q/l təşkil etmişdir. Antenatal hipoksiya amilinin təsirinə məruz qalmış balalarda bu göstərici bir qədər də enərək 4,1±0,5 q/l, eyni zamanda sosial izolyasiya olunmuş balalarda isə 2,9±0,7 q/l səviyyəsində müəyyən olunmuşdur (şəkil 2). Eritrositlərin çökmə sürətində isə bütün qruplar üzrə eyni nəticə (2 mm/saat) izlənmişdir.

Leykositlərin dinamikasına bu faktorların təsirində digər göstəricilərin əksinə tendensiya müşahidə olunmuşdur. Kontrol qrupda 6,2±1,1 q/l, sosial izolyasiya olunmuş kontrol qrupdan olan 60 günlük balalarda 8,9±1,0 q/l, hipoksik təsirə məruz qalmış balalarda 8,2±0,5 q/l, antenatal hipoksiya və sosial izolyasiya olunmuş balalarda isə 9,6±1,0 q/l səviyyəsinə qədər yüksəlmişdir (şəkil 3). EÇS isə bütün qruplar üzrə 2 mm/saat təşkil etmişdir.

Beləliklə, apardığımız təcrübələrdə hipoksiyanın orqanizmə dolayı və sosial izolyasiyanın isə birbaşa təsiri nəticəsində hemoqrammadakı dəyişkənliklər izlənmişdir. Aldığımız nəticələrin statistik təhlili antenatal hipoksiya kimi, sosial izolyasiya faktorunun da hemoqramanın dinamikasına mənfi təsirini ortaya qoymuşdur. Belə ki, hər iki faktorun eyni zamanda təsiri tədqiq olunmuş heyvanlarda hemoqlobinin səviyyəsinin nisbətən aşağı düşməsi, eritrositlərin miqdarının azalması və leykositlərin səviyyəsinin bir qədər yüksəlməsi şəklində qeydə alınmışdır. Alınmış nəticələr hipoksiyanın ana-döl münasibətlərində yaratdığı patoloji dəyişkənliklərlə izah olunur ki, bu da postnatal ontogenezin sonrakı mərhələlərində hemoqrammadakı dinamik disfunksiyalarla özünü göstərir.

**Ədəbiyyat:**


1. Зюзьков Г.Н. Гематологические механизмы адаптации к гипоксии и их фармакокоррекция. /автореф.томск,2006.
2. Зубенко С.И., Сазонова Е.Н. Влияние антенатальной гипоксии на тканевой гемостаз миокарда белых крыс//Успехи современного естествознания. -2011.№ 8.с. 105-106
3. Шахматов И.И., Киселев И.В. Влияние кратковременного стресса на гемостаз у крыс. Казанский медицинский журнал, 2010 г., том 91, № 4.с 464-466.
4. Волкова С.А., Н.Н. Боровков. Основы клинической гематологии: учебное пособие / - Н.Новгород: Издательство Нижегородской гос. медицинской академии, 2013 . – С.42-55.
5. Дубровская Н.М., Потапов Д.О., Туманова Н.Л. Влияние пренатальной гипоксии на развитие крыс в постнатальном онтогенезе. Вестник молодых ученых, серия наука о жизни 2002,№1, 9-15.

## ABSTRACT

## STUDY OF THE RHEOLOGICAL PROPERTIES OF BLOOD IN RABBITS, SOCIALLY ISOLATED AND SUBJECT TO ANTENATAL HYPOXIA DURING THE FEMALE PERIOD OF EMBRYOGENESIS



**Jafarova G.K.**

*Institute of Physiology, named after academician Abdulla Garayev of the NAS of Azerbaijan*



According to the available data, among the factors significantly affecting the normal development of physiological mechanisms of various physiological systems, antenatal hypoxia reveals the most serious consequences. A change in the cellular composition of peripheral blood is observed in pathology and various other states of the body. It was revealed that in the peripheral blood of 45 and 65-day-old rabbits, socially isolated and subject to prenatal hypoxia, there was a decrease in the level of hemoglobin and the number of erythrocytes, as well as an increase in the number of leukocytes. Statistical analysis of the results showed that, like antenatal hypoxia, the factor of social isolation negatively affects the dynamics of the hemogram.



**Keywords:** *hypoxia, social isolation, ontogenesis, blood hemogram*

## РЕЗЮМЕ

## ИЗУЧЕНИЕ РЕАЛОГИЧЕСКИХ СВОЙСТВ КРОВИ КРОЛЬЧАТ, СОЦИАЛЬНО ИЗОЛИРОВАННЫХ И ПОДВЕРЖЕННЫХ ВОЗДЕЙСТВИЮ АНТЕНАТАЛЬНОЙ ГИПОКСИИ В ЗАРОДЫШЕВЫЙ ПЕРИОД ЭМБРИОГЕНЕЗА



**Джафарова Г.Г.**
*Институт физиологии имени Академика Абдуллы Караева*
*Национальной Академии Наук Азербайджана*



По имеющимся данным, среди факторов значительно воздействующих на нормальное развитие физиологических механизмов различных физиологических систем, антенатальная гипоксия выявляет наиболее серьезные последствия. Изменение клеточного состава периферической крови наблюдается не только в патологии, но и в различных других состояниях организма. В результате экспериментов было выявлено, что в периферической крови у 45 и 65 дневных крольчат, социально изолированных и подверженных пренатальной гипоксии, наблюдалось снижение уровня гемоглобина и количества эритроцитов, а также увеличение количества лейкоцитов. Статистический анализ результатов показал, что, как и антенатальная гипоксия, фактор социальной изоляции отрицательно влияет на динамику гемограммы.



**Ключевые слова:** *гипоксия, социальная изоляция, онтогенез, кровь, гемограмма*

UOT 57

# MÜXTƏLİF NÖV QİDA VƏ BİOLOJİ FƏALLIĞA MALİK QİDA ƏLAVƏLƏRİNDƏ AĞIR METALLARIN TƏYİNİ

**Ağalarova N.[1], Axundova N.[2], Sulyayeva E.[3], Təhməzli E.[4], Zərbalıyev Ş.[5]**

*[1]"Elmi Araşdırmalar Mərkəzi" Departamenti, Elmi-Tədqiqat və Risklərin Qiymətləndirilməsi Şöbəsinin baş mütəxəssisi, Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu, e-mail: narmin.agalarova@afsa.gov.az*

*[2] "Elmi Araşdırmalar Mərkəzi" Departamentinin müdiri, Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu, e-mail: narmin.akhundova@afsa.gov.az*

*[3] Milli Referens Laboratoriyası, "Analitik Ekspertiza Mərkəzi" Departamentinin müdiri, Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu e-mail: elina.sulyayeva@afsa.gov.az*

*[4] "Elmi Araşdırmalar Mərkəzi" departamenti, Elmi-Tədqiqat və Risklərin Qiymətləndirilməsi Şöbəsinin baş mütəxəssisi, Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu e-mail: elvira.guliyeva@afsa.gov.az*

*[5] Kompleks Tədqiqatlar Laboratoriyası, "Qida və Qida Əlavələri və Qablaşdırma Materialları" Bölməsinin rəhbəri, Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu, e-mail: sirali.zerbaliyev@afsa.gov.az*

*Qida təhlükəsizliyi həm kəmiyyət, həm də keyfiyyət baxımından davamlı qlobal inkişaf üçün başlıca önəmli məsələdir. Son onilliklərdə müxtəlif çirkləndiricilərin qida məhsullarının keyfiyyətinə mənfi təsirləri xüsusilə artmışdır və aparılan tədqiqatlar nəticəsində bu çirkləndiricilərin müxtəlif xəstəliklərin yaranmasında bilavasitə iştirakçı olduğu məlum olmuşdur. Sözügedən çirkləndiricilərin bir qismini ağır metallar təşkil edir. Belə ki, ağır metallar və metalloidlər qida, qida əlavələri, vaksinlər və digər müxtəlif ətraf mühit faktorları vasitəsilə insan orqanizminə daxil olub toplana, metabolizmi poza, xəstəliyə və hətta ölümə səbəb ola bilər. Bu məqalə, müxtəlif mənşəli nümunələrin ağır metallarla çirklənmə dərəcələrini yoxlamaq məqsədilə aparılan sınaq nəticələrinə diqqət yetirir. Araşdırılan bütün nümunələrdə ağır metal qalığı miqdarı Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyasının № 20 Saylı Qərarında qeyd edilən normalar daxilində olduğu müəyyən edilmişdir.*

**Açar sözlər:** *qida təhlükəsizliyi, ağır metallar, BFMQƏ, qida məhsulları, qeyri-qida məhsulları*

## Giriş

Qurğuşun (Pb), kadmium (Cd), civə (Hg), arsen (As) kimi zəhərli metallar insan orqanizminə əsasən qida, su və hava vasitəsilə daxil ola bilər. Belə ki, qida zəncirindən insan orqanizminə daxil olabilən bu ağır metallar müxtəlif sağlamlıq təhlükələrinə səbəb olur. Bu ağır metallar güclü kanserogen və mutagen maddələrdir. Ağır metal səviyyəsinin yüksək olduğu qidaların davamlı qəbulu, xüsusilə də, ürək-damar, böyrək, nevroloji və sümük xəstəlikləri ilə əlaqələndirilir. Bu ağır metalların insan sağlamlığına təsirləri aşağıdakı şəkildə ümumiləşdirilə bilər;

Pb toksikliyi hemoqlobin sintezinin azalması səbəbindən anemiya ilə, böyrək funksiyasının pozulması, reproduktiv, ürək-damar sistemləri və sinir simptomları ilə əlaqələndirilir (Ogwuegbu və Muhanga, 2005). Nigeriyada (Ajumobi et al. 2014); Çində (Xu et al. 2014) və Zambiyada (Yabe et al. 2015) Pb-nin xüsusilə uşaqlarda bir çox zəhərlənmə hadisəsinin səbəbi olduğu bildirilmişdir. Bununla yanaşı, insan HepG2 hüceyrələrində əhəmiyyətli sitotoksikliyə səbəb olduğu da müşahidə edilmişdir (Darwish et al., 2016).

İnsanın Cd-a ciddi şəkildə məruz qalması bronxit və pnevmoniya kimi ağciyər problemlərinə səbəb ola bilər. Avropa Qida Təhlükəsizliyi Qurumu (EFSA) tərəfindən həftəlik maksimum qəbul ediləbilən kadmium miqdarı hər kiloqram bədən çəkisi üçün 2,5µg olaraq qəbul edilmişdir. Vegetarianlarda, uşaqlarda, siqaret çəkən insanlarda isə bu təyin olunmuş miqdardan 2 dəfə artıq kadmiuma rast gəlinə bilər.

As insanlarda yüngül qarın sancıları və ishal ilə yanaşı, ağır həyati təhlükə yaradan mədə-bağırsaq pozğunluqlarına səbəb ola bilər. Arsenə xroniki məruz qalma dəri istihabı, xərçəng, ürək-damar problemləri, diabet, ağciyər funksiyasının pozulması, nevroloji simptomlar, inkişaf və reproduktiv toksiklik ilə əlaqələndirilir (Feng et al., 2013).

Yüksək konsentrasiyalarda qeyri-üzvi Hg böyrək çatışmazlığına səbəb ola bilər. Civəyə məruz qalma riski yüksək olan insanlarda sinə ağrısı və pnevmoniya kimi ciddi simptomlar müşahidə edilir (FAO/WHO, 2002). Bununla yanaşı, civə ilə təmasın allergik dəri reaksiyalarına da səbəb olduğu müşahidə edilmişdir.

Bu səbəbdən, istehlak etdiyimiz qida məhsullarında, eləcə də, Bioloji Fəallığa Malik Qida Əlavələrində (BFMQƏ) ağır metal analizlərinin aparılması və yekun nəticələrin interpretasiyası olduqca vacibdir.

Bu məqalə 2020-2021-ci illərdə Azərbaycan Qida Təhlükəsizliyi İnstitu-tunun laboratoriyalarına daxil olan müxtəlif mənşəli nümunələrdə (qida, qeyri-qida və BFMQƏ) aparılan ağır metal (qurğuşun, kadmium, civə, arsen, silisium, stronsium-90, sezium-137) analiz nəticələrinə əsasən hazırlanmışdır.

## Material və Metodlar

***Lazım olan reagent və avadanlıqlar***

- Deionizə suyu (>18 MΩ.cm.)
- Nitrat turşusu 65% (w/w) (Analar grade)
- Hidrogen peroksid 30% (35-37%) (w/w) – (Analar grade)
- Hər birinin qatılığı 1000 ± 2 mg/L olan As, Cd, Pb, Fe, Cu, Ni və Zn metallarının standart məhlulları.
- Milestone Ethos Easy (200°C temperatur, 45 bar təzyiqə və hər birinin həcmi 100 ml olan teflon vessellərlə təchiz olunmuş proqramlaşdırılmış mikroldalğalı soba)
- İnduktiv əlaqəli plazmalı optik emissiyalı spektrometr (ICPE 9820, Shimadzu

***Nümunə hazırlığı***

Nümunələr təmiz hava keçirməyən, metallik qapaqlı konteynerlərdə və minimum miqdarı 200 qr olmaqla qəbul edilmişdir. İlkin mərhələdə ehtiyaca görə nümunələr mikrodalğalı sobada parçalanmış və homogen hala gətirilmişdir[1]. Teflon vesselleгə mikrodalğalı sobanın proqramında verilən miqdara müvafiq olaraq (adətən 5 qr) nümunə çəkilib nitrat turşusu (65%) və 30% (35–37%) hidrogen peroksidi əlavə edilmişdir. Nümunələr 200 (180)°C temperatur, 45 bar təzyiqə malik olan mikrodalğalı sobada müvafiq proqrama uyğun həll edilib daha sonra 50 ml-lik eppendorflarda deionizə suyu ilə durulaşdırılmış və ICP-OES cihazında analiz edilmişdir. Analiz nəticələrinin qiymətləndirilməsi kalibrasiya əyrisi sərhədləri daxilində müvafiq metalların hər birinin ayrıca əyrisinə görə aparılır. Həlledici ilə hazırlanan reagent blankı da nümunə kimi eyni şərtlərlə metal qalıqları üçün analiz olunmuşdur[2]. Su nümunələri birbaşa və ya kalibrasiya əyrisinin nöqtələri aralığında olması üçün deionizə suyu ilə durulaşdırıldıqdan sonra injekt edilmişdir. ICP-OES 9820 cihazında elementlərin dalğa uzunluqları Cədvəl 1-dəki qaydada seçilmişdir və metalların konsentrasiyasının təyini həyata keçirilmişdir.

Yekun nəticələrə əsasən hesablama aşağıdakı qaydada aparılmışdır[3]:

---

1 Su nümunələri birbaşa, qida məhsulları, qida əlavələri və yemlər isə mikrodalğalı sobada yüksək temperatur və təzyiq altında parçalanaraq deionizə suyu ilə durulaşdırıldıqdan sonra İnduktiv əlaqəli plazmalı optik emissiyalı spektrometr (ICP-OES) cihazında ağır metal qalıqlarının təyini aparılmışdır.

2 Birbaşa injekt olunan nümunələr üçün

3 Hesablama (ölçü kolbası 50ml olduğu halda)

**Cədvəl 1.** ICP-OES 9820 cihazında elementlərin dalğa uzunluqları

| Metal | Simvol | Dalğa Uzunluğu |
|---|---|---|
| Arsen | As | 189-193 nm |
| Kadmium | Cd | 226-228 nm |
| Qurğuşun | Pb | 220 nm |
| Zink | Zn | 213.856 nm |
| Dəmir | Fe | 238.204 nm |
| Mis | Cu | 324.754 nm |
| Nikel | Ni | 231 nm |

Metal (µg/g)=(Nüm qat.-Reagent blank qat.)x df=ppm

df=Vnüm / (Nümunənin çəkisi)

Burada Nümunənin qatılığı, mg/L- ICP-OES 9820 cihazında alınan qiyməti, Reagent Blank qatılığı, mg/L - ICP-OES 9820 cihazında alınan qiyməti, df isə - ICP-OES 9820 cihazına verilməzdən öncə durulaşma aparıldığı halda olan durulaşma əmsalını göstərir.

**Nəticələr və Müzakirələr**

Daxil olan nümunələr 3 kateqoriyada ümumiləşdirilmişdir (Şəkil 1).




**Şəkil 1.** Analiz edilən 3 müxtəlif nümunə kateqoriyası və nümunə sayları

Bioloji Fəallığa Malik Qida Əlavələrində ağır metalların təyini üçün 859 nümunə analizi həyata keçirilmişdir.

Qida məhsulları üzrə ümumilikdə 374 analiz aparılmışdır. Bu kateqoriya üzrə daxil olan nümunələr olduqca geniş spektrdən təşkil olunmuşdur, belə ki, buradakı analiz nümunələrinə bəzi taxıl növləri, süd məhsulları, toyuq əti, müxtəlif növ yağlar, ədviyyatlar və s. daxildir.

Qeyri-qida məhsullarında ağır metalların təyini üçün laboratoriyaya daxil olan nümunələrin sayı 11 ədəd təşkil edir və buraya şüşə butulka, mantar tıxac, karton qutu kimi qida ilə təmasda olan materiallar aid edilir.

Nümunələrdə qurğuşun, kadmium, civə, arsen, stronsium-90, sezium-137 kimi ağır metalların miqdarları təyin edilmişdir. Hər bir ağır metala görə analiz edilmiş ümumi nümunə sayı Şəkil 2-də göstərilən qrafikdə əks olunmuşdur.




**Şəkil 2.** Hər bir ağır metala görə analiz edilmiş ümümi nümunə sayı.

Əldə edilən ümumi 1242 parametr nəticələrinə əsasən, araşdırılan bütün nümunələrdə ağır metal qalığı miqdarı Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyasının № 20 Saylı Qərarında qeyd edilən normalar daxilindədir, bəzi nümunələrdə isə ümumiyyətlə aşkar edilməmişdir (Şəkil 3).




**Şəkil 3.** Ümumi nümunə miqdarı ilə ağır metal qalığı aşkar olunmayan nümunələrin miqdarının qarşılaşdırması.

Qidalarda ağır metal qalığı nəticələri müqayisə edildikdə məlum oldu ki,

- ən aşağı kadmium miqdarı – buğda nişastasında, təzə balıqda, Vaccinium myrtillus növlü bitki meyvələrində,
- ən aşağı sezium-137 miqdarı – ərzaqlıq buğda və arpada, eləcə də dondurulmuş toyuq ətində,
- ən aşağı stronsium-90 miqdarı – çovdar unu, buğda, mal əti yarımfabrikatlarında,
- ən aşağı qurğuşun miqdarı – düyüdə, kəklikotunda, müxtəlif növ turşu və kompotlarda aşkar edilmişdir.

Ən yüksək göstəricilər isə kadmium üzrə – kətan toxumu, sarıkök, yaşıl hildə; qurğuşun üzrə – şəkərəvəzedicilərdə, narşərabda və çayda; sezium – 137 üzrə – qatılaşdırılmış süddə, şəkər məmulatlarında, mayonezdə; stronsium – 90 üzrə isə – kofedə, toyuq filəsində və şəkər məmulatlarında aşkar edilmişdir.

Aparılan ağır metal qalığı analizlərinin müsbət və mənfi göstəricilərə görə nəticələrinin statistik əhəmiyyəti p=0.0501 təşkil edir (Cədvəl 2).

**Cədvəl 2.**

A-aparılmış analizlərin ağır metal növünə və illərə görə müsbət və mənfi nəticələri arasındakı əlaqə (* norma daxilində).
B- t-Test: Two-Sample Assuming Equal Variances

A

| Müsbət (nd*) | | Mənfi | |
|---|---|---|---|
| Mean | 83.33333 | Mean | 20.33333333 |
| Standard Error | 29.6245 | Standard Error | 6.829451965 |
| Median | 48 | Median | 11 |
| Mode | 72 | Mode | 0 |
| Standard Deviation | 102.6223 | Standard Deviation | 23.65791558 |
| Sample Variance | 10531.33 | Sample Variance | 559.6969697 |
| Kurtosis | 0.555099 | Kurtosis | -0.2205389 |
| Skewness | 1.287645 | Skewness | 0.960739578 |
| Range | 286 | Range | 68 |
| Minimum | 1 | Minimum | 0 |
| Maximum | 287 | Maximum | 68 |
| Sum | 1000 | Sum | 244 |
| Count | 12 | Count | 12 |

B

| | müsbət (nd*) | mənfi |
|---|---|---|
| Mean | 83.33333333 | 20.33333 |
| Variance | 10531.33333 | 559.697 |
| Observations | 12 | 12 |
| Pooled Variance | 5545.515152 | |
| Hypothesized Mean Difference | 0 | |
| df | 22 | |
| t Stat | 2.072264688 | |
| P(T<=t) one-tail | 0.025081506 | |
| t Critical one-tail | 1.717144374 | |
| P(T<=t) two-tail | 0.050163011 | |
| t Critical two-tail | 2.073873068 | |

Ağır metal qalıqlarının analizinə daimi nəzarətin təmin edilməsi istehlakçı sağlamlığı üçün zəruridir. Ümumiyyətlə, hər növ çirkləndirici üçün müvafiq risk qiymətləndirilməsinin təşkili, analizlərin davamlılığı və nəticələrin düzgün şərhi olduqca vacibdir.

**Ədəbiyyat:**


1. S. Atia, W. S. Darwish and M. S. Zaki. Monitoring Of Heavy Metal Residues, Metal-Metal Interactions And The Effect Of Cooking On The Metal Load in Shellfish. The J. Anim. Plant Sci. 28(3):2018.
2. Ajumobi, Olufemi & Tsofo, Ahmed & Yango, Matthias & Aworh, Mabel & Anagbogu, Ifeoma & Abdulaziz, Mohammed & Umar-Tsafe, Nasir & Mohammed, Suleiman & Abdullahi, Muhammad & Davis, Lora & Idris, Suleiman & Poggen-See, Gabriele & Nguku, Patrick & Gitta, Sheba & Nsubuga, Peter & Olufemi, Olamide & Ajumobi, Ahmed & Tsofo, Matthias & Yango, Mabel & Nsubuga,. (2014). High concentration of blood lead levels among young children in Bagega community, Zamfara – Nigeria and the potential risk factor. The Pan African Medical Journal. 1818. 10.11694/pamj.supp.2014.18.1.4264.
3. FAO/WHO Global Forum of Food Safety Regulators Marrakech, Morocco, 28 – 30 January 2002 Human Exposure To Mercury in Fish in Mining Areas in The Philippines https://www.fao.org/3/ab417e/ab417e.pdf
4. Feng, H., Y. Gao,L. Zhao,Y. Wei,Y. Li,W. Wei,et al.(2013). Biomarkers of renal toxicity caused by exposure to arsenic in drinking water. Environ. Toxicol. Pharmacol. 35: 495-501.
5. Xu, J., L. Sheng, Z. Yan, and L. Hong.(2014). Blood Lead and Cadmium Levels of Children: A Case Study in Changchun, Jilin Province, China. The West Indian Med. J. 63: 29-33.
6. Ogwuegbu, M. O. C. and Muhanga, W. "Investigation of Lead Concentration in the Blood of People in the Copperbelt Province of Zambia," Journal of Environment, 1 66-75, 2005.
7. Prabhat Kumar Hai et al., Heavy metals in food crops: Health risks, fate, mechanisms, and management, Environmental İnternational Volume 125, April 2019, Pages 365-385.
8. Scientific Report of EFSA on Cadmium dietary exposure in the European population. EFSA Journal 2012;10(1), 2551 [37 pp.].
9. Yabe J, Nakayama SMM, Ikenaka Y, Yohannes YB, Bortey-Sam N, Oroszlany B, Muzandu K, Choongo K, Kabalo AN, Ntapisha J, Mweene A, Umemura T, Ishizuka M. Lead poisoning in children from townships in the vicinity of a lead-zinc mine in Kabwe, Zambia. Chemosphere. 2015 Jan;119:941-947. doi: 10.1016/j.chemosphere.2014.09.028. Epub 2014 Oct 8. PMID: 25303652.

## ABSTRACT

## DETERMINATION OF HEAVY METALS IN DIFFERENT TYPES OF FOODS AND BIOLOGICALLY ACTIVE FOOD SUPPLEMENTS

**Agalarova N. 1**
*Department of Scientific Research Center, Senior Specialist of Scientific Research and Risk Assessment Division, Azerbaijan Food Safety Institute*
**Akhundova N.**
*Head of Department of Scientific Research Center, Azerbaijan Food Safety Institute*
**Sulyayeva E.**
*National Reference Laboratory, Head of Department of Analytical Expertise Center, Azerbaijan Food Safety Institute*
**Tahmazli E.**
*Head of Department of Scientific Research Center, Senior Specialist of Scientific Research and Risk Assessment Division, Azerbaijan Food Safety Institute*
**Zarbaliyev Sh.**
*Complex Research Laboratory, Head of Food and Food Additives and Packaging Materials Section, Azerbaijan Food Safety Institute*

Food safety is a key issue for sustainable global development in terms of quantity and quality. In recent decades, the negative effects of various pollutants on food quality have increased, and research has shown that these pollutants are directly involved in developing various diseases. Some of these pollutants are heavy metals. Thus, heavy metals and metalloids can enter and accumulate in the human body with food, food additives, vaccines, and other environmental factors disrupting metabolism, causing disease and even death. This article focuses on the analysis of sample results of various origins to examine for heavy metal contamination. It was determined that the number of heavy metal residues in all studied samples was within the norms mentioned in Decision No. 20 of the Board of the Food Safety Agency of the Republic of Azerbaijan.

**Keywords:** *food safety, heavy metals, food supplements, food products, non-food products*

# ОПРЕДЕЛЕНИЕ ТЯЖЕЛЫХ МЕТАЛЛОВ В РАЗЛИЧНЫХ ПРОДУКТАХ ПИТАНИЯ И БИОЛОГИЧЕСКИ АКТИВНЫХ ДОБАВКАХ К ПИЩЕ

## РЕЗЮМЕ

**Агаларова Н.[1], Ахундова Н.[2], Суляева Э.[3], Тахмазли Э.[4], Зарбалиев Ш.[5]**

*[1]"Научно-исследовательский центр", главный специалист отдела научных исследований и оценки рисков Азербайджанского института безопасности пищевых продуктов*

*[2] Заведующий отделом "Научно-исследовательский центр" Азербайджанского института безопасности пищевых продуктов*

*[3]Национальная справочная лаборатория, руководитель отдела "Аналитического центра экспертизы" Азербайджанского института безопасности пищевых продуктов*

*[4]"Научно-исследовательский центр" , главный специалист отдела научных исследований и оценки рисков Азербайджанского института безопасности пищевых продуктов*

*[5]Лаборатория комплексных исследований, руководитель отдела "Пищевые продукты и пищевые добавки и упаковочные материалы" Азербайджанского института безопасности пищевых продуктов*

Продовольственная безопасность является ключевым вопросом для устойчивого глобального развития как с точки зрения количества, так и качества. В последние десятилетия негативное влияние различных загрязнителей на качество пищевых продуктов усилилось, и исследования показали, что эти загрязнители непосредственно участвуют в развитии различных заболеваний. Некоторые из этих загрязнителей представляют собой тяжелые металлы. Таким образом, тяжелые металлы и металлоиды могут поступать и накапливаться в организме человека с пищей, пищевыми добавками, вакцинами и различными другими факторами окружающей среды, нарушать обмен веществ, вызывать болезни и даже смерть. В этой статье основное внимание уделяется результатам испытаний образцов различного происхождения на предмет загрязнения тяжелыми металлами. Было установлено, что количество остатков тяжелых металлов во всех исследованных образцах соответствует нормам, указанным в Решении № 20 Коллегии Агентства продовольственной безопасности пищевых продуктов Азербайджанской Республики.

***Ключевые слова:*** *безопасность пищевых продуктов, тяжелые металлы, БАД, продукты питания, непищевые продукты*

UOT 351/354; 351

# DAVAMLI İNKİŞAF MƏQSƏDLƏRİNİN HƏYATA KEÇİRİLMƏSİNDƏ AZƏRBAYCANIN TORPAQ EKOSİSTEMLƏRİNİN MÜHAFİZƏSİ

**Mustafayeva N.Ə.**
*Azərbaycan Respublukasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyasının*
*"Davamlı inkişafın planlaşdırılması*
*və idarəedilməsi" kafedrasının dosenti, b.e.f.d.*
*e-mail: soilnur@yahoo.com*

*Bu gün və gələcək nəsillər üçün təbii ehtiyatların bütövlüyünü və zəruriliyini qorumaq və uzunmüddətli sosial-iqtisadi artım və rifahın təmin edilməsi üçün torpaqların davamlı idarə olunması vacibdir. Davamlı inkişaf məqsədlərinə nail olmaq üçün torpaq və ekosistemlərdən davamlı istifadə etməyi, ətraf mühitin idarə edilməsini təşviq etmək üçün strategiyalar həyata keçirilir. Gələcəkdə ölkəmiz təbii ehtiyatlar və xammal tədarükünü təmin etmək üçün səhralaşma proseslərinə məruz olan ekosistemlərin bərpası üçün səyləri artırmalı olacaq. Səhralaşmanın əsas səbəbləri bu şəkildə müəyyən edilib: inkişaf parametrlərinin göstəriciləri, mövcud vəziyyət və onların qarşısının alınması üsullarını tətbiq etmək, burada ətraf mühitin dəyişməsinə dəfələrlə nəzarət etmək. Müasir dövrün tələblərinə cavab verən və davamlı inkişaf prinsiplərinə əsaslanan innovasiya sahəsində tədqiqat və inkişaf sahələrini genişləndirmək, təbii infrastruktura investisiya qoymaq və məsul mənbəli siyasət həyata keçirmək ekosistemlərin qorunmasında və bərpasında, torpaq və meşələrin davamlı istifadəsini təşviq etməkdə, məhsul təkliflərində istehlakçı etibarını qorumaqda həlledici rol oynayır. Bu nöqteyi-nəzərdən məqalədə nəzərdən keçirilən problemlər xüsusi aktuallıq daşıyır.*

**Açar sözlər:** *davamlı inkişaf məqsədləri, səhralaşma, torpaqların deqradasiyası, səhralaşmaya qarşı mübarizə üzrə BMT Konvensiyası, iqlim dəyişikliyinə uyğunlaşma*

Son iki onillik ərzində dünya ictimaiyyəti ətraf mühitlə əlaqəli müxtəlif çağırışlarla qarşılaşmış və onlar arasında qlobal iqlim dəyişikliyi məsələsi qlobal gündəlikdə xüsusi yer tutur. İqlim dəyişikliyi məsələsi ilə bağlı beynəlxalq əməkdaşlıq prosesi, xüsusilə bu problemin bəşəriyyətin inkişafına qarşı artan təhlükə kimi tanınması ilə başlamış və onun təsirləri hər bir qitədə hiss olunur. Yerin təbii ehtiyatlarından kortəbii istifadə də insanların yaşayış məkanının pisləşməsinə, iqlim şəraitinin dəyişməsinə, stratosfer ozonunun miqda-

rının azalmasına, meşə sahələrinin məhv olmasına və səhralaşma prosesinin geniş vüsət almasına gətirib çıxarmışdır. Eyni vaxtda aparılmış hesablamalara görə indiki artım tempinin saxlanılması 2030-cu ildə dünya əhalisinin sayının 9 mlrd-dan çox olacağından xəbər verir ki, bu da qida və enerji ehtiyatlarının çatışmazlığı problemini meydana çıxarır. Digər tərəfdən külli miqdarda karbohidrogen ehtiyatlarının çıxarılması, dağ-mədən filizlərinin emal olunması da ətraf mühitin fiziki-kimyəvi və bioloji xüsusiyyətlərinə ciddi təsir göstərir, atmosfer havasının çirklənməsi üçün şərait yaradır. Məhz bu səbəbdən də ətraf mühitin mühafizəsi problemi dünya alimlərinin diqqətini cəlb etmiş, atmosfer çirklənmələrinin monitorinqinin aparılmasına yönəldilmiş elmi-tədqiqat işlərinin arsenalı genişləndirilmiş, yeni texniki vasitələrin yaradılması, komplekslərin işlənilməsi və texnoloji xətlərin istismara verilməsi istiqamətində mühüm nailiyyətlər qazanılmışdır.

Bildiyimiz kimi, 25 sentyabr 2015-ci il tarixində BMT-nin Baş Assambleyasının üzvü olan 193 dövlət tərəfindən "2030-cu ilədək davamlı inkişaf sahəsində Gündəlik" qəbul edildi. Gündəlik 92 bənddən ibarətdir və 51-ci bənddə 17 Davamlı İnkişaf Məqsədi və əlaqəli 169 hədəf göstərilir. Həmin məqsədlərin on beşincisi torpaq ekosisteminin mühafizəsinə həsr olunur ki, bu da böyük əhəmiyyətə malikdir. Qeyd etmək lazımdır ki, torpaq ekosistemləri insanlar üçün kənd təsərrüfat sahəsinin əsas təbii ehtiyatı hesab olunur [5].

BMT-nin iqlim dəyişikliklərinə həsr olunmuş konfransları 1994-cü ildə qəbul edilmiş və dünyanın 180-dən çox ölkəsinin imzaladığı iqlim dəyişikliyinə dair konvensiya çərçivəsində həyata keçirilir. Bu tədbiri tez-tez iqlim sammiti və ya COP26 (Tərəflərin Konfransı, COP-26. – Forbes) kimi adlandırırlar. 2015-ci ildə Paris sazişi qəbul edilmiş və bu saziş vasitəsilə yaxın gələcək üçün dünyadakı iqlim gündəliyi müəyyən edilmiş, həmçinin 2020-ci ildən etibarən atmosferdə karbon qazının payının azaldılması naminə tədbirlər planı tənzimlənmişdir [2].

İqlim dəyişikliyinə həsr edilmiş növbəti sammit 2020-ci ilin noyabr ayına planlaşdırılmışdı, lakin COVID-19 pandemiyası səbəbindən təxirə salınmalı oldu. 2021-ci ildə sammit öz işini bərpa etmişdir və sammit əsnasında aşağıdakı qərarlar qəbul edildi: Meşələrin qırılması ilə mübarizə, Kömür enerjisindən imtina, Karbon qazı neytrallığı, Metan emissiyaları, İqlim dəyişikliyi ilə mübarizənin maliyyələşdirilməsi. Sammitdə qəbul edilən qərarların icrası antropogen təzyiqlərin əhəmiyyətli dərəcədə azaldılmasına kömək edəcək və iqlim dəyişikliyi ilə mübarizəyə həlledici töhfə verəcək [5].

Ümumiyyətlə, iqlimin kənd təsərrüfatına təsiri ərazilərin aqroiqlim şəraiti və ehtiyatları vasitəsilə həyata keçirilir. Buna görə də gözlənilən dəyişmələrinin qiymətləndirilməsi vacibdir. İqlim dəyişmələrinin kənd təsərrüfatı bitkilərinin məhsuldarhğına təsiri qiymətləndirilən zaman gələcəkdə mümkün ola biləcək sort dəyişmələri nəzərə alınmamışdır. 2021–2050-ci illər üçün

aparılmış hesablamalar göstərir ki, havanın orta sutkalıq temperaturunun 10°C-dən artıq olan dövrün davamiyyətinin 10-35 gün artması gözlənilir. Bu dəyişmələrin nəticəsində isti qurşaqları həmin dövrdə 150-350 mdağlara doğru irəliləyə bilər [11].

Səhralaşmanın artıq qlobal problemə çevrildiyi və dünyanın 100-dən çox ölkəsində 2 milyard insanın sağlamlığı və rifahı üçün təhlükə yaratdığı BMT rəsmiləri tərəfindən də vurğulanır. Səhralaşma, quraqlıq və torpağın deqradasiyası Yer səthinin 1/3 hissəsinə təsir edir. Hər il dünyada bu ərazilərin deqradasiyası prosesi nəticəsində 20000-50000 kvadrat kilometr torpaq məhv olur. Hesablamalara görə, dünyada ekoloji məcburi köçkünlərin sayı 2050-ci ilədək 200 milyona qədər arta bilər. İnsanların dünya torpaqlarına və ümumiyyətlə ekosistemlərə yaratdığı böyük təsirlərdən biridir səhralaşma. Yerin quru səthinin 1/5 hissəsini səhralar tutur [3].

Səhralaşma - arid ərazilərdə təbii mühitin pozulması təhlükəli vəziyyət almaqdadır, çünki səhralaşma prosesi getdikcə daha aydın nəzərə çarpır. Səhralaşma torpağın və bitki örtüyünün deqradasiyası, onların bioloji və iqtisadi məhsuldarlığının azalması və ya tamamilə itirilməsi deməkdir. Səhralaşma planetimizin milyonlarla insanları üçün faciəli hadisə hesab edilir. Səhralaşma zamanı məhsuldarlıq fəlakətli dərəcədə aşağı düşür, mal-qara tələf olur, su mənbələri quruyur, əkin sahələri şoranlaşır, qumluqlar yaşayış yerlərinə doğru «hərəkətə» gəlir, bunun nəticəsində yoxsulluq, aclıq və xəstəliklər baş verir. Amerika alimi Q.Dreqni üç faktorun (bitki örtüyünün tərkibinin dəiyşməsi, torpağın eroziyası və şoranlaşması) indikatorluğu əsasında 4 səhralaşma dərəcəsi ayırır (zəif, orta, yüksək, çox yüksək)..

Səhralaşmanın ən əsas səbəbi fasiləsiz olaraq meşə sahələrinin azalması nəticəsində kontinental su dövriyyəsi intensivliyinin aşağı düşməsi sayılır. Məhz qurunun biotası kontinentlərə suyun dövriyyəsinin 70–75%-ni təmin edir. Təbii meşələrdə Günəş radiasiyasının 90%-i yarpaqlar tərəfindən udulur və transpirasiyaya sərf olunur, meşənin yerində insan tərəfindən yaradılan aqrosenozlarda Günəş radiasiyasının yalnız 40%-i transpirasiyaya sərf olunur [6].

Səhralaşma təsiri altında yaşayan əhalinin vəziyyəti. Ən azı 90%-i inkişaf etməkdə olan ölkələrdə, quraqlıq iqlimdə yaşayan əhali sosial inkişaf və rifah səviyyəsinə görə ortalama digər dünya ölkələrindən fərqlənir. BƏƏ-də nəzərdən keçirilən digər sistemlərlə müqayisədə, quraqlıq ərazilərin əhalisi ağır iqtisadi şəraitdən daha çox əziyyət çəkir.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) ölkələrinin adambaşına düşən ÜDM göstəricisi quraqlıq iqlimdə yerləşən inkişaf etməkdə olan ölkələrin göstəricilərini üstələyir. Eynilə, digər dünya ölkələrində ortalama uşaq ölüm nisbəti (təxminən 1000-ə 54-ü) quraqlıq bölgələrdə yerləşən inkişaf etməkdə olan ölkələrdəki müvafiq rəqəmləri üstələyir. quraq olmayan rayonlarda (meşələr, dağlar, adalar və sahilyanı ərazilər) 23 faiz və ya daha çox

yerləşmişdir. Sənayeləşmiş ölkələrdə orta ölüm göstəriciləri ilə müqayisədə bu fərq daha da yüksəkdir – demək olar ki, 10 dəfə. Müəyyən edilmişdir ki, quraq rayonlarda su əlçatanlığının nisbətən aşağı səviyyəsi təmiz içməli suya və adekvat kanalizasiyaya çıxışı məhdudlaşdırır və əhalinin sağlamlığının pisləşməsinə səbəb olur [7, s.18].

**Şəkil 1.** Səhralasma tipləri




Ekosistemlərin qiymətləndirilməsi çərçivəsində özündə siyasət və təcrübənin müxtəlif kombinasiyalarını ehtiva edən dörd ssenari hazırlanmışdır. Bu ssenarilər 2050-ci ilə kimi ehtimal olunan şərtlər nəzərə alınmaqla hazırlanmışdır, baxmayaraq ki, bu ssenarilər əsrin sonuna qədər belə bəzi məlumatları ehtiva edə bilir. Onlar xüsusi olaraq səhralaşma və quru ərazilərdə insanların rifahı məsələsinə toxunurlar. Həmin ssenarilərdə iki qlobal inkişaf yolu (cəmiyyət və iqtisadiyyatın qloballaşması və ya regionallaşması) və ekosistemin idarə edilməsinə iki fərqli yanaşma (reaktiv və proaktiv) nəzərdən keçirilir. Reaktiv idarəetmə zamanı problemlər yalnız aşkar olunduqdan sonra həll edilir, proaktiv idarəetmə zamanı isə daha çox uzunmüddətli perspektivdə ekosistem imkanlarının saxlanmasına diqqət yetirilir. Bu ssenarilər 2050-ci ilə qədər qlobal cəmiyyətin inkişafının müxtəlif perspektivlərinin öyrənilməsi üçün seçilmişdir [8].

– Qloballaşma şəraitində ekosistemlərin reaktiv idarəedilməsi – burada üstünlük bərabərlik, sosial rifah, iqtisadi artım kimi məsələlərə və infrastruktur, təhsil kimi sahələrə verilmişdir (digər adı "Qlobal Orkestrasiya")
– Ekosistemlərin reaktiv idarəedilməsi şəraitində regionallaşma – burada üstünlük təhlükəsizlik və iqtisadi artıma verilmişdir (digər adı "Gücün nizamı")
– Ekosistemlərin proaktiv idarəedilməsi şəraitində regionallaşma – burada diqqət yerli adaptasiya və biliyə verilmişdir (digər adı "Adaptiv Mozaika")
– Ekosistemlərin proaktiv idarəedilməsi şəraitində qloballaşma – burada yaşıl texnologiyalara diqqət yetirilmişdir (digər adı "TechnoCad")

Məlumdur ki, Azərbaycan Respublikası ərazisinin böyük hissəsi təbii ehtiyatları ilə yaxşı qeyri-bərabər paylanması, kənd təsərrüfatında xeyli problemlər yaradır. Bunun nəticəsidir ki, ölkədə istehsal olunan kənd təsərrüfatı məhsullarının 85–90%-i suvarılan torpaqların payına düşür. Hesablamalar göstərir ki, mümkün buxarlanma 15%-ə qədər arta bilər. Lakin yağıntıların eyni zamanda 10–20% artması nəticəsində vegetasiya dövründə rütubət çatışmazlığı (iqlim suvarma norması) baza dövrünə nisbətən 85-260 mm azala bilər. İqlim dəyişmələrinin kənd təsərrüfatına təsiri təhlil edilərkən dəniz sahili ərazilərdə də yağmurların artmasının 40%-dən artıq olmadığı qəbul edilə bilər. Bu zaman hava temperaturunun artmasına uyğun olaraq mümkün buxarlanma da artaraq ölkə ərazisində illik iqlim suvarma normasının miqdarını baza dövrünə nisbətən 40–180 mm, veqetasiya dövründə isə 20-100 mm-dək artıracaqdır [11]

BMT-nin iqlim dəyişmələri haqqında Çərçivə Konvensiyası üzrə ikinci Milli hesabatına əsasən istifadə edilən PRECİS modelinin senarisinə görə 2021-2050-ci illərdə Azərbaycan Respublikasında orta illik temperaturların artması 1,5–1,6°C təşkil edəcək. Sahilboyu ərazilərdə və NaxçıvanMR-nın qərb bölgələrində bu artım 1,7˚C təşkil edir. Alınmış nəticələrə görə temperatur artması bu əsrin birinci yarısında hər on ildə təqribən 0,3°C ola bilər. Yağıntılar 2021-2050-ci illərdə 1961-1990-ci illərə nisbətən ölkə ərazisində, o cümlədən Kür-Araz hövzəsində və başqa regionlarında 5%-ə qədər azalması gözlənilir. Ölkədə mövcud olan 8660 min ha ümumi sahənin 4756 min ha və ya 55%-i kənd təsərrüfatına yararlı torpaqlardır. Bunların da 1796 min ha əkin yeri, 221 min ha çoxillik əkinlər və 2694 min ha biçənək və otlaqlar təşkil edir [4, s.12]. Kənd təsərrüfatına yararlı torpaqların 30%-i (1429 min ha) suvarılır. Əkinlərin 90%-ni dənli bitkilər, çoxillik əkinlərin 50%-ni bağlar təşkil edir. 2021–2050-ci illər üçün aparılmış hesablamalar göstərir ki, havanın orta sutkalıq temperaturunun 10°C-dən artıq olan

dövrün davamiyyətinin 10–35 gün artması gözlənilir. Bu dəyişmələrin nəticəsində isti qurşaqları həmin dövrdə 150-350 mdağlara doğru irəliləyə bilər [11].

Azərbaycanın ən böyük kənd təsərrüfatı regionlarından biri Kür-Araz ovalığı hesab olunur. Ovalığın iqtisadiyyatının əsas hissəsini kənd təsərrüfatı təşkil edir. Burada taxılçılıq, pambıqçılıq, üzümçülük, meyvəçilik, ipəkçilik və heyvandarlıq çox inkişaf etmişdir. Lakin səhralaşma prosesi Kür-Araz ovalığı üçün daha səciyyəvidir. 90-ci illərin sonunda həmin ərazinin əhalinin artması, kənd təsərrüfatı, o cümlədən heyvandarlığa olan tələbatın çoxalması, həmçinin təbii qaz və elektrik enerjisinin çatışmaması ilə əlaqədar torpaq və bitki örtüyünün ekstensiv istifadəsi nəticəsində antropogen səhralaşma prosesi güclənmişdir.

Kür–Araz ovalığında səhralaşma prosesi Şirvan düzündə daha güclü gedir. Tədqiqatlar göstərir ki, bitki və torpaq örtüyünün səhralaşmasının istiqaməti və intensivliyini yaradan səbəblər ərazinin ekoloji şəraiti (relyefi, bitki örtüyü, torpağı) və antropogen amillərin müxtəlifliyi ilə əlaqədardir. Bu baxımdan ərazini tuqay meşələrinin deqradasiyası prosesi, meşələrin məhv edilməsi, hədsiz mal-qara otarılması və meşə torpaqlarından kənd təsərrüfatında istifadə edilməsi ilə əlaqədar baş vermişdir. Regionun ovalıq hissəsində suvarılan ərazilərdə səhralaşma prosesini yaradan əsas səbəblər orada drenaj-kollektor şəbəkəsinin yaradılması və suvarma işləri ilə əlaqədardır. Dağətəyi hissəsində səhralaşma prosesi bitki örtüyünün pozulması, məhv edilməsi, hədsiz mal-qara otarılması, aqrotexniki qaydalara riayət olunmaması ilə əlaqədardır. İşğaldan azad olunmuş Kür-Araz ovalığına daxil olan Qarabağ düzü Azərbaycanın kənd təsərrüfatına tam inteqrasiya olduqdan sonra qalan digər ovalıqlara olan antropogen təsirin yükü bir xeyli azalmış olacaq. Səhralaşma əsasən Abşeron yarımadasında torpağın neft və neft tullantıları ilə çirklənməsi ilə əlaqədar da baş verir [4, s. 5].

BMT-nin Baş Assambleyası tərəfindən 17 iyun Ümumdünya Səhralaşmaya Qarşı Mübarizə Günüdür. Azərbaycan BMT-nin “Səhralaşmaya qarşı mübarizə” haqqında Konvensiyasına tərəf olaraq beynəlxalq öhdəliklərin yerinə yetirilməsində fəal iştirak edir, yeni meşə və yaşıllıqlar salınır, deqradasiyaya uğramış torpaqların neytral balansının saxlanılması istiqamətində tədbirlər həyata keçirilir [10].

2019-cu ildə birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə mütəfəkkir şair İmadəddin Nəsiminin yubileyinə həsr olunan aksiyada ölkə üzrə bir gündə 650 min ağacın əkilməsi, 2020-ci ildə təşkil edilmiş kütləvi ağacəkmə kampaniyaları, IDEA İctimai Birliyi və ETSN-nin birgə təşkilatçılığı ilə həyata keçirilən “Ümumrespublika Yaşıllaşdırma Marafonu” layihəsi çərçivəsində 2021-ci ildə Qarabağ regionu da daxil olmaqla ölkədə 1 milyona yaxın ağacın əkilməsi də səhralaşma ilə mübarizəyə mühüm töhfədir [10].

Eyni zamanda, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Sərəncamı ilə müəyyənləşdirilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə uyğun olaraq 2030-cu ilədək olan dövrdə də ölkədə yaşıllıqların payı artırılacaq, yararsız torpaq sahələri bərpa olunacaq, deqradasiya və səhralaşmaya qarşı mübarizə aparılacaq [1].

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa" dair Milli Prioritetlər.
2. Azərbaycan Respublikasının BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına İkinci İkiillik Yenilənmiş Hesabatı (2018)
3. Ələkbərov, U.K. İnsan inkişafın əsasları. Ali məktəb üçün dərslik. – Bakı: – 2016. – s.193-204
4. Nəbiyeva, F.X. Kür-Araz ovalığı və Arazboyu düzənliklərdə səhralaşma prosesi və onun flora biomüxtəlifliyinə təsir: / biologiya üzrə elmlər doktoru dis. avtoreferatı. / – Bakı, 2017. – 52s.
5. Организация Объединенных Наций. Конвенция по борьбе с опустыниванием. Индия, 2–13 сентябрь 2019 год.
6. Пенджиев, А.М. Экологические проблемы освоения пустынь: засушливые земли мира, рост народонаселения, использование гелиоэнергетических комплексов // Альтернативная энергетика и экология. – 2013. – №12(134). – с.88-100.
7. Soloviy, I. P., Keeton, W.S. Ecological Economics and Sustainable Forest Management: Developing a Transdisciplinary Approach for the Carpathian Mountains . Lviv: Ukrainian National USAİD's report: Economic strategic and political developments in GAP", (2018), p.12
8. Laferriere & Stoet "IR Theory and ecology", pg. 41
9. http://eco.gov.az/
10. https://president.az/
11. https://www.agro.gov.az/az
12. COP26: What is the Glasgow climate conference and why is it important?, BBC News (31 October 2021).

## ABSTRACT

# CONSERVATION OF SOIL ECOSYSTEMS OF AZERBAIJAN IN IMPLEMENTATION OF SUSTAINABLE DEVELOPMENT GOALS

**Mustafayeva N.A.**
*Ph.D. in Biology, Associate Professor*
*Department of Sustainable Development Planning and Management,*
*The Academy of Public Administration under*
*the President of the Republic of Azerbaijan*

Careful land management is essential to maintain the integrity and necessity of natural resources and ensure long-term socio-economic growth and prosperity for future generations. Strategies are being implemented to promote sustainable use of land and ecosystems and environmental management to achieve sustainable development goals. In the future, our country will have to increase efforts to restore ecosystems subject to desertification to ensure the supply of natural resources and raw materials.

The main reasons for the decline are determined based on indicators and parameters of multiple monitoring of environmental changes, with the identification of the current situation and the path of their prevention. Multilateral resource policy and investment play a crucial role in protecting and restoring ecosystems, facilitating sustainable land and forest use. Support and preservation of balance in these ecosystems will further contribute to realizing food and environmental security. From this point of view, the problems considered in the article acquire a special relevance.

**Keywords:** *sustainable development goals, desertification, land degradation, U.N. Convention to Combat Desertification, sustainable land use, adaptation to climate change*

## РЕЗЮМЕ

## СОХРАНЕНИЕ ПОЧВЕННЫХ ЭКОСИСИТЕМ АЗЕРБАЙДЖАНА В РЕАЛИЗАЦИИ ЦЕЛЕЙ УСТОЙЧИВОГО РАЗВИТИЯ

**Мустафаева Н.А.**
*Доцент кафедры «Планирование и управление устойчивым развитием» Академии Государственного Управления при Президенте Азербайджанской Республике, д.ф.б.н.*

Для обеспечения долгосрочного социально-экономического роста и процветания, важно обеспечить рациональное и бережное управление земельными ресурсами с целью сохранения целостности природных ресурсов для будущих поколений. С этой целью осуществляются стратегии, направленные на поощрение устойчивого землепользования экосистем для достижения целей устойчивого развития. Во всем мире необходимо активизировать усилия по восстановлению экосистем, подверженных опустыниванию, для предотвращению глобальных последствий в изменении климата и социально-экономическом развитии стран. Основные причины опустынивания определены на основании показателей и параметров многократного мониторинга изменений в окружающей среде, с выявлением текущей ситуация и путей их предотвращения. Многогранная ресурсная политика и инвестиции играют решающую роль в защите и восстановлении экосистем, содействии устойчивому использованию земель и лесов. Поддержание и сохранению равновесия в данных экосистемах, в дальнейшем будет способствовать реализации продовольственной и экологической безопасности. С этой точки зрения проблемы, рассмотренные в статье, приобретают особую актуальность.

**Ключевые слова:** *цели устойчивого развития, опустынивание, деградация земель, Конвенция ООН по борьбе с опустыниванием, устойчивое землепользование, адаптация к изменениям климата.*

UOT 341.22

# DÖVLƏTLƏRİN HÜQUQ VARİSLİYİ ÜZRƏ PRAKTİKA (TABULA RASA, UTI POSSIDETIS JURIS, KONTINUITET)

**Rəhimli S.M.**
*Bakı Dövlət Universitetinin İnsan hüquqları və informasiya hüququ üzrə YUNESKO kafedrasının müəllimi, hüquq üzrə fəlsəfə doktoru*
*e-mail: sefterrehimli@yahoo.com*

*Dövlətlərin beynəlxalq müqavilələri, mülkiyyəti, dövlət arxivləri və borcları, beynəlxalq təşkilatlara münasibətdə dövlətlərin varisliyinin həllində vahid beynəlxalq-hüquqi tənzimetmə formalaşdırılmamışdır. Kodifikasiyaya görə varislik məsələləri maraqlı dövlətlər arasında konkret hallara uyğun razılaşmalarla həll edilə bilər. Dövlətlərin hüquq varisliyində ümumi qaydanın formalaşdırılması mümkün olmamışdır. Xüsusən də, insan hüquqları, ayrı-ayrı şəxslərin mülkiyyət hüquqları, vətəndaşlıq, sülh və təhlükəsizliyin təmini, beynəlxalq tranzit hüququ üzrə müqavilələrə münasibətdə kontiunitet konsepsiyası qəbul edilməkdədir.*

**Açar sözlər:** *Konstitusiya, hüquq varisliyi, varis-dövlət, müqavilələr hüququ, Vyana Konvensiyası, kontinuitet nəzəriyyəsi, anneksiya, kordifikasiya*

Dövlətlərin hüquq varisliyi beynəlxalq-hüquqi nizamlama ilə müxtəlif sahələr üzrə - dövlətlərin beynəlxalq müqavilələri, dövlət ərazisi, dövlət sərhədləri, dövlət mülkiyyəti, dövlət arxivləri, dövlət borcları, beynəlxalq təşkilatlara münasibətdə, həmçinin orqanlarda üzvlük üzrə həyata keçirilir. [13, s.59; 17, s.197-211]. Dövlətlərin hüquq varisliyinə aid beynəlxalq-hüquq normaları əsasən adət hüquq xarakteri daşıyır. Beynəlxalq təcrübə və presedentlər, beynəlxalq orqanların qərarları, bəzi hallarda isə dövlətin milli-hüquqi aktları da az rol oynamır. Təsadüfi deyil ki, bu sahədə məcəlləşdirmə də xüsusi nailiyyətə nail olmamışdır.

Hüquq varisliyi sahəsində praktika ziddiyyətli və fərqli olmaqla bərabər eyni zamanda maraqlı tərəflərin razılaşmaları və qüvvələr nisbətindən asılı olduğundan burada ümumi qaydanın formalaşdırılması da çətindir [16, s.343]. Dövlətin beynəlxalq hüquq varisliyi problemi yarandığı zaman dövlətlərin siyasi maraqlarından asılı olaraq hər bir halda tənzimləmə müxtəlif əsaslara yönləndirilə bilər.

Problemin mürəkkəbliyini nəzərə alaraq hüquq varisliyin obyektinə münasibətdə fərqli tənzimetmə qaydasını nəzərdə tutan müqavilə və sazişlərin bağlanılması tövsiyə edilməkdədir [14, s.207-212]. Bunun nəticəsidir ki,

Beynəlxalq müqavilələr hüququ da dövlətlərin hüquq varisliyi institutunun tənzimlənməsinə tətbiq edilmir. Müqavilələr hüququ üzrə 1969-cu il Vyana Konvensiyasının 73-cü maddəsində deyilir ki, bu Konvensiyasının heç bir maddəsi dövlətlərin hüquq varisliyi müqavilələrinə münasibətdə meydana gələn hər hansı bir məsələnin həllini nəzərdə tutmur [40]. Dövlətlərin müqavilələr üzrə hüquq varisliyinin beynəlxalq-hüquqi nizamlanması xüsusi tənzimləmə qaydasına malikdir. Bu sahədə Müqavilələrə münasibətdə dövlətlərin varisliyi üzrə 22 avqust 1978-ci il Vyana Konvensiyası (23 dövlət imzalayıb, 15 dövlət ratifikasiya edib,1996-cı ildən qüvvədədir) [39] qəbul edilib. Dövlət mülkiyyəti, dövlət arxivləri, dövlət borclarına münasibətdə isə Dövlət mülkiyyəti, arxivləri və borclarına münasibətdə dövlətlərin varisliyi üzrə 8 aprel 1983-cü il Vyana Konvensiyası [31] qəbul edilmişdir. Sonuncu Konvensiyanın qüvvəyə minməməsi, bir sıra məsələlərin (məsələn, ciddi sosial dəyişikliklər zamanı onların həllinin) təsbit edilməməsi, praktika ilə uzlaşmanın olmaması kodifikasiyanın uğurlu olmadığını göstərir. Qeyd edilən problemə baxmayaraq konvensiyalar müəyyən bir mütərəqqi inkişafı da təmin etmiş oldular. Məsələn, hər iki konvensiyanın 2-ci maddəsinin 1(b) bəndində ümumi formada "dövlətlərin hüquq varisliyi"nin anlayışı verilib.

Konvensiyalar ümumi praktikadan deyil "xüsusi hüquq varisliyi prinsipindən" çıxış edirlər [15, s.284]. 1978-ci il Konvensiyası müqavilə öhdəliklərinin varisliyi prinsipinə əsaslanır [24, s.6, 74-96]. Bundan istisna kimi yeni yaranan müstəqil dövlətlərin müstəmləkə müqavilələri təşkil edir. Həmin ölkələrin müqavilə öhdəlikləri tabula rasa prinsipinə əsaslanır. Hərgah burada da xüsusi qaydalar tətbiq edilməkdədir. 1978-ci il Konvensiyasının 17-ci maddəsi müstəqillik əldə etmiş yeni dövlətlər üçün yeni imkanlar açaraq free choice doctrine əsasında çoxtərəfli müqavilələrə qoşulmaq imkanı verir.

Dövlətlərin hüquq varisliyi sərhəd müqavilələrinə, sərhəd rejimi, həmçinin tranzit hüququ üzrə müqavilələrə toxunmur [15, s.284]. Xüsusən, insan hüquqları üzrə müqavilələrin kontiuniteti konsepsiyası üstünlük təşkil edir. Sərhəd müqavilələrinə, sərhəd rejiminə münasibətdə beynəlxalq hüquq mühafizəkar mövqedən çıxış edir. Yəni sərhəd müqavilələri, sərhəd rejimi öz sabitliyini saxlayır. Müqavilələrə münasibətdə dövlətlərin varisliyi üzrə 22 avqust 1978-ci il Vyana Konvensiyasının 11-ci maddəsinə görə dövlətlərin hüquqi varisliyi qaydası müqavilə ilə müəyyən edilən sərhədlərə və ya müqavilə ilə müəyyən edilən hüquq və vəzifələrə və sərhəd rejiminə münasibətdə tətbiq edilmir [38].

Beynəlxalq təcrübə sərhəd rejiminə münasibətdə dövlətlərin hüquqi varisliyi üçün uti possidetis juris (latınca – nəyə, necə və hansı həcmdə maliksənsə) prinsipinə əsaslanır. Bu prinsip yalnız sərhəd rejiminə deyil, dövlət borclarına münasibətdə də tətbiq edilir. Məsələn, Yuqoslaviyanın bölünməsi təcrübəsində Arbitraj Komissiyası keçmiş SSR-in xarici dövlət borcları ilə əlaqəli 3 və 14 saylı Qərarlarında uti possidetis prinsipinə əsaslanmışdır. Arbitraj

Komissiyası Dövlət mülkiyyəti, arxivləri və borclarına münasibətdə dövlətlərin varisliyi üzrə 8 aprel 1983-cü il Vyana Konvensiyasına və beynəlxalq praktikaya əsaslanaraq bildirmişdir ki, varis dövlətin ərazisində yerləşən daşınmaz əmlak tamamilə onun yurisdiksiyasına verilir və bu əmlakın ilkin maliyyələşdirilməsi və ona sonrakı yatırımlar bu qaydadan istisna yaratmır [23, s.170]. Yalnız Arbitraj Komissiyası digər əmlak, arxiv və borcların (maliyyələşdirilməsi və ya mənşəyi məsələsindən asılı olmadan) ədalətli paylarla varis dövlətlər arasında bölünməsinə hökm etmişdir [23, s.171].

Hüquqi varislik qaydasında uti possidetis juris prinsipinin sərhədlərə tətbiqi praktikası birmənalı olmamışdır. Prinsipin sərhədlərə tətbiqi praktikasında qeyri-müəyyənlik daha çox Asiya, Afrika ölkələri üçün xarakterik olmuşdur. Ümumi qaydaya görə varis dövlətin əhalisinin formalaşdırdığı ərazinin inzibati sərhədləri qəbul edilir. Lakin bu halda da məsələnin birmənalı həlli olmur. Məsələn, Afrika qitəsində müstəmləkə azadlığı zamanı, 1950 və 1960-cı illərdə yeni Afrika dövlətləri köhnə müstəmləkə sərhədlərini uti possidetis juris qaydasında saxlamışlar. Həmin sərhədlər də bir çox etnik xalqların özbaşına bölünməsinə səbəb olub. Eyni zamanda ayrı-ayrı xalqların nə birləşməsi, nə də bölünməsi hüququ tanınmayıb [36, s.27].

Uti possidetis juris halında da sərhəd münaqişələri istisna olmayıb. SSRİ-nin süqutu ilə Dağlıq Qarabağla bağlı Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları, Krımla, Cənubi Osetiya və d. ərazilərlə bağlı Rusiyanın təcavüzü və s. aktlar qeyd edilə bilər. Baxmayaraq ki, SSRİ-nin süqutu ilə meydana gələn müqavilələrdə (məsələn, MDB-nin yaradılması haqqında 8 dekabr 1991-ci il Sazişində "birlik çərçivəsində mövcud sərhədlərin toxunulmazlığı öhdəliyi təsdiq edilməsi") uti possidetis juris qaydası təsbit edilmişdi. SSRİ-nin süqutundan sonra nun tərkibindəki dövlətlərin böyük əksəriyyəti beynəlxalq birlik tərəfindən yenidən de jure tanınmışdır. BMT-nin Azlıqların müdafiəsi və diskriminasiyanın qarşının alınması üzrə alt komissiyasının üzvü, İnsan hüquqları üzrə İsveç kral institutunun direktoru, professor A. Eide qeyd edir ki, keçmiş SSRİ-yə daxil olmuş müttəfiq respublikaların sərhədlərinin uti possidetis juris prinsipi ilə müəyyənləşdirməsi üzrə Birləşmiş Millətlər Təşkilatı səviyyəsində razılıq əldə edilmişdir. Bu o anlama gəlir ki, yeni yaranmış müstəqil respublikaların sərhədləri keçmiş müttəfiq respublikaların sərhədləri əsasında müəyyənləşdirilməlidir [25, s.282]. Professor Ə. Sadıqov qeyd edir ki, 1993-cü ildə BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 822, 853, 874, 884 saylı qətnamələri, həmçinin İslam Konfransı Təşkilatının, AŞPA-nın, BMT Baş Məclisinin 2008-ci il Qətnaməsi ilə Ermənistanın təcavüzkar kimi tanınması ittifaq respublikalarının müstəqilliklərini bərpa etməsindən sonra Azərbaycan Respublikasının sərhədlərinin beynəlxalq cəmiyyət tərəfindən hansı tərzdə tanınmasını əks etdirir [5, s.137-140]. T.Frank Dağlıq Qarabağ konfliktinin təhlil zamanı qeyd edir ki, uti possidetis juris prinsipi Xorvatiyaya münasibətdə necə tətbiq

olunubsa Azərbaycandakı Dağlıq Qarabağ münaqişəsinə də eyni qaydada tətbiq edilə bilər. Uti possidetis juris prinsipi Azərbaycan Respublikasının sərhədlərinin dəyişdirilməsinə yönələn həm xarici, həm də daxili iddialardan müdafiəni təmin edəcək. Uti possidetis juris prinsipinə əsasən Krainanın Xorvatiyadan ayrılması tələbi nə qədər qeyri-qanunidirsə Dağlıq Qarabağın Azərbaycandan ayrılması tələbi də absurddur [26, s.20].

Azərbaycan Respublikası özünün müstəqilliyini bərpa edərkən Azərbaycan Xalq Cümhuriyyətinin varisliyinə istinad etmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin sərhədləri RSFSR qanunsuz anneksiyasından öncə beynəlxalq birlik tərəfindən tanınmış, Osmanlı dövləti ilə, Gürcüstanla və s. dövlətlərlə müqavilələr imzalanmışdı. Rusiya Azərbaycanın ərazisini işğal etsə də Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq hüquq subyektliyi itməmiş, onun təsiri işğal dönəmindəki Sovet Azərbaycanında da özünü göstərmiş və hətta 13 oktyabr 1921-ci il Qars müqaviləsi ilə RSFSR, Türkiyə, Azərbaycan, Ermənistan və Gürcüstan arasında mövcud sərhədlər təsbit edilmişdi [10, s.98]. Dağlıq Qarabağın Azərbaycana aid olması praktikası həm Azərbaycan Xalq Cümhuriyyəti, həm də işğal dönəmindəki Sovet Azərbaycanında da qəbul edilmişdi.

Dövlətlərin hüquq varisliyi zamanı uti possidetis juris prinsipinin dinc qaydada realizəsi də mümkün olub. Məsələn, Çexiya və Slovakiya arasında bağlanmış 29 oktyabr 1992-ci il Müqaviləsində bu dövlətlərin ərazisi onların arasında mövcud olmuş inzibati sərhəd üzrə müəyyənləşdiriləcəyi bildirilir. Bunun üçün Konstitusiya qanunu (m.2) da ayrılma ilə Çexoslovakiyanın süqutunu təsdiqləmiş olur.

Dövlətlərin hüquq varisliyinin beynəlxalq-hüquqi nizamlanması zamanı istisna şərtləri ilə meydana çıxan sahələrdən biri də dövlətlərin insan hüquqları üzrə beynəlxalq müqavilələri təşkil edir. İnsan hüquqları üzrə beynəlxalq müqavilələrin əsas əlaməti ondan ibarətdir ki, bu müqavilələr müddətsiz olmaqla yanaşı müəyyən bir ərazidəki əhaliyə, həmin əhalini formalaşdıran şəxslərin hüquqlarının müdafiəsinə yönəlməsidir. Şəxsi və siyasi hüquqlar üzrə beynəlxalq müqavilələr dövlətlərin hüquqi varisliyinə də təsir etməkdədir. Qeyd edildiyi kimi beynəlxalq hüquqa (Müqavilələrə münasibətdə dövlətlərin varisliyi üzrə 1978-ci il Konvensiyasına (m.34.2)) görə yeni yaranan dövlət beynəlxalq münasibətlərə "təmiz vərəq" (tabula rasa) prinsipi ilə daxil olur. Lakin müəyyən kateqoriya müqavilələr var ki, onların müəyyən etdiyi öhdəliklər avtomatik olaraq yeni yaranmaqda olan dövlətlərə keçmiş olur [9, s.50]. Əgər ərazi rejimini müəyyən edən müqavilələr əraziyə bağlanmaqla ərazi ilə birlikdə varis-dövlətə keçirsə, insan hüquqları haqqında müqavilələr isə müvafiq ərazidə yaşayan əhaliyə bağlanmaqla varis-dövlətə keçmiş olur və bu zaman əhalinin kimin yurisdiksiyasına keçməsindən asılı olmayaraq onlar özlərinin beynəlxalq hüquqla tanınan hüquq və azadlıqlarının beynəlxalq hü-

quqi müdafiəsindən məhrum edilə bilməzlər [7, s.39-40]. Bu qayda universal varislik və ya mahiyyətcə ondan fərqli, lakin oxşar elementləri olan kontinuitet nəzəriyyəsi ilə əlaqələndirilə bilər. Məsələ beynəlxalq hüquq doktrinasında və dövlətlərin təcrübəsində birmənalı qəbul edilməsə də insan hüquqlarına, onların müdafiəsinə marağın artması ilə özünə daha çox əsaslar tapmaqdadır. Dövlətlərin ziddiyyətli təcrübəsini də əsas götürərək bir çox müəlliflər insan hüquqları haqqında beynəlxalq müqavilələrin hüquqi varislik məsələsində üstün mövqeyə malik olduğunu qeyd edirlər. Keçmiş Yuqoslaviya, Sovetlər, Çexoslovakiya, Honkonq və d. ölkələrin timsalında beynəlxalq orqanların, məhkəmə qurumlarının bu sahədə pozitiv mövqeyi əsas götürülərək insan hüquqları haqqında beynəlxalq müqavilələrin kontinuitetinə istinad edilir [29, s.493; 33, s.84; 34, s.357; 30, s.190-191].

Mülki və siyasi hüquqlar haqqında beynəlxalq Paktın monitorinq mexanizmi olan İnsan Hüquqları Komitəsi ifadə etdiyimiz mövqeyin meydana gəlməsində əhəmiyyətli rol oynamışdır. 1992-ci ildə İnsan Hüquqları Komitəsi keçmiş Yuqoslaviya ərazisində yeni yaranmış dövlətlərə - Xorvatiya, Bosniya-Herseqovina və (Serbiya və Monteneqrodan ibarət olan) Yuqoslaviya Federativ Respublikasına mülki və siyasi hüquqların gözlənilməsi səviyyəsilə bağlı hesabatlarını təqdim etmələri üçün müraciət etmişdi. İnsan Hüquqları Komitəsi Mülki və siyasi hüquqlar haqqında beynəlxalq Pakt üzrə keçmiş Yuqoslaviyanın götürdüyü öhdəliyə istinad edərək bildirmişdir ki, varis dövlətlər tərəfindən insan hüquqları haqqında beynəlxalq müqavilələri tətbiq etməyəcəkləri, həmçinin keçmiş Yuqoslaviya ərazisindəki əhalinin insan hüquqları üzrə beynəlxalq sazişlərin üstünlüklərindən yararlana bilməyəcəkləri kimi təəssürat üçün əsas yoxdur [22, s.3]. Sonradan müvafiq dövlətlər Komitənin müraciətinə müsbət münasibət bildirmiş və insan hüquqlarının kütləvi və sistemli pozuntusunun təhqiqinə də razılıq verirlər.

Komitə tərəfindən oxşar mövqe postsovet dövlətlərinə münasibətdə də ifadə edilmişdir. Komitə bildirmişdir ki, bu dövlətlər müstəqillik əldə etdikləri andan Pakt müddəaları ilə öhdəlik daşıyırlar [37, s.49]. Postsovet dövlətlərindən Azərbaycan Respublikası Pakta 21 iyul 1992-ci ildə qoşulmuş və 1994-cü ildə özünün ilk hesabatını Komitəyə təqdim edərkən bildirmişdir ki, müstəqillik əldə etdikdən sonra Pakta qoşulma anına kimi ərazisində baş vermiş bütün hadisələrə görə məsuliyyət daşımağa hazırdır [2; 4, s.49-50].

Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktının 4-cü maddəsinə görə, Azərbaycan Respublikasının (söhbət Azərbaycan SSR-dən gedir – müəll.) Konstitusiyası və SSRİ-nin iştirakçısı olduğu beynəlxalq müqavilələr Azərbaycan Respublikasının müstəqilliyinə və suverenliyinə zidd olmadıqca Azərbaycan Respublikasında tətbiq edilə bilər [27]. Azərbaycan Respublikası (Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktının 2-ci maddəsinə görə) [27] özünü AXC-nin varisi

kimi bəyan etdiyi üçün bu mövqeyi də AXC-nin İstiqlal Bəyannaməsindəki siyasəti ilə əlaqələndirmək olar. İstiqlal Bəyannaməsində deyilirdi ki: "...4. Azərbaycan Xalq Cümhuriyyəti millət, məzhəb, sinif, silk və cins (kurs-müəll.) fərqi gözləmədən qələmrovində yaşayan bütün vətəndaşlarına hüquqi-siyasiyyə və vətəniyyə təmin eylər.

Azərbaycan Xalq Cümhuriyyəti ərazisi daxilində yaşayan bilcümlə millətlərə sərbəstanə (kurs-müəll.) inkişafları üçün geniş meydan buraxır..." [1, s.3; 6, s.122,124,127]. Azərbaycan Respublikası bir tərəfdən insan hüquqları müqavilələrinin spesifik xüsusiyyətlərini qəbul etmiş, digər tərəfdən isə bu spesifikliyin hələ də ümumi təcrübəyə (adətə) çevrilmədiyini göstərmişdir. Professor L.Hüseynov doğru olaraq qeyd edir ki, müstəqillikdən sonra Azərbaycan Respublikasının Pakta qoşulana kimi ölkə ərazisində baş vermiş hadisələrə görə öhdəlik götürməsi aktını Pakt üzrə öhdəliyin "varislənməsi"ndən çox susmaqla tanınması kimi qiymətləndirilə bilər [8, s.47].

Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsində ifadə edilən "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir" (I), həmçinin həmin maddənin II hissəsində "Konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə (daha doğrusu – "insan hüquqları üzrə beynəlxalq öhdəliklərə" – kurs müəll.) uyğun tətbiq edilməsi" fikri də Azərbaycan Respublikasının insan hüquqları üzrə beynəlxalq öhdəliklərə münasibətdə ümumtanınmış siyasi kursunu, ən zəif halda universal varislik mövqeyini göstərir. Yəni burada söhbət "varislik"dən deyil kontinuitetdən getməlidir. Professor L.Hüseynovla razılaşaraq qeyd edilməlidir ki, işğal altında olmuş (Sovet Azərbaycanın) ərazinin beynəlxalq münasibətlərə görə hüquq və vəzifələri yeni yaranmış (Azərbaycan Respublikasının) ərazinin hüquq və vəzifələri ilə tam fərqli həcmdə olmuşdur. Buna görə də burada varislik qəbul edilə bilməz. Yəni söhbət Azərbaycan Xalq Cümhuriyyətinin kontinuitetindən getməlidir.

Mülki və siyasi hüquqlar üzrə beynəlxalq müqavilələrin adət hüquq norması kimi tanınması da qəbul edilməkdə olan faktdır. İnsan hüquqlarına hörmət etmək prinsipinin beynəlxalq hüququn ümumi prinsiplərindən ən əhəmiyyətlisi kimi tanınması [28, s.166] və insan hüquqları və əsas azadlıqların təmin edilməsinin dövlətin ali məqsədi olaraq qəbul edilməsi digər dövlətlərin də hüquq sistemləri üçün xarakterik haldır [4, s.48-49]. Yəni İnsan Hüquqları Komitəsinin müstəqillik əldə etmiş Şərqi Avropa və postsovet dövlətlərinə münasibətdə ifadə etdiyi mövqe qismən universal varislik konsepsiyasına uyğun gəlir. Lakin ayrı-ayrı dövlətlərin qanunvericilik siyasəti beynəlxalq hüquqa, onun universal qaydasına da təsir etməkdədir. Prof. L.Hüseynov qeyd edir ki, hazırda insan hüquqları haqqında beynəlxalq müqavilələrə də spesifik

kontiunitet (fasiləsizlik-müəll.) verən, onların xüsusi təbiətini nəzərə alan yeni beynəlxalq adət-hüquq normasının yaranmasının şahidinə çevrilirik [8, s.39]. İnsan hüquqları üzrə beynəlxalq müqavilə öhdəliklərinin qarşılıqlı razılaşma əsasında deyil, birbaşa olaraq yeni yaranan "varis" dövlətə keçməsi dövlətçiliyin kontinuiteti ilə əlaqələndirmək daha doğru mövqedir.

İnsan hüquqları üzrə beynəlxalq müqavilələrin kontinuiteti "tabula rasa"nı üstələməkdədir. Dövlətlərin parçalanması, birləşməsi, yenidən yaranması insan hüquqları haqqında müqavilələrin kontiunitetinə, onların universallıq və təbii hüquq başlanğıcı konsepsiyasına xələl gətirməməlidir. Yeni yaranan dövlətlər ən azından universal beynəlxalq təşkilatlarda, məsələn BMT çərçivəsində Nizamnaməyə bağlılıqla insan hüquqlarına hörmət etmək kimi öhdəlik götürüblər [35, s.193]. BMT-nin əsas məqsədləri beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq, xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsiplərini rəhbər tutaraq millətlər arasında dostluq münasibətlərini inkişaf etdirmək, iqtisadi, sosial, mədəni və humanitar xarakterli problemlərin həllində beynəlxalq əməkdaşlığı həyata keçirməklə (m.1.1; 1.2) bərabər 1.3 maddəsinə görə Təşkilatın bütün üzvlərin üzərinə cinsindən, dilindən və dinindən asılı olmayaraq hamı üçün insan hüquqlarını və əsas azadlıqlarını təşviq və inkişaf etdirmək (kurs – müəll.) öhdəliyi qoyur [11, s.458; 12, s.99]. Bu maddə artıq adət normasıdır. Müqavilələr hüququ haqqında 1969-cu il Vyana Konvensiyasının preambulasında deyildiyi kimi, iştirakçı dövlətlər BMT Nizamnaməsində ifadə edilən beynəlxalq hüququn bərabərhüquqluluq və xalqların öz müqəddaratını təyin etmə, bütün dövlətlərin suveren bərabərliyi və müstəqilliyi... [38] prinsipləri dövlətlərin necə yaradılmasından asılı olmayaraq fəaliyyətdədir. Yəni sosial və ya insani "varislik" (human "succession") əhalinin kontinuiteti ilə beynəlxalq ümumi hüququn qaydasını təşkil etməkdədir. Bu qayda, həm də xarici təcavüzə məruz qoyulan dövlətlərin beynəlxalq hüquq subyektliyinin bərpası halı üçün keçərlidir.

İnsan hüquqlarına hörmət etmək öhdəliyinin universal aspekti ayrı-ayrı şəxslərin mülkiyyət hüquqlarının müdafiəsində də özünü göstərməkdədir. İnsan hüquqları üzrə normaların kontinuitetinin "tabula rasa"nı üstələməsi beynəlxalq məhkəmə qərarlarında da təsdiqlənmişdir. Hələ I Dünya müharibəsinə qədər xüsusi şəxslərin mülkiyyət hüquqlarının (private rights) dövlətlərin hüquq varisliyindən asılı olmaması, əldə edilmiş hüquqların (acquired rights) qeyd-şərtsiz tanınması praktik məzmun kəsb etmişdir. Məsələn, Beynəlxalq Daimi Ədalət Məhkəməsinin 10.09.1923-cü il "Polşada Alman koloniyaları" üzrə məsləhət qərarında [21, s.36], yenə həmin Məhkəmənin 25.05.1926-cı il "Yuxarı Sileziyada bəzi Alman maraqları" işindəki qərarında [19, s.21-22] suverenliyin dəyişilməsinin xüsusi hüquqlara təsir etmədiyinə hökm etmişdir. Beynəlxalq Daimi Ədalət Məhkəməsinin 26.03.1925-ci il "Mavrommatis işində" Osmanlı dövlətinin Fələstində Mavrommatisə verdiyi konsessiyanın

Fələstində sonradan mandat sahibi olan Böyük Britaniyanı da bağlayacağını bildirir [18, s.28].

Dövlətlərin hüquq varisliyi ilə bağlı aktual məsələlərdən biri də vətəndaşlığın tənzimlənməsi qaydasıdır. Beynəlxalq hüquq Komissiyası 1993-cü ildən (Dövlətlərin hüquq varisliyi və onun fiziki şəxslərin vətəndaşlığının və hüquqi şəxslərin dövlət mənsubiyyətinin müəyyən edilməsinə təsiri) üzrə çalışmağa başlamışdır. 1999-cu ildə BMT Baş Məclisinə təqdim etdiyi "Dövlətlərin hüquq varisliyi ilə bağlı fiziki şəxslərin vətəndaşlığı üzrə" maddələr Layihəsində dövlətlərin süqutu, birləşməsi, ərazisinin bir hissəsinin ayrılması hallarında vətəndaşlığın tənzimlənməsi üzrə normalar yer alıb. Maddələr Layihəsi də insan hüquqları üzrə beynəlxalq müqavilələrin kontinuiteti kimi formalaşdırılıb. Dövlətlərin varisliyi zamanı vətəndaşlığın tənzimlənməsində: hər kəsin vətəndaşlıq hüququ; vətəndaşsızlığın istisnası; vətəndaşlığın seçilməsində iradə azadlığına hörmət; ailənin vahidliyi və s. prinsiplərin gözlənilməsi öhdəliyi təsbit edilib [3]. Müvafiq qaydalar Avropa Şurasının komissiyası tərəfindən hazırlanmış Dövlətlərin hüquq varisliyinin fiziki şəxslərin vətəndaşlığına təsiri üzrə 14 sentyabr 1996-cı il Bəyannaməsində də yer alıb [32].

İnsan hüquqları üzrə beynəlxalq müqavilələrin kontinuitet konsepsiyası Vətəndaşlıq haqqında 1997-ci il Avropa Konvensiyasında təsbit edilib. Vətəndaşlıq haqqında 1997-ci il Avropa Konvensiyasında da dövlətlərin varisliyinin vətəndaşlığın əldə edilməsi və itirilməsi məsələlərində fundamental hüquqların gözlənilməsi tələbi əks olunub. Qeyd olunur ki, dövlətlər varislik zamanı vətəndaşlığın tənzimlənməsi üzrə qərar qəbul edərkən: şəxsin müvafiq dövlətlə effektiv əlaqəsinin mövcudluğunu; varislik zamanı şəxsin daimi yaşayış yerini; şəxsin iradəsini və s. nəzərə almalıdır. Konvensiyada beynəlxalq hüquqi baxımdan yenilik qeyri-vətəndaşlarla bağlıdır (m.18). Varis-dövlətə keçən ərazidə daimi yaşayan sələf-dövlətin vətəndaşları, yeni vətəndaşlığı qəbul etmədikləri halda da varis-dövlətin ərazisində qalmaqla varis-dövlətin vətəndaşları ilə bərabər sosial-iqtisadi hüquqlar əldə edirlər.

Universal varisliyi şərtləndirən kontinuitet konsepsiyasının tətbiq edildiyi sahələrdən biri də tranzit hüququ üzrə müqavilələrdir. "Dövlətlərin hüquq varisliyi tranzit hüququ üzrə müqavilələrin hüquqi qüvvəsinə toxunmur" [15, s.284].

Müqavilələrə münasibətdə dövlətlərin varisliyi üzrə 1978-ci il Konvensiyasına (m.15.b) görə yeni yaranan dövlət əvvəlki dövlətin beynəlxalq tranzit hüququ üzrə müqavilə öhdəliklərinə sadiq qalmalıdır. Bu adət norması 1978-ci il Konvensiyasından çox öncə məhkəmə praktikasında da qəbul edilmişdir. Beynəlxalq Daimi Ədalət Məhkəməsinin 10.09.1932-ci il "Sərbəst regionlar" işi üzrə qərarında deyilir ki, yol təmiri və gəmi su yolları üzrə əvvəlki dövlətin müqavilə öhdəlikləri yeni yaranan dövləti də öhdəlikləndirir [20, s.145-146].

Dövlətlərin beynəlxalq müqavilələri, mülkiyyəti, dövlət arxivləri və borcları, beynəlxalq təşkilatlara münasibətdə dövlətlərin varisliyinin həllində vahid beynəlxalq-hüquqi tənzimetmə formalaşdırılmamışdır. Kodifikasiyaya görə varislik məsələləri maraqlı dövlətlər arasında konkret hallara uyğun razılaşmalarla həll edilə bilər. Dövlətlərin hüquq varisliyində ümumi qaydanın formalaşdırılması mümkün olmamışdır. Xüsusən də, insan hüquqları, ayrı-ayrı şəxslərin mülkiyyət hüquqları, vətəndaşlıq, sülh və təhlükəsizliyin təmini, beynəlxalq tranzit hüququ üzrə müqavilələrə münasibətdə kontiunitet konsepsiyası qəbul edilməkdədir.

**Ədəbiyyat**:


1. Azərbaycan Cümhuriyyətinin İstiqlal Bəyannaməsi (Tiflis: 28 may 1918-ci il) // Azərbaycan Respublikası Dövlət Arxivi, Fond № 894, siyahı № 10, iş № 192, vərəq – 3;
2. Azərbaycanda insan hüquqlarının və azadlıqlarının təmin edilməsi və müdafiəsinin vəziyyəti. 2004-cü il üzrə illik məruzənin qısa icmalı. – Bakı. – 2005. – 174s.
3. Dövlətlərin hüquq varisliyi ilə bağlı fiziki şəxslərin vətəndaşlığı üzrə" maddələr Layihəsi. Doc.UN A/CN.4/4/474
4. Rəhimli, S. İnsan hüquqları Komitəsi: nəzəri və praktiki problemlər. – Bakı: Universiteti nəşriyyatı. – 2019. – s.49-50.
5. Sadıqov, Ə. Ermənistansayağı "özünütəyinetmə" beynəlxalq hüququn məsuliyyətidir / Heydər Əliyevin anadan olmasının 87-ci il ildönümünə həsr edilmiş "Heydər və Azərbaycan Respublikasının beynəlxalq əməkdaşlıq siyasətinin əsas inkişaf tendensiyaları" mövzusunda keçirilmiş Elmi-praktik Konfransın materialları. – Bakı: 2010. – s.137-140.
6. Zaqafqaziya Seyminin Müsəlman fraksiyası və Azərbaycan Milli Şurası iclaslarının protokolları, s. 122, 124, 127.
7. Гусейнов, Л. Г. Конституция Азербайджанской Республики, права человека и международное право // Beynəlxalq hüquq, – 1998, №1, – с.16-46.
8. Гусейнов, Л. Г. Международные обязательства государств в области прав человека. – Баку: Hüquq ədəbiyyatı. – 1998. – 188с.
9. Даниленко, Г. М., Чарни, Дж. И. Создание международного права и согласие государств // Вне конфронтации. Международное право в период после холодной войны: Сборник статей. / Отв. ред. Л. Демрот, Г. Даниленко. – Москва: Международные отношения. – 1996. – с.49-61.

10. Документы внешней политики СССР, т.1. – Москва. – 1959. – с.98.
11. Зимненко, Б. Л. Международное право и правовая система Российской Федерации. Особенная часть: Курс лекций. – Москва: Российская академия правосудия; Статут. – 2010. – 543с.
12. Зимненко, Б.Л. Согласование норм внутригосударственного и международного права в правовой системе России / МЖМП. – 2000. – №4. – с. 95-103.
13. Коннова, Е. В. Преждевременное признание нового государства. Некоторые теоретические аспекты // Журнал международного права и международных отношений. – 2007. – № 4, elib.bsu.by
14. Корниенко, Н.Ю. Правопреемство государственных долгов и мировой опыт последнего десятилетия // РЕМП, – 2003. – с.207-212.
15. Хайльброннер Кай. Государство и индивид как субъекты международного права / Международное право. Völkeerecht/ Вольфганг Граф Витцтум и др. – Москва: Инфотропик Медиа. – 2011. – 992с.
16. Черниченко, С.В. Теория международного права. В 2-х томах. Том 2: Старые и новые теоретические проблемы. – Москва: Издательство «НИМП». – 1999. – 531 с.
17. Brownlie, I. Recognition in theory and practice // The British Yearbook of International law, Volume 53, Issue 1, 1982, p. 197-211
18. C.P.J.I., Serie A. 1925. N 5, s.28
19. C.P.J.I., Serie A. 1926. N 7, s.21-22
20. C.P.J.I., Serie A/B. 1932. N 46, s.145-146
21. C.P.J.I.,Serie B. 1923. N 6, s.36
22. CCPR/C/SR.1178/Add.1. p.3
23. Degan, V.D. State Succession. Espessialy in Respect Of State Propety and Debts // The Finnish Yearbook of International Law. 1993. Vol. IV Helsinki. – 1993. – p.170.
24. Dumberry, P. An Uncharted Question of State Succession//Are New States Automatically Bound by the BITs Concluded by Predecessor States Before Independence? Journal of International Dispute Settlement, 2015, p. 6,74-96
25. Eide, A. Territorial integrity of States, minority protection and guarantees for autonomy arrangements: approaches and roles of the United Nations. // Local self-government, territorial integrity and protection of minorities. - Council of Europe Publishing. – 1996. – 339 p.
26. Franck, T.M. Postmodern Tribalism and the Right to Secession. Peoples and Minorities in International Law. // Martinus Nijhoff Publishers. Dordrecht /Boston/London. – 1993. pp.3-28
27. https://www.e-qanun.az
28. International Human Rights in Context: Law, Polities, Morals (H. J. Steiner and P. Alston eds.). Oxford. 2006, 779p.

29. Mullerson, R. The Continuity and Succession of States, by Reference to the Former USSR and Yugoslavia / International and Comparative Law Quarterly. – 1993. – vol.42. – p.493-510.
30. Mushkat, R. Hong Kong and Succession of Treaties / International and Comparative Law Quarterly. – 1997. – vol.46. – p.190-191.
31. Official Records of the UN Conference on Succession of States in Respect of State property, Archives and Debts, vol. II (United Nations publication, Sales No.E.94.V.6
32. Report der Venice Commission, European Commission for Democracy through Law, Consequences of State Succession for Nationality, 1998; Citizenshipand State Succession, Proceedings. – 1998.
33. Shaw, M.N. State Succession Revisited / Finnish Yearbook of International law.1994,vol.5, p.84-89.
34. Simma, B. From Bilateralism to Community Interest in International Law / Recueil des Cours, 1994-VI. Vol.250, 557 p.;
35. Simma, B. International Law and General International Law. A Comparative Analysis // Collected Courses of the Academy of European Law. – 2013. vol. IV. Book 2. p.155-236
36. Tomushat, Ch. Secession and self-determination in: Kohen Marcelo G. (ed.), Secession, International law Perspectives, Cambridge. 2006, p.4-37
37. UN Doc /A/49/40, vol. II, XI, Y, p.49
38. UN Treaty Series.
39. Vienna Convention on succession of States in respect of treaties. UN Treaty Series. 2013-07-26. Retrieved 2013-07-26
40. Vienna Convention on the law of treaties. UN Treaty Series.Vol.1155.N.Y.1987

## ABSTRACT

## PRACTICE OF LEGAL SUCCESSION OF STATES (TABULA RASA, UTI POSSIDETIS JURIS, CONTINUITY)



**Rahimli S.M.**

*Baku State University, Department of UNESCO for Human Rights and Information Law, Ph.D. in Law*



There is no single international legal regulation in the settlement of international treaties, property, state archives and states' debts, and succession of states concerning international organizations. According to the codification, succession issues can be resolved by agreements between the states concerned under specific circumstances. Forming a general rule in the legal succession of states was impossible. In particular, the concept of continuity is adopted in relation to treaties on human rights, property rights of individuals, citizenship, peace, and security, and international transit law.



**Keywords:** *Constitution, legal succession, succession-state, the law of treaties, Vienna Convention, continuity theory, annexation, codification*



## РЕЗЮМЕ

## ПРАКТИКА ПРАВОВОЙ УСПЕХОСТИ ГОСУДАРСТВ (TABULA RASA, UTI POSSIDETIS JURIS, CONTINUITET)



**Рагимли С.М.**

*Преподаватель кафедры ЮНЕСКО по правам человека и информационному праву Бакинского Государственного Университета, доктор философии по праву*



Единого международно-правового регулирования в вопросах урегулирования международных договоров, имущества, государственных архивов и долгов государств, правопреемства государств по отношению к международным организациям не существует. Согласно кодификации, вопросы правопреемства могут решаться договорами между заинтересованными государствами в соответствии с конкретными обстоятельствами. Не удалось сформировать общее правило в правопреемстве государств. В частности, концепция преемственности принимается в отношении договоров о правах человека, правах собственности физических лиц, гражданстве, мире и безопасности и международном транзитном праве.



**Ключевые слова:** *Конституция, правопреемство, правопреемник, договорное право, Венская конвенция, теория преемственности, аннексия, кордификация*

UOT 354

# İQLİM DƏYİŞİKLİKLƏRİ KONTEKSTİNDƏ RİSKLƏRİN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ

**Huseynov Y.İ.**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası, PhD*
*e-mail: huseynoff@live.com*

*İqlim dəyişikliyi dünya ictimaiyyəti tərəfindən son illərdə ən çox müzakirə olunan mövzulardan birinə çevrilmişdir. Ancaq bu müzakirələr daha çox antropogen iqlim dəyişikliyi adlanan hadisələr üzərində cəmləşdiyindən, mövzunun uzunmüddətli proqramlar və təşəbbüslər çərçivəsində siyasi, iqtisadi və sosial tərəfləri diqqətdən kənarda qalmışdır. Məhz bu çərçivədə, xüsusi ilə 2021-ci ilin bu mövzuda xüsusi yerə malik olması ilə, məqalənin məqsədi iqlim dəyişikliklərini kompeks şəkildə qiymətləndirmək və iqlim dəyişiklikləri beynəlxalq təşəbbüslərin ölkəmiz üçün müəyyənləşdirilməsi ilə bağlı strategiyaları təhlil edib müəyyənləşdirərək təkliflər verməkdən ibarətdir.*

**Açar sözlər:** *iqlim dəyişikliyi, risklər, Azərbaycan*

## Giriş

Mühüm iqlim dəyişikliklərinə səbəb olan təbii və antropogen amilləri, antropogen iqlim dəyişikliyinin spesifik təzahürləri barədə təsəvvürləri formalaşdırmaq üçün əvvəlcə “İqlim” (Climate) və “İqlim Dəyişikliyi” (Climate Change) terminlərini aydınlaşdırmaq mühüm əhəmiyyət kəsb edir. “İqlim” termini atmosferin uzun bir müddət ərzində ortalama vəziyyətini təsvir edir. Cenevrədə yerləşən Ümumdünya Meteorologiya Təşkilatı (World Meteorological Organization) qeyd olunan ortalama optimal müddət üçün 30 illik bir dövrü əsas götürür və burada zaman ölçüsünə əlavə olaraq məkan ölçüsü də əlavə edilir. Qeyd olunan kontekstdə, "İqlim" termini məhz geniş bir ərazi anlayışı çərçivəsi ilə əlaqələndirilir.

İqlim dəyişikliyi təbiət, cəmiyyət, iqtisadiyyat və gündəlik həyatımız üçün müxtəlif nəticələrə səbəb olmaqla yaşadığımız dünyanı dəyişir. Bu təsirlərə iqlim nəticələri (dəyişiklikləri) və ya iqlim effektləri deyilir. İqlim dəyişiklikləri özünü həm orta illik temperaturun və ya dəniz səviyyəsinin yüksəlməsi, buzlaqların əriməsi kimi uzunmüddətli, həm də daha güclü qısamüddətli iqlim dalğalanmalarında və daha tez-tez baş verən ekstremal hava (şiddətli yağış, quraqlıq) hadisələrində özünü göstərir.

Bundan başqa, iqlim dəyişiklikləri həm təbii, həm də antropogen təsirlər nəticəsində baş verir. Təbii təsiredici amillərə günəş aktivliyinin dəyişməsi, yer orbitinin parametrlərinin dəyişməsi, vulkan püskürmələri və s. hadisələr aiddir. Günəş radiasiyasının intensivliyinin dəyişməsi, vulkanik aktivlik və meteorit zərbələr də iqlim dəyişikliklərinə səbəb olduğu artıq elmə məlumdur. Lakin son iqlim dəyişikliyinin səbəbləri əsasən antropogen təsirlərdə də görülür. Qeyd olunur ki, istixana qazlarının, xüsusilə metan, ozon, azot oksid, karbon dioksid (CO2) və xloroflorokarbonatların emissiyasının təsiri çox böyükdür. Alimlər yekdilliklə hesab edirlər ki, məhz insanların fəaliyyəti nəticəsində neft, qaz və kömürün yandırılması orta temperaturun yüksəlməsinə səbəb olan istixana effektinə gətirib çıxardır. Sənaye inkişafı ilə insanların qlobal iqlimə təsiri getdikcə gücləndiyindən, bu gün təbii və antropogen istixana effektləri bir-birindən fərqləndirilir.

İnkişaf edən qlobal sənayeləşmə və fosil yanacaqlarının (kömür, neft, təbii qaz) həddindən artıq istifadəsi ilə istixana qazlarının və digər çirkləndiricilərin antropogen emissiyaları xeyli artmışdır. Bundan əlavə, dünya əhalisi son 300 ildə təxminən 0,5 milyarddan 6,8 milyarda qədər artmışdır. Artan istehlaka və mobiliyyə yönəlmiş iqtisadiyyat və həyat tərzi ilə əlaqədar olaraq, mənbələrə və enerjiyə olan tələbat da artmışdır. İnsanların təbii mühiti üçün bunun nəticələri çox ciddidir. İqlim Dəyişikliyi üzrə Hökümətlərarası Panelin (Intergovernmental Panel on Climate Change) qiymətləndirməsinə görə, son qlobal istiləşmənin əsas səbəbi istixana qazlarının buraxılması səbəbindən təbii istixana effektinin intensivləşməsidir və qlobal temperaturda müşahidə olunan artımın çox hissəsi çox güman ki, antropogen istixana qaz konsentrasiyalarında müşahidə olunan artımla bağlıdır.

İqlim dəyişiklikləri ilk növbədə əhali sağlamlığında ciddi problemlər yaradır. Belə ki, istilik dalğaları, tozcuq mövsümünün bir neçə il əvvəllərə nisbətən daha erkən başlaması və daha uzun sürməsi insanların, xüsusilə də yaşlıların fiziki sağlamlığına ciddi təsir göstərir, günəş yanığı, dəri xərçəngi və allergiya kimi bir çox əlavə sağlamlıq risklərinə səbəb olur. Fiziki və mənəvi sağlamlıq arasında qarşılıqlı əlaqə olduğundan, bunların çoxu öz növbəsində psixoloji sağlamlığa da təsir göstərir. Yaşlı və sağlamlığı zəif olan insanlara və uşaqlara isə iqlim dəyişikliyi daha güclü təsir göstərir. Havada Co2 miqdarının artması tozcuq istehsalını daha da artırır. Məhz bu baxımdan, iqlim dəyişikliklərinin əhalinin sağlamlığına mümkün təsirlərinin qiymətləndirilməsi təqribi səciyyə daşıyır. Bunun üçün insan həyatının dəyəri kimi dolayı iqtisadi meyarlar götürülür. Bu baxımdan, iqlimin dəyişməsinin əhalinin sağlamlığına mümkün təsirlərinə daha geniş şəkildə, kəmiyyət göstəricilərini də əhatə etməklə, elmi tədqiqinə ehtiyac var.

**İqlim Dəyişikliklərinin Ölkərə Təsirləri**

Bir çox ölkədə olduğu kimi, Azərbaycanda da iqlim dəyişiklikləri ən önəmli aktual mövzulardan biridir. Son 100 ildə Azərbaycan Respublikasında orta illik temperatur 0,4-1,3°C-yə qədər artmışdır (Milli Hidrometeorologiya Xidməti, 2018). İqlim dəyişiklikləri təbii-iqlim xüsusiyyətlərinin rəngarəngliyinə görə Azərbaycanın müxtəlif bölgələrində müxtəlif nəticələr ilə özünü göstərir. Temperatur artımı regionlardan asılı olaraq qeyri-bərabər paylanır. Ərazinin xeyli hissəsində yüksək termik rejim, yağıntının az olması, bəzi yerlərdə isə yağıntı qıtlığı müşahidə edilir. İqlim dəyişiklikləri həmçinin Azərbaycanda təhlükəli hidrometeoroloji hadisələrin (kiçik dağ çaylarında sel və daşqınların) təkrarlanma hallarının yüksəlməsi və kəskin hava dəyişikliklərinin artması tendensiyasında özünü xüsusi ilə büruzə verir ki, bu da mənfi sosial-iqtisadi nəticələrə gətirib çıxardır.

İqlimə qarşı həssas olan sahələrin təyin edilməsi iqtisadiyyatın iqlim risklərinə nə dərəcədə məruz qalmasının qiymətləndirilməsində ilk faydalı addım olardı (Alakbarov, 2019). İqlim dəyişiklikləri ölkədən ölkəyə fərqlənir, müxtəlif sahələrdə müxtəlif cür təzahür edir. Belə ki, məsələn, Böyük Britaniya, Hollandiya və Norveçdə iqlimə qarşı daha həssas olan 5 sektor qeyd edilir: fosil yanacaq, kommunal xidmətlər, enerji tutumlu sahələr, nəqliyyat və daşınmaz əmlak. Sektorların seçimi, digərləri ilə yanaşı, istixana qazı tullantılarının həcminə, sektorun enerji təchizatı zəncirində roluna və sektorun əhəmiyyətli dərəcədə karbon sızması riskinə məruz qalmasına əsaslanır.

Today, a powerful transit center has been formed in the Caspian region due to its favorable geographical location at the junction of continents and civilizations and the crossroads of key trans-Asian trade routes. A characteristic feature of this center is the coexistence of a large number of various transport projects in a relatively limited space. These international projects simultaneously compete and complement each other, reflecting the diverse palette of geopolitical and geo-economic interests of internal and external actors competing for regional influence. This article examines the leading international transport initiatives implemented in the Caspian region, as well as the possibilities of their integration and cooperation in the context of the geopolitical interests of the states lobbying for projects and participating in them.

**Keywords:** *geopolitics of the Caspian region, China, Russia, E.U., Azerbaijan, Turkey, "One Belt One Road" (OBOR), Trans-Caspian International Transport Route (TMTM), TRACECA, ITC "North-South"*

UOT 328; 342.5; 351/354

**Qubadov M.N.**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyasının doktorantı*
*e-mail: mirtalib_gubadov@mail.ru*

# AZƏRBAYCAN RESPUBLİKASININ İNKLÜZİV İNKİŞAFI: MÜASİR VƏZİYYƏT VƏ PRİORİTETLƏR

*Məqalə inklüziv inkişafın təmin olunmasının əhəmiyyətindən bəhs edir. Azərbaycan Respublikasının inklüziv inkişafın təmin olunması yolları təhlil olunur. Bu kontekstdə ölkəmizin inklüziv inkişafın sosial indikatorlarına xüsusi yer ayrılmışdır. Bundan başqa məqalədə ölkə prezidentinin müvafiq sərəncamı ilə təsdiq edilmiş Milli Prioritetlərin inklüziv inkişafın təmin olunmasındakı əhəmiyyəti qiymətləndirilir.*

**Açar sözlər:** *inklüziv inkişaf, indikatorlar, yoxsulluq, milli prioritetlər, cini indeksi*

“İnklüziv inkişaf” termini son zamanlarda geniş istifadə olunmaqdadır.

İnklüziv inkişafın təmin edilməsi hazırda bütün dünya ölkələrinin prioritet istiqamətlərindəndir. Beynəlxalq təşkilatlar inklüziv inkişafın təmin edilməsi sahəsində fəaliyyətin genişləndirilməsi ilə bağlı səylərin artırılmasına çalışırlar.

Hazırda dünya dövlətlərinin inkişaf göstəricilərinin müqayisəsi və təhlili zamanı inklüziv inkişafın təmin olunması meyarından geniş istifadə olunur [9, s.49].

İnklüziv inkişaf siyasəti ölkənin və ya bölgənin hərtərəfli inkişafını nəzərdə tutur. İnklüziv inkişafın prinsiplərinə əsasən, bu prosesin müsbət nəticələri hər bir vətəndaşın həyatında öz əksini tapmalıdır. İnklüziv inkişaf ölkələrdə həyata keçirilən bütün milli və beynəlxalq proqramları, iqtisadiyyatın hər sahəsini əhatə etməlidir [5, s.59].

Beynəlxalq standartlara əsasən, inklüziv inkişaf səviyəsinin qiymətləndirilməsi, bu sahədə ölkələrarası müqayisələr 12 müxtəlif göstərici əsasında aparılır. Üç əsas qrupda cəmləşdirilə bilən bu göstəricilərlə (indikatorlarla) ölkələrdə inklüziv inkişafın vəziyyəti müxtəlif iqtisadi, sosial, demoqrafik və ekoloji parametrlər əsasında müəyyən edilir.

İnklüziv inkişafın vacib şərtlərindən biri iqtisadi artım və iqtisadi inkişafdır. İqtisadi əsas olmadan inklüziv inkişaf məqsədlərinə çatmaq mümkün deyil. Lakin iqtisadi artım inklüziv inkişaf üçün yalnız şərait yaratmış olur. Təkcə

iqtisadi inkişafın olması inklüziv cəmiyyətə keçid üçün kifayət deyil. Dünya ölkələrində iqtisadi potensialı yüksək olub, lakin inklüziv inkişafın təmin olunmasında uğursuz olan ölkələrin sayı çoxdur. İqtisadi imkanlardan istifadə etməklə, uğurlu sosial siyasətin həyata keçirilməsi inklüziv inkişafın vacib şərtidir [5, s.60].

Lakin inklüziv inkişaf, inkişaf edən cəmiyyətin qurulması bu iki vacib şərtin – uğurlu iqtisadi və sosial siyasətin mövcudluğu ilə məhdudlaşmır. Bu prosesin davamlı olması, yəni gələcək nəsillər üçün keçərli olması da vacib şərtlərdəndir.

Bu səbəbdən şəkil 1.-də iqtisadi, sosial və davamlılıq sahələrini əhatə edən hər üç qrup təqdim olunmuşdur.




**Şəkil 1.** İnklüziv inkişafın üç əsas indikatoru [5]

İnklüziv inkişaf edən cəmiyyətin qurulması yalnız bu prosesləri idarə edən mexanizmlərin kompleks şəkildə tətbiqi nəticəsində mümkündür. Birincisi, inklüziv inkişafı yalnız maddi və maliyyə resurslarının mövcud olduğu şəraitdə həyata keçirmək olar. İkincisi, cəmiyyətdə elə bir sosial siyasət həyata keçirilməlidir ki, yoxsulluq, aclıq və digər məhrumiyyətlər aradan qaldırılmalı, gəlirlərdə və istehlakda kəskin qeyri-bərabərliyin qarşısı alınsın. İnklüziv inkişafın təminatçısı kimi çıxış edən üçüncü qrup göstəricilər prosesin davamlı olması, gələcək nəsillər üçün də qorunub saxlanılması ilə əlaqədardır [5, s.61].

İnklüziv inkişafın iqtisadi indikatoru özlüyündə 4 sub-indikatoru birləşdirir.

Bunlara Ümumi daxili məhsulun həcmi, əhalinin məşğulluğu, əhalinin ömür müddəti və əməyin səmərəliliyi aiddir.

Dünya və ya ölkənin iqtisadi vəziyyəti, bir qayda olaraq, ümumi daxili məhsulun (ÜDM) həcmi əsasında qiymətləndirilir.

Azərbaycan Respublikası öz müstəqilliyini 1991-ci ildə bərpa etməsinə baxmayaraq, qısa zamanda iqtisadiyyatın bütün sahələri üzrə müsbət nəticələr əldə etmişdir. Qeyd etmək lazımdır ki, Dünya Bankının məlumatlarına əsasən, Azərbaycan Respublikasında adambaşına ÜDM-nin əhəmiyyətli dərəcədə artımı baş vermişdir.

Dünya Bankının 2018-ci ildə dərc etdiyi məlumatlara əsasən, keçmiş Sovetlər Birliyinə daxil olan ölkələr arasında ən sürətli iqtisadi artım Azərbaycan Respublikasında qeydə alınmışdır.

Qeyd edilməlidir ki, Dünya Bankının dərc etdiyi məlumatlara görə son 15 ildə Azərbaycan Respublikasında adambaşına ÜDM həcmi 4.8 dəfə artmışdır. Həmin dövrdə adambaşına orta gəlirlərin 4 dəfədən çox artımı Çin Xalq Respublikasında və Azərbaycanda qeydə alınmışdır.

Nəzərə alınmalıdır ki, Azərbaycan Respublikasında adambaşına orta gəlirin artması ölkədə əhalinin sayının artması fonunda baş vermişdir.

Təqdim olunmuş təhlillərdən aydın olur ki, ölkə iqtisadiyyatı sürətlə artmaqdadır. Azərbaycan Respublikasında davamlı inklüziv inkişaf edən cəmiyyətin formalaşması üçün müvafiq iqtisadi baza yaranmışdır.

Davamlı inklüziv inkişafın təmin edilməsi, regionda təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşdırılması, eləcə də iqtisadi və ticarət əlaqələrinin inkişaf etməsi Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın region iqtisadiyyatının ümumi arxitekturasının müəyyən edilməsində rolunu daha da möhkəmləndirəcəkdir.

Milli sosial rifah səviyyəsinin davamlı artması məqsədilə yüksək, dayanıqlı, inklüziv və başlıca olaraq özəl təşəbbüslərə arxalanan iqtisadi artımın sürətlənməsi, azad edilmiş ərazilərə əhalinin qayıdışının təmini Azərbaycanın yeni inkişaf magistralının əsasını təşkil edir.

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair beş Milli Prioriteti bu sahədə fəaliyyətin genişləndirilməsinə xidmət edir [4].

Azərbaycan-2030: sosial-iqtisadi inkişafa dair aşağıdakı beş Milli Prioritet növbəti onillikdə reallaşdırılmalıdır:

1. Dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat;
2. Dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət;
3. Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı;
4. İşğaldan azad olunmuş ərazilərə böyük qayıdış;
5. Təmiz ətraf mühit və yaşıl artım ölkəsi;

Qeyd edilən Milli Prioritetlər, eyni zamanda, Birləşmiş Millətlər Təşkilatının “Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik”dən irəli gələn öhdəliklərin icrası istiqamətində də xüsusi əhəmiyyət kəsb edir.[4]

Davamlı inklüziv inkişafın təmin olunmasında rəqəmsallaşmanın və müasir texnologiyaların rolunu da qeyd etmək lazımdır. Azərbaycanda rəqəmsal iqtisadiyyat ekosisteminin inkişafı üçün böyük potensial var.

Hazırda biz dördüncü sənaye inqilabına qədəm qoymuşuq. Əgər birinci sənaye inqilabı buxar maşınının kəşfi ilə istehsalın mexanikləşməsi, ikinci

sənaye inqilabı elektrik enerjisinin istehsalı ilə sənayeləşmə, üçüncü sənaye inqilabı istehsalın avtomatlaşdırılması üçün elektronika, kompüterləşmə nəzərdə tuturdusa, dördüncü sənaye inqilabı ("Sənaye 4.0") rəqəmsallaşmanı, texnologiyaların birləşməsi, rəqəmsal və bioloji sferalar arasında sərhədlərin aradan qalxması ilə səciyyələnir.

Dördüncü sənaye inqilabı insanın iştirakı olmadan idarə edilən avtomobillər, üçölçülü (3D) printerlər, qabaqcıl robot texnikaları, əşyaların interneti (İoT- İnternet of Things) və s. kimi yeniliklərlə böyük dəyişikliklər erası kimi xarakterizə olunur.

Dördüncü sənaye inqilabı miqyası, həcmi və mürəkkəbliyi baxımından, bəşəriyyətin bütün əvvəlki təcrübələrinin heç birinə bənzəmir.Qarşıda bizi süni intellekt, robot-avtomobillər,nanotexnologiya,biotexnologiya və s. daxil olmaqla ən geniş sahələrdə heyrətamiz texnoloji sıçrayış gözləyir [15].

Azərbaycanda da Dördüncü Sənaye İnqilabı mövzusu ən yüksək səviyyədə gündəmə gəlir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunmuş konfransdakı çıxışında bildirmişdir: "Dördüncü Sənaye İnqilabında Azərbaycan lider olmalıdır. Necə ki, Davos Forumu bizi lider kimi görür, biz də lider olmalıyıq. Ona görə ki, bu, gələcək inkişafımız deməkdir" [2].

Danılmaz həqiqətdir ki, Azərbaycan Dördüncü Sənaye İnqilabının əsas hədəfləri olan elektronlaşma, rəqəmsallaşma, elmi-texniki tərəqqidə böyük nailiyyətlər əldə etmişdir. Belə ki, dövlət idarəetmə sisteminin, demək olar ki, bütün sahələri elektronlaşdırılıb. Eyni zamanda Azərbaycanın kosmik ölkəyə çevrilməsi də Sənaye İnqilabının hədəflərinə xidmət edir.

Hazırda Azərbaycan Dördüncü Sənaye İnqilabına Əsaslanan İqtisadiyyatın inkişafı sahəsində uğurlu addımlar atır. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 6 yanvar tarixli Fərmanı ilə "Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya" Mərkəzi yaradılmışdır.

Mərkəzin əsas məqsədi qlobal iqtisadiyyatda cərəyan edən trendləri diktə edən, rəqabət qaydalarını dəyişən Dördüncü Sənaye İnqilabında Azərbaycan Respublikasının mövqeyinin gücləndirilməsi və bu sahədə aparıcı ölkələr arasında yer almasının təmin edilməsidir. Bununla yanaşı Mərkəz Azərbaycan Respublikası ilə Dördüncü Sənaye İnqilabı sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlarla əməkdaşlığı və bu sahədə əlaqələndirməni, habelə rəqəmsal iqtisadiyyat üzrə çağırışların, təşəbbüslərin, strategiyaların və layihələrin təhlilini və koordinasiyasını həyata keçirəcəkdir [3].

İnklüziv inkişafın xüsusiyyəti ondadır ki, iqtisadi sahədə əldə edilən nailiyyətlər dərhal əhalinin sosial problemlərinin həllinə yönəldilir. Bu səbəbdən inklüziv inkişaf vəziyyətinin dəyərləndirilməsi zamanı-inklüziv inkişafa dair indeksi hesablayarkən ölkədə yoxsulluğun vəziyyəti, əhali arasında gəlirlərin paylanması və median gəlirləri təhlil edilir.

Azərbaycan iqtisadi sahədə olduğu kimi sosial sahədə də böyük nailiyyətlər əldə etmişdir.

Azərbaycan Respublikasında sosial siyasət ölkənin ümumi inkişaf strategiyasının bir istiqamətidir. Son iyirmi il ərzində həyata keçirilən siyasət nəticəsində Azərbaycanın sosial inkişaf göstəriciləri əhəmiyyətli dərəcədə yüksəlmişdir. Bu həm əhali arasında yoxsulluğun azaldılmasına, həm də gəlirlərin ədalətli bölünməsinə aiddir. Bunun bariz göstəricilərindən biri Dünya Bankının hesabatında işsizliklə bağlı yer almış məlumatlardır. Belə ki, Dünya Bankının məlumatına görə, Azərbaycan Respublikasında işsizlik səviyyəsi 49%-dən 5%-ə enib. Bu isə olduqca yaxşı göstəricidir [9].

| Most inclusive emerging economies | Rank |
|---|---|
| Lithuania | 1 |
| Hungary | 2 |
| Azerbaijan | 3 |
| Latvia | 4 |
| Poland | 5 |
| Panama | 6 |
| Croatia | 7 |
| Uruguay | 8 |
| Chile | 9 |
| Romania | 10 |

**Şəkil 2.** "İnklüziv İnkişaf İndeksi 2018,

Mənbə: Dünya İqtisadi Forumu

Gəlirlərin əhali arasında ədalətli bölünməsini müəyyən edən göstəricilər arasında ən geniş istifadə olunanı Cini indeksidir. Cini indeksi 0 və 100 arasında dəyişir. Tutaq ki, Cini indeksi 31-ə bərabərdirsə, bu o deməkdir ki, gəlirlər normal paylaşmadan 31 faiz kənarlaşır. Cini göstəricisinin az olması ondan xəbər verir ki, ölkədə yalnız vətəndaşların çox az qisminin gəlirləri normal paylaşmadan fərqlənir.

Dünya İqtisadi Forumunun 2018-ci ilin əvvəlində elan etdiyi hesabata əsasən CİNİ əmsalı üzrə Azərbaycanın mövqeyi bir sıra aparıcı inkişaf etməkdə olan ölkələrdən üstündür. Hesabata əsasən Azərbaycan bu göstəriciyə görə 28.6 balla qiymətləndirilib, bununla da ölkəmiz lider Litvanı geridə qoyaraq Macarıstandan sonra ən yaxşı göstəriciyə sahibdir.

İnklüziv İnkişafın üçüncü əsas indikatorunu səciyyələndirən sub-indikatorlara ölkənin xarici borcu, əhalinin demoqrafik asılılığı və atmosfera $CO_2$ -nin atılması aiddir.

Azərbaycanın xarici borcu 2021-ci ilin statistik göstəricilərinə görə 8.1 mlrd ABŞ dolları təşkil edir. Bu isə ÜDM-nin kiçik bir hissəsini, daha dəqiq ifadə etsək 14.9% təşkil edir. Qeyd etmək lazımdır ki, bəzi hallarda ölkənin xarici borcu illik ÜDM həcmində olur. Böyük xarici borc gələcək davamlı inklüziv inkişaf üçün risk amili sayılır. [18]

Qeyd edildiyi kimi, Azərbaycan Respublikasında xarici borcun həcmi yüksək deyil və inklüziv inkişaf üçün risk yaratmır.

Karbon qazının atmosferə atılması, tullanan qazın miqdarı davamlı inklüziv inkişafın təmin edilməsinin vacib şərtlərindəndir.




**Şəkil 3.** Atmosferə $CO_2$-nin atılmasının azalması dinamikası, 2000-2014-cü illər*, dəfə.

Məlumat mənbəyi: Dünya Bankı,2018
*2018-ci ildə dərc edilmiş son məlumatlar

Qeyd etmək lazımdır ki, qlobal iqlim dəyişmələri atmosferə atılan istixana qazları ilə əlaqədardır. Bu təsirin qiymətləndirilməsi iki üsula əsaslanır. Bu üsulların biri il ərzində ölkədə adambaşına atmosferə atılan karbon qazının

($CO_2$) miqdarıdır və tonla göstərilir. İkinci üsulun tətbiqi zamanı 1 ABŞ dolları dəyərində ÜDM-nin istehsalı zamanı atmosferə atılan $CO_2$ miqdarı götürülür.

Şəkil 3.-də keçmiş SSRİ ölkələrində istixana qazlarının atmosferə atılmasının azaldılması barədə məlumatlar təqdim edilmişdir. Şəkil 3.-də aydın görsənir ki, keçmiş SSRİ ölkələri on dörd il ərzində atmosferə atılan istixana qazlarının miqdarını azaltmışlar. Bu sahədə ən yüksək səmərəlilik Azərbaycan Respublikası tərəfindən nümayiş etdirilmişdir [5, s.162-165].

**Nəticə**

Hazırda Azərbaycanda inklüziv inkişafla bağlı əldə olunmuş uğurlar həyata keçirilmiş məqsədyönlü dövlət siyasətinin bəhrəsidir.

Təqdim olunmuş məlumatlar göstərir ki, iqtisadi və sosial inkişafın idarə edilməsində istifadə olunan innovativ texnologiyalar sahəsində bilik və bacarıqlar inklüziv inkişaf edən cəmiyyətin formalaşmasını və bu prosesin davamlılığını təmin edən əsas amildir. Beynəlxalq təşkilatların hesabatlarına əsasən, Azərbaycan Respublikası bu istiqamətdə çox yüksək nəticələr əldə etmişdir. Bunu Azərbaycan Respublikasının nailiyyətlərinin digər ölkələrlə müqayisəsi göstərir.

**Ədəbiyyat:**


1. “Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 29 yanvar 2019-cu il.
2. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin “Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının birinci ilinin yekunlarına həsr olunmuş konfransdakı çıxışı. Bakı şəhəri, 3 fevral 2020-ci il.
3. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində “Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi” publik hüquqi şəxsin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı ş., 6 yanvar 2021-ci il
4. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı ş., 2 fevral 2021-ci il
5. Ələkbərov U.K. “İnklüziv İnkişafın İdarə Edilməsinin Əsasları”. Bakı ş., 2018-ci il.
6. Ələkbərov U.K. “Davamlı inkişaf və ekoloji sivilizasiyanın idarə edilməsinin əsasları”. Bakı şəhəri, 2017-ci il.

7. Ələkbərov U.K. “Davamlı insan inkişafı və ekoloji sivilizasiyanın əsasları”. Bakı şəhəri, 2013-cü il.
8. Ələkbərov U.K. “Azərbaycan Respublikasının davamlı inkişafı rəqəmlərdə:beynəlxalq statistika”
9. “Elm və İnnovativ Texnologiyalar Beynəlxalq elmi-araşdırmalar jurnalı” Nömrə 9, 2019-cu il, s 41-69.
10. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində “Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi” publik hüquqi şəxsin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 06 yanvar 2021 / https://president.az/az/articles/view/49932
11. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. 02 fevral 2021/ https://president.az/az/articles/view/50474
12. Azərbaycanın “İnklüziv İnkişaf İndeksi 2018” hesabatında irəliləməsi uğurlu islahatların nəticəsidir [24.01.2018] / https://azertag.az/xeber/Azerbaycanin_Inkluziv_Inkisaf_Indeksi_2018_hesabatinda_irelilemesi_ugurlu_islahatlarin_neticesidir-1130930
13. Sənaye inqilablarında tarixi yol / https://www.digital.gov.az/digitalazerbaijan/az/blog/44/dorduncu-senaye-inqilabi-suretli-inkisaf-insanlari-gozleyen-tehluke [6 iyul 2020]
14. https://economy.gov.az/article/dorduncu-senaye-i-nqilabi-shebekesinin-azerbaycan-merkezinin-achilishi-olub/32339
15. 4-cü sənaye inqilabı: Azərbaycan üçün perspektivlər /https://az.trend.az/business/ it/2985579.html [27 Noyabr 2018]
16. IV Sənaye İnqilabı Şəbəkəsinin afilə edilmiş Azərbaycan Mərkəzi rəsmən açılıb /https://report.az/biznes-xeberleri/iv-senaye-inqilabi-sebekesinin-afile-edilmis-azerbaycan-merkezi-acilib/[23.02.2022]
17. https://www.economy.gov.az/article/ dorduncu-senaye-i-nqilabi-merkezleri-shebekesinin-afileedilmish-azerbaycan-merkezi-tesis-edilib/31584
18. Azərbaycanın dövlət borcu açıqlandı /https://marja.az/83907/azerbaycanin-dovlet-borcu-aciqlandi [23.02.2022]

## ABSTRACT

## INCLUSIVE DEVELOPMENT OF THE REPUBLIC OF AZERBAIJAN: CURRENT SITUATION AND PRIORITIES

**Qubadov M.A.**
*The Academy of Public Administration*
*under the President of the Republic of Azerbaijan*
*Ph.D. student*

The article discusses the importance of inclusive development. Ways to ensure inclusive development of the Republic of Azerbaijan are analyzed. In this context, a special place is given to our country's social indicators of inclusive development. In addition, the article assesses the importance of the National Priorities approved by the relevant decree of the President of the country in ensuring inclusive development.

**Keywords:** *inclusive development, indicators, poverty, national priorities, gender index*

# РЕЗЮМЕ

## ИНКЛЮЗИВНОЕ РАЗВИТИЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ: СОВРЕМЕННОЕ ПОЛОЖЕНИЕ И ПРИОРИТЕТЫ

**Губадов М.Н.**

*Докторант Академии Государственного Управления при Президенте Азербайджанской Республики*

В статье рассматривается важность инклюзивного развития. Анализируются пути обеспечения инклюзивного развития Азербайджанской Республики. В этом контексте особое место отводится социальным показателям инклюзивного развития нашей страны. Кроме того, в статье оценивается значение утвержденных соответствующим указом Президента страны национальных приоритетов в обеспечении инклюзивного развития.

**Ключевые слова:** *инклюзивное развитие, индикаторы, бедность, национальные приоритеты, гендерный индекс*

UOT 327.930.22

# DAVAMLI İNKİŞAF MƏQSƏDLƏRİ NAMİNƏ ƏMƏKDAŞLIQ: AZƏRBAYCAN RESPUBLİKASININ BEYNƏLXALQ ANTİTERROR KOALİSİYASINDA İŞTİRAKI VƏ ONUN GEOSİYASİ NƏTİCƏLƏRİ

**Rzayeva S.İ.**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyasının sabiq dissertantı*
*e-mail: sema_rzayeva@hotmail.com*

*Müasir terrorçuluq bir sıra ölkələrdə və regionlarda siyasi sabitliyin pozulmasında əsas amil kimi çıxış edir. Daha çox siyasi xarakter kəsb edən terrorizm qlobal maraqlar uğrunda geosiyasi aktorların istifadə etdiyi bir vasitəyə çevrilmişdir. 1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan dövləti transmilli erməni terrorçu təşkilatlarının ardıcıl hücumlarına məruz qaldığından 2001-ci ildə baş vermiş 11 sentyabr hadisələrindən transmilli terrorçuluğa qarşı mübarizəyə ilk və ən fəal şəkildə qoşulmuş dövlətlərdən biri olmuşdur. Azərbaycan Respublikası bir sıra qabaqcıl dövlətlər kimi qanunvericiliklə transmilli terrorçuluğa qarşı mübarizənin hüquqi və təşkilati çərçivəsini dəqiqləşdirmiş, terror fəaliyyətlərinin qarşısını effektiv şəkildə almaq və bununla mübarizə prosesində qanunun aliliyinə ciddi riayət olunmasını təmin etmək üçün çalışır. Həyata keçirilən siyasət nəticəsində terror aktlarının öncədən qarşısının alınması üçün qabaqlayıcı tədbirlər sisteminin yaradılması məqsədi ilə kompleks işlər aparılmış, inzibati və hüquq-mühafizə orqanlarının sıx əməkdaşlığının təmin edilməsi sahəsində addımlar atılır.*

**Açar sözlər:** *terrorçuluq, mübarizə, Azərbaycan Respublikası, antiterror koalisiyası, qanunvericilik*

XX yüzilliyin sonlarından başlayaraq transmilli terrorçuluq dünyanın siyasi mənzərəsinə ciddi təsir göstərən qlobal problem kimi daha qabarıq şəkildə təzahür etməyə başlamışdır. Getdikcə daha təhlükəli xarakter alan transmilli terrorçuluq təhlükəsizliyə öz sələfi olan terrorçuluqdan kütləvi insan itkisi və cəmiyyətə dağıdıcı təsir göstərməsi baxımından seçilir. Texnoloji sivilizasiyanın nailliyyətlərindən və kütləvi qırğın silahlarından istifadəyə cəhd isə terrorçuluğun daha təhlükəli tendensiya kimi artıq reallığa çevrildiyini göstərir (10).

Müasir terrorçuluq bir sıra ölkələrdə və regionlarda siyasi sabitliyin pozulmasında əsas amil kimi çıxış edir. Daha çox siyasi xarakter kəsb edən yeni təzahürləri ilə terrorizm qlobal maraqlar uğrunda geosiyasi aktorların istifadə

etdiyi bir vasitəyə çevrilmişdir. Beynəlxalq sabitliyin pozulmasında və rəqiblərin mövqelərinin zəifədilməsində maraqlı olan geosiyasi aktorların eksponsionist ambissiyaları transmilli terrorçuluğun güclənməsinə birbaşa təsir göstərmişdir. Bunun nəticəsidir ki, hazırda beynəlxalq münasibətlər sistemi siyasi aktorların güc və imperialist siyasətlərini yeritmək üçün istifadə etdikləri terrorizmin geniş vüsət alması ilə siyasi inkişafın ən mürəkkəb, mübahisəli və ağrılı mərhələlərindən birini yaşayır. Belə olan halda aydındır ki, dünyada heç bir ölkə və heç kəs terrordan sığortalanmayıb. Türkdilli dövlətlər də tarix boyunca olduğu kimi, müasir mərhələdə də transmilli terrorçuluğun hədəfində olan ölkələr sırasındadırlar. Bu məsələyə diqqət yetirən azərbaycanlı tədqiqatçı Aytən Hacıyeva yazır ki, Azərbaycan erməni terrorizmindən və separatizmindən, Türkiyə PKK terrorizmindən, Mərkəzi Asiyanın türk dövlətləri isə dini ekstremizmdən əziyyət çəkməkdədir (15, s.10).

1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan dövləti transmilli erməni terrorçu təşkilatlarının ardıcıl hücumlarına məruz qalmışdır. Azərbaycanla bərabər müstəqilliyini bərpa etdiyini elan etmiş Ermənistan müasir dünyanın siyasi xəritəsində terrora dəstək verən ölkələrdən biridir. ABŞ-lı tədqiqatçı Samuel Uims erməni xalqının və dövlətinin tarixini araşdıraraq belə bir qənaətə gəlmişdi ki, bu Ermənistanı yalnız bir cür xarakterizə etmək olar – “xristian terror dövləti” (24, s.72).

2001-ci ildə baş vermiş 11 sentyabr hadisələrindən transmilli terrorçuluğa qarşı mübarizəyə ilk və ən fəal şəkildə qoşulmuş dövlətlərdən biri Azərbaycan Respublikası olmuşdur. Azərbaycan da bu mərhələdə bir sıra qabaqcıl dövlətlər kimi qanunvericiliklə transmilli terrorçuluğa qarşı mübarizənin hüquqi və təşkilati çərçivəsini dəqiqləşdirmiş, terror fəaliyyətlərinin qarşısını effektiv şəkildə almaq və bununla mübarizə prosesində qanunun aliliyinə ciddi riayət olunmasını təmin etmək üçün çalışmışdır. Həyata keçirilən siyasət nəticəsində terror aktlarının öncədən qarşısının alınması üçün qabaqlayıcı tədbirlər sisteminin yaradılması məqsədi ilə kompleks işlər aparılmış, inzibati və hüquq-mühafizə orqanlarının sıx əməkdaşlığının təmin edilməsi sahəsində addımlar atılmışdır.

Məlum olduğu kimi, müasir mərhələdə terror fəaliyyətləri əsasən 4 səviyyədə təşkilatlanmışdır ki, bunlar ideoloji cərəyan ətrafında cəmləşən, təşkilati cəhətdən daha yaxşı təşkilatlanmış terror qruplaşmaları, bu qruplaşmalara rəğbət bəsləyən, hüquq çərçivəsində onlara yardım göstərən bir qrup vətəndaş, terrorun ilkin forması olan etnik separatçı və kütləvi etiraz hərəkatları və dünya elitalarına əsaslanan, ideoloji və maddi dəstək verən dövlət terrorizmi. 2001-ci ildən sonra formalaşmış anti-terror koalisiyasının beynəlxalq terrorçuluğa qarşı mübarizəsi əsasən birinci qrupa qarşı mübarizə və ikinci qrupun iştirakçılarının müəyyənləşdirilməsinə yönəlsə də, Azərbaycan 4 səviyyədə də transmilli terrorçuluğun təhdidləri ilə müxtəlif dövrlərdə üzləşdiyi üçün bütün

istiqamətlərdə qətiyyətli addılmlar atmışdır. Terrorun siyasi müstəvidə istifadə edilməsinin qarşısını almaq üçün dövlətlərarası koalisiyaların qarşılıqlı fəaliyyətini zəruri hesab etmiş, müxtəlif ölkələrin kəşfiyyat və əks-kəşfiyyat xidmətlərinin sistemli birgə fəaliyyətini dəstəkləmişdir. Məlum olduğu kimi istənilən dövlətlərin terrorla, o cümlədən transmilli terrorçuluqla mübarizə siyasəti beynəlxalq hüquqa və yerli qanunvericiliyə əsaslanmalıdır. Birinci qrupa ölkənin ratifikasiya etdiyi beynəlxalq konvensiyalar, ikinci qrupa isə, dövlət səviyyəsində qəbul olunmuş qanunlar, nazirliklər və idarələr tərəfindən açıq və qapalı tənzimləmə aktları olan daxili tənzimləmə aktlarının məcmusu daxildir. Azərbaycan da 2001-ci ildən sonrakı mərhələdə transmilli terrorçuluqla mübarizə istiqamətində qəbul edilmiş beynəlxalq konvensiyaları ratifikiasiya etmiş, terrorçuluğa və onun müxtəlif təzahürlərinə qarşı mübarizə üçün zəruri olan milli qanunvericilik bazasını beynəlxalq təcrübəni də nəzərə almaqla təkmilləşdirmişdir.

Yuxarı da vurğulandığı kimi, Azərbaycan Respublikası 11 sentyabr hadisələrindən əvvəl də transmilli erməni terrorçuluğunun hədəfi olmuşdu. Bu baxımdan Azərbaycanın ABŞ-a ilk dəstək verən ölkələrdən biri olması heç də təsadüfi hesab edilə bilməzdi. Artıq 2001-ci il sentyabrın 13-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev məsələ ilə bağlı bəyanat vermiş, transmilli terrorçuluqla mübarizədə Azərbaycanın qətiyyətli mövqeyini vurğulamışdı. Bəyanatda yazılırdı: "Bu gün hədəfdə ABŞ olsa da, bu dəhşətli bəla potensial olaraq bütün dövlətlərə və xalqlara qarşı çevrilə bilər. Terrorçuluğun qorxunc və acı nəticələrini öz üzərində dəfələrlə hiss edən Azərbaycan xalqı bu gün dost Amerika xalqının iztirab və sarsıntılarını hamıdan yaxşı anlayır və onun sonsuz kədərinə şərik çıxır. Terrorçuluğun bütün təzahür formalarını qətiyyətlə pisləyən Azərbaycan həmişə terrorçuluğa qarşı mübarizə aparmış, bu istiqamətdə dünyanın bütün dövlətləri və qurumları ilə əməkdaşlığa hazır olduğunu nümayiş etdirmişdir. Biz bu gün daha artıq əzmkarlıq və qətiyyətlə belə əməkdaşlığa hazır olduğumuzu bildiririk" (11, s.35).

Təsadüfi deyildir ki, transmilli terrorizmə qarşı mübarizədə dönüş ili sayıla biləcək 2001-ci ilə qədər Azərbaycan Respublikası bu sahədə bir sıra addımlar atmışdı. Hələ 18 iyun 1999-cu il tarixində Azərbaycan Respublikasında “Terrorçuluğa qarşı mübarizə haqqında qanun” çərçivəsində terrorla mübarizənin ilkin çərçivəsi müəyyən edilmiş, terrorçuluq, terrorçu, terror qrupu, terror fəaliyyəti, terror təşkilatı, terrorizmə qarşı mübarizə anlayışlarının hüquqi baxımdan tərifləri təsbit olunmuşdu (21). Sənəddə transmilli və ya beynəlxalq terror fəaliyyəti anlayışına da aydınlıq gətirilmişdi. Qanuna əsasən terrorçular və ya terror təşkilatları tərəfindən bir neçə dövlətin ərazisində həyata keçirilən və ya bir neçə dövlətin maraqlarına zərər vura bilən hücumlar transmilli terrorçuluq hərəkətləri hesab edilirdi. Bundan başqa şəxs tərəfindən mənsub olduğu dövlətin və ya başqa bir dövlətin ərazisində hər hansı bir dövlətin

vətəndaşına qarşı edilən terror hücumları da beynəlxalq terror fəaliyyəti kateqoriyasına aid edilirdi (21).

Həmin ilin noyabr ayının 9-da Azərbaycan Respublikası "Mülki aviasiyanın təhlükəsizliyinə qarşı yönəldilmiş qeyri-qanuni aktlara qarşı mübarizə haqqında Konvensiya"ya qoşulmuşdu (19). İki il sonra məhz hava gəmilərindən istifadə edilməklə törədilən 11 sentyabr hadisələri Azərbaycan dövlətinin bu konvensiyaya qoşulmasının nə qədər uzaqgörən addım olduğunu təsdiqləmişdi.

Bundan əlavə həmin ildə Azərbaycan Respublikası "Adamların girov götürülməsinə qarşı mübarizə haqqında" (1), "Plastik partlayıcı maddələri aşkar etmək məqsədi ilə onlara nişan vurulması haqqında" (20) beynəlxalq konvensiyalara qoşulmuşdu.

Azərbaycan Respublikasının beynəlxalq terrorizmlə mübarizə aparmaq üçün qoşulduğu mühüm sənədlərdən biri də "Beynəlxalq müdafiədən istifadə edən şəxslərə, o cümlədən diplomatik agentlərə yönəlmiş cinayətlərin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya" olmuşdur (8). Qeyd edək ki, bu sənəd 1973-cü ilin dekabrında bir çox dövlətlərin iştirakı ilə imzalanan, 1977-ci ilin fevralında qüvvəyə minən bu Konvensiyaya da Azərbaycan Respublikası hələ 2001-ci ilin fevralında qoşulmuşdu. Sənədin Birləşmiş Millətlər Təşkilatı tərəfindən hazırlanmasının əsas səbəblərindən biri XX əsrin 60-cı illərində müxtəlif ölkələrdə dövlət başçılarına, diplomatlara və səlahiyyətli şəxslərə qarşı törədilən terror aktları olmuşdur (9, səh 104). Azərbaycan Respublikasının 2001-ci ilin fevralında qoşulduğu, transmilli terrorçuluqla mübarizədə xüsusi əhəmiyyət daşıyan digər bir beynəlxalq sənəd isə "Bomba terrorizmi ilə mübarizə haqqında Beynəlxalq Konvensiya" olmuşdu.

2001-ci ilin oktyabr ayında Azərbaycan Respublikası Terrorizmin Maliyyələşdirilməsinin qarşısının alınmasına dair 1999-cu ildə qəbul olunmuş Beynəlxalq Konvensiyaya qoşulmuşdur (22). Bununla əlaqədar 2002-ci ilin əvvəllərində müəyyən qanunlarına düzəliş və əlavələr daxil edilmişdir. Cinayət Məcəlləsinin bir neçə müddəalarında aparılmış dəyişikliklərin nəticəsində terrorçuluğa görə kriminal məsuliyyət artmışdır. Terrorçuluğun maliyyələşməsinə görə məsuliyyət nəzərdə tutan xüsusi maddə Cinayət Məcəlləsinə əlavə edilmişdir. Müvafiq təşkilatı və praktiki tədbirlərin vaxtında qəbul olunması və həyata keçirilməsinə də lazımi diqqət yetirilmişdir (5, s.52).

Azərbaycan həmçinin transmilli terrorçuluğa mübarizə çərçivəsində müxtəlif dövrlərdə qəbul edilmiş Avropa Şurası konvensiyalarına da qoşulmuş. Protokol sənədlərinə tərəfdar çıxmışdır. Belə sənədlər içərisində ən mühümlərindən biri 2005-ci ildə qəbul edilmiş Avropa Şurasının "Terrorçuluğun qarşısının alınması haqqında" Konvensiyası olmuşdur. Azərbaycan bu konvensiyaya 2014-cü ilin fevralında qoşulmuşdur (2).

Beləliklə, aparılan təhlillər göstərir ki, Azərbaycan beynəlxalq terrorçuluğa qarşı aparılan kompaniyanın uzaq perspektivli məqsədləri sırasına terror

şəbəkəsinin dağıdılması ilə yanaşı, ümumilikdə terrorçuluğun kökləri, eləcə də onun mənbələrinin müəyyən edilməsinin daxil edilməsinin tərəfdarı kimi çıxış edir. Azərbaycan dövlət səviyyəsində terrorçuluqla effektiv mübarizənin aparılması üçün qanunverici bazanın yaradılmasını prioritet məsələlər sırasında ön plana çəkmiş, BMT-nin müvafiq 13 konvensiyasına qoşulmuş, terrorçuluqla mübarizəyə dair 9 Avropa Konvensiya və protokolunu imzalamışdır. Qeyd olunmalıdır ki, ölkə Konstitusiyasına əsasən Azərbaycan Respublikası tərəfindən imzalanmış beynəlxalq müqavilələr milli qanunvericilik sistemin bölünməz hissəsidir ki, bu müqavilələr və milli qanunlar, eləcə də digər normativ aktlar arasında ziddiyyətlərin yarandığı təqdirdə üstünlük beynəlxalq müqavilələrə verilir.

Transmilli terrorçuluğa və hər cür qanunsuz fəaliyyətə qarşı mübarizə aparan Azərbaycan Respublikasının bu mövqeyi ölkəmizin dünyada sülhün bərqərar edilməsinə, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsipinə tərəfdar olduğunu, beynəlxalq hüququn prinsiplərini rəhbər tutduğunu göstərirdi. ABŞ-a qarşı terror hücumlardan sonra Azərbaycan antiterror koalisiyasının fəal üzvünə çevrilmiş, Əfqanıstanda və İraqda həyata keçirilən hərbi əməliyyatlara hərbi-siyasi dəstək vermişdir. Əfqanıstanda "Taliban" və "Əl-Qaidə" ilə mübarizədə Azərbaycan Respublikasının hava məkanını antiterror koalisiyasının istifadəsinə açıq elan etməsi (5, s.51) bu dəstəyin ən böyük təzahürlərindən biri olmuşdur.

ABŞ Dövlət Departamentinin müxtəlif illərdə yaydığı dünyada terrorizmin vəziyyətini əks etdirən hesabatlarında bildirilirdi ki, transmilli terrorizmə qarşı mübarizədə Azərbaycan əməliyyatlara daim öz dəstəyini vermişdir (23). Bu hesabatlarda Azərbaycanın hava uçuşları üçün lazımi şərait yaratmasını, hüquq-mühafizə orqanlarının birgə fəaliyyəti, məlumat mübadiləsi sahəsində əməkdaşlıq məsələlərinə xüsusi diqqət çəkirdilər (6). Məhz bütün bunlar uzun illər ərzində erməni terrorundan əziyyət çəkmiş Azərbaycanın yeni transformasiya olunmuş terrorla mübarizədə beynəlxalq antiterror koalisiyasının ən vacib üzvlərindən birinə çevrilməsinə gətirib çıxarmışdı.

Vurğulanması vacib digər məsələlərdən biri də Azərbaycanın beynəlxalq antiterror koalisiyası çərçivəsində təşkil olunmuş əməliyyatlarda iştirakı olmuşdur. Azərbaycanın bu cür əməliyyatlarda iştirakını Ermənistan terror-siyasi dövləti ilə müqayisə edən Prezident İlham Əliyev bu barədə demişdi: "İlk günlərdən etibarən Azərbaycan antiterror koalisiyasına qoşularaq öz hava məkanını açdı. Həmin vaxtdan etibarən biz regionda təhlükəsizlik və antiterror əməliyyatları sahəsində Birləşmiş Ştatlarla fəal şəkildə əməkdaşlıq edirik. Biz lap əvvəldən qoşunlarımızı Kosovo və Əfqanıstana göndərdik və Ermənistandan fərqli olaraq, bizim orada sürücülərimiz yox, əsgərlərimiz var. Biz onları digər tərəf kimi yalnız orada olmağı nümayiş etdirmək xatirinə sonradan yox, lap ilk günlərdən göndərdik. ...Əgər Əfqanıstanda sülhə nail

olmaq, yaxud İraqda sülhü möhkəmləndirmək üçün əlavə addımların atılması zəruri hesab edilərsə, əlbəttə, Azərbaycan lap əvvəldə olduğu kimi, ABŞ-la çiyin-çiyinə durmaq üçün əlindən gələni edəcəkdir" (12, s.238).

Proseslərə tarixi-xronoloji çərçivədə diqqət yetirsək görərik ki, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin sülhməramlı kontingenti hələ 1999-cu ildən etibarən sülhməramlı əməliyyatlarda iştirak etmişdir (7).

Əfqanıstanda anti-terror əməliyyatlarına töhfə vermək üçün də Azərbaycan Respublikası əməli addımlar atmışdır. Azərbaycan Respublikası Milli Məclisi 2002-ci il noyabrın 15-də Azərbaycan ordusunun dörd tağımının Türkiyə Cümhuriyyəti Silahı Qüvvələri taburunun tərkibində və NATO strukturlarının ümumi komandanlığı altında Əfqanıstanda yerləşdirilməsi ilə bağlı qərar qəbul etmişdir (17, səh 238). Böyük əhəmiyyət daşıyan bu qərar həm də Azərbaycan Respublikasının terrorizmə qarşı birgə əməkdaşlıqda vacib tərəfdaş olduğunu, həm də dünya siyasətində Azərbaycanın rolunun artdığını sübut edirdi (18, səh 384). Beləliklə, 2002-ci ilin noyabrın 20-də Azərbaycan Ordusunun 22 nəfərlik sülhməramlı tağımı Əfqanıstanda Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələri (İSAF) tərkibində fəaliyyətə başlamış, 2008-ci ilin yanvarından etibarən Əfqanıstandakı Azərbaycan sülhməramlı kontingentinin sayı artırılmış, bölük səviyyəsinə çatdırılmışdı (7).

2009-cu ilin oktyabr ayının 2-də Azərbaycan Respublikasının Milli Məclisi Əfqanıstandakı sülhməramlı kontingentin sayının 2 dəfə artırılması barədə qərar qəbul etmişdir (7). 2009-cu ilin fevralın 19-dan etibarən Azərbaycan Ordusunun 90 nəfərlik sülhməramlı kontingenti Əfqanıstanda Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələri əməliyyatlarında Türkiyə Silahlı Qüvvələrinin taborunun tərkibində fəaliyyət göstərməyə başlamışdır. Bölüyün şəxsi heyəti Kabil şəhərində yerləşən televiziya qülləsini, İSAF-ın mərkəzi silah-sursat anbarının təhlükəsizliyini təmin edib.

2010-cu ilin oktyabrında Azərbaycan NATO-nun Əfqanıstanda keçirdiyi İSAF əməliyyatlarında Azərbaycan Respublikası Sülhməramlı qüvvələrinin tərkibində fəaliyyət göstərmək üçün 2 hərbi həkim və 2 mühəndis-istehkam ixtisası üzrə zabit göndərmiş, 2015-ci ilin yanvar ayından NATO-nun Əfqanıstanda keçirdiyi "Qətiyyətli Dəstək" qeyri-döyüş missiyasında Silahlı Qüvvələrin 94 nəfərlik kontingenti 6 aylıq rotasiya planına uyğun olaraq xidmətə başlamışdı (7). 2018-ci ilin yanvar ayından NATO-nun Əfqanıstanda keçirdiyi "Qətiyyətli Dəstək" missiyası üzrə Azərbaycan Ordusunun sülhməramlı kontingentinin şəxsi heyətinin sayı 120 nəfərə çatdırılmışdı. Bu dövrdə Azərbaycan Ordusunun sülhməramlı kontingenti Kabil Beynəlxalq Hava Limanının mühafizəsi tapşırığını icra edir və müvafiq qərargahlarda təmsil olunurdu (7).

Hazırda praktiki səviyyədə transmilli terrorçuluqla mübarizə fəaliyyəti Azərbaycan Respublikasının Dövlət Təhlükəsizlik Xidməti, Daxili İşlər

Nazirliyi və Dövlət Sərhəd Xidməti kimi hüquq-mühafizə və kəşfiyyat orqanlarının qurumlararası əməkdaşlığı ilə həyata keçirilir. Terrorçuluqla mübarizədə əsas rol oynayan bu dövlət qurumları ilə yanaşı, Mərkəzi Bank da terrorçuluğun maliyyələşdirilməsi fəaliyyətinə qarşı mübarizə aparır. Xarici İşlər Nazirliyi öz növbəsində anti-terrorçuluq sahəsində beynəlxalq konvensiya və müqavilələrdən irəli gələn öhdəlik və qarantiyaların yerinə yetirilməsi üçün bu fəaliyyəti əlaqələndirir.

Dövlət Təhlükəsizlik Xidməti və Xarici Kəşfiyyat Xidməti transmilli terrorçuluq və onun maliyyələşdirilməsi problemləri ilə məşğul olan əsas mərkəzi orqan sayılır. Məhz Azərbaycan xüsusi xidmət orqanlarının transmilli terror təşkilatlarına qarşı qətiyyətli mübarizə sayəsində müxtəlif dövrlərdə Azər-baycan Respublikasında "Ceyşullah", "Hizbu-t-Təhrir əl İslami", Əl-Qaidə terror təşkilatının Qafqaz qanadı, "Munir", "Camaat Əl-Muvahiddin", "İmam Mehdinin Şimal Ordusu", "Meşə qardaşları", Əbu Cəfərin "Əl-Bədr" qrupu üzvləri saxlanılmış, onların terror fəaliyyətlərinin qarşısı qətiyyətlə alınmışdır (3).

Azərbaycan Respublikası terrorçuluqla mübarizə sahəsində birmənalı şəkildə BMT-nin müxtəlif orqanları, Avropa Şurası, ATƏT, GUAM, MDB, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Cənub-Şərq Avropa Əməkdaşlıq Təşəbbüsü və digər beynəlxalq təşkilatlarla fəal əməkdaşlığını davam etməkdədir.

Hələ 2001-ci ilin dekabr ayının 15-də Avropa Şurası Parlament Assambleyasının iclasında Azərbaycan nümayəndə heyətinin başçısı İlham Əliyev Azərbaycanın transmilli terrorçuluq fəaliyyətinə qarşı sərt mövqeyini bəyan etmiş, beynəlxalq terrorizmə son son qoymaq naminə təmsil etdiyi dövlətin hər şeyi etməyə hazır olduğunu vurğulamışdı. O, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin başlandığı andan etibarən transmilli erməni terror təşkilatları və Ermənistan terror dövləti tərəfindən Azərbaycana qarşı törədilən 30-dan artıq aktlar barədə məlumatı Avropa ölkələri təmsilçilərinin diqqətinə çatdırmışdı (25, s.376-377).

Yuxarıda qeyd olunanlardan da aydın olduğu kimi Azərbaycan transmilli terrorçuluqla mübarizə müstəvisində NATO ilə əməkdaşlığa xüsusi önəm vermişdir. Öz təhlükəsizlik və müdafiə siyasətinin spesifik xarakteri və NATO-nun Sülh Naminə Tərəfdaşlıq prinsiplərinə uyğun olaraq Azərbaycan Respublikası-NATO formatında əməkdaşlıq həyata keçirilmiş, NATO üzvü olan bir sıra dövlətlərlə qarşılıqlı fəaliyyət aparılmışdır. Ölkə 1994-cü ildə NATO-nun Sülh Naminə Tərəfdaşlıq Proqramına qoşulmuşdur (16, s.120). Bu sahələrə terrorçuluğa hərbi cavab, əks-terrorçuluq üzrə milli təlim imkanlarının təkmilləşdirilməsi, kəşfiyyat məlumatların mübadiləsi, sərhəd təhlükəsizliyi və mülki müdafiə məsələləri daxildir. Təhlükəsizlik məsələlərinin müzakirəsi və risklərin qiymətləndirilməsi üzrə geniş imkanlar yaradan NATO və Sülh Naminə Tərəfdaşlıq formatları eyni zamanda terrorçuluqla mübarizənin daxili və xarici

aspektləri üzrə hərbi və mülki qurumlar arasında qarşılıqlı fəaliyyətin qurulması üçün ümumi mexanizmlərin yaradılmasına yardım etmişdir (5, s.52).

Azərbaycan NATO-nun 2002-ci ildəki Praqa sammiti zamanı qəbul olunmuş Terrorçuluğa qarşı Tərəfdaşlıq Fəaliyyət Planının da (PAP-T) fəal iştirakçılarından olmuşdur (5, səh 53). PAPT-nin əsas məqsədi müttəfiqlər və tərəfdaşlar tərəfindən terrorçuluqla aparılan mübarizədə koordinasiyanın təmin olunması kimi göstərilmişdir. PAP-T-nin əsas çərçivə sənədi qəbul olunduqdan sonra Azərbaycan transmilli terrorçuluqla mübarizə müstəvisində bir sıra vacib addımlar atmışdır.

2006-cı ilin iyul ayında Azərbaycanda PAP-T üzrə keçirilmiş seminar nəticəsində PAP-T-nin sonrakı əməliyyatlaşdırılması, tərəfdaş dövlətlərin əməliyyat və hərbi imkanların inkişafı və onların NATO tərəfindən aparılan əks-terrorçuluq əməliyyatlarına töhfələrin artırılması üzrə tövsiyələr hazırlanmışdır.

2008-ci ilin mart ayında PAP-T-nin həyata keçirilməsinə öz töhfəsini vermək məqsədilə Azərbaycan Respublikası öz vacib təcrübəsinə əsaslanaraq enerji infrastrukturun mühafizəsi üzrə NATO-nun qeyri-formal İşçi Qrupuna sədrliyi üzərinə götürmüşdür (5, s.53).

İqtisadiyyat və Sülh İnstitutunun hazırladığı (The Institute for Economics and Peace) "Qlobal terrorizm indeksi" adlı illik məruzələr də Azərbaycanın reytinq cədvəlində yerini hər il yaxşılaşdırdığı görünməkdədir. Məruzədə ilk yerləri terror təhlükəsi ən yüksək olan, son pillələri isə ən təhlükəsiz ölkələr tutur. 2020-ci il hesabatında 135 ölkə arasında 112-ci yerdə qərarlaşan Azərbaycan 2019-ci illə müqayisədə nəticəsini 10 pillə daha da yaxşılaşdırmışdı (14, s.8-9). Bu göstərici ilə Azərbaycan regionda lider mövqeyini qoruyur. Reytinq cədvəlində Rusiya 39-cu, Ermənistan 104-cü, Gürcüstan 100-cü yerdə qərarlaşıb. 2019-ci ildə isə Azərbaycan bu reytinqə görə 103-cü yerdə qərarlaşmışdı. Analoji dövrdə Rusiya 37-ci, Ermənistan 94-cü, Gürcüstan isə 90-cı yerdə idi (13, s.8-9).

Azərbaycan Respublikası transmilli terrorçuluğun maliyyələşməsinin qarşısının alınması istiqamətində də qətiyyətli addımlar atmış və beynəlxalq təşkilatlarla bu sahədə fəal əməkdaşlıq etməkdədir. Transmilli terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması məqsədi ilə Azərbaycan İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Maliyyə Tədbirləri üzrə İşçi Qrupunun (FATF) 40+9 Tövsiyəsinin, o cümlədən, Avropa Şurasının MONEYVAL-ın onlardan irəli gələn tövsiyələrini müvəffəqiyyətlə yerinə yetirməkdədir.

Azərbaycan Respublikası transmilli terrorizm sərhəd təhlükəsizliyi məsələləri üzrə mübarizədə Beynəlxalq Miqrasiya Təşkilatı, terrorçuluğun maliyyələşdirilməsi və çirkli pulların yuyulması ilə mübarizədə BMT-nin Narkotik və Cinayət üzrə Ofisi, Avropa Şurası, transmilli terrorçuluğa qarşı mübarizədə analitik məlumatlarının mübadiləsinin həyata keçirilməsi üçün AR MDB-nin Əks-Terrorçuluq Mərkəzi ilə fəal əməkdaşlıq etməkdədir.

Beləliklə aparılan təhlillər göstərir ki, XXI əsrin faciəli reallığı və bütün dünya cəmiyyəti üçün təhdid olan terrorçuluq milli sərhədlərin hüdudlarını aşmış və millətlərin maraqlarına öz təsirini göstərmişdir. Azərbaycan Respublikası bu fenomenlə mübarizəyə yönəlmiş bütün beynəlxalq səyləri tam dəstəkləmiş, terrorçuluğu formasından və özünü siyasi, iqtisadi, dini və digər motivlərlə büruzə verməsindən asılı olmayaraq birmənalı şəkildə tənqid edir.

**Ədəbiyyat:**


1. Adamların girov götürülməsinə qarşı mübarizə haqqında Beynəlxalq Konvensiyaya qoşulmaq barədə Azərbaycan Respublikasının Qanunu: [Elektron resurs] / Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Normativ Hüquqi Aktların Elektron Bazası, -1999. URL:/www.e-qanun.az/framework/5212
2. Avropa Şurasının "Terrorçuluğun qarşısının alınması haqqında" Konvensiyasının təsdiq edilməsi barədə Respublikasının Qanunu: [Elektron resurs]/ Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Normativ Hüquqi Aktların Elektron Bazası, 2014. URL: http://www.e-qanun.az/framework/27592
3. Azərbaycanı hədələyən terror təşkilatları: [Elektron resurs] / Axar.az, -2014, 14 fevral. URL: https://axar.az/news/gundem/9020.html
4. Azərbaycan parlamenti və beynəlxalq təşkilatlar. –Bakı: Azərbaycan Respublikası Milli Məclisinin nəşri, -2004. -420 s., s. 38.
5. Azərbaycan-NATO. 15 illik tərəfdaşlıq. Brüssel: Azərbaycan Respublikasının NATO yanında Nümayəndəliyi, -1999. -79 s
6. Bayramov, R. Beynəlxalq antiterror koalisiyasının fəal üzvü olan Azərbaycanın üzləşdiyi terrora dünya birliyi hələ də lazımi qiymət vermir // Azərbaycan.- 2009.- 11 sentyabr.- s. 3.
7. Beynəlxalq sülhməramlı əməliyyatlarda iştirakı: [Elektron resurs] / Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəsmi internet saytı, -2021. URL: https://mod.gov.az/az/beynelxalq-sulhmeramli-emeliyyatlarda-istirak-027/
8. Beynəlxalq müdafiədən istifadə edən şəxslərə, o cümlədən diplomatik agentlərə yönəlmiş cinayətlərin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiyaya Azərbaycan Respublikasının qoşulması barədə Azərbaycan Respublikasının Qanunu: [Elektron resurs] / Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Normativ Hüquqi Aktların Elektron Bazası, -2001. URL: http://frameworks.e-qanun.az/2/f_2583.html
9. Blumenau B. The United Nations and Terrorism. Germany, Multilateralism, and Antiterrorism Efforts in the 1970s. Basingstoke: Palgrave Macmillan, 2014, pp. 104-114

10. CRS Report for Congress,Weapons of Mass destruction:The Terrorist Threat 2002
11. Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] /H.Ə.Əliyev. -Bakı: Azərnəşr, -c. 36, -2011, -512 s
12. Əliyev, İ.H. İnkişaf məqsədimizdir [Çoxcildli] /İ.H.Əliyev. On altıncı kitab. -Bakı:Azərnəşr, -2014. -376 s
13. Global terrorism index 2019. Measuring the impact of terrorism / Institute for Economics & Peace. -2019, 97 p
14. Global terrorism index 2020. Measuring the impact of terrorism / Institute for Economics & Peace. -2020, 105 p
15. Hacıyeva, A. Din və terrorizm / -Bakı: Dövlət və Din, -2015.-№ 2(31).-s.9-13
16. Həsənova, K. Azərbaycan Respublikasının NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramında iştirakına dair // Azərbaycan MEA-nın Xəbərləri, ictimai elmlər seriyası, 2017, №2, -s. 119-123
17. Qasımlı, M.C. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003) [2 cild] / M.C.Qasımlı. c. 2, -Bakı: Mütərcim, -2015. -664 s
18. Qasımlı, M. C. Muradova, B.Ə. Azərbaycan parlamentarizmi tarixi [2 cild] /M.C.Qasımlı, B.Ə.Muradova. c. 2, -Bakı:Mütərcim, -2018. -680 s.
19. Mülki aviasiyanın təhlükəsizliyinə qarşı yönəldilmiş qeyri-qanuni aktlara qarşı mübarizə haqqında Konvensiyaya Azərbaycan Respublikasının qoşulmas barədə Azərbaycan Respublikasının Qanunu: [Elektron resurs] / Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Normativ Hüquqi Aktların Elektron Bazası, -1999. URL: http://www.e-qanun.az/framework/5209
20. "Plastik partlayıcı maddələri aşkar etmək məqsədi ilə onlara nişan vurulması haqqında" Konvensiyaya qoşulmaq barədə Azərbaycan Respublikasının Qanunu: [Elektron resurs] / Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Normativ Hüquqi Aktların Elektron Bazası, -1999. URL: www.e-qanun.az/framework/5215
21. Terrorizmə qarşı mübarizə haqqında Azərbaycan Respublikasının Qanunu: [Elektron resurs] / Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Normativ Hüquqi Aktların Elektron Bazası, URL: www.e-qanun.az/alpidata/framework/data/3/f_3855.htm
22. "Terrorizmin maliyyələşdirilməsi ilə mübarizə haqqında" Beynəlxalq Konvensiyaya Azərbaycan Respublikasının qoşulması barədə Azərbaycan Respublikasının Qanunu: [Elektron resurs]/ Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Normativ Hüquqi Aktların Elektron Bazası, 2001. URL: www.e-qanun.az/framework/2699
23. "Terrorizm-2016: ölkələr hesabatı" – Azərbaycan: [Elektron resurs]/ ABŞ-ın Azərbaycandakı səfirliyinin rəsmi internet saytı, -2017, 17 iyul. URL: https://az.usembassy.gov/az/29970-2/

24. Weems, S.A. Armenia Secrets of a “Christian” Terrorist State / S.A. Weems. – Dallas: St. John Press, – 2002. – 76 p.
25. Гусейнова, И.М. Гейдар Алиев – от политического руководителя к общенациональному лидеру / И.М.Гусейнова. – Баку: Тахсил. – 2005. – 504 с.

## ABSTRACT

## COOPERATION FOR THE GOALS OF SUSTAINABLE DEVELOPMENT: THE ROLE OF THE REPUBLIC OF AZERBAIJAN IN THE INTERNATIONAL ANTI-TERROR COALITION AND ITS GEOPOLITICAL CONSEQUENCES

**Rzayeva S.I.**
*Former Ph.D. student of the Academy of Public Administration under the President of the Republic of Azerbaijan*

Modern terrorism is a major factor threatening political stability in a number of countries and regions. Terrorism, which has a more political nature, has become a tool used by geopolitical actors for global interests. The Republic of Azerbaijan was one of the first and most actively involved in the fight against transnational terrorism since September 11, 2001, as after regaining its sovereignty in 1991, the Republic of Azerbaijan was repeatedly attacked by transnational Armenian terrorist organizations. At this stage, Azerbaijan, like a number of leading countries, has strengthened legislation in the legal and organizational framework to fight transnational terrorism, worked to effectively prevent terrorist activities, and ensured strict observance of the rule of law in the fight against terrorism. As a result of the policy pursued, comprehensive work has been carried out to establish a system of prevention of terrorist acts. Steps have been taken to ensure close cooperation between administrative and law enforcement agencies.

**Keywords:** *terrorism, struggle, Republic of Azerbaijan, anti-terrorist coalition, legislation*

## РЕЗЮМЕ

# СОТРУДНИЧЕСТВО ВО ИМЯ ЦЕЛЕЙ УСТОЙЧИВОГО РАЗВИТИЯ: РОЛЬ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ В МЕЖДУНАРОДНОЙ АНТИТЕРРОРИСТИЧЕСКОЙ КОАЛИЦИИ И ГЕОПОЛИТИЧЕСКИЕ ПОСЛЕДСТВИЯ

**Рзаева С.И.**
*Бывший диссертант Академии Государственного Управления при Президенте Азербайджанской Республики*

Современный терроризм является важнейшим фактором дестабилизации политической стабильности в ряде стран и регионов. Терроризм, носящий в большей степени политический характер, стал инструментом, используемым геополитическими акторами для достижения глобальных интересов. Азербайджанская Республика была одной из первых и наиболее активно вовлеченных в борьбу с транснациональным терроризмом после событий 11 сентября 2001 года, поскольку после восстановления своего суверенитета в 1991 году неоднократно подвергалась нападениям со стороны транснациональных армянских террористических организаций. На данном этапе Азербайджан, как и ряд ведущих стран, уточнил законодательно правовые и организационные основы борьбы с транснациональным терроризмом, провел работу по эффективному предотвращению террористической деятельности и обеспечению неукоснительного соблюдения законности в борьбе с терроризмом. В результате проводимой политики проведена комплексная работа по созданию системы превентивных мер по предотвращению террористических актов, приняты меры по обеспечению тесного взаимодействия административных и правоохранительных органов.

**Ключевые слова:** *терроризм, борьба, Азербайджанская Республика, антитеррористическая коалиция, законодательство*

UOT 63; 504.062

# AQROPARKLARIN YARADILMASI VƏ YERLƏŞDİRİLMƏSİNƏ TƏSİR EDƏN ƏSAS AMİLLƏR

**Mirzəyev R.Z.**
*Lənkəran Dövlət Universiteti*
*e-mail: ruslan.mirzeyev01@mail.ru*

*Məqalədə aqroparkların yaradılması və onların yerləşdirilməsi üçün əsas amillər göstərilmişdir. Parkların yerləşdirilməsinə müxtəlif amillərin təsiri və bu amillərin qarşılıqlı asılılığı geniş formada təsvir olunmuşdur. Dünya təcrübəsindən yararlanaraq ərazi seçiminin düzgün təyini, klasterləşmə və aqropark konsepsiyasının gələcək üstünlüklərinin izahı verilmişdir.*

**Açar sözlər:** *aqropark, biznes plan, investisiya, infrastruktur, kənd təsərrüfatı, logistika, klasterləşmə, sənaye parkı, sosial səmərə*

Ölkənin davamlı iqtisadi inkişafının təmin olunmasında ərazidə sosial-iqtisadi sistemlərinin yeni formalarının səmərəli yerləşdirilməsi xüsusi əhəmiyyət daşıyır. Bu baxımdan, son illər respublikamızda təsərrüfatın müxtəlif sahələrinin inkişafına əlavə təkan verilməsi üçün aqro-, sənaye-, texno- və ekoparkların təşkilinə üstünlük verilir.

Aqro, sənaye parklarının yerləşdirilməsi özünəməxsus xüsusiyyətləri ilə fərqlənir. Parkların "Sənaye" impulsu onların iri şəhərlərə cazibəsini artırır. Təcrübə onu göstərir ki, sənaye parkların əksəriyyəti şəhər və şəhərətrafı ərazilərdə yerləşdirilir.

Parkların fəaliyyət profilinə uyğun olaraq istehsalatın təşkili üçün vacib olan xammal mənbələrinə yaxınlıq və istehsal olunmuş məhsulların satışının təşkili üçün bazarlara yaxınlıq aqroparkların yerləşdirilməsi üçün əsas şərtdir. Aqro və sənaye komplekslərinin - parklarının və əsas istehsala xidmət sahəsində çalışan şirkətlərin fəaliyyəti bol kənd təsərrüfatı xammalının, məhsulunun və çeşidinin olmasını tələb edir. Buna müvafiq olaraq parkların plan-layihələrinin icrası zamanı ərazi və yerləşmə amillərinin nəzərə alınması və bu iki amil arasında tarazlığa nail olunması çox vacibdir. Xammal mənbələrinə, bazar mərkəzlərinə yaxınlıqla bərabər, parkların yerləşdirilməsi zamanı istehlakçı və əhali kütləsinin sıxlığı ilə müşayiət olunan mərkəzlərə yaxınlıq da əsas və vacib amillərdən biridir.

Aqroparkların "aqro" və ya "aqrar" impulsu olması, onları kənd və ya şəhərətrafı istehsal zonalarının ətrafında yerləşməsinə, xüsusilə mövcud aqrar bazalı klasterlərə bitişik yerləşməsinə təşviq edir. Aqroparkların əlverişli

mövqeyə malik olması şəhərətrafı kənd və ya istifadəsiz ərazilərdə, şəhər aqlomerasiyalarından aralı məsafədə yerləşdirilməsi, torpaqların səmərəli istifadə edilməsinə imkan yaradır. Əhali sıxlığı yüksək olan ölkələrdə aqroparklar üçün ərazilərin seçilməsi zamanı böyük çətinliklərlə qarşılaşırlar.

Parkları yaradılması və optimal yerləşdirilməsi bir sıra amillərin təsirindən asılıdır. Bura aşağıdakıları aid etmək olar:

- Sənaye parkı üçün əlverişli torpaq sahələrinin mövcudluğu. Sənaye məqsədli istifadə üçün yararlı torpaqların ayrılmasını (məsələn, ekoloji təmiz ərazilərdə, çirklənmələrdən, səs-küydən, vibrasiyadan və digər pozuntulardan kifayət qədər az təsirə məruz qalan və yaşayış sahələrindən uzaq ərazilərdə) və müvafiq istehsal fəaliyyətləri ilə əlaqəli sahələrin (parkın icarədarlarını xammalla təmin edə biləcək istehsal) seçilməsini nəzərdə tutur.
- Sənaye parkının əsas fəaliyyət istiqaməti. Aqroparkların effektiv və məhsuldar fəaliyyət göstərməsi üçün əsas tələb istehsal prosesində xammal materiallarını ardıcıl və qənaətli şəkildə təmin edən sahələrə əlverişli giriş imkanlarının olması və onların əlçatanlığı.
- Şlüz (gateway) infrastrukturuna giriş. Mümkün olduğu hallarda, aqrosənaye parkları əsas "Gateway" infrastrukturunun (məsələn, əsas ticarət marşrutları üzrə nəqliyyat qovşaqları və hava limanları) yaxınlığında strateji mövqeyə sahib olmaq imkanı və s.
- Əlverişli təbii şərait və təbii ehtiyyatların olması, istehsal və xidmət sahələri üçün müfaviq infrastruktur şəbəkəsinin mövcudluğu; malların maneəsiz çatdırılması və istehlakçılar üçün əlverişli trafik və nəqliyyat axının mövcudluğu; istehlakçılar, təchizatçılara dəstək fəaliyyəti üçün insan resursları və maarifləndirici mərkəzlərin mövcudluğu; satışın fasiləsizliyinin təmin olunması üçün nəhəng bazarların mövcudluğu; çoxillik iqtisadi və ekoloji plan-proqramlara uyğunluq, dövlət dəstəyi və s. [4].

Parkların fəaliyyət strategiyası ölkənin və ya regionun əsas kənd təsərrüfatı sahələrinin çoxillik inkişaf proqramlarına uyğun olmalı və geniş biznes plan layihələrinin icrasını təmin etməlidir. Parkın yerləşəcəyi ərazinin təyini parkın strateji hədəflərinə uyğun olaraq iqtisadi və işgüzar əsaslandırmalara və effektivliyə tam ciddiyyəti və şəffaflığı ilə cavab verməlidir. İqtisadi cəhətdən səmərəsizliyi ilə seçilən parkların reallaşdırılmasından uzaq olmaq lazımdır. İqtisadi potensialından asılı olaraq zəif inkişaf etmiş rayonlarda aqrar sənayenin sürətləndirilməsi üçün aqroparklar regionun əsas kənd təsərrüfatı sahələrinə uyğun olaraq yaradılmalıdır. Ərazi seçimi zamanı yalnışlığa yol verilməsi istehsal xərclərinin və aqro-sənaye parkında yerləşəcək şirkətlərin xərclərinin artımına əsas səbəbi olacaqdır [5].

Aqroparkların yaradılması üzrə dünya təcrübəsindən məlumdur ki, parkların yaradılması və yerləşdirilməsi üçün ərazi seçimi zamanı rayonda artıq

mövcud olan və fəaliyyət göstərən aqro-komplekslər, şirkətlər, həmçinin universitet və tədqiqat mərkəzlərinin olması təsir göstərə bilər. Bu təsir, həm aqroparkların yerləşəcəyi ərazinin təyini üçün əsasdır, həm də mövcud bazalarla birgə fəaliyyət göstərməklə aqroparkın səmərəli fəaliyyətinə xidmət edəcəkdir.

Parkın ölçüləri və miqyası onun ərazi seçimi qədər vacibdir. Park qənaət etmək baxımından ərazisinə görə nə çox kiçik olmalı, nə də icarədar şirkətlərin əlavə xərclər və məşğulluğa gətirib çıxaran böyük ölçülərə malik olmamalıdır. Bu element həll edici səviyyədə parkın maliyyə sabitliyinə təsir edəcək. Bundan əlavə geniş ərazilər malik böyük parklar ilə yerli əhali və biznes cəmiyyəti arasında münaqişələr yarana bilər. Bu zaman mərhələli tikintidən istifadə etmək daha məqsədə uyğundur. Yəni, fəaliyyət istiqamətinə uyğun olaraq parkın tam funksionallığı ilə fəaliyyət göstərməsi üçün kifayət edəcək qədər ərazini əhatə etməli, ərazinin hər sahəsindən səmərəli istifadə olunmalıdır.

Parkların ərazisinin ölçüsü də bir çox amillərdən asılıdır. Belə ki,

- Ölkənin və ya regionun iqtisadi-siyasi xüsusiyyətləri;
- İnvestisiya mühiti;
- Sənaye istehsal sahələrinin sayı;
- Satış mərkəzləri və bazarların tutumluğu;
- Yeni parkların yaradılması və mövcud olanların genişləndirilməsi üçün kənd təsərrüfatı/sənaye məqsədli torpaq bazarlarının dinamikası;
- Sənaye və logistik infrastrukturun inkişaf səviyyəsi;
- Dövlət dəstəyi və maliyyələşdirilmə üzrə təşəbbüslər;
- Ərazinin standart ölçülərinin dizayn və ya təcrübə proqramına uyğunluğu.

Aqropark üçün ərazi seçimi – aqropark layihəsinin uzunmüddətli perspektivdə kompleks, çox istifadəçili və çox səviyyəli yanaşmanı dəstəkləmək üçün əsas strateji qərardır.

Ərazi klasterləşməsi (qruplaşma) aqropark konsepsiyasının əsasını təşkil edir. Dünya ölkələrinin təcrübəsinə uyğun olaraq qruplaşmanın müxtəlif formaları ola bilər. Həmçinin kənd təsərrüfatı və qeyri-kənd təsərrüfatı fəaliyyətinin müxtəlif kombinasiyalarına rast gəlinə bilər. Buna uyğun olaraq aqroparklarda klasterləşmənin yeddi üstünlüyünü qeyd etmək olar:

**1. Qapalı dövr.**

Parkın fəaliyyət istiqamətinə uyğun olaraq kənd təsərrüfatı fəaliyyəti sahələri bir məkanda qruplaşdırılarsa, qapalı dövr: daxili ekosistem yaratmaq mümkün olacaqdır. Aqropark tərkibində mövcud olan klasterlər bir-birinin istehsal məhsullarından, xammalından, tullantı və əlavə məhsullarından istifadə edə bilərlər. Bu, sahəyə və enerjiyə qənaət etməklə, ətraf mühitə zərərli və mənfi təsiri azaltmağa xidmət edəcəkdir. Qapalı dövrə həm kiçik, həm də böyük aqroparklarda nail olmaq mümkündür. Kiçik müəssisələrdən fərqli

olaraq yalnız böyük müəssisələrdə kifayət qədər investisiya və qazanc olacaqdır. Misal olaraq, 2000 baş heyvan bəsləyən fermer üçün fərdi qaydada ayrıca hava skubberi almaq həm məqsədə uyğun deyil, həm də böyük xərc tələb edir. Amma aqropark daxilində bu kimi vasitələrin əldə olunması və istifadəsi çox sərfəli şərtlərlə mümkün olacaqdır.

**2. Nəqliyyat tələblərinin azaldılması.**

Məkan qruplaşmasının potensial üstünlüyü nəql etməyə olan tələblərin azaldılmasıdır. Kənd təsərrüfatı məhsullarının emal, istehsal və qablaşdırılması üçün ağır yük maşınları vasitəsilə bir yerdən digər yerə uzun məsafəyə daşınması əlverişsizdir. Aqroparkların əlverişli ərazidə salınması isə bu tip nəqletmələrin əksər hissəsinin qısalmasına səbəb olacaq və uzaq məsafələrə qənaət edəcəkdir. Əgər aqropark əlverişli coğrafi mövqedə – kəsişmələrdə, avtomobil və dəmiryol qovşaqlarının, hava limanlarının yaxınlığında yerləşərsə, bu xammalın lazımi ünvana çatdırılmasının əhəmiyyətli dərəcədə yüngülləşdirəcək, kənd təsərrüfatı məhsulunun növbəti nəqletmələrini asanlaşdıracaq.

**3. Şəhər ətrafı ərazilərin qorunması.**

Aqroparklar kənd ərazilərinin (torpaqların) keyfiyyətini və məhsuldarlığını yaxşılaşdıracaqdır (ən azından dolayısı ilə). Hazırda kənd təsərrüfatı fəaliyyətinin əksər sahələri sənaye xarakteri daşıyır və çox təəssüf ki, onlar hələdə bu ərazilərində fəaliyyət göstərirlər. Misal olaraq, o qədər də cəlb edici olmayan iri heyvandarlıq fermalarını, onların tullantılarını, spesifik qoxu mənbəyi olmasını qeyd edə bilərik. Yaxud, gecə-gündüz parlaq işıqlandırma sisteminə malik olan istixanaları, həmçinin bu cür fəaliyyətlə, bitki və heyvanların, həmçinin insanların bioritmini pozması haqqında misal çəkə bilərik. Bu cür sənaye fəaliyyəti ilə məşğul olan müəssisələrin şəhər ətraflarına, rayonlara, loqistik mərkəzlərə köçürülməsi ilə kənd ərazilərini yenidən istirahət, sağlamlıq, kənd təsərrüfatını tipik sahələri ilə məşğulluq və s. kimi ənənəvi formasına qaytarmaq mümkündür.

**4. Heyvandalıqda səmərəliyin qaldırılması.**

Innovation Network «Animal Care» hesabatlarında qeyd olunur ki, əsaslı və səmərəli planlaşdırılmış aqroparklarda davamlı inkişafı əldə etmək mümkün olur. Heyvanlar hərəkət azadlığına, daha çox günəş şüası və stimullaşdırıcı mühitə malik olacaqlar. Bu sözsüz ki, əvvəlki illərlə və keçmiş təcrübələrlə müqayisədə qabaqcıl addımdır. Çünki, əvvəlki təcrübədə, heyvandarlıqdan daha çox gəlir əmsalı prioritetli olmuşdur və bunun üçün daha çox ekstensiv üsullardan istifadə olunmuşdur. Burada, rifah deyərkən, mühit faktorları, boş sahə, heyvanlara qulluq üsulu, tərkibi və s. nəzərə alınır. Hazırda heyvanların kəsilməsi üçün sallaqxanaya göndərirlər, daha sonra yenidən anbarlara daşınır, soyuduculara yerləşdirilir. Nəticədə nəqliyyat xərcləri xeyli artır. Bu isə, heyvanlara və heyvandarlıq təsərrüfatına xeyli zərər vurur. Aqroparklar isə tamamilə qapalı sistem təşkil edir: heyvanlar daxili ərazidə doğulur, bəslənilir

və daxildə kəsilir. Bu isə, böyük nəqliyyat xərclərinin azaldılmasına gətirib çıxarır.

**5. Xəstəliklərin yayılmasının qarşısının alınması.**

Son illər fermer və maldarlar, heyvandarlıq və quşçuluq sahəsi üzrə təsərrüfatlarda çox ciddi fəsadlarla nəticələnən bir çox xəstəliklərlə üzləşirlər. Bunun əsas səbəbi fermalar arasında fiziki əlaqənin mövcudluğu, hava vasitəsilə virusların sürətli yayılmasıdır. Nəticədə çoxlu heyvan məhvi baş vermişdir. Fermaların əksəriyyəti məcburi sürətdə qapalı fəaliyyətə keçmiş, mövcud fövqəladə vəziyyət böyük ictimai narahatlıq doğurmuşdur. Ağız yarası və quş viruslarının yayılması zamanı hətta bir çox ev heyvanlarının məhv edilməsi zərurəti yaranmışdı. Aqroparklarda isə, heyvandarlığın qapalı sistemi mühitində patogenlərin yaranması ehtimalı son dərəcə kiçikdir. Son nəticədə xaricdən heç bir heyvanın daxildə olanlarla əlaqəsi olmayacaqdır. Hətta daxildəki heyvanlar bir-biri ilə əlaqəsiz kiçik qruplarda saxlanılacaqlar. Çox vacibdir ki, fərqlilik təşkil edən qruplar, məsələn, quşlar və qaramal qrupları tamamilə bir-birindən ayrı olmalıdır. Əgər, yenə də hər hansı bir xəstəlik yayılması müşahidə edilərsə, aqroparkları təşkil edən bölmələr rahat şəkildə bir-birindən təcrid oluna bilər [6].

**6. İstehsalçı və istehlakçı zəncirin ardıcıllığının təmin olunması.**

Hazırki kənd təsərrüfatı məhsulları istehsalı təcrübəsində qida məhsulları istehsalçıları ilə istehlakçılar arasında əlaqə demək olar ki yoxdur. İnsanların qidanın haradan gəlməsi haqqında məlumatı və necə hazırlanması haqqında təsəvvürləri belə demək olar ki yoxdur. Bu vəziyyət daha çox öz məhsullarını "təbii" və "ənənəvi" kimi reklam edən, sənaye istehsal üsulu barədə isə heç bir məlumat verməyən istehsalçılar haqqındadır. Uzun illərdir ki, istehlakçılar təşkilatlardan məhsulun harada hazırlanması və tərkibi haqqında informasiyanı özündə açıq şəkildə əks etdirən məlumatı verməyə çağırırlar.

Aqroparklar istehsalçı və istehlakçı arasında uçurumu aradan qaldıra, ictimai tələblər nəzərə alınmaqla, sosial tələblərə cavab verməklə, ətraf mühiti çirkləndirmədən, cəmiyyətin ümumi rifah halının yaxşılaşması naminə istehsal həyata keçirə bilərlər. Beləliklə, aqroparklar istehlakçılar tərəfindən tanınan və xüsusi firma nişanları ilə markalanan məhsulları təqdim edə bilərlər.

Əlillər, uşaqlar, yaşlılar üçün nəzərdə tutulan bir sıra qidalar da vardır ki. Onlar mütləq şəkildə patogenlərdən azad olmalıdırlar. Tərkibində müəyyən allergenlər olmayan qidalara zəmanət verilməlidir. Bu cür məhsullar xüsusi qaydada nəzarət olunmaqla, qapalı dövrdə istehsal prosesinin olmasını tələb edir. Qruplaşdırılmış və ideal üslubda layihələndirilmiş aqropark, ("Kənd parkları", "Tematik park") göstərilən qaydada keyfiyyətli istehsal prosesini həyata keçirməyə imkan verir [7].

**7. İqtisadi və sosial səmərənin formalaşdırılması.**

Hazırda kənd təsərrüfatının bir çox sahələri kritik vəziyyətdədir. Yalnız iqtisadi səmərənin aşağı olması deyil, istifadə metodlarında da kritik hallar mövcuddur. Aqropark konsepsiyası ictimai məsuliyyətli hesab edilən gəlirli istehsal prosesi ilə bu problemləri həll etməyə qadirdir. Qaldırılan birinci məsələ və sual ondan ibarət olmalıdır ki, "Aqroparklar həqiqətən kifayət qədər gəlir gətirə biləcəkmi?". Tədqiqatlar göstərir ki, cavab - "Bəli."-dir. Aqroparklar əhəmiyyətli investisiyalar tələb edəcək, istismar xərcləri də kifayət qədər yüksək olacaq. Lakin bu xərclərin bir hissəsi ehtiyyatlar vasitəsilə kompensasiya olunacaqdır. Bir neçə şirkətin klasterləşməsi məkan (miqyas) üstünlükləri verir: nəqliyyata tələbatın azalmasına gətirib çıxarır, enerjiyə, yemləmə, tullantıların (peyin və s.) daşınması və məhv edilməsi xərclərini azaldır. Aqroparkda məkan əldə etmək ticarət baxımından cəlbedici olacaqdır. Fermerlər tərəfindən isə müqavimət ehtimalı böyük olacaqdır. Onlar icarədar olmağa deyil, sahibkar olmağa can atırlar. Bütün amilləri diqqətə alaraq, aqroparklar həqiqətən də ticarət əhəmiyyətli və həyat qabiliyyətli ola bilərlər. Həmçinin, əhəmiyyətli sosial üstünlüklərə də malik olacaqlar: qida məhsullarınını təhlükəsizliyi yüksəldiləcək, yollarda dağınıq yığınlar az olacaq, ətraf mühitə mənfi təsirlər azalacaq, heyvanların sağlamlığı və rifahı yaxşılaşacaq, kənd əraziləri isə daha cəlbedici olacaq, insanlar daha keyfiyyətli və ekoloji cəhətdən təmiz məhsullar əldə edəcək və qidalanacaqlar. Bu sosial amillər kifayət edir ki, dövlət orqanları əlavə maliyyələşdirmə vasitələrindən istifadə etməklə aqroparkarın yaradılmasına dəstək versinlər [2].

Kənd təsərrüfatının əvvəlki intensiv metodları ciddi problemlərə səbəb olur. Bu fakt təsadüfi müşahidəçinin gözündən belə qaçılmazdır. Ona görə də cəmiyyət bu metodların əlavə təsirləri barəsində kritik mövqeyi qəbul edir. Nə qədər ki, ərzaq, qida, xüsusən də ət məhsullarına tələbat yüksəkdir, deməli, kənd təsərrüfatı sahələrinin ətraf mühitə mənfi təsirləri o qədər artır. Kənd təsərrüfatı sektoru daha çox enerjidən istifadə edir, bu da karbon qazının artmasına, ətraf mühitin çirklənməsinə dəlalət edir.

Bu gün də kənd təsərrüfatının analoji olaraq, yenidənqurma tələb edən ayrı-ayrı sahələri mövcuddur. Torpaqların birləşdirilməsi fermer təsərrüfatlarının kəndlərdən açıq sahələrə köçürülməsinə səbəb olduğu kimi, aqroparklar da şəhərə yaxın ərazilərdə qurulmanı, yerləşdirməni tələb edir. Hər iki halda, əhəmiyyətli nisbətdə fiziki olaraq yenidən strukturlaşma baş verir. Amma, bu yenidən qurmanın xarakter və istiqaməti müxtəlifdir. Bağçılıq, heyvandarlıq, quşçuluq müəssisələri artıq sənayeləşmişdir. Bu fəaliyyət sahələri əvvəllər olduğu kimi geniş torpaq sahəsi tələb etmir.

Aqroparklar kənd təsərrüfatı sahəsində radikal dəyişikliklərə səbəb olduğu kimi, məşğulluq strukturunda da dəyişiklikləri tələb edir. Bir neçə fəaliyyəti özündə birləşdirən ərazi klasterləşməsi olduğu halda, maliyyə və insan

kapitalının yeni təşkilati formalarının hazırlanması zəruri olacaqdır. Məşğulluq və böyük investisiyalara təminat yaradan nəhəng kooperativlərin yaradılması buna misal ola bilər.

Kənd təsərrüfatının cəmiyyətin həyatında müəyyən mövqeyə malik olmasıyla yanaşı fəaliyyət sahələrinin sonrakı nəticələrinin gözə alınması da gərəklidir. İlk dəfə insanlar 1960-cı illərdə kənd təsərrüfatı və qida məhsulları istehsalının neqativ nəticələrindən xəbərdar olmuşlar və qırx ildən artıq davam edən torpaqların birləşdirilməsi prosesinə əhəmiyyətli əks təsir fəaliyyətinə başlamışlar. 1985-ci ildə "Torpaqların birləşdirilməsi" haqqında qanun, "Torpaqdan istifadə" haqqında qanunla əvəz olunmuşdur. Qanun təkcə kənd təsərrüfatı profilli rayonların əlverişli obrazla strukturlaşdırılmamasına görə deyil, təbii və topoqrafiya dəyərlərinin möhkəmlədilməsi və beləliklə, infrastruktur, istirahət və mədəni tarix abidələrinin tələblərinə bəraət qazandırmışdır. Aqropark konsepsiyası arxasında duran insanlar, sosial informasiyalaşdırma, hazırkı kənd təsərrüfatı təcrübəsinə öz arqumentlərinin tətbiqi, canlıların, ətraf mühitin və insanların rifahı tələblərinə diqqət edirlər. Buna görə də müasir kənd təsərrüfatı "rəqabət üstünlüyü" və "istehsal artımı" arqumentlərinə əsaslanmalıdır.

Nəticə: Aqropark eyni ərazi hüdudunda yüksək ixtisaslaşmış biznes sahələrinin müxtəlif növlərini birləşdirərək və onlar arasında əlaqələr quraraq, ənənəvi coğrafi bölgünün müxtəlifliyinin müəyyən edir. O, kifayət qədər böyük miqyasda (30-100 ha və daha artıq ərazidə) təyinatlı müəssisələrə ziyansız şəkildə "qarışıq biznes" yaradır. Burada əsas üstünlük isə istehsalat prosesində avtonomluğu təmin etməklə effektiv, səmərəli və ekoloji təmiz "qapalı dövr" yaradılmasından ibarət olur.

Aqropark konsepsiyasının qurulması kimi yeniliklər qida məhsulları daha effektiv istehsalı ilə yanaşı yeni biliklərin yaranmasına gətirib çıxaracaq və böyük ehtimalla, dünya üzrə qabaqcıl innovasiyaların və biliklərin inkişafı üçün stimula çevriləcəkdir.

Regionun inkişaf maraqları, elmi müəssisələrin, dövlət orqanlarının, məhsul və əmtəə istehsalçılarının maraqlarının innovativ birləşməsinin təmin edilməsini tələb edir. Belə bir birləşmənin həyata keçirilməsinin ən məqbul forması, sürətli inkişafa əsaslanan və elmi qazanc gətirən, istehsalçılara maliyyə, informativ və hüquqi dəstək verən, müəssisələrin innovativ təmaslarını təmin edən aqroparkların və ya aqrotexnoparkların, aqro-sənaye parklarının yaradılmasıdır.

Bütün yuxarıda göstərilənləri nəzərə alaraq aqroparkların aşağıdakı məsələləri həll etmək üçün nəzərdə tutulduğunu qeyd etmək olar:

1. Kənd təsərrüfatı məhsulları istehsalı, emalı, satışı ilə məşğul olan müəssisələrin və sahibkarların ənənəvi iqtisadiyyatdan şəbəkə iqtisadiyyatına keçidin və müəssisələr arası inteqrasiyanın təmin olunması.

2. İqtisadiyyatın aqro-sənaye sektorunda innovativ sahibkarlığın yeni formalarının inkişafı.
3. Aqrar, istehsal və ərzaq sənayesi sferasında fundamental və tətbiqi elmi tədqiqatların nəticələrindən, yüksək səviyyəli müasir texnologiyalardan istifadə şəraitində rəqabətli məhsul istehsalı.
4. Aqro-sənaye kompleksində innovasiyaların təşviqinin ən mobil formaları kimi orta və kiçik müəssisələr əsasında yeniliklərin tətbiqinin və inkişafının genişləndirilməsi;
5. Kənd təsərrüfatı elmi-tədqiqat müəssisələrinin elmi inkişaflarının kommersiyalaşdırılması yolu ilə regionun təhsil müəssisələrinin, dövlət elmi qurumları və təşkilatlarının inkişafının təmin edilməsi.
6. Regionun ümumi məhsul strukturunda yüksək texnologiyalı məhsulun payının artması, bölgənin iqtisadiyyatının inkişafı, ixrac potensialının stimullaşdırılması və bir sıra digər vəzifələr və s.

**Ədəbiyyat:**


1. Исмаилов, Ч.Н. Новые черты экономического развития Азербайджана // Материалы международной конференции «География мирового хозяйства. Регионализм в условиях глобализации», – Москва: – 2013. – с.131-138
2. Ismayilov Ch. Transformation of the conditions of socio-economic development of Azerbaijan in the post-pandemic period - "Journal of Geography, Politics and Society", 10(4), Poznan, Poland, 2020, p.34-45
3. Animal Care: beelden van diergezondheid en dierenwelzijn in agroclusters [‘Animal Care: images of animal health and welfare in agriclusters’]. InnovationNetwork report, December 2003.
4. Agroparken: perspectieven en dilemma’s [‘Agroparks: perspectives and dilemmas’]. InnovationNetwork report, October 2000.
5. Deichmann, U., Kaiser, K., Lall, S.V. & Shalizi, Z. 2005. Agglomeration, transport and regional development in Indonesia. World Bank Policy Research Working Paper 3477. Washington, DC, World Bank
6. De Wilt, J.G., van Oosten, H.J. & Sterrenberg, L. 2000. Agroproduction parks: perspectives and dilemmas. The Hague, the Netherlands.
7. Personal interviews with FAO, UNIDO and UNDP staff during visit to Ethiopia in November 2014.
8. The report ‘Animal Care’ provides evidence to suggest that clustering in agroparks will dramatically reduce the risk of diseases entering this closed environment.
9. This idea is further elaborated in the design for the High Care park. See: ‘Animal Care: images of animal health and welfare in agriclusters’, InnovationNetwork report, December 2003.

## ABSTRACT

# MAIN FACTORS INFLUENCING THE CREATION AND LOCATION OF AGRICULTURAL PARKS

**Mirzayev R.Z.**
*Lankaran State University*

The article discusses the main factors for creating agricultural parks and their location. The influence of various factors on the location of parks and the interdependence of these factors are presented in detail. Considering the world experience, the correct definition of site selection, clustering and future advantages of the agricultural park concept are explained.

**Keywords:** *agricultural park, business plan, investment, infrastructure, agriculture, logistics, clustering, industrial park, social exemptions*

## РЕЗЮМЕ

# ОСНОВНЫЕ ФАКТОРЫ, ВЛИЯЮЩИЕ НА СОЗДАНИЕ И РАЗМЕЩЕНИЕ АГРОПАРКОВ

**Мирзоев Р.З.**
*Ленкоранский государственный университет*

В статье рассматриваются основные факторы создания и размещения агропарков. В широком аспекте представлены влияние и взаимосвязь различных факторов на территориальную организацию парков. Учитывая мировой опыт, раскрыты отличительные черты создаваемых преимуществ рациональной организации выбора участка для размещения агропарков, их кластеризации и реализации стратегии агропаркной концепции.

**Ключевые слова:** *агропарк, бизнес-план, инвестиция, инфраструктура, сельское хозяйство, логистика, кластеризация, индустриальный парк, социальные льготы*

UOT 342.5

# TOMAS R. MALTUSUN "ƏHALİ NƏZƏRİYYƏSİ" PERSPEKTİVİNDƏN EKOLOJİ PROBLEMLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ

**Nəzərli G.A.**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası Davamlı inkişafın planlaşdırılması və idarə edilməsi kafedrasının müəllimi, Ankara Hacı Bayram Veli Universiteti doktorantı*
*e-mail: gularnazarli@gmail.com*

*Bu gün özünün tarix boyu görülməmiş ən sürətli dəyişikliklər dövrünü yaşayan bəşəriyyət, həm də qlobal problemlərlə və xüsusilə qlobal ekoloji böhranla üz-üzədir.*

*Son əlli ildə dünyada eyni zamanda iki tendensiya müşahidə edilir. Bunlar: 1) əhalinin sayında kəskin artım və resursların tükənməsi; 2) ətraf mühitin deqradasiyasında yüksək artım. Burada xüsusi qeyd etmək lazımdır ki, əhali sayında kəskin artım ətraf mühitə təzyiqi də artırır. Bundan 150 il əvvəl isə sadalanan bu tendesiyalardan narahatlığı Tomas R. Maltusun öz mübahisəli və birmənalı şərh edilməyən "Əhali nəzəriyyəsində"dilə gətirmişdir. T. Maltusun əhali haqqında düşüncələri iqtisadi və sosial fikrə təsirini bu gün də davam etdirir.*

*Bu məqalənin nəzəri çərçivəsi Tomas R. Maltusun "Əhali prinsipi" nəzəriyyəsi üzərində qurulmuşdur. Bu nəzəriyyəyə əsaslanaraq tarixən əhalinin artımı və onun səbəbləri, əhalinin artımının həqiqətən ekoloji problemlərin əsas amili olub-olmadığı, yoxsulluq və ətraf mühitin deqradasiyası arasında sıx əlaqə araşdırılmışdır və ümumilikdə insan və ətraf mühit münasibətlərinin yenidən daha dayanıqlı modellər üzərində qurulması təklif edilmişdir.*

**Açar sözlər:** *ekoloji problemlər, Maltus nəzəriyyəsi, əhali artımı, ekoloji təsirlər, ətraf mühit*

Bəşəriyyət bu gün özünün ən sürətli inkişaf dövrünü yaşayır. Bu inkişaf dövrü ilə birlikdə qlobal problemlərin miqyası da artır. Bu problemlər arasında xüsusi yeri ekoloji problemlər tutur. Günümüzdə ekoloji problemlərin həcmi böyüyərək, içindən çıxılmaz bir hal almış və artıq gündəlik həyatımızın da bir parçasına çevrilmişdir.

Günümüzdə dünyanı məhvə sürükləyən ekoloji böhranın səbəbləri alimlər tərəfindən müxtəlif olaraq göstərilsə də, bu səbəblər arasında ən çox istinad ediləni əhalinin sayının artması və onun nəticəsi olaraq ekoloji tarazlığın pozulması göstərilir. Birləşmiş Millətlər Təşkilatının 2018-ci ildə dünya

əhalisinin dinamikası ilə bağlı dərc etdiyi hesabatda 2050-ci ilə qədər dünya əhalisinin 9,1 milyard nəfərə çatacağı və ərzaq qiymətlərinin kəskin artması səbəbindən ərzaq bazarında vəziyyətin pisləşəcəyi qeyd edilmişdir. [22] Bundan başqa sürətlə artan dünya əhalisinin sayı həm də təbiətə böyük antropogen təzyiq göstərir.

Bəşəriyyətin artan ehtiyaclarından və təbii sərvətlərin məhdud olmasından narahat olan bir çox tədqiqatçı, siyasətçi, iqtisadçı və s. məşhur ingilis iqtisadçısı Tomas Robert Maltusun fikirlərini araşdırmağa və dəstəkləməyə başladılar.

İngilis mütəfəkkiri Tomas Robert Maltus 1766-1834-cü illər arasında yaşamış, "Əhali prinsipi" kitabı ilə şöhrət qazanmışdır. Maltusun yaşadığı dövr, yəni XVIII əsr sənaye inqilabının inkişafı ilə tarixə keçmişdir. Bu fakt öz növbəsində onun düşüncələrinə də təsir etmişdir.

Məqalənin nəzəri çərçivəsi Tomas R.Maltusun "Əhali prinsipi" nəzəriyyəsi üzərində qurulmuşdur. Bu nəzəriyyə əsas götürülərək tarixən əhalinin artımı və onun səbəbləri, əhalinin artımının həqiqətən ekoloji problemlərin əsas amili olub-olmadığı araşdırılacaq.

**Əhali artımının tarixi xronologiyası və səbəbləri**

Əhali artımına və ümumilikdə əhali haqqında tarixə baxsaq bəşəriyyətin ilk zühurundan bu günə qədər olan bütün dövrə nəzər salmaq lazımdır. İnsan cinsi və onun ilk növü olan "Homo Habilis" təxminən 3 milyon il əvvəl ortaya çıxmışdır. Müasir insanların birbaşa əcdadı olduğuna inanılan "Dik İnsan" və ya "Homo Erectus" təxminən 2-2,5 milyon il əvvəl, təxminən bir milyon il əvvəl isə bəşəriyyətin "Ağıllı İnsan" adlandırdığı "Homo Sapiens" ortaya çıxmışdır. Təxmini 10 min il əvvəl Neolit mədəniyyətinə keçid, yəni kor təbii mənimsəmədən ilkin istehsala, e.ə. 3000-ci ildə isə ilkin aqrar və sivil cəmiyyətlərin formalaşması mərhələsinin başlanğıcına keçid baş vermişdir. [20]

E.ə. 1000-ci ildə 50 milyona çatan dünya əhalisi e.ə. 500-ci ildən sonra iki dəfə artım göstərmişdir. Eramızın başlanğıcında, Xan və Roma İmperiyalarının çiçəklənmə dövründə 250 milyona çatan dünya əhalisinin sayında ta eramızın 1000-ci ilinə qədər artım və dəyişiklik qeydə alınmamışdır. 1200-cü illərdə əhalinin sayında müvəqqəti artım olsa da (təxminən 350 milyon), 1300-cü ildə artan aclıq və vəba əhalinin xeyli azalmasına səbəb olmuşdur. [16] 1500-cü ildə dünya əhalisi 500-600 milyona yaxın idi.[9] Lakin 1600-1700-cü illər arasında iqlimin pisləşməsi bitki istehsalına təsir göstərmiş və əhali artımının qarşısını aldığı üçün əhalinin sayı 700 milyondan aşağı qalmışdır.

Dünyanın hər yerində fərqli səbəbləri olan əhalinin artımı XVIII əsrdə başlayan və bütün dünyaya yayılan bir fenomen olmuşdur. Buna misal olaraq XVII əsrin sonu və XIX əsrin ortalarına qədər davam edən rifah zənginliyi

Çində əhalinin artmasına təsir göstərmişdir. Avropada isə qida istehsalının artması və səhiyyə xidmətlərinin yaxşılaşdırılması əsas səbəblər sırasındadır. Əhali sayının artması qitədən qitəyə çox fərqli səbəblər nəticəsində olmuşdur. Avropada 1750-ci ildə əhalinin sayı 160 milyon idisə, 1850-ci ildə bu rəqəm 70% artaraq 250 milyona çatmışdır. Lakin XVIII əsrin 50-ci illərindən sonra hər qadına düşən uşaq sayı azalmağa başlamışdır. Buna əsas səbəb kimi isə gec nikah və doğuşa nəzarət üsullarının geniş yayılması olmuşdur. Bu dövrü həm də "demoqrafik keçid" dövrü adlandırmaq olar, başqa sözlə, bu dövrdə aşağı doğum və ölüm göstəriciləri müşahidə olunmuşdur. Asiyada 1750-1900-cü illər arasında əhalinin təbii artımı Avropanın artımının yarısı idi və burada ən böyük artım XX əsrdə müşahidə edilmişdir. Afrikada isə 1750-1900-cü illər arasında əhalinin təbii artımı olmadığı halda, XX əsrin ortalarından sürətlə artmağa başlamışdır. [16]

İki min il əvvəl 250 milyona yaxın olan dünya əhalisi 1825-ci ildə bir milyarda, 1925-ci ildə iki milyarda, 1962-ci ildə üç milyarda, yəni 37 il sonra 1975-ci ildə isə, yəni on üç il sonra dörd milyarda çatmışdır.[17]

Bu gün dünyada 200 il əvvəlkindən 7-8 dəfə çox insan yaşayır. İnsanların sayındakı bu misli görülməmiş artım ətraf mühitə də böyük təsir göstərir. Hər il 100 milyon insanın doğulduğunu fərz etsək, 2050-ci ildə dünya əhalisinin 10 milyarda çatacağı təxmin edilir.[4] Ona görə də bu gün insanların yaşayış üçün evlərə ehtiyacı olduğu üçün yaşayış massivlərinin çoxalması, əhalinin sürətlə artması insanların daha çox enerji və mineral ehtiyatlardan istifadə etməsinə səbəb olur və nəticədə dünyada çirklənmənin sürəti artır.

### Tarixən insan və onun təbiətlə əlaqəsi

Yer üzündəki bütün canlı növləri, o cümlədən insan övladı da ekosistemin bir parçası kimi qəbul edilir. İnsanın təbiətlə vəhdəti ehtiyacların ödənilməsi üzərinə quurulmuşdur.[7] İnsanın təbiətlə münasibətlərinin və varlıq arxa planında onun təbiətdən asılı olması dayanır. İnsanın təbiətlə əlaqəsi onun mövcudluq şərtləri arasında ilkin əlaqədir.

Monteskye (2011) görə, təbii vəziyyətdən sonra cəmiyyət quruluşuna keçən insan övladı öz varlıqlarını necə davam etdirəcəyi haqqında düşünür. Bu düşüncələrin nəticəsi olaraq ehtiyaclar yaranır. Təbii ki, ehtiyacların ən əsası qidalanma olur.[3] Digər tərəfdən, Marks və Engels "tarix yazmaq" və sağ qalmaq üçün hər şeydən əvvəl; yemək, içki, sığınacaq, geyim və s. ehtiyaclarının olduğunu vurğulayırlar. Buna görə də, ilk tarixi fəaliyyət bu ehtiyacları ödəmək üçün alətlərin istehsalı, yəni maddi həyatın özünün istehsalı olmuşdur. Bu ehtiyaclar ödənildikdə başqa ehtiyaclar meydana çıxır. Yaranan ehtiyacların ən mühümü həyatın yenidən yaradılması, yəni insanların təbii çoxalması olmuşdur. [13]

Son bir neçə min il istisna olmaqla, bəşəriyyətin mövcudluğunun çox hissəsini, yəni iki milyon ildən çox bir müddətini yemək toplamaq və ovlanmaqla keçirmişdi. Bu həyat tərzi ilə insanlıq özünün ekosistemlərə ən az ziyan vurduğu dövrü yaşamışdır. Sonraki dövr isə insan icmalarının dünyanın müxtəlif yerlərinə və ekoloji mühitlərinə yayıldığı dövrü kimi tarixə keçimişdir.

Kənd təsərrüfatının inkişafı ilə təxminən 12 min il əvvəl, dörd milyona yaxın olan dünya əhalisi eramızdan əvvəl artmışdır, 1000-ci ildə 50 milyona yüksəlmişdi. Bəşəriyyət tarixində ən əsaslı dəyişiklik olan kənd təsərrüfatının mənimsənilməsi cəmiyyətdə də böyük dəyişikliklərə səbəb olmuşdur. Kənd təsərrüfatı daha çox əmək tələb etsə də, ovçuluq və yığıcılıqdan daha çox ərzaq əldə etmək imkanı verirdi. Kənd təsərrüfatının mənimsənilməsi, oturaq cəmiyyətlərin formalaşması və getdikcə sayı çoxalan əhalinin ətraf mühitə təzyiqi də artmışdır. Təbii ekosistemlərdə baş verən dəyişikliklərin təməlində insanların daha çox qida əldə etmək üçün əkinçilik və heyvandarlıqda yeni metodlardan istifadə etməyə başlaması durur. Bu təsir əvvəlcə yalnız müəyyən bölgələrdə olsa da, sonradan digər bölgələrə yayılaraq insanların istədikləri bitkiləri yetişdirə və istədikləri heyvanları saxlaya biləcəyi süni mühit yaratmaq üçün təbii ekosistemləri məhv etdi. Kəndlərin və şəhərlərin yaranması ilə resurslara tələbat gücləndi, ətraf mühitə təzyiq daha da artdı.

Antik dövrdən bu günə kimi bəşər tarixi ilə təbiətin vəhdət təşkil etməsi ideyası tarixşünaslıqda mövcud olan dərin bir axına çıxışı təmin edir, başqa sözlə, insanın ətraf mühitlə qarşılıqlı əlaqəsi uzun tarixə malikdir. Qədim dövrlərdə təbiət kövrək və məğlubedilməz bir varlıq olaraq, insanların öz-özü ilə barışıq şəkildə yaşama tərzini ifadə edən "Natura" ilahəsi kimi alleqorik qadın fiquru idi. Təbiəti ifadə etmək üçün istifadə etdiyimiz böyümə mənasını verən yunan sözü “physis” şübhəsiz ki, sözün qədim istifadəsini və bəşəriyyətin vəhşi böyüməsini deyil, şeylərin mahiyyətini, rasional nizamı və abstraksiyanı təşviq edir. [18]

1500-cü illərdən əvvəl dünyada hakim baxış orqanik idi. İki əsas təmələ söykənən, yəni Aristotel və Kilsəyə əsaslanan orqanik dünyagörüşü həm ağıl, həm də iman üzərində qurulmuşdu və onun əsas məqsədi əvvəlcədən düşünmək və nəzarət etməkdən başqa, obyektlərin mənasını və dəyərini dərk etmək idi. Bu dövrdə müxtəlif təbiət hadisələri; Tanrı insan ruhu və əxlaqı ilə əlaqəli idi. [5]

XVII əsrdən sonra orqanik dünya anlayışını əvəz edən mexaniki dünya anlayışı ilə ekosistemlərə müdaxilə daha sistemli şəkildə həyata keçirilməyə başlandı. Başda insan olmaqla hər şeyi bir mexanizm kimi görən Kartezyen dünyagörüşü təbiətin istismarı üçün təməl qoymuşdur. Daha çox qazanc və sonsuz inkişafa yönəlmiş iqtisadi düşüncəyə əsaslanaraq, qeyri-məhdud hesab etdiyi təbiəti istehlak etməyə başlamışdır. Artıq bu dövrdən başlayaraq bütün dünyagörüşlərinin əsasını insanın təbiət üzərində hökmranlığı ideyası təşkil edir. [9] Başqa sözlə, təbiət mərkəzli yanaşmadan insan mərkəzli yanaşmaya

keçid baş vermişdir. İnsan mərkəzli yanaşmalarda, ümumiyyətlə, insanın mərkəzdə olması və insanların özünü təbiətin sahibi kimi görməsi kimi bir baxışın olduğu müəyyən edilir.[2]

Sənayeləşmə ilə artan əhali sayı və bunun nəticəsində sürətli urbanizasiya təbiətin məhvinə səbəb olsa və bu, insanların əleyhinə çevrilsə də,[7] bizim ətraf mühitə qarşı indiki davranışımızın qismən qədim zamanlardan gələn şüurun davamı olduğunu düşünməyə əsaslarımız var. Nümunə olaraq, bugünkü ekoloji böhranın tarixinə nəzər salsaq, yəhudi-xristian inanclarının və Əhdi-Ətiqin "insanlar torpağa hökm etməlidir" əmrinin başlanğıcına qayıda bilərik.[18] Bu səbəbdən də ekoloji böhranın mənbəyi kimi əhali probleminə diqqət yetirilmişdir.

## Maltusdan öncə əhali ilə bağlı mülahizələr

Cinsiyyət bərabərliyi, əhalinin keyfiyyət və mülk baxımından tənzimlənməsi onun ideal vəziyyəti haqqında qədim yunan filosofu Platon yazmışdır. [21] Platon özünün ideal əhali siyasətini tərtib etmiş və dövlətin yaşaması və inkişafı üçün əhali ilə torpaq arasında birbaşa əlaqə yaratmaqla torpağı 5040 hissəyə bölmüşdür. Bu ideal dövlət mükəmməl və əlçatmaz olsa da, əhalinin sayı 5040 ailə olaraq göstərilir. [1] Tarazlığı təmin etmək üçün hər ailədən bir qız və bir oğlan dünyaya gətirmək tələb edilib. Platonun fikrincə, əgər əhali artımında dəyişiklik baş verərsə, ideal qurulmuş sistem "artıq" insan sayısını ixrac edəcək və bunun əksi olarsa, yəni əhalinin sayında azalma müşahidə edilərsə bu çatışmazlıq idxal hesabına kompensasiya edilərək tarazlanacaq. [10]

Aristotel dövlətin özünü təmin etməli olduğunu vurğulamışdır. Onun fikrincə, bunun üçün polisdə yaşayan insan sayı və onlara çata biləcək torpaqların olması çox vacibdir. Keyfiyyətli siyasi mühit və yaxşı idarəçilik formasının qurulması üçün cəmiyyət nə çox böyük, nə də lazım olandan kiçik olmalıdır. Lakin, Aristotel polisdə yaşayacaq dəqiq insan sayını qeyd etmir çünki, onun fikirlərinə görə dəqiqləşdirilməli olan rəqəm hər polis üçün fərqli olmalıdır. Təbii ki, bu ideal rəqəmə çatmaq Aristotel üçün çox çətin bir məsələ olaq qalır [1].

Əhali sayının artmasının ən mühüm səbəblərindən biri kimi iqlim göstərilir və bu hər bir ölkədə əhalinin sayı ilə bu əhalinin yaşamaq imkanları arasındakı nisbətin nəzərə alınmasının vacibliyi vurğulanır. Monteskye, əhali prinsipini; "varlığın ölçüsü əhalinin ölçüsü ilə birlikdədir" şəklində vurğulayır [21].

Adam Smit isə "Millətlərin sərvəti"ndə bir ölkənin sərvətinin artmasının ən bariz göstəricisi kimi əhalinin artımını göstərir və ərzaq təminatı ilə insan növünün çoxalması arasındakı əlaqəyə toxunaraq, xalqın kasıb hissəsinin qida çatışmazlığının olduğunu, hətta yaxşı nikahlardan doğulan uşaqların əksəriyyətinin də ölümünə səbəb olacağını vurğulayır. [21]

## Tomas Maltus və əhali nəzəriyyəsi

Əhali artımı ilə yaşayış səviyyəsi arasında müasir əlaqənin mənşəyini anlamaq üçün geriyə qayıdıb məşhur ingilis iqtisadçısı Tomas Robert Maltusun yazılarını öyrənmək lazımdır. Maltus "Əhali haqqında" yazısının ilk versiyasını dərc etdirəndə otuz iki yaşlı kilsə keşişi idi, daha sonra 1805-ci ildə Heileybury Şərqi Hindistan Kollecində siyasi iqtisad professoru oldu. Sağlığında (1798, 1803, 1806, 1807, 1817, 1826) 6 dəfə dərc edilmiş Maltusun "Əhali haqqında esse" kitabı maarifçilik dövrünün ümumi ruhu və Fransız İnqilabı prinsipləri ilə uyğun gəlməklə yanaşı, həm də siyasi iqtisadiyyat işi olaraq onun "təbiətşünas pastor" olmağının da bir göstəricisi idi. [8]

Əhali artımının həmişə qida ehtiyatlarından kənara çıxmağa meyilli olacağını və bəşəriyyətin çoxalma baxımından təkmilləşməsinin sərt məhdudiyyət olmadan mümkün olmadığını düşünən Maltus yazılarında insanın mükəmməláşdirilə biləcəyinə inanmadığını açıq şəkildə ifadə etməkdədir. Onun fikirlərinə görə, bəşəriyyətin varlığından bu günə qədər insan təbiətinə aid heç vaxt dəyişməyən iki əsas qanun var. Bunlar: 1) İnsanın var olması üçün qidalanma ən vacib şərtdir; 2) Cinsiyyətlər arasındakı ehtiras imperativdir və bunun gələcəkdə dəyişməyəcəyinə inanır. Maltus bu fərziyyələrə əsaslanaraq əhali artımının qida istehsalından daha çox olduğunu bildirir. Nəzarət olunmadıqda əhali həndəsi, qida imkanları isə arifmetik silsiləylə artır. Digər sözlərlə, bu iki dəyişən bərabər tutulmalıdır. Dünya əhalisini rəqəmlə götürsək insan növünün 1,2,4,8,16,32,64,128,256,512..., qida resurslarının isə 1,2.3.4,5,6,7,8,9,10... şəklində artdığını görərik. Buradan yola çıxaraq iki yüz iyirmi beş ildən sonra əhalinin ərzaq imkanlarına nisbəti 10-a 512 olacaqdır. Bu məqamda Maltusun ən mühüm sualı isə belə olmuşdur: "Bəşəriyyət bundan sonra sürətlənmiş və qeyri-məhdud inkişafa doğru hərəkət etməlidir, yoxsa arzuladığı məqsəddən uzaqda qalmalıdır?". [12]

Bunun əksinə, Maltusun rəqibi, maarifçi utopik və radikal ingilis mütəfəkkiri Uilyam Qodvin isə əhalinin dolanışıq vasitələri ilə həmişə tarazlıqda olmağa meyilli olduğunu və əhalinin heç vaxt yaşayış vasitələrini aşmayacağını iddia edirdi. [8]

## Maltusa görə əhalinin təbii qanunlar ilə "tarazlanması"

Maltus "Siyasi İqtisadiyyatın Prinsipləri" əsərində yazır ki, insanlar nəzəri olaraq təkcə Yer kürəsini deyil, Günəş sistemindəki bütün planetləri doldura bilər, lakin bu müharibələr, aclıq və digər qeyri-sağlam hadisələr və növlər arasında rəqabətlə kompensasiya olunur.[15] Maltusun "əhali prinsipinə" görə əhali artımı dünyanın sərhədləri ilə deyil qida imkanları ilə ölçülməlidir. Burada əsas məsələ əhali artımına qoyulacaq məhdudiyyətlərin hər zaman var

olmasıdır. Maltus bu məhdudiyyətləri "pozitiv" və "profilaktik" olaraq ikiyə ayırır. Profilaktik məhdudiyyətlər doğumları azaltmağa, müsbət məhdudiyyətlər isə ölümləri artırmağa yönəlmiş bir prosesdir. Müsbət məhdudiyyətlər arasına epidemiyalar və müharibələri daxil edən Maltus, Avropa tarixini araşdıraraq bu qənaətə gəlir ki, yüksək əhali artımına zərər verən keyfiyyətsiz qida və məhdudlanmış məkan epidemiyaların yaranmasına səbəb olur.[8] Bununla da epidemiyaları ortaya çıxaran səbəblərin əhali sayının çoxluğu, keyfiyyətsiz və az qidalanmanın yaratdığını iddia etmişdir. [12] Darvin, Maltusdan təsirlənərək, "Növlərin Mənşəyi" əsərində insan da daxil olmaqla, hər hansı bir növün təbiətdə məhdud bir ərazidə son dərəcə əlverişli şərait tapması və saylarının artmağa başladığı zaman epidemiyaların da başladığını müdafiə edirdi. [6] Maltus profilaktik məhdudiyyətlərə əxlaqi təmkin (moral restraint) kimi davranışları özündə birləşdirən gec evlilik, şüurlu cinsi qaçınma, gələcək valideynlərin uşaqlara qarşı məsuliyyət hissi və s.daxil edir.[8] Daha sonra o yazısında qeyd edir ki, təbiətin əhali sayını azaldan başqa səbəbləri olmasaydı , şübhəsiz, hər ölkədə mütəmadi epidemiyalar və qida çatışmamazlığı olardı. Maltus həmçinin, gənclər arasında evlilik həvəsinin olmaması və bunun nəticəsində yaranan pis vərdişlər, müharibə, dəbdəbə böyük şəhərlərdə əhalinin azalmasına gətirib çıxaracaq, beləliklə, dağıdıcı epidemiyalara ehtiyac qalmayacağı haqqında yazır. Torpaqların hər kəsi doyurmayacağını anlayan və bəzi insanları uzaq yerlərə yerləşdirməyə göndərən Qədim Yunanlılardan fərqli olaraq, Amerika və Hindistan müstəmləkələri zərurətlə qurulmamışdır. [12]

Getdikləri yerlərdə ölkələrindəki itaət, nizamlı hökumət anlayışı, idarəçilik və s. alışqanlıqları özləri ilə aparan müstəmləkəçilər bir müddət sonra becərə biləcəklərindən daha çox torpaq əldə etdilər. Bu torpaqlar böyüdükcə torpaqları əkib-becərmək üçün kənardan daha çox işçi tələb olunurdu və xaricdən gətirilən bu işçilər də yüksək maaşla işlədikləri üçün bir müddət sonra özləri torpaq alaraq iş yerlərini tərk etdirdilər. Maaşların və həyat standartının yüksək olması daha çox nikaha və bu da əhalinin sayının artmasına səbəb olmuşdur. Şimali Amerikadakı İngilis koloniyalarının əhalisinin 20-25 ildə iki dəfə artdığını deyən Smith, bu artımın səbəbinin təkcə immiqrasiya deyil, həm də doğum nisbətinin artması olduğunu göstərir. Bu dövrdə əmək haqqı yüksək olduğundan, uşağa yük kimi deyil, pul mənbəyi kimi baxılır. [19] Nəzarətsiz əhalinin davamlı olaraq heyrətamiz sürətlə artdığını müstəmləkələri misal çəkən Maltus, cəmiyyətdə qidanın təmin edilməsi ilə əhalinin daha da sürətlə artacağını və bu artımın sonsuza qədər davam edəcəyini vurğulayır.[8] Öz sərt tövsiyələrində tez-tez Tanrıya müraciət edən Maltus təbii teoloji ənənənin bir üzvü olaraq təbii qanunların prioritet olduğunu vurğulayır. [12]

Əhali artımını təmin edən və ya bir şəkildə əhali artımını təşviq edən sosial ədalət vasitələrinin aradan qaldırılması lazım olduğunu düşünən Maltus, xüsusilə insanların problemlərini həll etmək üçün çıxarılan İngiltərənin

Yoxsulluq Qanunlarına da qarşı idi. (Maltus, 56) Bu qanunların yoxsulların vəziyyətini ağırlaşdırdığını vurğulayaraq deyir:

"Fərz etsək ki, indiki on səkkiz pens maaşı varlıların lütfü ilə beş şillinqə yüksəldilib, bəlkə də bu insanların rahat yaşayacaqları və hər gün şam yeməyində bir tikə ət yeyəcəkləri düşünülə bilər. Amma bu, çox yanlış bir nəticə olardı. Hər bir işçiyə hər gün üç şillinq altı pens vermək ölkədə ətin miqdarını artırmır. Hal-hazırda hər kəsin layiqli bir hissə alması üçün kifayət qədər ət yoxdur. Bəs nəticə nə olacaq? Ət bazarında alıcılar arasında rəqabət qiyməti tez bir zamanda altı pensdən yeddi pens, iki və ya üç şillinqə qaldıracaq və əmtəə indi olduğundan artıq insanlar arasında bölünməyəcək. Məhsul az olanda və hamıya paylanmayanda, ən həyati imtiyazı göstərə bilən, yəni ən çox ödəyən şəxs sahibi olur". [12]

Bu qanunların qida imkanlarını artırmadan əhalinin artmasına təkan verdiyini deyən Maltus, yoxsul birinin bu qanunların köməyi ilə özünü dolandıra biləcəyini düşündüyünü və beləliklə, evlənərək daha çox yoxsulların ortaya çıxacağını vurğulayır. Buna görə də o, yeməyi hamıya daha kiçik nisbətdə paylamalı olacaq və layiq olmayan yoxsullara pay verməklə layiqlilərin vəziyyəti daha da pisləşəcək. [8]

Bu dövr, yəni XVIII əsrin sonu və XIX əsrin əvvəllərində İngiltərədə Sənaye İnqilabı və kapitalizmin inkişafı ilə zənginlərin, yəni mülk sahiblərinin və yoxsulların, yəni fəhlə sinfinin mövcudluğu, diqqət çəkir. [8] Sənayeləşmə ilə cəmiyyətdə köklü sosial, iqtisadi və fəlsəfi dəyişikliklər baş vermişdir. Əvvəlcə sərvət artımı ilə diqqət çəkən bu dövrdə daha sonra istehsalçı investisiyasına gedən sərmayədə artım qeyd edildi. Sərvət artsa da, onun bölgüsü demək olar ki, eyni qaldı. [14] Sosial rifah, səhiyyə şəraitinin yaxşılaşdırılması və kənd təsərrüfatında baş verən inqilab əhalinin sayının artmasına səbəb oldu. Bundan əlavə, Avropada əhalinin artımı, xüsusən də kənddən şəhərə miqrasiya və urbanizasiyanın da sürətinin artması ilə kütləvi miqrasiya müşayiət olundu. Əhalinin artması yoxsulların vəziyyətini daha da pisləşdirdi. İşçilərin sayı bazardakı iş nisbətindən çox olduğundan, əmək haqqı da azalmışdır. Beləliklə, işçilər əvvəlki kimi qazanc əldə etmək üçün daha çox işləməli oldular. İqtisadçı Richart Cobden fəhlə sinfinin öz səyləri ilə şəraitini yaxşılaşdırması lazım olduğunu müdafiə edərkən, Çarlz Darvin (2019)[6] isə "ən güclünün sağ qalması" ifadəsi ilə ümumiləşdirilən "təbii seçmə nəzəriyyəsi"ndə ifadə edildiyi kimi, təbiətə ən yaxşı uyğunlaşacaq insan sağ qalacaq ifadəsini işlədir. Bundan təsirlənən Herbert Spenser də cəmiyyətdəki bərabərsizlikləri təbii görür və burada da ən güclülər sağ qaldığını söyləyir.[11] Əməyin maya dəyərinin aşağı salınması yoxsulların vəziyyətini daha da ağırlaşdırdığı halda, zənginlərin vəziyyətini daha da yaxşılaşdırdı və onların artan kapitalı ilə daha çox işçi işə götürməsinə şərait yaratdı. [12]

**Maltus və müasir ekoloji problemlər**

Əhali ilə yaşayış vasitələri arasında müasir münaqişənin mənşəyini tapmaq üçün bu gün də Maltusun yazılarını tədqiq etmək lazımdır. XVIII əsrdə elm və texnologiyanın dəstəklədiyi sənaye kapitalizminin inkişafı ilə öz nəzəriyyəsini irəli sürən Maltusun ideyaları sonra da və bu gün də ekosentrizmin əsasını təşkil etməkdədir. [15]

Maltus XVIII əsrdə diqqətini ayrı-ayrı ölkələrdə ərzaq təminatı ilə əhali arasındakı əlaqəyə yönəltdiyi halda, XX əsrin sonlarında bir çox ekoloji problemlərin daha da kəskinləşməsi ilə Maltusun ideyaları Erlix və Hardin tərəfindən yenidən dilə gətirilməyə başlandı. Hər iki mütəfəkkir qlobal ekoloji böhranı heyrətamiz və emosional metaforalarla modelləşdirməyə çalışmışlar ki, onların real vəziyyətlə uyğunluğu şübhə doğurur. Erlixin fikrincə, problemlər yalnız qida və əhali arasındakı tarazlığı nəzərə almamızı tələb edərsə daha sadə olar. Lakin ətraf mühitdə artan disbalans hər hansı qida-əhali fərqindən daha çox ölüm və bədbəxtliyə səbəb ola bilər.

Maltusun ideyalarından ilhamlanan Erlix və Hardin də yaşayış vasitələrini, əsasən, qida təminatı üzərinə qururlar. Bundan əlavə, bu gün "Böyümə məhdudiyyətləri" ekoloji böhranlara səbəb olduğu düşünülən beş amili araşdırır: əhali, qida istehsalı, sənayeləşmə, çirklənmə və təbii ehtiyatların istehlakı. Bu beş elementin artması ilə bəşəriyyətin fəlakətə sürüklənəcəyinə inanılır.

Ümumilikdə əhali problemi 1960-cı illərdən başlayaraq ekoloji problemlərin mühüm gündəm məsələlərindən biri olmuşdur. Bu mövzuda hazırlanmış bütün konfrans və görüşlərdə əhalinin həddindən artıq artımının gələcək nəsillər üçün təhlükə yaratdığı bildirilir. Əhali problemi də bu gün çox aydın problemdir; bir şey edilməlidir, lakin tam olaraq nə, kiminlə və necə sualları müzakirə mövzusudur. Buna görə də əhali problemi bu gün “tabu” mövzu olaraq qalır.

Bəs, ekoloji problemlərin kökü həqiqətən bu gün həddindən artıq çox olan əhalidirmi?

Məhdud resurslara görə heç bir növ, insan da daxil olmaqla sonsuz populyasiya artımının dəstəklənə bilməyəcəyi qanununu ləğv edə bilməz. Başqa sözlərlə, Maltusun əhalinin həddindən artıq artımı və onun nəticəsi olaraq qida çatışmazlığı düşüncələri hələ də aktualdır. Sürətlə artan əhalinin qida və başqa ehtiyaclarının ödənilməsi təbii ki, ekoloji təsirlərin daha da çoxalmasına gətirib çıxarır. Bu zaman isə ekoloji böhranın həlli kimi cəmiyyətdə insan-ətraf mühit münasibətlərinə yenidən baxılması və daha bütöv bir etik anlayış yaratmağın vacibliyi ortaya çıxır. Bu kontekstdə isə ekoloji etikanın qurulması, cəmiyyətdə ekoloji və istehlak şüurunun dəyişdirilməsi əhəmiyyət qazanır.

**Ədəbiyyat:**


1. Ağaoğulları, Mehmet Ali, Sokrates'ten Jakobenlere Batı'da Siyasal Düşünceler.(İstanbul:İletişim Yayıncılık, 2016)
2. Armstrong, J.S,Botzler, R.G. “Environmental Ethics: Divergence and Convergence”, (New York:McGraw-Hill,1993)
3. Baron de Montesquieu, Charles louis de secondat, Kanunların Ruhu Üzerine, Çev.Fehmi Baldaş,( İstanbul:Hiperlin Yayınları, 2011), s. 66
4. Cairns, John J., “The Study of Ecology and Environmental Management, Reflections on The İmplications of Ecological Hystory”, Environmental Management and Health, 1995
5. Capra, Frijof, Batı Düşüncesinde Dönüm Noktası ,Çev.Mustafa Armağan,( İstanbul: İnsan Yayınları, 1992),
6. Darwin, Charles, Türlerin kökeni. Çev.Bahar Kılıç (İstanbul:Alfa Basım Yayım Dağıtım San. Ve Tic.Ltd.Şti, 2019),
7. Fikri Gül,”İnsan-Doğa İlişkisi Bağlamında Çevre Sorunları ve Felsefe”Pamukkale Üniversitesi Sosyal Bilimler Enstitüsü (SBE) Dergisi, Sy.14 (2013), 17-21
8. Foster, John Bellamy, Marx'ın Ekolojisi. Materializm ve Doğa.Çev.Ercüment Özkaya, (Ankara:Epos Yayınları, 2000)
9. Görmez, Kemal, Çevre Sorunları,(Ankara: Nobel Akademik Yayıncılık Eğitim Danışmanlık TİC.LTD.ŞTİ.2018)
10. Heater, Derek, Yurttaşlığın kısa tarihi.Çev. Meral Delikara Üst, (Ankara:İmge Kitabevi Yayınları,2007).
11. Heywood, Andrew, Siyasi İdeolojiler, Çev.Levent Köker (Ankara:BB101 Yayınları,2018)
12. Malthus, Thomas R. Nüfus İlkesi, Çev. Çağla Taşkın, (İstanbul: Pinhan Yayıncılık, 2017)
13. Marx, Karl ve Friedrich Engels, Alman İdeolojisi ,Çev. Tonguç Ok, Olcay Geridönmez,(İstanbul: Evrensel Basım Yayın, 2013)
14. Pareto, Vilfredo, Demokrasinin Dönüşümü, Çev.Kadir Zeki Tezer ( İstanbul:Pinhan Yayıncılık,2016)
15. Pepper , David, Modern Environmentalism.An İntroduction. (Taylor & Francis e-Library,2003)
16. Ponting, Clive, Dünyanın Yeşil Tarihi. Çevre ve Büyük Uygarlıkların Çöküşü.Çev. Ayşe Başçı(İstanbul:Sabancı Üniversitesi Yayınları,2008), s.109
17. Porritt, Jonathon, “Yeşil Politika”, Çev.Alev Türkel, (İstanbul:Renk Yapımevi, 1989),
18. Radkau, Joachim, Doğa ve İktidar.Global bir Çevre Tarihi, Çev.Nafiz Güder,(İstanbul:Türkiye İş Bankası Kültür Yayınları,2017),

19. Smith, Adam, Uluslarin Zenginliği, Çev.Metin Saltoğlu, (Ankara:Palme Yayıncılık,2017),
20. Şenel, Alaeddin, Kemirgenlerden Sömürgenlere İnsanlık Tarihi, İmge KitabEvi, 2.baskı, 2009
21. Welling, James C. "The Law of Malthus", American Anthropologist, Vol. 1, No. 1 (Jan., 1888), pp. 1-24
22. Birleşmiş Milletler "Dünya Nüfusu Dinamikleri" hesabat, 2018

## ABSTRACT

## THE ASSESSMENT OF ENVIRONMENTAL PROBLEMS FROM THE POSITION OF "POPULATION THEORY" THOMAS R. MALTHUS

**Nazarli G.A.**
*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan*
*Department of Sustainable Development Planning and Management, Lecturer*
*PhD Candidate, Ankara Hacı Bayram Veli University*

Today, humanity is experiencing not only the fastest period of change in its history but also facing global challenges, especially the global environmental crisis.

In the last fifty years, two trends have been observed in the world at the same time. These are 1) sharp population growth and resource depletion; 2) high growth in environmental degradation. It should be noted that the sharp increase in population also increases the pressure on the environment. One hundred fifty years ago, Thomas R. Malthus expressed his concern about these tendencies in his controversial and unambiguously interpreted Population Theory. T. Malthus' views on the population continue to influence economic and social thought today.

The theoretical framework of this article is based on Thomas R. Malthus's "Population Principles" theory.

Based on this theory, population growth and its causes have historically been investigated. Whether population growth is a major factor in environmental problems, the close relationship between poverty and environmental degradation has been examined. In general, human-environment relations have been proposed for study to be restored on more sustainable models.

**Keywords:** *environtental issues, Malthus theory, population growth, environtental impacts, environment*

## РЕЗЮМЕ

## ОЦЕНКА ЭКОЛОГИЧЕСКИХ ПРОБЛЕМ С ПОЗИЦИИ "ТЕОРИИ ПОПУЛЯЦИИ" ТОМАСА Р. МАЛЬТУСА

**Назарли Г.А.**
*Преподаватель кафедры Планирования и управления устойчивым развитием Академии Государственного Управления при Президенте Азербайджанской Республики, докторант Университета Анкара Гаджи Байрам Вели*

Сегодня человечество переживает самый быстрый период перемен в своей истории, но оно также сталкивается с глобальными вызовами, прежде всего с глобальным экологическим кризисом.

В последние пятьдесят лет в мире наблюдаются одновременно две тенденции. Это: 1) резкий рост населения и истощение ресурсов; 2) высокий рост деградации окружающей среды. Следует отметить, что резкий рост населения также увеличивает нагрузку на окружающую среду. 150 лет назад Томас Р. Мальтус выразил обеспокоенность этими тенденциями в своей противоречивой и неоднозначно интерпретируемой Теории народонаселения. Взгляды Т. Мальтуса на народонаселение и сегодня продолжают оказывать влияние на экономическую и социальную мысль.

Теоретическая основа этой статьи основана на теории «Принципа Народонаселения» Томаса Р.Мальтуса. На основе этой теории исторически были исследованы рост населения и его причины, действительно ли рост населения является основным фактором экологических проблем, была исследована тесная связь между бедностью и деградацией окружающей среды, и в целом отношения человека и окружающей среды были предложены для изучения. восстановлены на более устойчивых моделях.

**Ключевые слова:** *экологические проблемы, теория Мальтуса, рост населения, воздействие на окружающую среду, окружающая среда.*

УДК 339.9.01

# ОСОБЕННОСТИ ВЗАИМОДЕЙСТВИЯ НАЦИОНАЛЬНЫХ ФЕДЕРАЦИЙ И МЕЖДУНАРОДНОЙ ФЕДЕРАЦИИ СПОРТИВНОГО ОРИЕНТИРОВАНИЯ В СФЕРЕ РЕГУЛИРОВАНИЯ СПОРТИВНОГО ОРИЕНТИРОВАНИЯ И ЕГО МЕЖДУНАРОДНОЙ ПОПУЛЯРИЗАЦИИ

**Шарифов П.И.**
*Студент ФГАОУ ВПО «Российская академия народного хозяйства и государственной службы при Президенте Российской Федерации», г. Москва*

*Во всем мире, и в Азербайджане в том числе, важную роль играют стандарты, которые устанавливаются участниками спортивного ориентирования самостоятельно. Такие стандарты по определению не могут быть ниже государственных или международных, поэтому способствуют повышению качества работ и безопасности спортсменов и окружающей среды. Такие стандарты в первую очередь направлены на внедрение специфического опыта, собственных наработок в сфере спортивного ориентирования, инженерных инноваций и новых технологических подходов.*

**Ключевые слова:** *правовое регулирование, спортивное ориентирование в Азербайджане, правовой статус международного спортивного движения*

Рассмотрим особенности соотношения правового и технического регулирования в сфере спортивного ориентирования. Согласно Закону Азербайджанской Республики от 17 мая 2019 года №1587-VQ «О стандартизации» государственные стандарты Азербайджана содержат обязательные и рекомендательные требования [1]. Техническое регулирование осуществляется также с помощью государственных стандартов. Существует четкая структура государственных стандартов по системе ГОСТ-Р, действующих в Азербайджане.

В сфере спорта существует более 1500 государственных стандартов, которые структурированы по следующим сериям: 13, 21, 23, 71, 75, 77, 83, 91 [2, с. 13]. Основными следует считать стандарты серии 75, среди которых принято 450 специализированных стандартов. Из них половина стандартов регулируют методику измерений и испытаний. 30% указанных стандартов устанавливают технические условия для конкретных видов спорта. Около 100 ГОСТов представляют из себя спортивные классификаторы, а также нормы безопасности [3, с. 130].

В этом контексте важно рассмотреть вопросы ответственности международных организаций и организаций, действующих на территории Азербайджанской Республики, в сфере спортивного ориентирования. Дееспособность юридического лица зависит от нескольких факторов. В первую очередь, от формы собственности образованного юридического лица и от цели его деятельности. Так, дееспособность юридического лица часто ограничена его видом деятельности, отсутствием или наличием лицензии на определенный вид деятельности, если такая лицензия требуется. Также дееспособность юридического лица во многих случаях определяется его состоятельностью. Так, если юридическое лицо не способно отвечать по своим обязательствам текущими активами, его дееспособность может быть ограничена в рамках процедуры банкротства, и был рассмотрен порядок этой процедуры. В следующей части работы будут подробнее рассмотрены отдельные виды и категории ответственности юридических лиц.

Деликтоспособность мы считаем элементом правосубъектности, и она означает способность нести ответственность за совершенные правонарушения. Полагаем, что стоит выделять деликтоспособность именно как отдельный элемент, и этому есть несколько причин. Понятие юридической ответственности активно исследуется в юридической литературе и постоянно усовершенствуется благодаря тому, что авторы используют различные подходы к рассмотрению определения. При этом общие принципы понимания основ юридической ответственности, конечно, остаются в целом неизменными.

В настоящее время в юридической практике есть необходимость конкретизации правового статуса публично-правовых образований при их участии в каждом отдельном правоотношении, так как Азербайджанской Республики, муниципальные образования Азербайджанской Республики могут выступать как участники правоотношений (через учрежденные ими юридические лица), так и в качестве контролирующей инстанции – субъекта привлечения к ответственности.

Основными видами ответственности юридических лиц, по общему мнению, являются административная и гражданско-правовая ответственность. В данной части работы рассмотрены отдельные способы привлечения юридических лиц к каждому виду ответственности. В качестве отдельного вида ответственности юридических лиц многие авторы, выделяют налоговую ответственность. Развитие масштабов налоговых правонарушений в создающихся, и постоянно меняющихся кризисных реалиях современной Азербайджанской Республике мы отметим как главную особенность системы налогов и сборов.

Юридическое лицо может нести гражданско-правовую ответственность. Однако данную ответственность можно разделить на два вида. В

предыдущей части работы было сформулировано понятие деликтоспособности. По нашему мнению, это способность юридических лиц нести ответственность и отвечать по обязательствам, возникшим из причинения вреда, или из нарушения действующего законодательства или договора. То есть гражданско-правовые обязательства в форме ответственности могут возникать, по общему правилу, из причинения вреда, или из нарушения действующего законодательства или договора.

Особенностью ответственности юридических лиц в данном случае является то, что, с одной стороны, фактически действия совершаются и порождаются волей физических лиц, действующих в определенных правоотношениях от имени юридического лица. Однако, с другой стороны, в большинстве случаев воля самого юридического лица совпадает с волей тех физических лиц, которые являются его фактическими представителями. Однако в этом контексте возникает некоторая правовая неопределенность. В ГК Азербайджанской Республики установлены формы вины (умысла или неосторожности) при совершении нарушения договорных отношений. Однако данные формы вины, по своей сути, не могут быть применимы к юридическому лицу, так как для наступления ответственности юридического лица не имеет значения, как действовал его представитель – с умыслом или без него. Как типовая, вина юридического лица не несет никакой правовой сути для его ответственности.

Как и в случае с гражданско-правовыми отношениями, так и в вопросе административной ответственности юридических лиц процесс привлечения их к ответственности обладает определенными особенностями. Понятие о расследовании во время процесса по административному делу считается разновидностью хода процесса доказывания, пред-полагает собою независимую также нужную работу субъектов доказывания в правоприменительной области, равно как и само выявление правонарушения. Можно сказать, что выявление и расследование правонарушение, а также итоговый акт государственного органа являются этапами привлечения юридических лиц к административной ответственности.

Следует отметить, что существуют основные принципы доказывания, то есть процессуальные условия доказывания согласно процессу привлечения юридических лиц к административной ответственности. Помимо принципа законности обязано учитываться такого рода главное положение, как свобода конкуренции. Как упоминалось в начале работы, Азербайджанская Республика, муниципальные образования в Азербайджанской Республике могут выступать как участники правоотношений (через учрежденные ими юридические лица), так и в качестве контролирующей инстанции – субъекта привлечения к ответственности юридических лиц, что может сказываться на заинтересованности некоторых юридических

лиц и исходе административного расследования, а также служить своеобразным инструментом давления.

Собственное представление административная ответственность обретает в правоотношении, складывающемся среди органов власти, которые могут, со своей стороны, осуществлять воздействие в виде административной ответственности, также непосредственны участником, виновным в каком-либо правонарушении. Сущность этого административного правоотношения состоит во этом, то что государственное или муниципальное должностное лицо использует во взаимоотношении с лицом, виновным в каком-либо правонарушении, предустановленную законом санкцию, и этот субъект испытывает конкретные воздействия в виде материальных или организационных убытков, как следствие использования данной санкции

Ввиду специфики такой области деятельности, как регулирование спортивного ориентирования, основным принципом регулирования является партнерство между органами, представляющими отрасль, органами государственной власти, осуществляющим связанную деятельность. Основными существенными вопросами являются безопасность спортсменов, безопасность сотрудников предприятий отрасли и ведомств, прогнозирование и предотвращение возможных аварий, устранения последствий нанесенного вреда ввиду аварий или иных случаев, создание конкурентной среды [5, с. 237].

**Литература:**


1. Закон Азербайджанской Республики от 17 мая 2019 года №1587-VQ «О стандартизации» // Собрание законодательства Азербайджанской Республики от 31 июля 2019 года №07, статья 1175.
2. Колышкин, А.Е. Техническое регулирование. Основные положения: учебное пособие. – Москва: Академия стандартизации, метрологии и сертификации. – 2019. – 96 с.
3. Сопин, В.Ф., Приймак, Е.В. Система технического регулирования в схемах и таблицах: учебное пособие. – СПб.: Проспект Науки. – 2016. – 202 с.
4. Камышова, Н.В. Современная концепция развития технического регулирования в Азербайджане: учебно-методическое пособие. – СПб.: Университет ИТМО, Институт холода и биотехнологий. –2017. – 120 с.
5. Техническое регулирование. Правовые аспекты реформы : под ред. Гапановича В.А. – Москва: Научный эксперт. – 2017. – 380 с.


## ABSTRACT

## PECULIARITIES OF INTERACTION OF NATIONAL FEDERATIONS AND THE INTERNATIONAL FEDERATION OF SPORTS ORIENTATION IN THE SPHERE OF REGULATING SPORTS ORIENTATION AND ITS INTERNATIONAL POPULARIZATION


**Sharipov P.I.**
*Russian Academy of National Economy and State Services under the President of the Russian Federation, Student*



All over the world, including Azerbaijan, an important role is played by independent standards set by orienteering participants. Such standards, by definition, cannot be lower than national or international ones; therefore, they contribute to improving the quality of work and the safety of athletes and the environment. Such standards are primarily aimed at introducing specific experience, own developments in orienteering, engineering innovations, and new technological approaches.



**Keywords:** *legal regulation, orienteering in Azerbaijan, the legal status of the international sports movement*

## XÜLASƏ

# İDMAN ORİYENTASİYANIN VƏ ONUN BEYNƏLXALQ POPULYARLAŞMASININ TƏNZİMLƏMƏSİNİN SAHƏSİNDƏ MİLLİ FEDERASİYALARIN VƏ İDMAN ORİYENTASİYANIN BEYNƏLXALQ FEDERASİYASININ QARŞILIQLI TƏSİRİNİN XÜSUSİYYƏTLƏRİ

**Şərifov P.İ.**
*Rusiya Federasiyası Prezidenti yanında*
*Rusiya Xalq təsərrüfatı və dövlət qulluğu*
*akademiyasının tələbəsi*

Bütün dünyada, o cümlədən Azərbaycanda səmti müəyyən etmə iştirakçılarının müstəqil olaraq müəyyən etdikləri standartlar mühüm rol oynayır. Bu cür standartlar, tərifinə görə, dövlət və ya beynəlxalq standartlardan aşağı ola bilməz, buna görə də iş keyfiyyətinin, idmançıların və ətraf mühitin təhlükəsizliyinin yaxşılaşdırılmasına töhfə verir. Bu cür standartlar, ilk növbədə, səmti müəyyən etmə, mühəndislik innovasiyaları və yeni texnoloji yanaşmalar sahəsində xüsusi təcrübənin, öz inkişaflarının tətbiqinə yönəlib.

**Açar sözlər:** *hüquqi tənzimləmə, Azərbaycanda idman oriyentasiyası, beynəlxalq idman hərəkatının hüquqi statusu*

UOT 351/354; 351

# AZƏRBAYCANDA İNKLÜZİV İNKİŞAFIN DEMOQRAFİK ASPEKTLƏRİ

**Mustafazadə Ş.A.**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyasının əməkdaşı*
*shovket97@yahoo.com*

*Təqdim olunmuş məqalədə cəmiyyətin və iqtisadiyyatın yeni inkişaf meylləri və istiqamətləri kontekstində onun inküziv inkişafının əhəmiyyəti və xüsusiyyətləri şərh olunmuşdur. Beynəlxalq standartlara əsasən, inklüziv inkişafın vəziyyətinin qiymətləndirilməsi çoxsəviyyəli indikator sistemi əsasında keçirilir. Ölkələrdə həmin indikatorların əsasında iqtisadi, sosial, demoqrafik, ekoloji parametrlər müəyyən edilir. Müasir dövrdə ölkənin inklüziv inkişafı sahəsində demoqrafik indikatorlar özünəməxsus yer tutur. Ümumilikdə, mövcud demoqrafik proseslərin təhlili əsasında bu sahənin gələcək inkişaf istiqamətlərini və həyata keçirilməli olan zəruri tədbirlər əks olunmuşdur. Burada əsas məqsəd əhalinin optimal təkrar istehsalına nail olmaq, ölüm səviyyəsini azaltmaq, orta ömür uzunluğunu artırmaq, ana və uşaqların müdafiəsini gücləndirmək, ailələrin inkişafı üçün əlverişli sosial-iqtisadi zəmin yaratmaq və miqrasiya proseslərinin tənzimlənməsi yollarını müəyyən etməkdən ibarətdir. Həmçinin, inklüziv cəmiyyətin və iqtisadiyyatın formalaşması səviyyəsinin milli və beynəlxalq səviyyədə qiymətləndirilməsi məsələləri araşdırılmışdır. Azərbaycanda milli inklüziv inkişaf indeksinin formalaşdırılmasına və inkişafın inklüzivliyinin beynəlxalq səviyyədə qiymətləndirilməsinə diqqət yetirilmişdir. "Milli Prioritetlər 2030" strategiyasının həyata keçirilməsi üçün demoqrafik göstəricilərin dinamikasının optimallaşdırılması vacibdir.*

**Açar sözlər:** *inklüziv inkişaf, milli prioritetlər, indikator, əhalinin artımı, miqrasiya*

Son dövrlərdə Azərbaycanda həyata keçirilən iqtisadi-sosial islahatlar böyük əhəmiyyətə malikdir. Bu istiqamətdə iqtisadiyyatda yeni inkişaf meylləri və istiqamətləri müşahidə olunur, o cümlədən cəmiyyətdə inküziv inkişafa nail olmasının əhəmiyyəti getdikcə artır. İnklüziv cəmiyyət yoxsul, fiziki və əqli məhdudiyyəti olan insanların və cəmiyyətin digər həssas qrupunun maddi imkanının yaradılması, onlara sosial xidmətlərin göstərilməsi və rifahının artırılmasını nəzərdə tutur. Dünyada inklüziv cəmiyyətin inkişafı üçün bir sıra layihələr həyata keçirilir. İnklüziv inkişafın tənzimlənməsi üçün regional və sektorial aspektdə qiymətləndirmələr aparılmalı və təhlillər edilməli, eləcə də müvafiq analiz indikatorları və metodikalar işlənilməlidir. İnklüzivlik səviyyəsinə təsir edən amillər kompleks şəkildə araşdırılmalıdır. Burada, qanunve-

ricilik aspektində inzibati mexanizmlərdən, təşkilati effektiv tədbirlərdən və müvafiq müasir proqram, aparat-texniki vasitə və texnologiyalardan kompleks şəkildə istifadə olunmalıdır.

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" müəyyən olunmuşdur. 2020-ci ildə ölkəmizin işğal altındakı torpaqlarının azad edilməsi və ərazi bütövlüyünün bərpası ilə nəticələnən tarixi Zəfərdən sonra Azərbaycan keyfiyyətcə yeni strateji mərhələyə daxil olur. Qlobal iqtisadi reallıqlar, eləcə də yeni inkişaf mərhələsində qarşıya qoyulmuş məqsədlər ölkənin uzunmüddətli inkişaf vektorunun, əsas sosial-iqtisadi inkişaf istiqamətlərinin və buna uyğun milli prioritetlərin müəyyən olunmasını tələb edir. 2021–2030-cu illəri əhatə edən Milli Prioritetlər yeni strateji dövrdə qarşıda duran hədəflərə nail olmaq, bunun üçün uyğun siyasət və islahatlar çərçivəsini formalaşdırmaq məqsədi daşıyır [1].

Ölkənin sosial-iqtisadi inkişafına dair aşağıdakı beş Milli Prioritet reallaşdırılmalıdır [1]:

1. dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat;
2. dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət;
3. rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı;
4. işğaldan azad olunmuş ərazilərə böyük qayıdış;
5. təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi.

Qeyd edilən Milli Prioritetlər, eyni zamanda, Birləşmiş Millətlər Təşkilatının "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"dən irəli gələn öhdəliklərin icrası istiqamətində də xüsusi əhəmiyyət kəsb edir.

Bildiyimiz kimi, beynəlxalq standartlara əsasən, inklüziv inkişafın vəziyyətinin qiymətləndirilməsi 12 indikator əsasında keçirilir. Həmin indikatorlarlar ölkələrdə inklüziv inkişafın vəziyyətinin iqtisadi, sosial, demoqrafik və ekoloji parametrlərin əsasında müəyyən edilir [4, s. 59-60].

Qeyd etmək lazımdır ki, müasir dövrün qlobal prosesləri içərisində demoqrafik problem özünəməxsus yer tutur. Bəzi tanınmış mütəxəssislər bu problemi hətta müasir dövrün əsas qlobal problemi kimi qəbul edirlər. Demoqrafik problem əhali artımı məsələsini ictimai inkişafın ciddi problemi kimi ilk dəfə ortaya qoyan və onu əsaslandıran XVIII əsrin sonlarında ingilis keşişi T.R.Maltus olmuşdur. Onun nəzəriyyəsinə görə, əhalinin çoxalması həndəsi silsilə ilə, onun qida ilə təmin olunması imkanları ədədi silsilə ilə artdığı üçün gələcəkdə ortaya çıxacaq qlobal təhlükələrin qarşısını müharibə və digər antihumanist vasitələrlə almaq olar [5, s.254]. Lakin Maltusun qaldırdığı bu problem öz humanist və eyni zamanda qlobal əhəmiyyətini yalnız XX əsrin ikinci yarısında, xüsusən məşhur "Roma Klubu"nda səsləndirilmiş çıxışlarda tapmışdır.

Son dövrlərdə bu məsələyə davamlı şəkildə və sinergetik prizmadan yanaşan tanınmış təbiətşünas alimlərdən S.P.Kurdyumovun, Q.Q.Malinetskinin və xüsusən də S.P.Kapitsanın tədqiqatlarını qeyd etmək olar. Adları çəkilən müəlliflərin birgə nəşr etdirdikləri kitabda [5, s.206-277] demoqrafik problemin bir sıra aspektləri və xüsusən də əhali artımının inkişaf dinamikasını səciyyələndirən riyazi düsturlar çıxarılmış və bu əsasda bəşəriyyətin sayının keçmişdəki, indiki və gələcəkdəki göstəricilərinin əldə olunmasına cəhd edilmişdir. Uzun illərdir ki, bu mövzu dünya ictimaiyyətinin, alimlərin, beynəlxalq forumların diqqət mərkəzindədir. Birləşmiş Millətlər Təşkilatının əhali artımı və inkişaf komissiyasının hesabatlarına əsasən XX əsrdə dünya əhalisi 1.6 mlrd.-dan 6.1 mlrd. nəfərə çatmışdır. Lakin bu period ərzində Ümumi Daxili Məhsul (ÜDM) 40 dəfə artmışdır [8, s.52]. Başqa sözlə dünya əhalisinin 4 dəfə artmasına baxmayaraq istehsalın həcmi dəfələrlə onu üstələmişdir.

XX əsrdə əhalinin sürətlə artması demoqrafik partlayışla nəticələnmişdir. Baş verən bu dəyişikliklər demoqrafik modellərin yaranma zərurətini ortaya çıxartmışdır. I Demoqrafik keçid modeli (yüksək doğum və yüksək ölüm göstəriciləri ilə xarakterik olur). II Demoqrafik keçid modeli (yüksək doğum, aşağı ölüm göstəriciləri ilə müşayiət olunur). Artıq hal-hazırdakı dövrdə inkişaf etmiş ölkələrdə II demoqrafik modelin yeni fazası baş verir. Bu fazada aşağı doğum və aşağı ölüm faktları müşahidə olunur.

BMT- nin ekspertləri tərəfindən işlənmiş və 1990-cı ildə təqdim olunmuş insan inkişafı konsepsiyası davamlı inkişafın əsas və yeganə məqsədini – əhalinin rifahını vurğulayır. Sosial-iqtisadi inkişaf yolunda əhalinin rifahının təminatı hər bir dövlət üçün əsas məqsəd kimi hesab olunur. Beləliklə, insan inkişafı və sosial-iqtisadi inkişaf qarşılıqlı əlaqəlidir və bir-birini şərtləndirirlər. İnsan inkişafının demoqrafik aspektləri əhalinin sağlamlığı, ömür uzunluğu, əhalinin yaşlaşması, doğum, reproduktiv sağlamlıq və digər geniş sahəli məsələləri özündə cəmləşdirir [4, s.27]. Bəşəriyyətin inkişaf tarixi əhalinin təkrar istehsal dinamikasının dəyişməsi ilə sıx bağlıdır. Müasir dövrün qlobal problemləri arasında demoqrafik problemlərin həllinin vacibliyi və mühümlüyü bütün dövlətlər tərəfindən qəbul edilmişdir. Əhalinin qocalması prosesinin güclənməsi ictimaiyyətin qarşısında ciddi sosial-iqtisadi, sosial-psixoloji, tibbi-sosial və etik problemlər qoyur. Bunların arasında işçi qüvvəsi, ictimaiyyətin iqtisadi yükünün artması, istehlak səviyyəsinin xarakterinin dəyişməsi, ahılların sağlamlığı və tibbi-sosial kömək üçün vəsaitlərin artırılması və s. ilə bağlı problemləri göstərmək olar.

Qlobal və milli səviyyədə davamlı insan inkişafı iqtisadi, sosial və demoqrafik inkişafla birlikdə qarşılıqlı əlaqələrin mürəkkəb sistemini təşkil edir. BMT-nin proqnozlarına görə, dünya əhalisinin sayı hər il orta hesabla 83 milyon nəfər artır. Bu hesabla 2030-cu ildə planetdə 8,6 milyard, 2050-ci ildə 9,8 milyard, 2100-cü ildə11,2 milyard insanın yaşayacağı proqnozlaşdırılır. [8,s.53] Təəssüf

ki, bu artım vektoru sosial ədaləti təmin etmək tərəfə deyil, əks istiqamətə yönəlir. Bu gün dünyada müşahidə olunan əhalinin sürətli artımı ətraf mühitə təsirin kəskin yüksəlməsi və insanların ümumi tələbatının çoxalması ilə ifadə olunur ki, o da yoxsulluğa, iqtisadi geriliyə və ictimai sabitsizliyə gətirib çıxarır. Digər problem əhalinin artım göstəricilərinin bərabər paylanmamasıdır. Artıq uzun zamandır artımın böyük əksəriyyəti Asiya, Afrika və Cənubi Amerika ölkələrinin payına düşür və həmin ölkələr bu səbəbdən, sosial, tibbi, təhsil və digər problemlərlə daha çox üzləşirlər. Lakin nə qədər təəccüblü görünsə də, bu bərabərsizlikdən inkişaf etmiş ölkələr də az əziyyət çəkmirlər. Həmin ölkələrdə əhalinin sayının azalması və yaşlaşma prosesinin sürətlənməsi əmək resurslarının və davamlı inkişafda mühüm rol oynayan gələcək nəsillərin sayının azalması ilə müşayiət olunur.

Belə vəziyyətin fəsadlarını əks etdirən faktlardan birinə nəzər salaq: son 40 ildə əməyin ÜDM-də payı inkişaf etmiş ölkələr üzrə 75 faizdən 65-ə düşmüşdür. Bu gün səmərəli sosial müdafiə ilə dünya əhalisinin cəmi 27 faizi əhatə olunur. [8,s.54]

Məlumdur ki, əhalinin artımını tənzimləməyən və onunla mübarizə aparan ölkələr üçün hələ ki onun universal həlli mövcud deyil, lakin bir sıra regionların təcrübəsi göstərir ki, bu problem həll olunandır. Bunun üçün hər bir ölkənin spesifik xüsusiyyətlərini nəzərə alan uzunmüddətli kompleks proqramların həyata keçirilməsi vacibdir. Bir daha qeyd etmək lazımdır ki, demoqrafik problemlər iqtisadi, sosial, siyasi, ekoloji və başqa problemlərlə sıx bağlıdır. Yuxarıda göstərildiyi kimi, demoqrafik siyasət əhalinin say və struktur dinamikası meyllərini dəyişdirmək və ya saxlamaq üçün əhalinin təkrar istehsalı proseslərinin tənzimlənməsi sahəsində dövlət orqanlarının və digər sosial institutların məqsədyönlü fəaliyyətidir. Başqa sözlə, bu, doğum, ölüm, nikah, boşanma proseslərinə və əhalinin yaş strukturuna təsir edən siyasətdir. Əhalinin təbii artımının çox da yüksək olmayan göstəriciləri ilə xarakterizə olunan təkrar istehsalın birinci tipinə aid olan ölkələrdə aktiv demoqrafik siyasət aparılır. Onun məqsədi doğumu və təbii artımı yüksəltməkdədir. Əsasən iqtisadi vasitələrin istifadə olunduğu(uşaqlara qulluq üçün yardım, gənc ailələrə güzəştli kreditlərin ayrılması, doğumdan sonrakı ödənişli dövrün uzadılması və s.)demoqrafik siyasətin həyata keçirildiyi ölkələrə Fransa, Çexiya, Macarıstan, Avstriya, Danimarka aiddir. Təkrar istehsalın ikinci tipinə aid olan, yəni doğum, ölüm və təbii artımın yüksək göstəriciləri olan ölkələrdə isə, doğumu və təbii artımı azaltmağa çalışırlar. Əhalinin artımından ən çox Çin, Hindistan, Banqladeş, Nigeriya və Vyetnam kimi ölkələr əziyyət çəkir. Bu ölkələrdə güclü ailə planlaşdırılması siyasəti həyata keçirilir [6].

Bu gün Azərbaycanda müasir demoqrafik problemlər istər dövlət, istərsə də elmi ictimaiyyət tərəfindən böyük maraq doğurur. Demoqrafik proseslərin cəmiyyətdə baş verən digər proseslərdən fərqi ondan ibarətdir ki, onların həl-

linin inkar edilməsi cari zaman müddətində hiss olunmur. Lakin uzun illər boyunca onların nəzərə alınmaması gələcəkdə çox mürəkkəb və bəzən həlli mümkün olmayan sosial-iqtisadi fəsadların və hətta ölkənin müdafiə qabiliyyətinin azalmasına səbəb olan proseslərin meydana gəlməsinə səbəb olur.

**Cədvəl 1.** Əhalinin təbii artımı, doğulanlar və ölənlər 2019-2020 illər [2]

| **İllər** | **Nəfər** | | | | **Əhalinin hər 1000 nəfərinə** | | | **Hər 1000 nəfər doğulan 1 yaşadək ölən uşaqlar** |
|---|---|---|---|---|---|---|---|---|
| | təbii artım | doğulanların sayı | ölənlərin sayı | 1yaşadək ölən uşaqlar | təbii artım | doğulanların sayı | ölənlərin sayı | |
| 2019 | 85263 | 141179 | 55916 | 1557 | 8,7 | 14,3 | 5,6 | 11,0 |
| 2020 | 50924 | 126571 | 75647 | 1242 | 5,1 | 12,7 | 7,6 | 9,8 |

Cədvəlin 1 göstəricilərinin əsasında görünür ki, 2020-ci ildə əksər göstəricilər aşağı düşmüşdür. Bu da sözsüz ki, COVİD-19 xəstəliyinin fəsadlarından biridir.

Buna baxmayaraq qeyd etmək lazımdır ki, əhalinin sayının artım tempinə görə Azərbaycan dünya ölkələri arasında hələ də irəlidə gedən dövlətlərdən biridir. Xüsusilə qeyd edək ki, son 120 il ərzində ayrı-ayrı dövrlərdə Azərbaycanın başına gələn fəlakətlər nəticəsində verdiyi böyük əhali itkilərinə baxmayaraq, burada əhalinin sayı yetərincə yüksək templə 5,5 dəfə artmışdır.

2021-ci ilin əvvəlinə Azərbaycan Respublikasının əhalisinin sayı 10119,1 min nəfər olmuşdur. Əhalinin 5358,5 min nəfəri və ya 53,0 faizi şəhər, 4760,6 min nəfəri və ya 47,0 faizi kənd sakinlərindən, 5053,8 min nəfəri (49,9 faizi) kişilərdən, 5065,3 min nəfəri isə (50,1 faizi) qadınlardan ibarətdir. Əhalinin ümumi sayından 22,3 faizi 0-14 yaşda, 70,2 faizi 15-64 yaşda, 7,5 faizi isə 65 və yuxarı yaşda olanlardır [2]. Ümumi əhalinin 23 faizini gənclər (14-29 yaşda) təşkil edir və onların da yarıdan çoxu şəhər yerlərində yaşayırlar. Bütün bu proseslər əhalinin demoqrafik strukturunda, o cümlədən əmək ehtiyatlarının paylanmasında müvafiq dəyişikliklərə gətirib çıxarmışdır.

Müəyyən olunmuşdur ki, müasir qloballaşma dövründə miqrasiya proseslərinin hədsiz intensiv dinamikasını şərtləndirən amillər sırasına aşağıdakılar aid olunur[8,стр.54]:

– əhali artımının demoqrafik tənzimlənməsində mövcud olan tarixi-təbii fərqlər;
– dünyanın əsasən geridə qalmış və inkişaf etməkdə olan ölkələrində əhalinin yüksək artımı templərinin davamlılığı;

– əmək qabiliyyətli əhalinin məşğulluğu ilə işsizlik səviyyəsi arasında disbalans, əmək miqrasiyasının güclənməsi;
– müxtəlif ölkələrdə əhalinin həyat səviyyəsində mövcud olan imkan fərqləri, sosial qütbləşmə və qlobal yoxsulluq probleminin doğurduğu miqrasiya axını;
– "qlobal qocalma" adlandırılan effektin yaranması.

Hazırda miqrasiyaya həm ölkənin daxili bazarında vəziyyətin dəyişmə dinamikası, həm də demoqrafik prosesin tənzimlənməsi prizmasından yanaşırlar. Müasir qloballaşan dünyada demoqrafik problemlərin xarakterik xüsusiyyəti ondan ibarətdir ki, bir ölkədə demoqrafik problem əhalinin təbii artımının azalması, digər ölkədə isə əhalinin yüksək təbii artımı ilə bağlıdır. Təbii artımı aşağı olan və iqtisadi cəhətdən inkişaf etmiş ölkələr bu problemi miqrasiya hesabına həll etməyə çalışırlar [3].

Azərbaycanda müstəqillik dövründən bu günədək baş verən miqrasiya proseslərinin 3 istiqamətini müşahidə edə bilərik: 1-ci mərhələ Ermənistanın torpaqlarımızı işğal etməsi nəticəsində etnik və hərbi xarakter daşıyan məcburi miqrasiya dövrü kimi qiymətləndirilir. Ölkədə bir milyon Azərbaycan vətəndaşı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür, onların dörd yüz mindən çoxunu qadınlar, üç yüz mindən çoxunu isə uşaqlar təşkil edirdi. Yaşadıqları stress, fiziki və psixoloji zorakılıq uzun müddət, bir çox hallarda isə həyat boyu davam etmişdir. Onların yenidən ailəyə, cəmiyyətə inteqrasiyası üçün reabilitasiya işləri daha da gücləndirilmişdir.

Miqrasiya proseslərinin 2-ci istiqaməti əsasən iqtisadi amillərin təsiri ilə formalaşmışdır. SSRİ dağıldıqdan sonra, bir sıra zavod və fabriklər bağlanmış, məşğulluğun səviyyəsi aşağı düşmüşdü. İşsizlik və əmək haqlarının aşağı olması çoxlu sayda azərbaycanlı miqrantın iş axtarışı üçün qonşu ölkələrə üz tutmasına səbəb olmuşdur. Mövcud miqrasiya proseslərində əsasən kişilər iştirak edirlər, qadınlar isə öz uşaqlarını böyütmək və onlara təhsil vermək, həmçinin ailənin yaşlı üzvlərinə baxmaq üçün ölkədə qalmalı olurlar. 90-cı illərin ortalarından başlayaraq, dövlət mülkiyyətinin özəlləşdirilməsi, sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi, torpaq islahatlarının keçirilməsi sayəsində vəziyyəti sabitləşdirmək mümkün olmuş və əhalinin məşğulluğu sahəsində müsbət dəyişikliklər baş vermişdir [6, s.14].

Miqrasiyanın 3-cü istiqaməti 2001-ci ildən bu günədək davam edir. Bu dövrdə əsas tendensiya immiqrasiya axınlarının stabilləşməsidir. Ölkəmizin iqtisadi inkişafı, neft sektorunda, eləcədə qeyri-neft sektorunda artmaqda olan iqtisadi fəallıq immiqrasiya axınlarının intensivləşməsilə nəticələnmişdir. Tədricən Azərbaycan əcnəbi işçilərin təyinat ölkəsinə çevrilməkdədir. Bunu statistik göstəricilər də təsdiq edir. Azərbaycanda hər bir ailənin sosial rifahını yüksəltmək, xüsusilə qadınların sosial – iqtisadi vəziyyətini yaxşılaşdırılması üçün qəbul olunmuş bir sıra dövlət proqramları mühüm əhəmiyyət kəsb edir.

Əhalinin hərtərəfli inkişafına kömək etməyə yönəldilmiş tədbirlər Azərbaycan Respublikasının Prezidenti tərəfindən müxtəlif dövrlərdə təsdiq olunmuş Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı, Yoxsulluğun azaldılması və davamlı sosial-iqtisadi inkişafı, Məşğulluq Strategiyası, Məşğulluq Strategiyasının həyata keçirilməsi, Miqrasiya, Azərbaycan Gəncliyi, Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı, Uşaqların təlim-tərbiyəsinin yaxşılaşdırılması və hüquqlarının qorunması, Əlilliyin qarşısının alınması və əlillərin reabilitasiyası, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların sosial müdafiəsi və digər Dövlət Proqramlarında da əksini tapmışdır.

2020-ci ildə Daxili İşlər Nazirliyi və Dövlət Miqrasiya Xidməti tərəfindən daimi yaşamaq üçün Azərbaycana 1,7 min nəfər gələn və ölkədən 0,6 min nəfər daimi yaşamaq üçün gedən qeydə alınmış, miqrasiya saldosu müsbət 1,1 min nəfər olmuşdur[2].

Azərbaycanın beynəlxalq nüfuzu artmış, aparılan siyasi-iqtisadi islahatlar dünya birliyi tərəfindən yüksək qiymətləndirilmişdir. Bütün mötəbər beynəlxalq qurumların reytinqlərində Azərbaycan qabaqcıl yerlərdədir. Dünya İqtisadi Forumunun “2017-2018 Qlobal Rəqabətlilik Hesabatı”nda Azərbaycan reytinqdə 35-ci yerdədir. Azərbaycan sosial bərabərsizliyin ən aşağı olduğu ölkələrdən biri kimi dəyərləndirilib. Dünya İqtisadi Forumu ölkəmizlə bağlı daha bir hesabatını açıqlayıb. Belə ki, Azərbaycan Dünya İqtisadi Forumunun illik "İnklüziv inkişaf indeksi - 2018" hesabatında inkişaf etməkdə olan ölkələr arasında 3-cü yeri tutub. Bu hesabatda Azərbaycan 7 mümkün baldan dörd tam yüzdə altmış doqquz (4,69) bal toplayıb. 2018-ci ildə Dünya Bankının yaydığı “Doing Business 2019” hesabatında Azərbaycan dünyanın ən çox islahat aparan ölkəsi elan olunmuşdur. Yeni hesabatda 2017-ci illə müqayisədə 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşan Azərbaycan Müstəqil Dövlətlər Birliyi ölkələri arasında lider mövqeyə yüksəlmişdir [5]. Bütün bunlar onu göstərir ki, müasir inkişaf dövrünü yaşayan Azərbaycanın imkanları genişlənir və bu, dövlətimizin dünyada nüfuzunun ildən-ilə artmasına səbəb olur. Bu gün artıq Azərbaycan özünü dünya miqyasında müstəqil siyasət aparan ölkə kimi təqdim edir. Bunun təməlində Cənab Prezidentin və Respublikanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Ümummilli Lider Heydər Əliyevin ideyalarına, irsinə olan sadiqlik, güclü siyasi iradə, gərgin əmək, yüksək şəxsi keyfiyyətlər, xalqla sıx təmas dayanır. Dünyada risklərin, təhlükələrin artdığı, qanlı münaqişələrin, hərbi qarşıdurmaların geniş vüsət aldığı bir şəraitdə Azərbaycanda insanlar üçün sabitlik, təhlükəsizlik şəraiti təmin edilmişdir. Bu gün təhlükəsizlik və ictimai asayiş baxımından Azərbaycan dünyanın ən təhlükəsiz ölkələrində biridir.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa" dair Milli Prioritetlər.
2. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi saytı.
3. Avdeev Alexandre, Population Situation Analysis: Beyond The Demographic Transition In Azerbaijan, UNFPA/UNDP. – Baku, – 2015.
4. Ələkbərov, U.K. İnklüziv inkişafın idarə edilməsinin əsasları. Ali məktəblər üçün dərslik. – Bakı: Təhsil, – 2018. – 216 səh.
5. Ələkbərov, U.K. Prezident İlham Əliyev Azərbaycanı uğurlu innovativ tədbirlərlə yeni zəfərlərə aparır // Azərbaycan. – 2021, 4 mart. – s.5.
6. Verdiyeva, N. How the population of the Republic of Azerbaijan is ageing: causes and potential for social and economic development, Population and Economics 3(3): 43–73, 2019.
7. Капица, С.П., Курдюмов, С.П., Малинецкий, Г.Г. Синергетика и прогнозы будущего. – Москва: Эдиториал УРСС. – 2001. – 288 с.
8. "Демография и социально-экономические проблемы народонаселения", / Под редакцией В.В.Елизарова, И.А.Троицкой. – Москва, – 2015. – с.52-54

## ABSTRACT

## DEMOGRAPHIC ASPECTS OF INCLUSIVE DEVELOPMENT IN AZERBAIJAN

**Mustafazadeh Sh.A.**
*The employee of the Academy of Public Administration under the President of the Republic of Azerbaijan*

The presented article reveals the importance and features of its inclusive development in the context of the new trends and directions in the development of society and the economy. According to international standards, the assessment of the state of inclusive development is carried out on the basis of a multi-level system of indicators. Based on these indicators, economic, social, demographic, and environmental parameters are determined in countries. Nowadays, demographic indicators occupy a special place in the country's inclusive development field. In general, based on the analysis of existing demographic processes, this sphere's future directions of development and the necessary measures that need to be taken are reflected. The main goal is to achieve optimal reproduction, reduce mortality, increase life expectancy, strengthen the protection of motherhood and childhood, create a favorable socio-economic base for family development and determine ways to regulate migration processes. The issues of assessing the level of formation of an inclusive society and economy at the national and international levels were also considered. Attention was paid to forming a national index of inclusive development in Azerbaijan and assessing the inclusiveness of development at the international level. As a result of the study, the methodological foundations for assessing the level of inclusiveness were clarified, and a methodology was developed." It is essential to optimize the dynamics of demographic indicators for the implementation of the National Priorities 2030 strategy

**Keywords:** *inclusive development, national priorities, indicators, population growth, migration*

## РЕЗЮМЕ

## ДЕМОГРАФИЧЕСКИЕ АСПЕКТЫ ИНКЛЮЗИВНОГО РАЗВИТИЯ В АЗЕРБАЙДЖАНЕ

**Мустафазаде Ш.А.**
*Сотрудник Академии Государственного Управления при Президенте Азербайджанской Республики*

В представленной статье раскрываются важность и особенности инклюзивного развития в контексте новых тенденций и направлений развития общества и экономики. Согласно международным стандартам, оценка состояния инклюзивного развития осуществляется на основе многоуровневой системы показателей. На базе этих показателей в странах определяются экономические, социальные, демографические и экологические параметры развития общества. В современное время демографические показатели занимают особое место в сфере инклюзивного развития страны. В целом на основе анализа существующих демографических процессов отражаются будущие направления развития этой сферы и необходимые меры, которые необходимо принять. Основная цель – достижение оптимального воспроизводства, снижение смертности, увеличение продолжительности жизни, усиление охраны материнства и детства, создание благоприятной социально-экономической базы для развития семьи и определение путей регулирования миграционных процессов. В этой связи большое значение приобретают вопросы оценки уровня сформированности инклюзивного общества и экономики на национальном и международном уровнях. Особая роль отводиться формированию национального индекса инклюзивного развития в Азербайджане и оценке инклюзивности развития на международном уровне, необходимости оптимизации и управления динамикой демографических показателей для реализации стратегии «Азербайджан 2030: национальные приоритеты социально-экономического развития».

**Ключевые слова:** *инклюзивное развитие, национальные приоритеты, индикаторы, прирост населения, миграция*

Çapa imzalanmışdır 17.09.2022. Kağız formatı 70x100 1/16.
Fiziki çap vərəqi 22. Sifariş 97. Tiraj 400.
**“Təhsil Nəşriyyat-Poliqrafiya” MMC**-nin
mətbəəsində çap edilmişdir.

Bakı, AZ 1052, Fətəli xan Xoyski küç., 149
Tel.: (+994 12) 567-81-28/29; Faks: (+994 12) 567-82-68
E-mail: tahsil_az@yahoo.com

İNSAN VƏ BİOSFER
*(MaB, UNESCO)*
**Azərbaycan milli komitəsinin əsərləri**
Bakı, «Təhsil», 2022.